**Azərbaycan Respublikası Nazirlər Kabineti yanında**
**“İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi**
**Elmi-Mədəni Mərkəz**

# İçəri şəhər tarixdə - tarix İçəri şəhərdə

***Elmi-praktik konfrans***
***(Məqalələr toplusu)***

**“Elm və təhsil”**
**Bakı - 2016**

**Elmi redaktor:** **Kamil İbrahimov**
*tarix elmləri doktoru, professor*

**Rəyçilər:** **Şahin Fərzəliyev**
*tarix elmləri doktoru, professor*

**Qasım Hacıyev**
*tarix elmləri doktoru, professor*

**İşçi qrup:** **Cavid Kazımov**
*Elmi-Mədəni Mərkəzin direktoru*
**İradə Musayeva**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
**Qənirə Pirquliyeva**
*tarix üzrə fəlsəfə doktoru*
**Nahidə Bəkirova**
**Nərmin Alıyeva**
**Ulduzə Zeynalova**

**ISBN 978-9952-8176-6-9**

**© "Elm və təhsil", 2016**

**Cəfər Qiyasi**
*AMEA-nın müxbir üzvü,*
*memarlıq doktoru, professor*

# Bakı Şirvanşahlar Sarayı binası

İndiki halda Şirvanşahlar Sarayı Kompleksinin ilkin tərkibini, konfiqurasiyasını və şəhərsalma özəlliyini tam aydınlaşdırmaq olmur. Çünki kompleksdəki binaların ancaq bir qismi bu günə çatmış, içərisində olduğu iç qalanın divarları da dağılmışdır. İndi kompleksin tərkibi saray binası, Divanxana, Şah məscidi, Şah türbəsi, Keyqubad məscidinin qalıqları, Dərviş türbəsi, Şah hamamı, ovdan və Ulu Rəcəb qapısı tikililərindən ibarətdir.

**Yerləşmə özəlliyi.** Orta əsrlərin şəhərsalma tələblərinə uyğun olaraq Saray kompleksi əski Bakının – indiki İçəri şəhər relyefinin ən yüksək yerində – təpənin zirvəsində tikilmişdir. Kompleks ilk halında ayrıca divar və bürclərlə hasarlanmış iç qala içərisində yerləşmişdir. Ancaq kompleksin bir sıra binaları kimi əski iç qala divarları da indiyə qalmamışdır. Qalmış binaları içərisinə alan indiki divarlar XIX-XX yüzillərdə – rus işğalından sonra ucaldılmışdır.

Kompleksdəki binalar bölgənin saray memarlığı gələnəklərinə uyğun olaraq həyətlər ətrafında qruplaşmışdır. Tikinti üçün seçilmiş ərazi sərt relyefli olduğundan bu həyətlər dəyişik səviyyəlidir. Təpənin zirvəsini qapayan üst həyət iki yandan dayaq divarları yüksəltməklə tökmə torpaqdan düzəldilmişdir. Şəhər panoramına, dənizə və çevrədəki dağlara gözəl görünüşlər açılan üst həyətdə kompleksin əsas binaları yerləşir. Həyəti doğudan və bir az güneydən saray binası, quzeydən isə Divanxananın həyət divarı qapayır. Ərazinin relyefi batıya doğru daha sərt enişli olduğundan üst həyətin yüksəkliyi 6,50 m civarında olan dayaq divarı bu tərəfdə

ucaldılmışdır. Baş fasadı ilə bu həyətə yönələn saray binası iki qatlıdır.

XX yüzilə gəlib çatmış saray binasının birinci qatında 27, ikinci qatında 25 olmaqla toplam 52 otaq və yerləşgəsi olmuşdur. Plan quruluşuna görə ikinci qat çox az fərqlə birinci qatı təkrar etmişdir. Sarayın o qədər də düzənli – nizamlı olmayan plan quruluşunda günbəzlə örtülü səkkizbucaqlı bir salon kompozisiya mərkəzi kimi diqqət çəkir. İri ölçülü və dərin eyvanlı giriş baştağı batıdan bu salona birləşir. Saray binasının plan-məkan quruluşuna seçilən yerin özəlliyi və tikintinin mərhələli aparılması həlledici təsir göstərmişdir.

Bakı şəhərinin salındığı təpənin zirvəsi iri və qalın qaya ilə tamamlanırdı. Kompleksin baş binası olan saray bu qayanın üzərində tikilmişdir. Bakı və çevrəsində monumental-anıtsal binaların qaya üzərində ucaldılması gələnəyi çox davamlı olmuşdur. Binaların konstruktiv dayanıqlığında bu gələnək önəmli rol oynamışdır. Saray binası üçün tikinti sahəsi seçiləndə bu amil, eləcə də həmin yerin şəhər ərazisinin ən yüksək bölümü olması nəzərə alınmış, şah sarayı üçün ən ideal yer ayrılmışdır. Orta çağların şəhərsalma qanunauyğunluqlarına görə həmin yerdə başqa tip binanın tikilməsinə imkan verilməzdi. Saray binasının şəhər həcm-məkan quruluşunda hakim mövqe tutması, bütün İslam dünyasında olduğu kimi, Azərbaycanda da şəhərsalmanın ana tələblərindən biri olmuşdur. Hakimiyyət rəmzi sayılan saray binasının kiçik qala şəhər olan Bakıda da şəhər relyefinin ən gözəgəlimli – dominant yerində ucaldılması bununla bağlıdır. Bu bina təyinatına uyğun olaraq sahəsinə və həcminə görə kompleksin ən iri binasıdır.

Sarayı 1683-cü ildə daha sağlam durumda görmüş səyyah E.Kempfer şahidlik etmişdir ki, "Şah sarayı gerçəkdən qaya çıxıntısı üzərində tikilmişdir". Keçən əsrin 40-cı illərində yerində arxeoloji və memarlıq araşdırmaları aparmış

V.Leviatov daha dəqiq nəticəyə gəlmişdir. Onun yazdığına görə “Saray binası quzey bölümdə qaya üzərində, güney bölümdə isə gilli qruntda qazılmış xəndəkdə qurulan özül üzərində dayanır”. Görünür, saray binasının planının biçiminə seçilən yerin relyefi və geoloji quruluşu da müəyyən təsir göstərmişdir.

Sarayda 1932-1934-cü illərdə aparılmış arxeoloji işlərdə binanın mərkəzində və ona bitişik güney-doğu otaqlarında daha əski böyük bir tikintinin kütləsəl özülləri və divarlarının qalıqları aşkar edilmişdir. Sonrakı – 1938-1939-cu illərin arxeoloji araşdırmalarında isə sarayın Abşeron tipli adi yaşayış evlərinin olduğu bir yerdə, yəni daha əskilərdən məskunlaşmış bir ərazidə tikildiyi aydın olmuşdur. Buradakı bir ev qalıqlarının döşəməsi altından XII-XIII yüzillərə aid arxeoloji materiallar əldə edilmişdir. Alt qatdakı bir neçə otaqda bu günəcən qalan qayada oyulmuş çoxsaylı quru quyular da bu yerdə saray tikintisindən öncə yaşayışın varlığını sübut edir. Beləcə, Şirvanşahların saray binası yurdsalmasının tarixi və xarakteri tam dəqiqləşdirilməmiş təpə başında inşa edilmişdir.

**Mərkəzi bölüm.** Saray binasının mürəkkəb konfiqurasiyalı asimmetrik plan quruluşu var. Azərbaycanın və qonşu ölkələrin orta əsr memarlığında çoxyerləşgəli binalar, eləcə də saraylar üçün iç həyətli quruluşlara üstünlük verilmişdir. Otaq və yerləşgələrin işıqlanması və havalanması baxımından belə quruluşlar bölgədə ən əlverişli sayılmışdır. Bakının saray binasında isə, otaqlarının say çoxluğuna baxmayaraq, iç həyət prinsipindən imtina edilmiş bütöv və iri həcm kompozisiyası yaradılmışdır. Belə seçimin səbəbi, görünür, tikinti üçün aparılmış ərazinin geniş olmaması və yerin sərt relyefi olmuşdur. İç həyətsiz böyük bina ucaldılmasında, ola bilsin ki, tikintinin bir dəfəyə deyil, mərhələlərlə aparılması da önəmli rol oynamışdır. Ancaq bu mərhələləri aydınlaşdıran tarixi bilgilər və bəlgələr əldə yoxdur. Yalnız bəzi tikinti-memarlıq özəlliklərinə dayanaraq bu haqda müəyyən ehtimallar irəli sürmək olar. İlk ehtimalı

1893-cü ildə Bakıda olmuş rus memarı akademik A.Pavlinov irəli sürmüşdür. O, sarayın mərkəzi yerləşgəsi olan ikinci qatdakı səkkizbucaqlı salonu "Xan oturacağı" (Xanskoe sideniye) adlandıraraq "içəridə səkkizbucaqlı olan bu binanın kvadrat dış divarlarına yeni sarayın onunla heç bir bağlılığı olmayan yan tikililərinin üst bölümü birləşir" fikrini söyləmişdir. Planını ayrılıqda çəkməklə də, memar həmin salonu bir qapılı ayrıca bina kimi təqdim etmişdir.

Şərqşünas İ.Berezinin 1842-ci ildə Bakıya gəlmişdir və A.Pavlinovdan öncə işlədiyi sxematik planda da səkkizbucaqlı salonu sarayın o biri otaqları ilə birləşdirən qapıları göstərməmişdir. Ancaq bu hal İ.Berezinin planının olduqca sxematik və yanlışlarla çəkilməsi ilə izah edilə bilər. Memar A.Pavlinovun salon haqqında iddiası isə başqa bir səbəbdən yaranmışdır. Saray kompleksi 1857-ci ildə rus hərbçilərinin ixtiyarına verildikdən sonra onlar silah anbarına çevirdikləri saray binasında çoxlu qaba dəyişmələr etmişlər. O zaman ikinci qatın quzey tərəfindən olan otaqlara ayrıca qapı açılıb pandus qoyulmuşdu. Görünür, o vaxt həmin qatdakı səkkizbucaqlı salonu otaqlarla birləşdirən iki qapı da hörülərək qapadılmışdı və A.Pavlinov salonun qaba yenidənqurma işlərindən sonrakı dəyişik durumunun planını işləmişdir. Çünki yerinə və biçiminə görə bu salonun indiki üç qapısının heç birinin orijinallığına şübhə yoxdur. Bunu X.Truzsonun A.Pavlinovdan xeyli öncə – 1807-ci ildə işlədiyi ölçü cizgisində – sarayın planında həmin qapıların çox dəqiq şəkildə göstərilməsi də təsdiq edir.

Qeyd edilməlidir ki, A.Pavlinovun çəkdiyi plan, özəlliklə onun "xan oturacağına aparan yanları tağçalı özəl giriş" adlandırdığı baştağ bölümü tam dəqiq deyil. Həmin planda pillələrin çoxluğu da diqqət çəkir.

Mətndən göründüyü kimi A.Pavlinov səkkizbucaqlı salonu qədim saray binası saymış, onun çevrəsindəki otaqları isə "yeni sarayın" yanlarına sonradan əlavə olunmuş tikililər

(pristroyki) adlandırmışdır. Saray binasını naturada daha geniş araşdırmış S.Dadaşov və M.Hüseynov isə əks fikirdə olmuşlar. Onlara görə "Salon öz baştağı ilə birgə artıq mövcud olan sistemsiz aqlomerata (topluya) quraşdırılmış, hətta salonla sarayın başqa yerləşgələrinin döşəmələri arasında ümumi səviyyə gözlənilməmişdir".

V.Leviatov mərkəzi salonu sarayın daha qədim bölümü saysa da, onun saray tikilisi olmasına şübhə ilə yanaşmışdır. O, belə yazmışdır: "… ola bilsin ki, başlanğıcda bu mərkəzi bölüm sərbəst bina olmuşdur və ancaq sonra, yan tikililər yolu ilə saraya çevrilmişdir". Bu fikri inkişaf etdirən L.Bretanitskiyə görə "binanın daha qədim elementinin salon olması daha inandırıcıdır" və qalan yerləşgələr onun yanlarına sonradan artırılmışdır. Alimin fikrincə "bu hipotezi salonla onun altındakı dairəvi planlı yerləşgənin memarlıq-tikinti bağlılığı təsdiq edir". Ancaq o, "binanın bütün bu komponentinə mavzoley tipli adi ikiyaruslu tikili kimi baxılması" qənaətində olmuşdur. Bəziləri sonradan, alimin bu eyhamına dayanaraq sarayın mərkəzi bölümünü türbə saymaq kimi absurd bir fikrə düşmüşlər.

Saray binasının mürəkkəb plan quruluşunda səkkizbucaqlı salon, özəlliklə onun alt qatı ilk baxışda qalan yerləşgələrdən divarlarının qalın olması ilə seçilir. Elə bu səbəbdən yuxarıda adları çəkilən araşdırıcıların çoxu bu fərqlənməni qədimlik və ayrıcalıq göstəricisi saymışlar. Səkkizbucaqlı salon saray binasının gerçək kompozisiya mərkəzi olmuşdur. Sarayın ən təntənəli iç məkanı – V.Sısoyevin deyimincə "otaqların hamısından maraqlı" olan bu salon (sahəsi 26,65 $m^2$) şahın önəmli qəbul salonu təyinatını daşımışdır. Yeri və plan-məkan quruluşu salonun bu yüksək statusunu aydın əks etdirir.

Salonun plan biçimi dışarıda bir ucu kəsilmiş kvadrat olduğu halda. İçəridə tərəfləri bərabər olmayan səkkizbucaqlıdır: tərəflərin orta uzunluğu cəhətlərə yönələnlərdə 2,70 m, qalan

dördündə isə 2,00 m civarındadır. Salonda giriş qapısından başqa yan salonlara açılan daha iki qapı qoyulmuşdur. Qalan beş üzdə dəyişik dərinlikləri olan tağçalar qurulmuşdur. Güneydoğu üzdəki tağça daha dərin (1,35 m) olması ilə qalan tağçalardan seçilir və yığcam ölçülü (1,65x1,35 m) alkova bənzəyir. Sahəsinə görə içərisində taxt yerləşdirilə bilən bu dərin tağça şahnişin – şah oturan yer olmuşdur. Onun önündəki tağça bir az dayaz olub (1,65x1,02 m), yəqin ki, qəbulda olan baş qonaq üçün nəzərdə tutulmuşdur. Bu iki dərin tağça və yan salonlara açılan iki qapı səkkizbucaqlarının ensiz tərəflərində – genəl kvadratın künclərində yerləşir. Dörd enli üzlərdən birində baş giriş qapısı, üçündə isə dayaz dərinlikli (45,46 və 56 sm) tağçalar qurulmuşdur. Ən dayaz və daha enli (2,35 m) tağçalarda saray əyanları və başqa qonaqlar otururdular. Beləcə, memar salondakılarn iyerarxiyaya uyğun yerləşməsini gerçəkləşdirmək amacı ilə iri ölçüsü olmayan qəbul salonunun iç məkanını böyük ustalıqla işləmişdir. Bu isə saray memarlığının əsas tələblərindən biridir.

Səkkiztinli türbələrdə gələnəksəl olaraq üst kameranın iç məkanı planda düzgün səkkizbucaqlı olub hər üzdə standart ölçü və biçimli birər tağça qurulur. Ona görə saray binasının mərkəzi bölümünü türbəyə bənzədənlər bilgisizlikdən çox böyük yanlışlığa yol vermişlər. Şirvanşahlar kompleksindəki iki türbə də aydın göstərir ki, memarlar məzar yeri qazılması zəruri olan xatirə tikililəri üçün həmişə qayasız – torpaq qruntlu yerləri seçmişlər. Çünki gələnəklərə görə mərhum torpağa tapşırılmalıdır. Sarayın səkkizbucaqlı ikiqatlı bölümü isə qaya üzərində ucaldılmışdır, yəni bəzilərinin sərdabəyə bənzətdikləri alt qatın döşəməsi sal qayadır. Həm də çoxüzlü iç məkanı olan türbələrdə üzlərdəki tağçalar, demək olar döşəmə səviyyə-sindən başlayır. Saray salonundakı tağçaların dabanları isə döşəmədən 56 sm yuxarı qaldırılaraq çox rahat oturacaqlara çevrilmişdir. Şahnişin tağçasının yanlarındakı iki tağçada alt qatdakı

xidmətçilərlə əlaqə saxlamaq üçün səs bacalarının qoyulması da onun saray təyinatının göstəricilərindən biridir. Türbələrdə bu tip ayrıntılara ehtiyac olmamışdır.

Araşdırıcılar səkkizbucaqlı qəbul salonunda divarların qalınlığını vurğulasalar da, səkkizbucaqlının tərəflərinin və tağça dərinliklərinin dəyişik ölçülərdə olmasına heç diqqət ayırmamışlar. Halbuki, bizcə çoxüzlü yerləşgənin məhz bu özəllikləri onun qəbul salonu təyinatı ilə birbaşa bağlıdır. İlk baxışda biraz anlaşılmaz görünən bu fəndlərlə memar çox da iri olmayan məkana funksional təyinata uyğun bitkin quruluş vermişdir.

Göründüyü kimi, saray binasının mərkəzi salonunun tağçaları təkcə konstruktiv və dekorativ xarakterli deyil. Həcm-məkan quruluşunu zənginləşdirib günbəzin dayanıqlığını təmin edən bu universal elementlər funksional önəm də daşımışlar. Tağçaların döşəmə səthindən 56 sm yüksəkdə olan dabanları salonda olanların oturması üçün nəzərdə tutulan səkilərdir. Üzərinə xalça sərilib döşəkçələr qoyulmaqla bu daş səkilər çox rahat oturacaqlara çevrilirdi. Memar hətta salondakı üç qapının yanlarını da oturacaq şəklində işləmişdir. Tağça boşluqları hesabına salonun çox da iri olmayan sahəsi 7,50 $m^2$ artırılmış və bütünlüklə 34,15 $m^2$ olmuşdur. Memar böyük ustalıq göstərərək kiçik diametrli (5,56 m) günbəz örtüyü olan salonun sahəsini xeyli artırmış və onun yüksək funksionallığını təmin etmişdir.

Vaxtilə V.Leviatov sarayın mərkəzi bölümü haqqında yazmışdır: “İstəmədən, nədən mərkəzi salonların başqa otaqlardan daha qalın divarları var sualı yaranır. Yalnız ona görə ki, onları böyük ağır daş günbəz tamamlayır? Ancaq belə günbəzi saxlamaq üçün yenə də qalın divarlar tələb olunmur. Sual açıq qalır”. Gerçəkdə isə, açıq qalan, burada cavabı bilinməyən sual yoxdur. Memar qəbul salonunda məkan genişliyi və funksional rahatlıq yaratmaq amacı ilə günbəzaltı divarlarda dərin tağçalar quraşdırmışdır. Aydın görünür ki, üst qatdakı salonun divarları

(əsasən kvadrat planın küncləri) üzlərdəki oturacaq təyinatlı dərin tağçalara görə qalın alınmışdır. Bütövlükdə isə ikinci qatda salonun divarları binanın o biri otaqlarının divarlarından qalınlığına görə o qədər də seçilmir. Onun alt qatındakı salonun divarlarının xeyli qalın olması isə bu uca, ağır həcmin konstruktiv dayanıqlığını təmin etmək və xəzinə funksiyasına cavab verən möhkəm yerləşgə yaratmaq tələbləri ilə bağlıdır.

Salonun üzərindəki tağçalar döşəmə səviyyəsindən 56 sm. hündürlükdən başlayıb yuxarıda tağlara çevrilir və günbəzin dairəvi oturacağınacan yüksəlir (yüksəkliyi 5,70 m.). Yuxarıda ensiz tağların uclarına incə yelənlərlə iti sivri biçim verilmiş, enli tağların isə ucları kəsilmişdir. Bununla da tağçaların hamısının bərabər yüksəkliyi əldə edilmişdir. Bir səviyyəli bu uca və dərin tağçalar salon interyerinə özəl təntənəli görünüş vermişdir. Günbəzin ortasınacan iç yüksəkliyi səkkiz metr olan salon günbəzin təpəsindəki fənər və giriş qapısı üstündəki düzbucaqlı kiçik bir pəncərədən yüngül işıqlanır. Divarların hörgü daşları yonulmuş olsa da, yaxşı cilalanmamışdır. Bu səbəbdən salon interyerinin ilkin çağlarda gəc üzərində divar rəsmləri, çoxrəngli naxışlar və kaşı işçiliyi ilə bəzədildiyi ehtimal oluna bilər.

Təxti Süleymanda Elxanlılar dönəminin dərin tağçalı səkkizbucaqlı salonları olan və “Ovçu sarayı” adlandırılan iki saray köşkünün qalıqları üzə çıxarılmışdır. XIII əsrdə tikilmiş bu köşklər ölçücə daha iri olub hər biri diametri 10,00 m civarında olan günbəzlə örtülü olmuşdur. Bu abidələr Azərbaycanın saray memarlığında çoxüzlü salonun sahəsinin üzlərdəki dərin tağçalar hesabına genişləndirilməsi gələnəyinin davamlı olduğunu göstərir. Dərin tağçalar həm də konstruktiv dayanıqlığı gücləndirirdi.

Səkkizbucaqlı salonun quzey-batı üzünə bir tərəfi ortalama 1,90 m. olan kiçik səkkizbucaqlı salon (sahəsi 17,50 $m^2$) birləşir. Üzlərində gələnəksəl tağçalar olmayan bu yerləşgənin

altı üzündə, ikisi pilləkənlərə, dördü dəyişik yerləşgələrə yönələn qapılar qurulmuşdur. Qalan iki üzün hər birində alt qatdakı xidmət otaqları ilə səs ilişgisi yaratmaq üçün yarıq şəkilli dəliklər – bacalar qoyulmuşdur. Görünür, özəl vestibül rolunu oynayan bu yerləşgədə qapı açırımlarının çoxluğuna görə üzlər tağçasız həll edilmişdir.

Azərbaycanın güney bölgəsinin, o sıradan Təbriz və Ordubad şəhərlərinin gələnəksəl yaşayış evlərində önəmli elementlərdən biri olan bu tip bölüşgürücü məkanlar – vestibüllər “həşti” (səkkizlik) adlandırılır. Şirvanşahların saray binasında memar həşti elementindən ustalıqla yararlanmışdır. Səkkizüzlü bu kiçik məkan ikinci qatın otaqları arasında, eləcə də alt qat və dam ilə rahat ilişgilər qurulmasına imkan vermişdir.

Döşəmə səviyyəsi vestibüldə qəbul salonundan xeyli (1,18 m.) yüksəkdir. Bu səviyyə fərqini araşdırıcılar onların tikilmə dövrlərinin dəyişik olması ilə bağlamağa çalışmış, bunu hətta qüsur da saymışlar. İradını “… hətta salonla sarayın başqa yerləşgələrinin döşəmələri arasında ümumi səviyyə gözlənilməmişdir” sözləri ilə ifadə etmiş akademik M.Hüseynov iki səkkizbucaqlı salonun “qarşılıqlı yerləşməsinin tamamilə təsadüfi xarakter daşıması” fikrində olmuşdur. Salonların memarlıq-məkan özəllikləri, eləcə də onlara bitişik otaqlarla və alt qatla sıx bağlılıqları burada düşünülməmiş, təsadüfi xarakterli heç bir şey olmadığını göstərir.

Sahəsinə görə sarayın yerləşgələrinin çoxundan iri olan və üzləri dərin tağçalar şəklində işlənmiş mərkəzi qəbul salonu iç məkanının güclü vertikallığı ilə də seçilir. Tavanının belə uca olması və günbəzlə örtülməsi salonun yüksək statusundan irəli gələn məsələdir. Memar salon interyeri üçün zəruri olan bu məsələni həll etmək amacı ilə onun döşəməsini ikinci qatın genəl döşəməsindən səviyyəcə xeyli aşağı salmışdır. Bunun nəticəsində, həm də, böyük qəbul salonu ilə kiçik ölçülü vestibülün günbəz örtüklərinin dairəvi əsaslarının – dabanlarının

bir səviyyədə olması, yəni sarayın genəl yastı dam örtüyünə yaxınlığı təmin edilmişdir. Bu yolla hər iki səkkizbucaqlı salonun interyerləri plan ölçülərinə və təyinatlarına uyğun dəyişik iç yüksəklik almışdır. Deyilməlidir ki, çağdaş binalarda da bir qayda olaraq salonlarla çevrələrindəki otaqların döşəmələri arasında bir neçə pillə fərqi qoyulur və bu yolla salonda gərəkli yüksəklik əldə edilir.

Qəbul salonunun simmetriya oxunda ona bitişik yerləşən giriş baştağı daha anıtsal biçimlərlə işlənmişdir. Eni 8,13 m. yüksəkliyi 12,45 m. olan uca düzbucaqlı baştağın dərin (2,30 m) eyvanının yanlarında simmetrik yerləşən oturacaq şəkilli sivri tağçalar da enli və dərindir (eni 2,18 m., dərinliyi 1,48 m.). Eyvanın uca sivri tağının ucu kəsilmiş, üstü isə onüzlü günbəzlə örtülmüşdür. Dabanları oturacaqlar şəklində işlənmiş uca yan tağçaların yelənlərinin ucları uzadılaraq günbəzaltı yelkənlərə çevrilmişdir. Baştağ eyvanının örtüyündə sivri tağçalardan onüzlü günbəzə keçid son dərəcə bitgin və gözəl konstruksiya olub onu ucaldan memarın yüksək tektonik duyumunu əks etdirir. Qəbul salonu günbəzindəki keçid sistemini təkrar edən yelkən elementləri baştağın onüzlü kiçik günbəzində daha iri və anıtsal biçimdə işlənmişdir. Yanlarında enli və dərin oturacaq-tağçalar (hər birinin sahəsi 3,23 $m^2$) olan bu anıtsal baştağ-eyvan (iç sahəsi 8,25 $m^2$) da qızmar yay günlərində şahın çox sayğılı bir qonağı üçün qəbul məkanına çevrilə bilərdi. Bu tip saray eyvanlarında keçirilən tədbirlər miniatürlərdə geniş əks olunmuşdur.

Səkkizbucaqlı qəbul salonunun altındakı yerləşgə elmi ədəbiyyatda dairəvi salon adı ilə tanınır. Gerçəkdə isə bu salon da planda səkkizbucaqlıdır. Ancaq onun sahəsi qəbul salonuna görə bir qədər az (24,80 $m^2$), tərəfləri azacıq qısadır. Yüksəkliyi üç metr civarında olan alt salonun səkkizüzlü aşağı bölümü çox alçaqdır (indiki halda 40 sm.) və iç məkanı ortasında bacası olan sferik günbəz (diametri 5,39 m., yüksəkliyi

2,58 m.) formalaşdırır. Bu salonun "keçmişdə xəzinə – cəvahirxana" olduğunu bildirən V.M.Sısoyevin ilk araşdırmalarına görə onun bir qapısı və bir də günbəzində "yuxarıdakı qəbul otağının ortasına açılan bir deşiyi vardır ki, bu deşik qabaq vaxtlarda qəbul otağı döşəməsinin bir daşı ilə örtülü idi". Bu alt salonun divarlarının qalınlığına konstruktiv tələblə yanaşı, onun xəzinə təyinatının da önəmli təsirinin olduğu şübhəsizdir. Alt qatdakı xəzinə yerləşgəsi və ona bitişik vestibül konstruktiv sistemlərinin sadəliyi ilə də diqqət çəkir. Hər iki yerləşgədə günbəz örtüyünün dairəvi oturacağı heç bir keçid elementi (tromp, yelkən) olmadan çoxüzlü gövdənin üstünə qoyulmuşdur. Günbəz örtüyünün diametri üst qat salonunda 5,56 m olduğu halda, alt qatda biraz qısadır – 5,39 m. Buna uyğun olaraq alt qatda səkkizbucaqlının da tərəfləri daha daha qısadır: uzun tərəflər 2,55 m, qısa tərəflər 1,92-2,04 m civarındadır. Xəzinə yerləşgəsi günbəzində indi iki hava bacası dəliyi də gözə dəyir.

**Salonlar.** Saray binasının hər iki qatının çoxotaqlı mürəkkəb planında səkkizbucaqlı yerləşgələrdən sonra iri ölçüləri və uzunsov altbucaqlı planları ilə iki yerləşgə də çox aydın seçilir. Bunlardan kiçiyi (sahəsi 41,00 m.) batı – doğu yönündə uzanıb səkkizbucaqlı vestibülə, daha böyük olanı isə (sahəsi 70,80 $m^2$) quzey-güney yönündə uzanıb qəbul salonun güney-batı tərəfinə birləşir. Bu salonlardan böyüyünün doğusundakı, kiçiyinin güneyindəki qapıları önündə birər pilləkən qoyulmuş və onlarla alt qatdakı xidmət otaqları arasında birbaşa ilişgilər yaradılmışdır.

Uzun salonların həyətə yönələn tərəfi onlara üçyanlı biçim verilməklə fasadların genəl səthindən irəli çıxarılmışdır. Həyətə baxan ucları planda yarımsəkkizbucaqlı olduğundan salonlar altıbucaqlı plan biçimi almışlar. Erkerlərə bənzəyən bu bölüm salonların iç məkanını genişləndirmiş, işıqlanmasını və havalanmasını isə kiçik salonun üç, böyük salonun dörd ya-

nında qoyulmuş ikiqatlı pəncərələrlə xeyli yaxşılaşdırmışdır. Özəl quruluşlu belə məkandan dış mənzərələri daha geniş bucaq altında və daha əhatəli müşahidə etmək imkanı yaranır. Elə bu özəlliyinə görə həmin bölüm Türkiyədə "bakıncak" da adlanır. Əski türk evlərində otağın küçəyə, ya da həyətə doğru olan üç yanı pəncərəli bu tip çıxıntıları şahnişin adlanır. Görünür, yaşayış evlərinə bu element saray salonlarının eyni adlı bölümlərinin yamsılanması yolu ilə keçmişdir.

Akademik A.Pavlinov sarayın səkkizbucaqlı salonunu Xan oturacağı ("Xanskoye sideniye") adlandırmışdır. Memar, bu adı, sözsüz ki, yerli bələdçilərdən öyrənib qeydə almışdır. Saray binalarındakı qəbul salonları tək-tək hallarda xannişin – xan oturacağı, ya da şahnişin – şah oturacağı adlandırılmışdır. Çox halda sarayın salonlarının bir bölümü – şah taxtının qoyulduğu yerə şahnişin deyilmişdir. Planda düzbucaqlı ya da çoxbucaqlı biçimdə olan bu yer çox vaxt alkov şəkilli olurdu və onun döşəməsi salon döşəməsindən bir az yüksəyə qaldırılırdı. Bununla da hakimin oturduğu yer salon məkanında hakim mövqe tuturdu.

Şirvanşahlar sarayında yüksək statusları ilə bağlı, səkkiz-bucaqlı salondan başqa, iki altıbucaqlı uzun salonda da şahinşin düzəldilmişdir. Şahnişinin plan biçimi qəbul salonuda düzbucaqlı, uzun salonlarda isə yarımsəkkizbucaqlıdır.

İkinci qatdakı ən uzun (15,86 m.) güney salonu ölçü iriliyinə, özəl biçiminə, əlverişli yönünə və yerinə görə saray binasının baş salonu, yəqinliklə Böyük Taxt salonu olmuşdur. Onun orta bölümü enli (5,13 m) olduğu halda, yan bölümləri biraz dardır (4,70 m. və 4,48 m.). Güney bölümü daha da daralaraq (4,45 m.) alkovabənzər yarımsəkkizbucaqlı plan biçimi almışdır. Özəl biçimli bu bölüm salonun şahnişini – şah taxtının qoyulduğu yerdir. Salonun ən ensiz bölümü baş giriş qapısının önüdür (4,40 m.). Belə bölgü 16 metrə yaxın uzunluğu olan salonun tavan konstruksiyasını mürəkkəbləşdir-

məyə və iç məkanının tektonik quruluşunu xeyli yaxşılaşdırmağa zəmin yaratmışdır.

Salonun döşəməsi də bölmələrə uyğun üç səviyyəli işlənmişdir: ən aşağı səviyyə giriş qapısı önündə, ən yuxarı səviyyə isə güney – şahnişin bölümdədir. Bütün göstəricilərinə görə diqqət mərkəzinə çevrilmiş güney bölümündə – salonun ən yüksək və ən gözəgəlimli yerində şah taxtı qoyulurdu. Şahnişinin örtük konstruksiyası və bədii tərtibatı da da şahanə olmalı idi. Bu baxımdan professor E.Avalovun bərpa layihəsi üçün 1982-ci ildə işlədiyi Böyük Taxt salonunun interyeri gerçəyə daha yaxındır.

Böyük Taxt salonunun uzunluğu enindən üç dəfədən də artıqdır. Salon üçün belə uzadılmış düzbucaqlı planı olan məkanın seçilməsinin bir neçə səbəbi vardır. Bu tip salonların ölçülərini və biçimini onların içərisində aparılan tədbir və mərasimlərin miqyası və xarakteri bəlliləşdirir. Şirvanşahların məhdud siyasi və iqtisadi gücü, ən başlıcası isə kiçik qala şəhər Bakının paytaxt statusunun davamlı və geniş olmaması üzündən saray binasında çox iri sahəli salona ehtiyac duyulmamışdır. Bu səbəbdən sarayın ən iri salonunun sahəsi 70 kvadrat metrdən azacıq çoxdur. Sarayda mərkəzi yer tutan qəbul salonunun günbəzlə örtülü səkkizbucaqlı plan biçimində olması memarı Böyük Taxt salonunun plan-məkan quruluşuna başqa biçim verilməsinə stimullaşdırmışdır.

Planı kvadrat, ya da qəbul salonunda olduğu kimi səkkizbucaqlı olan salonun dərininə simmetriya oxu yoxdur. Mərkəzli quruluşda olduğundan bu salonda dərininə baxış hərəkəti dəyişərək əks tərəflərə yönəlir və sönükləşir. Ona görə sarayın qəbul salonu dayanıqlı (statik) kimi görünür. Göründüyü kimi, qəbul salonunun baş elementi olan şahnişin səkkizüzlü məkanda yalnız tağçasının dərinliyi ilə seçilir. Şahnişin burada başqa heç bir vasitə ilə, o sıradan özəl simmetriya oxu ilə də gözə çarpdırılmamışdır. Uzunsov düzbucaq planlı yerləşgə isə

dinamikdir və onun uzunluğu ilə eni arasındakı təzad güclü olduqca bu dinamika da çoxalır. Həm də uzununa simmetriya oxu bu yerləşgədə baxış hərəkətinə güclü yön verir. Buna görə uzunsov salonun başında – məkanın dərinliyində şahnişin daha diqqət çəkici, orada taxtda oturan şah daha əzəmətli görünürdü.

İç məkana daha cəlbedici görünüş vermək amacı ilə memar salonun uzunluğu boyunca eninə dörd, və döşəmə səviyyəsinə üç dəyişgən ölçü vermişdir. Belə bölgü ilə şahnişinin üstün mövqei daha qabarıq gözə çarpdırılmışdır. Salonun uzunluğunun əsas səbəblərindən biri də Abşeronda iri aşırımlı tağbənd konstruksiyalarının işlədilməsi gələnəyinin olmamasıdır. Salonun bölümlərinin dəyişgən ölçü və biçimli tağbəndlərlə örtülməsi nəticəsində, məkan dərinliyinin doğurduğu yeknəsəklik aradan qaldırılmış, biçim və dinamikası uzununa hərəkətə uyğun ifadəli memarlıq ortamı yaradılmışdır.

Salonun baş qapısı uzununa simmetriya oxu üzərində yerləşib dirsək şəkilli qısa dəhlizlə qəbul salonuna birləşir. Həmin qapıdan solda – dəftərxana bölümünün önündəki səkiyə açılan bir qapı da olmuşdur. Bunu əski ölçü cizgiləri, fotolar və binanın giriş baştağının bu qapıya yaxın bölümündə tininin kəsik olması sübut edir. Bakı abidələrinin işlək yerlərində tinlərin zədələnmələrinin önlənməsi amacı ilə onların bəlli bir yüksəkliyəcən tinlərinin $45^0$ bucaq altında kəsilməsi gələnəyi olmuşdur. Saray binasında iki qapı (taxt salonu və dəftərxana vestibülünə) önündəki meydançada bu fəndin özəl bir variantı işlədilmişdir. Gələn müsafirlər bu meydançadakı qapıdan Böyük Taxt salonuna üst həyətdən birbaşa – səkkizbucaqlı qəbul salonunu keçmədən düşə bilirdilər. Ancaq həmin qapı bərpa işləri aparılarkən qapadılmışdır.

Azərbaycanın orta çağ memarlığında alkov tipli şahnişinin ən əski örnəyi Təxti Süleymandakı Arqun xan sarayından (XIII əsr) bəllidir. Bu sarayın simmetriya oxu üzərində yerləşən və günbəzlə örtülü iri salona yönələn düzbucaqlı alkov

– şahnişin binanın ümumi həcmindən xeyli dışarıya çıxarılmışdır. İstanbuldakı Çinili Köşk sarayında (1472-ci il) şahnişin çıxıntısı çoxtinli olub, planda yarım səkkizbucaqlı biçimdədir. Bu sarayda olduğu kimi Şirvanşahlar sarayındakı iki uzunsov salonda da şahnişin üç yandan ikiqat pəncərələrlə işıqlandırılır. Sarayın Böyük Taxt salonunda rəsmi və təntənəli qəbul mərasimləri keçirilirdi.

Akademik Ə.Salamzadənin rəhbərliyi ilə 1980-ci illərdə hazırlanmış bərpa layihəsində düzgün olaraq saray binasının güney-batı küncündəki "… çox uzaldılmış böyük altıbucaqlı yerləşgə Böyük taxt salonu" olaraq təqdim edilmişdi. Ancaq sarayın son bərpa layihəsinin rəhbəri professor N.Rzayev buna qarşı çıxmış və fikrini belə əsaslandırmışdı ki, "… taxt üçün seçilən yer cənuba baxır və şah heç vaxt arxası Qibləyə otura bilməzdi; və nəhayət, taxta seçilən yerdən şah dəniz mənzərəsinə baxmaqdan məhrum olardı". Gerçəkdə İslam dünyasında hər hansı bir salonda, yaxud yerləşgədə arxası Qibləyə oturmaq yasağı yoxdur. Əksinə, tarixçilər və şairlərin hökmdarlara xitabən "Qibleyi-aləm" (Aləmin qibləsi) epitetini sıx-sıx işlətməsi gələnəyi var. Şah taxt salonuna dəniz mənzərəsini seyr etmək üçün deyil, önəmli qəbul mərasimlərni keçirmək üçün təşrif buyururdu. Həm də, N.Rzayevin sarayda düzəldiyi yarıqaranlıq uydurma taxt salonunda nəinki dənizi, heç göyü də görmək olmur. Çoxpəncərəli güney salonu isə saray binasının ən işıqlı yerləşgəsidir.

Ə.Salamzadə altıbucaqlı konfiqurasiyası olan kiçik salonu Şahnişin hesab etmişdir. Bu məsələdə A.M.Pavlinovun mövqeyi gerçəyə daha yaxındır. Yuxarıda göstərildiyi kimi, o, öz araşdırmasında böyük səkiizbucaqlı salonu Xan oturacağı, yəni şahnişin adlandırmışdır. A.Pavlinovun bu adı yerli qaynaqlardan öyrəndiyi şübhəsizdir. Doğu salonunu ziyafət salonu sayanların versiyası daha inandırıcıdır.

Altıbucaqlı salonların arası – binanın güney-doğu tərəfi dəyişik ölçülü düzbucaqlı otaqlarla doldurulmuşdur. Həmin otaqlardan dışarıya divarı olmayan dördü pəncərəsiz, qalan alıtısı pəncərəlidir. Sarayın bu bölümü planda ziqzaqvarı – pilləli biçimdə həll edildiyindən daha çox otağın işıq və hava ilə təminatı əldə edilmişdir. Bu yolla memar iç həyətin olmamasından doğan çətinlikləri xeyli azaltmış və binanın həm də həcm-məkan quruluşuna dinamik-oynaq biçim vermişdir. Ziqzaqvari plan üzərində yüksələn qatlama divarlar sarayın kompozisiyasına bol işıq-kölgəli özəl görünüş vermişdir.

Hər iki qatda mərkəzi salondan quzey tərəfdə yerləşən doqquz otaq qrupu nizamlı və aydın planlaşması ilə seçilirdi. Bu qrupun mərkəzini güneydən quzeyə doğru uzanan iki düzbucaqlı otaq tuturdu. Onlardan doğuda bir sırada düzülmüş üç, batıda isə dörd otaq yerləşirdi. Tağtavanla örtülən bu otaqların hamısı pəncərəlidir. Ancaq son bərpa işləri aparılarkən ikinci qatın plan-məkan quruluşu köklü dəyişikliyə uğradı.

Sarayın batı fasadında çıxıntı şəklində olan ikiqatlı bölümün alt qatının plan biçimini üst həyətin mövcud dayaq divarı, sarayın batı divarı və həyətlərarası pilləkən müəyyənləşdirmişdir. Həm də dayaq divarı quzey-doğuya doğru döndərilərək alt qatdakı vestibülə həyətdən girişi təmin etmək üçün əlverişli məkan yaradılmışdır. Sonucda salon, vestibül, uzun dəhlizlə yanaşı həmin qatda iki üçbucaqlı yerləşgə də əmələ gəlmişdir. Üst qat isə təmiz düzbucaqlı biçimdə olub iri salon (46,24 $m^2$) və onu taxt salonu və həyətlə birləşdirən vestibüldən ibarətdir. Dəhlizin salamat qalmış səkizbucaq biçimli gözəl tağbənd örtüyü diqqət çəkir. Salonun önündə – alt qatdakı dar dəhlizin üstündə uzun ensiz səki düzəldilmişdir.

Çıxıntılı bölüm, saray binasının batı fasadına yəqin ki, Sultan Xəlilullahın zamanında artırılmışdır. Onun üst həyətə və Böyük taxt salonuna ayrıca qapıları olan ikinci qatı, bizim fikrimizcə, saray dəftərxanası olmuşdur. Salonun başqa otaq və

salonlarından fərqli olaraq bu qatdakı geniş salonun – dəftərxananın üç tərəfində şəhərə, dənizə, dağlara və üst həyətə yönələn pəncərələri vardır. Aydın görünür ki, bu bölüm tikilərkən saray binası və üst həyətin uca dayaq divarı mövcud olmuşdur.

**Konstruksiya və bərpa.** Şirvanşahlar sarayının genəl plan quruluşunda Azərbaycanın və bölgənin orta əsr saray memarlığının bir sıra özəllikləri aydın əks olunmuşdur. Bölgənin çox vaxt düz yerdə, bağça içində tikilən iri saray binalarına simmetrik plan quruluşu verilirdi. Şirvanşahlar sarayının isə planı təpənin sərt enişli relyefinə, Bakının təbii-iqlim şərtlərinə, yerli tələblərə və Şirvan memarlığının gələnəklərinə uyğun olaraq mürəkkəb konfiqurasiya və bənzərsiz biçim almışdır. Burada plan-məkan qurulşunun mürəkkəbliyinə və asimmetrikliyinə saray binasının bir dəfəyə deyil, mərhələlərlə tikilməsi də müəyyən təsir göstərmişdir.

Saray binası Şirvanın daş memarlığının imkanları çərçivəsində konstruktiv – texniki baxımdan mükəmməl işlənmişdir. Bütünlüklə əhəng daşından ucaldılmış binanın yerləşgələri tağbənd-günbəz sistemi ilə örtülmüşdür. Düzbucaq planlı çoxsaylı otaqlarda örtük konstruksiyası kimi, gələnəksəl olaraq sivri tağbəndlər işlədilmişdir. Yalnız səkkizbucaqlı planları olan salonların örtük konstruksiyası sivri profilli günbəzlərdir. Altıbucaqlı uzunsov salonların örtükləri qarışıq sistemli olmuşdur.

Binanın alt qatında bütün yerləşgələrin örtükləri, demək olar, salamat qalmışdır. Rus ordusunun top mərmilərindən böyük dağıntıya uğramış üst qatda isə yalnız səkkizbucaqlı salonların günbəz örtükləri uçulmamışdı. Sarayı XIX əsrin ortalarında yarıuçuq durumda görmüş rus şərqşünası İ.Berezin bu haqda belə yazmışdır: "… korpusun ortasında gözəl tağbəndli baş giriş yüngül günbəzli səkkizbucaq biçimli iç audiyens salona aparır. O biri otaqlarda da yəqin ki, günbəzlər olmuşdur, ancaq indi yalnız ikisi salamat qalmışdır. Dam artıq

yoxdur: o tamam tökülmüşdür; üst qatda divarların da böyük bölümü dağılmışdır". İ.Berezin kitabda verdiyi sxematik planda sarayın ikinci qatında 9 otağın günbəzlə, iki otağın isə tağbəndlə örtüldüyünü ehtimal etmişdir. Onun göstərdiyi bu otaqların hamısı planda düzbucaqlıdır. Düzbucaqlı otaqların günbəzlə örtülməsi texniki baxımdan çətin, praktiki baxımdan əlverişsizdir. Ona görə İ.Berezinin çəkdiyi plan dəqiq olmadığı kimi, ikinci qatda 9 otağın günbəzlə örtülməsi haqda irəli sürdüyü fikir də yanlışdır. Həmin otaqların altında – alt qatda olan eyni ölçü və biçimli otaqların hamısının tağbəndlə örtülü olması da şərqşünas alimin bu fikrinin əsassız olduğunu birbaşa sübut edir.

İkinci qatda səkkizbucaqlı iki salondan başqa, iki altıbucaqlı uzunsov salonun da şahnişin bölümləri kiçik günbəzlər, ya da yarımgünbəzlərlə örtülə bilərdi. Təəssüflər olsun ki, 2004-cü ildə tamamlanmış yanlış bərpa işləri nəticəsində sarayın ikinci qatının plan-məkan quruluşu ciddi dəyişmələrə uğramış və saraya onun miqyasına uyğun olmayan iri bir günbəz əlavə edilmişdir (iç diametri 7,60 m). Gerçəkdə isə sarayın konstruktiv sisteminə daxil olan günbəzlər yerləşgələrə görə kiçik aşırımlı olmuşdur. Onlardan ən irisi səkkizbucaqlı qəbul salonunu örtən günbəzdir (iç diametri 5,56 m.). Ən əskisi 1807-ci ilə aid olan ölçü cizgiləri, rəsmlər və foto sənədlər də Şirvanşahlar sarayı binasında bu günbəzdən daha iri başqa bir günbəzin olmadığını çox aydın şəkildə təsdiq etməkdədir.

Şirvanşahların saray binasının ikinci qatında son bərpa işləri 2004-cü ildə tamamlanmışdır. Bərpa layihəsini professor N.Rzayevin rəhbərlik etdiyi memarlar qrupu işləmişdir (elmi məsləhətçi professor Ş.Fətullayev). Amacı abidənin qorunma zəruriliyi olan bərpa işlərində başlıca tələb əski görkəmin maksimal saxlanmasıdır. Ona görə ilk olaraq obyektin nəzəri əsaslandırılmış bərpa layihəsi hazırlanmalıdır. Şirvanşahlar sarayı üçün çağdaş bərpa tələblərinə cavab verən layihə işlən-

mədiyindən aparılan işlər saray binasının planlaşmasında və həcm-məkan quruluşunda qaba dəyişikliklərə səbəb olmuşdur.

Saray binasının hələlik ən əski qrafik sənədi rus mühəndisi – albay Truzsonun 1807-ci ildə çəkdiyi ölçü cizgiləridir. Həmin cizgilərdə binanın planında ikinci qat birinci qatı, demək olar, təkrar edir. Bu durum sarayın sonrakı illərdə (1970-ci illərəcən) çəkilmiş başqa ölçü cizgilərində də dəyişməz qalmışdır. Ancaq son bərpa layihəsində ikinci qatın quzey bölümünün bütün mövcud plan-məkan quruluşu dəyişdirilərək yeni bir taxt salonu düzəldilmişdir. Orijinalda çox aydın və düzənli planlaşması olan həmin bölümdə səkkiz düzbucaqlı otaq yerləşirdi. Bərpa layihəsində səkkizbucaqlı vestibülə birləşən iki uzunsov otaq arasındakı divar uçurularaq kvadrat biçimli günbəzli salon yaradılmış, doğudan və batıdan ona birləşən otaqlar arasındakı divarlar da yıxılaraq kvadrat planlı qalın dayaqlara çevrilmişdir. Bununla da tarixi bəlgəsiz və bilgisiz ikinci qatın interyerinə müdaxilə edilmiş, sarayın genəl planlaşma sisteminin tektonikası ciddi pozuntuya uğramışdır.

Saray binası özəl cizgiləri olan mürəkkəb tikilidir. Ancaq genəl plan-məkan quruluşundan aydın görünür ki, taxt salonu onun quzey bölümündə ola bilməzdi. Bakının təbii-iqlim şərtləri gələnəksəl olaraq binaların quzey fasadlarının çox zaman pəncərəsiz, az hallarda isə azsaylı kiçik pəncərələrlə həllinə səbəb olmuşdur. Quzeydən gün boyunca doğal işıqlanmanın zəif olması, eləcə də ilin, demək olar, bütün fəsillərində güclü xəzri küləklərinin əsməsi və yüksək nəmişlik bunu tələb edirdi. Ona görə də binanın güney və doğu fasadlarında otaqlar çoxsaylı ikiqatlı pəncərələrlə işıqlandırıldığı halda, quzey fasadının ikinci qatında cəmi üç kiçik pəncərə gözü qoyulmuşdur. Həm də quzeydəki pəncərələr təbiətə, güneydəkilər kimi dəniz genişliyinə və şəhər mənzərələrinə deyil, qapalı bir həyətə yönəlmişdir. Belə bir durumda saray binasının taxt

salonunun quzey divara bitişik yerləşdirilməsi memarlıq məntiqindən çox uzaqdır.

Alt qatın plan-məkan quruluşu və ikinci qatdakı dayaq divarları uydurulmuş taxt salonu üçün bitgin konstruktiv sistem yaratmağa imkan verməmişdir. Kvadrat salonun üç tərəfində ikişər tağ qoyulduğu halda, doğu tərəfində üçər tağ verilmişdir. Bu tağların qalın dayaq sütunlarının gövdələri isə məhlulla suvanmışdır. Halbuki Abşeronun ən sadə kənd məscidində belə sütunlar və dayaqlar ya bütöv daşlardan yonulub düzəldilir, ya da incə yonulmuş qalın tavalarla üzlənirdi.

Saray kompleksinin əsas binalarının hamısında salonu örtən günbəz memarlıq quruluşunda mərkəzi mövqe tutur və bina orqanizminin çox önəmli üzvi bir bölümünə çevrilir. Saray binasının bir yan tərəfinə əlavə edilmiş yeni günbəz mövcud orqanizmlə üzvi bağlılıqda olmayıb hər baxımdan təsadüfi xarakter daşıyır. Halbuki həmin binada səkkizbucaqlı salonu örtən günbəz onun plan-məkan quruluşunda mərkəzi mövqe tuturdu və kompozisiyası ilə tam ahəngdarlıqla idi. Bərpaçılar saraya yeni günbəz artırarkən binanın ümumi siluetində kütlələrin nisbətlərini nəzərə almadıqları kimi, interyerlərin məkan düzənini bəlliləşdirən günbəzaltı konstruksiyalara da düzgün yanaşa bilməmişlər.

Şirvanşahlar Sarayı Kompleksinin mərkəzi günbəzli quruluşu olan binalarında (Şah məscidi, Şah türbəsi, Divanxana köşkü) gözəl biçimli günbəzə keçid elementləri işlədilmişdir. Uydurulmuş taxt salonunda kompleksin bu zəngin irsindən də yararlanılmamışdır. Bu salonda standart ölçülü sadə ayrıntılardan yığılmış çoxqatlı bəsit stalaktit quruluşlarından günbəzaltı dairəyə keçid yaradılmışdır. Saray binalarının memarlıq üslubuna yabançı olan belə saya stalaktit quruluşlarına Azərbaycan memarlığının zəngin təcrübəsində də tuş gəlinmir. Salonun iri günbəzaltı məkanının təbii işıqlanması olduqca zəifdir. Taxt salonunun bu sayaq qapalı və yarımqaranlıq olması da bölgənin

orta əsr saray memarlığı gələnəkləri baxımından qəbuledilməzdir.

Saray binasının özəlliyi ilə seçilən plan-məkan quruluşu taxt salonunun güney bölümdə yerləşdiyini aydın göstərir. Yerinə və məkan həllinə görə, güneyə doğru uzanan altıbucaq planlı yerləşgənin taxt salonu olması daha inandırıcıdır. Sarayın ən iri, eləcə də ən işıqlı yerləşgəsi olan bu baş salon pəncərələrindən dörd bir yana gözəl görünüşlər açılması baxımından da təkdir. Bu yerləşgə böyük yəqinliklə rəsmi və təntənəli qəbullar salonu – Böyük Taxt salonu olmuşdur.

Yeni taxt salonu düzəldilərkən aparılan yenidənqurma işlərinin keyfiyyəti də Şirvanşahlar sarayı kompleksinin tarixi binaları ilə müqayisədə aşağı səviyyədədir. Dam üzərində çıxarılmış iri salon günbəzinin hörgü işləri səliqəsiz aparılmış, çoxüzlü gövdəsi deformasiya olunmuşdur. Bu iri günbəz həm də təkcə saray binasının deyil, bütünlüklə saray kompleksinin həcm-məkan kompozisiyasına miqyas pozğunluğu, dissonans gətirmişdir. Elmi bərpada bərpa olunan abidəyə, onun əslinə, əski ayrıntılarına və bütün quruluşuna dərin sayqı göstərilməlidir. Şirvanşahlar sarayında layihə müəllifləri bərpanın bu zəruri şərtini gözləməmiş, şəxsi interpretasiya elementlərini gətirməklə, öz dəyişdirmələri və əlavələri ilə çox dəyərli abidənin tarixi plan-məkan quruluşunu təhrif etmişlər.

Şirvanşahlar sarayı binasının bərpa işləri hələ də başa çatdırılmamışdır. Birinci qatdakı otaqların bir bölümü Bayıl qəsrinin yazılı daşlarının saxlanc yerinə çevrilmişdir. UNESCO-nun Dünya İrsi Siyahısına salınmış nadir bir abidəyə belə yanaşma qəbuledilməzdir. Bayıl daşlarının necə qorunub təqdim edilməsi haqqında da düşünməyin vaxtıdır.

Kompleksin tərkibindəki binalar içərisində saray binasının bütün ayrıntıları ilə daha geniş öyrənilməsinə ehtiyac var. Onun çoxyerləşgəli quruluşu bunu tələb edir. XX yüzilədək gəlib çatmış quruluşunun dəyişdirilib təhrif edilməsi sarayın

gələcəkdə daha dəqiq araşdırılmasına, funksional və bədii-estetik özəlliklərinin üzə çıxarılmasına da ciddi maneə yaradır. Belə ki, yuxarıda çoxsaylı araşdırıcılardan gətirilmiş sitatlar əsasında, gerçək plan-məkan quruluşuna dayanaraq, saray binasının tikilmə mərhələlərinin aydınlaşdırılması xeyli çətinləşmişdir.

**Tikinti tarixi.** Saray binasının əski-gerçək plan quruluşu, xeyli mürəkkəb olmasına baxmayaraq, gərəyincə bütöv görünür. Səkkizbucaqlı vestibül – həşti salonlar və çoxsaylı otaqlar arasında uyarlı ilişgiləri yaxşı təmin edirmiş. Qatlararası ilişgilər də çağına görə uğurlu sayıla bilər. Bu göstəricilərinə görə saray binasının əsas korpusunun birdəfəyə – mərhələsiz tikilməsi təəssüratı yaranır. Ancaq bəllidir ki, XII yüzildə Bakı Şirvan Şahlarının qala şəhərinə və ikinci paytaxtına çevrilmişdi. Qala divarında aşkar edilmiş bir kitabədə şəhər divarının (sur əl-mədinə) Şirvanşah III Məniçöhrün (1120-1160) əmri ilə tikildiyi bildirilmişdir. Qala divarları ilə yanaşı, görünür Bakının içqalası da o zaman inşa edilmiş, içqalada anıtsal bir saray köşkü – indiki saray binasının özəyi ucaldılmışdrı. Bu saray köşkünün tamamlanmasında, yəqin ki, III Mənüçöhrün oğlu – paytaxtı 1192-ci ildə qısa müddətə Şamaxıdan Bakıya köçürmüş I Axsitanın (1160-1196) da əməyi olmuşdur.

Arxeoloqlar 1932-1934-cü il qazıntılarında saray binasının mərkəzində və ona bitişik güney-doğu otaqlarda daha əski tarixli böyük bir tikilinin kütləsəl özüllərini və divar qalıqlarını üzə çıxarmışdılar. Bunlar XII əsr sarayının da izləri ola bilər. Ancaq əski saray köşkünün indiki saray binasının özəyi olduğu ehtimalı daha inandırıcıdır. Görünür, ikiqatlı asimmetrik quruluşu olan həmin köşkün əsasını ikinci qatdakı səkkizbucaqlı qəbul salonu və onun çevrəsindəki azsaylı yerləşgələr təşkil etmişdir. Təpə başındakı qayanın doğuya və güneyə doğru enişindən ustalıqla yararlanan memar köşkün anıtsal baştağını

– iri eyvanı uca kürsülük üzərinə qaldırmış, qalan fasadlara bütünlüklə ikiqatlı quruluş vermişdi.

Eyvan içərisində giriş qapısına doğru yüksələn enli pilləkən təntənəli biçimi ilə binanın önəmliyini daha qabarıq görə çarpdırırdı. Saray kompleksinin başqa binalarının heç birində belə pilləkən işlədilməmişdir. Pilləkən ölçü və biçiminə görə anıtsal baştağla uyarlıqdadır. Kompleksin başqa iri baştağlarından sadəliyi ilə seçilən bu baştağın ön fasadı səlcuqlular dövrü baştağlarında olduğu kimi 2:3 nisbətindədir. XV yüzildə ucaldılmış Divanxana və Şah türbəsinin baştağları daha vertikal kompozisiyalı olub nisbətləri 1:2 civarındadır. Uca qülləvarı biçimi olan bu köşk XII əsr Bakısının dəniz siluetində dominantlıq edirmiş.

Saray köşkünə XIV əsrin sonları və XV əsrin başlarında üç yöndən (quzey, doğu, güney) otaqlar artırılması yolu ilə mürəkkəb quruluşlu saray binası yaradılmışdır. Belə ki, Bakının Şirvanşahlar dövlətində siyasi və iqtisadi önəmi artdığından Şeyx İbrahim (1382-1417) saray binasında da genişləndirmə və yenidənqurma işləri aparmışdır. Bu işlər o qədər böyük ustalıqla görülmüşdür ki, əski köşk yeni saray binasının tərkibinə üzvi daxil edilmişdir. Bu ehtimalın çağdaş texniki vasitələr və laboratoriya analizləri ilə yoxlanılıb dəqiqləşdirilməsi zəruridir. Sarayın Dəftərxana adlandırdığımız bölümü isə, böyük ehtimalla I Xəlilullahın (1417-1465) hakimiyyəti illərində saraya artırılmışdır.

Sarayda arxeoloji və memarlıq araşdırmaları aparmış V.Leviatovun qənaətincə “sarayın tikintisini XV əsrin ilk onilliklərinə aid etmək olar”. Akademik Ə.Salamzadəyə görə kompleksin saray yaşayış binası “yəqin ki, XV əsrin başlanğıcında yaranmışdır”. Memarlıq-bədii özəllikləri də saray binasının tikilmə tarixləri bəlli olan Şah türbəsi (1435) və Şah məscidi minarəsindən (1441), eləcə də Divanxanadan öncə inşa edildiyini göstərir. Tikilmə tarixinin qədimliyi sarayın

fasadlarının əsasını təşkil edən bəzəksiz və yalın daş divarlarda və daha sadə konstruktiv ayrıntılarda da əks olunmuşdur.

**Fasadlar.** Saray binasının fasadları son dərəcə sadə və bəzəksiz işlənmişdir. Fasadlarda ciddi bir nizam və simmetriya gözlənilməmişdir. Onların əsasını təşkil edən iri və yalın divar səthləri ard-arda düzülmüş iki ölçülü - enli və ensiz hörgü sıraları ilə üzlənmişdir. Hörgü işləri yaxşı yonulmuş sıx məsaməli əhəng daşlarından son dərəcə böyük ustalıqla aparılmışdır. Sarayın tikintisində Badamdar ocağının yüksək keyfiyyətli daşları işlədilmişdir. Daş işlərinin yüksək keyfiyyəti alman E.Kempferi belə təəccübləndirmişdi: "hər şey parlaq yonulmuş daşlardan düzəldilmişdir. Daşlar elə ustalıqla bərkidilmişdir ki, heç bir yerdə tikişləri ayırd edə bilmirsən".

Divarın tektonikası səthin üfqi sıralarla bölgüsündə ifadə olunmuşdur. Dəyişik ölçülü hörgü sıraları, üzlük daşların dürlü rəng çalarları və fakturaları iri divar səthlərində özəl plastiklik və hərəkət yaratmaqla onların asketikliyini xeyli azaldır. Fasadları bədii-estetik baxımdan az da olsa zənginləşdirən dekorativ memarlıq elementləri düzbucaqlı pəncərə açırımlarını tutan daş şəbəkələr və seyrək düzülən navalçalar olmuşdur. Sarayın yastı damının üstündə isə boyunsuz üç kiçik günbəz – səkkizbucaqlı salonların və baştağın günbəzləri qabarırdı.

Bir neçə araşdırıcı (S.Dadaşov, M.Hüseynov, L.Bretanitski və b.) E.Kempferin 1863-cü ildə, S.Qmelinin 1769-cu ildə çəkdikləri rəsmlərə dayanaraq əski Bakıda "şəhəri güney-quzey yönündə kəsib keçən, sahildən saraya aparan enli küçənin" olduğunu iddia etmişlər. Bu barədə S.Dadaşov və M.Hüseynov belə yazmışlar: "Saray binası ərazidə ən yüksək mövqe tutur və elə görünür ki, əgər onun baş fasadı girişi və önündəki meydan ilə güneyə yönəlsəydi daha məntiqli olardı, hardan ki, sahil istehkamları ilə geniş Bakı buxtasına gözəl görünüş açılır və Kempfer və Qmelinin rəsmlərində göstərilən küçə onunla qapanardı". Bəllidir ki, adı çəkilən səyyahlar

Bakının rəsmlərini birbaşa naturadan deyil, daha çox yaddaşlarına dayanan sxematik görünüşlərini işləmişlər. Buna görə həmin sxem-rəsmlərdən Bakının plan quruluşu və küçələri haqqında dəqiq bilgi almaq mümkün deyil. Həm də onlardan bir az sonra naturadan birbaşa çəkilmiş peşəkar rəsmlər və rus mühəndislərinin işlədikləri çoxsaylı planlar qədim Bakıda sahildən saray kompleksinə qalxan enli bir küçənin olmadığını göstərir. Bakı təpəsinin sərt enişli relyefi və İslam şəhərsalma gələnəkləri də belə bir küçənin salınmasına imkan verməzdi.

Saray kompleksi giriş qapısı quzeydə, indiki Xalq Təsərrüfatı Universitetinin həyətinə çıxan divarda yerləşən iç qalanın içərisində olmuşdur. Bu səbəbdən memar saray binasının baş fasadını güneyə – dənizə tərəf deyil, batıya – giriş qapısı quzeydə yerələşən üst həyətə yönəltmişdir. İçqalanın güney divarı sərt enişli relyefdə tikildiyindən orada qapı qoyula bilməzdi. Bunun qarşılığında sarayın əsas otaq və salonlarının yerləşdiyi doğu və güney fasadları körfəzə və şəhərə yönəldilmişdir.

Sarayın baş fasadı batıya – üst həyətə yönəlmişdir. Bu fasad daha çox möhtəşəm giriş baştağı ilə diqqət çəkir. Şirvanşahlar sarayı kompleksinin bu ən iri qabaritli baştağının dərin tağçası içərisində düzbucaqlı çərçivəyə salınmış sıvrı qapı gözü qoyulmuşdur. Həmin qapı binanın ikinci qatındakı səkkizbucaqlı qəbul salonuna yönələn baş giriş qapısıdır. Baştağ eyvanının yanlarındakı tağçaları da dərinliyi və ucalığı ilə o biri baştağlardan seçilir.

Sarayın giriş baştağı üzərində də indi heç bir memarlıq bəzəyi və kitabə yoxdur. Ancaq möhtəşəm həcmi və iri miqyaslı ayrıntıları ilə bu baştağ “girişi güclü şəkildə gözə çarpdırır və belə bir təəssürat yaradır ki, o, təkcə ölçülərinə görə deyil, eləcə də önəminə görə böyük olan binaya aparır” (M.Hüseynov). Sarayın damından xeyli (3,82 m) yuxarı qaldırılmış baştağ binanın həcm kompozisiyasının dominantı

olmuşdur. Baştağ divar səthindən də biraz irəli çıxarıldığına görə həcmi daha çox gözə çarpır.

Divanxana, Şah türbəsi və Ulu Rəcəb baştağlarından fərqli olaraq saray binasının baştağının mərkəzi tağçası yarımgünbəzlə deyil, onüzlü günbəzlə tamamlanır. Bu onunla bağlıdır ki, sarayın baş fasadı uca eyvanlı baştağla vurğulandığından memarın diqqəti bu önəmli elementin tektonik işlənməsinə yönəlmişdir. Baştağın uca və dərin eyvan şəklində olan tağının aşırma gücünün söndürülməsi amacı ilə onun yanlarında uca və dərin tağçalar qoyulmuşdur. Yəni, memar yuxarıda adları çəkilən baştağlardakı kimi tağın yanlarında ətalətli daş kütləsinə deyil, fəzalı tağçalara üstünlük vermişdir. Memarlıq həllində eyvanın  yan tağçalarından, həm də önəmli şəxslər üçün rahat oturacaq yer kimi istifadə edilməsi nəzərdə tutulmuşdur. Bu tağçaların sivri ucları yuxarıda çox incə şəkildə baştağın eyvanını qapayan onüzlü günbəzin yelkənlərinə çevrilmişdir. Bu səbəbdən bəzəksiz, kitabəsiz və stalaktitsiz saray baştağında konstruksiyanın güclü memarlıq ifadəliliyi – yüksək tektoniklik əldə edilmişdir.

Saray baştağı, həm də eyvanına qalxan sanballı pilləkəni ilə kompleksin o biri binalarından seçilir. Ancaq onun pillələri indi xeyli yüksək (24-25 sm. civarında) olub funksional baxımdan tam yararlı deyil. Akademik A.Pavlinovun ölçü cizgisində eyvana qalxan pillələrin  sayı indikindən iki dəfə artıq – on pillə göstərilmişdir. Təəssüf ki, bərpa işləri aparılarkən bir çox məsələlər kimi saray pilləkəninin də ilkin quruluşu tam aydınlaşdırılmamışdır. Bütövlükdə isə bu pilləkən də saray binasının kompleksdə hakim mövqe tutduğunun göstəricisidir.

Batı fasadın quzey qanadına Divanxananın həyət divarı birləşir. Bu qanaddakı azsaylı pəncərələrin hamısı düzbucaqlı biçimdədir. Alt qatdakı pəncərələr mazğal tipli olub içəriyə doğru genişlənən yarıqlar şəklindədir. Üst qat pəncərələri də

ölçücə iri deyil (yüksəkliyi 1,20 m.). Fasadlardakı dəyişik ölçülü pəncərələr binanın iç quruluşunu üzə çıxarmışdır.

Sarayın gündoğana yönələn uzun arxa fasadı pəncərələrin çoxluğu ilə seçilir. Bu fasadda da alt qatdakı pəncərələr ensiz yarıq şəklində olduğu halda, üst qatdakı pəncərələr ikiqatlıdır. Həm də üst qatdakı pəncərələrin yuxarıdakı bölümləri kvadrata yaxın biçimdədir. Onların davamı kimi qoyulmuş aşağı pəncərələr daha yüksəkdir. Bu fasadda da arxa həyətə açılan bir qapı, yəqin ki, əndərun bölümünün girişi vardır.

Dənizə yönələn güney fasadda dəftərxana bölümü çox önəmli yer tutur. Onun alt qatında qoyulmuş qapı enli olub ikilaylıdır. Bu da həmin qapının təsərrüfat xarakterli olduğunu göstərir. Doğu və güney fasadların kompozisiyasında qatlama divarlar və uzunsov altıbucaqlı salonların dışarıya çoxtinli prizmatik həcm kimi çıxarılmış şahnişin bölümləri, eləcə də ikiqatlı pəncərələr böyük bədii-estetik rol oynayır. Bu fasadlarda sınıq səthlər, ağır qatlama daş divarlar saray binasının kütləsəlliyini daha qabarıq gözə çarpdırır, onda bənzərsiz, dəyişgən rakurslu ifadəli görünüşlər yaradır.

Saray binasının ikinci qatında otaqların çoxu ikiqatlı pəncərələrlə işıqlandırılır. Bu pəncərələrdə aşağı bölüm düzbucaqlı olub binanın eyni biçimli qapıları ilə bir ölçüdədir. Ondan ara divarla ayrılan üst pəncərələrin çoxu isə kvadrata yaxındır. Arxeoloq İ.M.Cəfərzadənin müşahidəsinə görə keçmişdə axşam düşəndə alt pəncərələr pərdə ilə örtülürdü. Səhər tezdən, pərdələr açılanacan otağa işıq yuxarı pəncərədən düşürdü. Ona görə yuxarı pəncərəni baca da adlandırırdılar. Bundan başqa, qızmar istilər vaxtı otağa gün işığının düşməməsi üçün alt, yəni böyük pəncərə gözləri pərdələrlə qapadılır, sərinləşmiş otaqlar yuxarıdakı kiçik pəncərələrdən işılandırılırdı. Bu tip pəncərələr Abşeronun əski yaşayış evlərində də işlədilmişdir. Miniatür təsvirlərində isə saray

interyerlərinin iki qatlı pəncərə açırımları ilə işıqlandırılması gələnəyinin olması dolğun əks olunmuşdur.

Sarayın ən yığcam və sadə fasadı quzeyə yönələndir. Yüksəklik baxımından da o biri fasadlardan xeyli alçaq olan bu fasad pəncərələrin azlığı ilə də onlardan seçilir. Həm də doğu və güney fasadlarda ikinci qatdakı otaqların yaxşı işıqlandırılması üçün ikiqatlı pəncərələr qoyulduğu halda, quzey fasadda üç kiçik pəncərə açılmışdır. Belə lakonik həll onunla bağlıdır ki, Bakıda günəş işığının düşmədiyi quzey fasad il boyunca güclü küləklərə və yüksək rütubətə məruz qalır. Yəqin ki, ilkin dönəmdə quzey və batı fasadların qovşağında sarayın əndərun bölümünün həyəti yerləşmişdir.

**Qala-saray.** Kompleksin ən iri sahəli və ən iri həcmli binası olan sarayın bəzək-düzəksiz, olduqca sadə və ağır memarlığı var. Bu özəlliyinə görə mütəxəssislərin saray binasına yanaşmaları dəyişgən olmuşdur. Hətta, saray kompleksinin ilk ciddi araşdırıcılarından biri olmuş akademik M.Hüseynov saray binasının sadə memarlığı ilə kompleksə daxil olan başqa binalar arasında çox şeydə təzad olduğunu vurğulayaraq çox şübhəli qənaətə gəlmişdir. Onun fikrincə saray binasını “memarlıqdan az xəbəri olan, ya da onunla az qayğılanan adam tikmişdir”. Ancaq binanın biraz qarışıq, bununla belə məqsədyönlü iç planlaşması, diqqətçəkən həcm kompozisiyası və qayalıq relyefdə ustalıqla oturdulması onu ucaldanların gərəyincə peşəkar olduqlarını göstərir.

Saray binasında Şah türbəsinin, özəlliklə saraya bitişik Divanxananın başlıca olaraq zəngin oyma naxışlar və plastik ayrıntıların yaratdığı təntənəli görünüşləri yoxdur. Onun memarlığındakı sadəlik və sərtlik tikilmə dövrü və ilkinliyi ilə birbaşa bağlıdır. Saray binası Bakı Şirvanşahların çox dayanıqlı qala şəhəri olduğu dönəmlərin (III Mənçöhr, I Axsitan və I İbrahim) əsəridir. Bu səbəbdən onun memarlığında qala xarakteri daha üstündür. Bəzəksiz iri daş səthlər, ağır həcmlər,

qala bürclərini xatırladan qatlama divarlar, mazğal tipli pəncərələr binaya müdafiə tikililərinə xas olan sərt möhtəşəmlik və asketiklik verir.

Memarlığındakı qala xarakteri binanın birinci qatında daha qabarıq duyulur – fasadların hamısında alt qatda pəncərələr deyil, qala mazğallarından seçilməyən dar və yüksək yarıqlar quraşdırılmışdır. Dışarıda əlçatmaz yüksəkliyə qaldırılmış bu dar yarıqlar içəridə yanlara və aşağıya doğru genişlənərək otaqları bol olmasa da, işıq və hava ilə təmin edirdi. Paytaxt Şamaxı süqut edəndə Bakı qalası dəfələrlə Şirvanşahların son dayağı, onun içqalasındakı qalayabənzər saray isə dayanıqlı sığınacağı olmuşdur. Onu da bildirmək gərəkir ki, öncədən hazırlanmış layihə əsasında birdəfəyə tikilmiş Divanxana və Şah türbəsindən fərqli olaraq saray binası bir neçə mərhələdə ucaldılmış, onun tikintisində bir neçə nəslin memar və ustaları iştirak etmişlər.

Bakı Sultan Xəlilullahın hakimiyyəti illərində, Şirvanşahlar dövlətinin paytaxtı ediləndə saray kompleksində şəhərin bu yüksək statusuna uyğun daha incə və təntənəli görünüşləri olan binalar ucaldılmışdır.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Qiyasi C.Ə. Divanxana – Şirvanşahların saray köşkü. Şirvanşahlar sarayı: tarix, həqiqətlət, mülahizələr. Bakı, 2015.
2. Rzayev N.Q. Şirvanşahlar sarayı kompleksinin saray binası üzrə tarixi qeydlər (əlyazma).
3. Sısoyev V.M. Bakı və dairəsində olan asar ətiqələrə bələdçi. Bakı, 1925.
4. Березин И.П. Путешествие по Дагестану и Закавказью. Казань, Санкт-Петербург, 1849.

5. Бретанитский Л.С. Зодчество Азербайджана XI-XV вв. и его место в архитектуре Переднего Востока. Москва, 1966.
6. Дадашов С.А., Усейнов М.А. Ансамбль Дворца Ширваншахов в Баку. Москва, 1956.
7. Левиатов В.Н. Памятники азербайджанской культуры. Баку, 1944.
8. Павлинов А.М. Баку. Материалы по археологии Кавказа. Вып.III, Москва, 1893.
9. Саламзаде А.В., Авалов Э.В. Принципы пространственной организации Дворца Ширваншахов в Баку. Известия АН Азербайджанской ССР, серия литературы, языка и искусства, 1982, №3.
10. Усейнов М.А. Памятники Азербайджанского зодчества. Москва, 1951.
11. Щеблыкин И.П. Краткий очерк истории дворца Ширваншахов в Баку. Баку, 1939.
12. Nauman R. Təxti Süleyman viranələri və Zindani Süleyman. Tehran, 1373 (farsca).




**Şirvan şahlar sarayı komp leksi (qədim foto)**



**1-ci qat. Arxeoloji plan.**




*1-ci qatın planı.*




*2-ci qatın planı.* 1. Həyət, 2. Eyvan, 3. Qəbul salonu,
4. Vestibül, 5. Böyük Taxt salonu, 6. Dəftərxana




**QƏBUL SALONU.** *Plan.* 1. Eyvan, 2. Salon, 3. Şahnişin,
4. Oturacaqlar, 5. Həşti (vestibül), 6. Böyük Taxt salonu



**Şahnişin**




**BÖYÜK TAXT SALONU.** *Plan.*




**Təxti Süleyman. Arqunxan sarayı. Plan (XIII əsr)**



**İstanbul. Çinili köşkün şahnişini (1472)**




*A-A Kəsiyi.*




*B-B Kəsiyi.*




*Batı fasad.*




*Doğu fasad.*




*Güney fasad.*




*Quzey fasad.*




Saray binasının tikilmə mərhələləri. *2-ci qatın planı.*
1. Həyət, 2. Eyvan, 3. Qəbul salonu, 4. Vestibül, 5. Böyük Taxt salonu, 6. Dəftərxana



*Cəfər Qiyasi*
*AMEA-nın müxbir üzvü,*
*memarlıq doktoru, professor*

# Bakı Qız qalası
## (*tikilmə tarixi və təyinatı haqqında)*[*]

İçəri şəhərin yerləşdiyi təpənin aşağı, sahil hissəsində, şəhər qalasının güney-doğu küncündə Qız qalası adı ilə tanınan əzəmətli qüllə yüksəlir. Qız qalası əski Bakının ən monumental – anıtsal memarlıq abidəsidir. Azərbaycan memarlıq irsinin bu nadir örnəyini, tikilmə tarixi və funksiyası ətrafında gedən fikir müxtəlifliyinə görə, həm də Azərbaycanın ən sirli memarlıq abidəsi saymaq olar.

Əski yazılı qaynaqlarda Qız qalası haqqında hər hansı bilgi hələlik aşkar edilməmişdir. Yalnız bakılı alim Əbdürrəşid Bakuvinin 1403-cü ildə yazdığı məşhur coğrafi əsərindəki bir məlumat Qız qalasına dolayısı ilə aid edilir. Alimin yazdığına görə Bakı şəhərinin "daşdan, son dərəcə möhkəmləndirilmiş iki dayanıqlı qalası var. Onlardan biri – böyüyü dəniz sahilində durur ki, onun divarlarını dalğalar döyəcləyir. Bu o qaladır ki, tatarlar onu ala bilməmişdi. Başqa qala birincidən yuxarıdadır. Onun təpəsi mancanaqlarla dağıdılmışdır".

Tarixçi S.Aşurbəyli Əbdürrəşid Bakuvinin bu məlumatını şərh edərkən orada göstərilən birinci qalanı Bayıl qəsri, ikincinin isə Qız qalası olduğunu ehtimal etmişdir. bizcə həmin məlumatda söhbət Bakı şəhər qalasının Qız qalası və indi "Cəbbəxana" adlanan iki qülləsindən gedir. Bəllidir ki, Ə.Bakuvi göstərilən kitabını yazarkən indi Bayıl qəsri adlandırılan qala artıq zəlzələdən dağılmış və səviyyəsi yüksələn Xəzərin sularına qərq olmuşdu.

Bakuvinin vurğuladığına görə dəniz suları "çoxlu divar bürclərini batırmış və məscidə yaxınlaşmışdır". Bakının ən aşa-

ğıda – sahil küçəsində yerləşən məscidi Cümə məscidi olub topoqrafik səviyyəcə Qız qalası ilə, demək olar ki, eynidir. Deməli, XIV əsrdə dəniz suları Qız qalasına lap yaxınlaşmışdı və onun ləpələri bu azman qülləni deyil, onu dövrləyən qala divarlarını döyəcləyirdi. O da qeyd edilməlidir ki, orta əsrlərdə, eləcə də tatar hücumları zamanı Bakı qalasının ən möhkəm və dayanıqlı bölümü Qız qalası olmuşdur.

Qız qalası, eləcə də "Cəbbəxana" şəhər qalasında ayrıca dayanan qüllə – donjon olub onun müdafiə sistemində çox önəmli rol oynamışdır. Abşeron qəsrlərində olduğu sayaq bu azman qüllələrin də özəl qala divarları ilə dövrələnmiş həyətli kompleksin tərkibində olmaları şübhəsizdir.

XV əsrdə yaşamış ərəb coğrafiyaçısı İbn Ayas bakılı alimin məlumatını, demək olar, təkrar etmişdir. O da Bakının daşdan tikildiyini xüsusi vurğulayaraq bildirmişdir ki, "Onda daşdan tikilmiş iki istehkam var, dəniz artıq onlara yaxınlaşmışdır və onlardan biri tatarların fəthi zamanı artıq dağılmışdır". Göründüyü kimi, ümumi xarakterli bu məlumatlarda, inşaat tarixi və memarlıq həlli baxımından, Qız qalası haqqında önəmli heç bir bilgi yoxdur.

Bakıya XVII əsrdən başlayaraq səfər etmiş avropalı alim və səyyahlar öz araşdırmaları və yol qeydlərində Qız qalasına da az ya çox dərəcədə yer ayırmışlar. Müxtəlif illərdə Bakıda olmuş E.Kempfer, İ.Lerx, S.Qmelin, E.Eyxvald, İ.Berezin, N.Xanıkov və başqaları bu möhtəşəm abidəni təsvir etmiş, bəziləri isə onu romantikləşdirən və daha sirli göstərən qədim el əfsanələrini qələmə almışlar.

**Kitabə – tarixi sənəd.** Şərqşünas N.Xanıkov ilk dəfə olaraq üzərindəki daş kitabənin paleoqrafik xüsusiyyətlərinə əsaslanaraq Qız qalasının tikilmə tarixinə öz münasibətini bildirmişdir. Alim göstərmişdir ki, "İraq taxtını tutan, ancaq ona İran Azərbaycanı, Gürcüstan, Ermənistan və Şirvanın idarəsinin verilməsi şərti ilə, bu taxtı əmisi II Toğrula güzəştə gedən

Davud Mahmud oğlu ola bilərdi. Təbrizdə 1135-ci ildə öldürülən Davudun uşaqlarının adı bəlli deyil, ancaq onların arasında Məsud da ola bilərdi və bu səbəbdən "Qız qalası" XII əsrin ortalarında öz tikintisi ilə ona borcludur". Bu ehtimalı şübhə altına alan ilk amil odur ki, İraq Səlcuq sülaləsində Davud Məsud oğlu adlı birisinin olması və onun Şirvanda hakimlik etməsi etmə bəlli deyil. Düzdür, XI əsrin sonlarından Şirvan dövləti bir müddət İraq səlcuqlarından asılı olmuşdur. Ancaq bu amil azman tutumuna görə tikintisi böyük vəsait və zaman tələb edən qüllənin səlcuq hakiminin sifarişi ilə ucaldılmasını əsaslandırmağa bəs eləmir. İnşaat gələnəyinə görə Qız qalası kitabəsində yüksək titulların göstərilməməsi də Xanıkovun bu ehtimalını – Məsud Davud oğlunun bir səlcuq hakimi olmasını böyük şübhə altına alır.

Qız qalası Sovet hakimiyyəti illərində araşdırıcıların diqqətini daha çox çəkmişdir. Keçən əsrin 20-ci illərində Ç.Aleksandroviç – Nasıfi Bakı qülləsini XII yüzilin əsərin saymışdır. Tarixçi V.Sısoyev 1925-ci ildə çap etdirdiyi bir kitabçasında Bakı Qız qalasını nəzərdə tutaraq bildirmişdir: "Qüllənin üzərində olan "Məsud ibn Davud" yazılı bir daş bu binanın XII əsrə aid olmasına tanıqlıq edir". Görkəmli tarixçi Y.Paxomov və akademik Ə.Salamzadə də kitabəyə əsaslanaraq Qız qalasının XII əsrdə tikilməsi qənaətində olmuşlar. Y.Paxomov bu kitabəyə istinad edərək yazmışdır: "quzey-batı tərəfdə, bir neçə sajen yüksəklikdə bayırda bərkidilmiş kufi yazı ilə qüllənin tikilmə zamanı müəyyən edilir, çünki onun tikinti ilə bir vaxtda olmamasını ehtimal etmək üçün əsas yoxdur". Akademik Ə. Salamzadənin fikrincə Qız qalası ola bilsin, XII əsrdə Bakının şəhər qala divarları tikilən zaman ucaldılmışdır. Azərbaycan memarlığının görkəmli araşdırıcısı L.Bretanitski isə Qız qalasının iki mərhələdə (birinci mərhələ V-VI əsrlər, ikinci mərhələ XII əsr) inşa olunduğunu güman etmişdir.

Professor V.Zummer 1927-ci ildə yazdığı bir məqalədə Bakı Qız qalasının qatlarında olan tağçaları mərasim ocaqları hesab etməklə onun islam dövründə tikilmə ehtimalını şübhə altına almışdır. Jurnalist-yazıçı M.Sayapin isə 1930-cu ilə aid bir əlyazmasında Qız qalasının zərdüştlük məbədi olması ehtimalını irəli sürmüşdür. Bu ehtimalları dəstəkləyib inkişaf etdirən D.Axundov bu səkkizqatlı qüllənin "eradan öncə VIII-VII əsrlərdə, ola bilsin ki, xeyli öncə" tikildiyini iddia etmişdir. Memar N.Rzayevin heç bir dəlilə əsaslanmayan qənaətinə görə "hələ e.ə. IV-III əsrlərdə "Qız qalası" memarlıq obyekti kimi məşhurlaşmış, şöhrət tapmışdır". Təcrübəli müəllim-memar A.Aslanov bu məsələdə daha irəli, daha doğrusu tarixi baxımdan daha da geriyə getmişdir. Onun fikrincə Bakı Qız qalasının inşaat tarixi ilkin tunc dövrünə – eradan öncə III minilliyin ortası və ya II minilliyin əvvəlinə aid edilməlidir.

Göründüyü kimi, çox dayanıqlı və bənzərsiz görünüşü ilə heyrət doğuran bir abidənin inşaat tarixi haqqında irəli sürülən ehtimalların amplitudası da heyrət doğurur – üç min ildən artıq?! Bu bəlkə də, dünya memarlığının tarixi təcrübəsində oxşarı olmayan, gerçək elmi baxımdan çox absurd görünən bir haldır.

Bakı Qız qalasının XII əsrdə – Səlcuqlar dövründə tikildiyini bildirən alimlər onun uca silindrik gövdəsinin güney-batı tərəfində yerdən 14 metr hündürlükdə quraşdırılmış daş kitabəyə əsaslanırlar. Üstündə inşaat tarixi göstərilməsə də kufi xətlə yazılmış həmin kitabənin XII əsrə aid olması şübhə doğurmur. Fakturasına və rəng tonuna görə kitabə daşı çevrəsindəki hörgü daşlarından seçilmir. Bu səbəbdən onların eyni bir vaxtda hazırlandığı və işlədildiyi aydın görünür. Yəni Y.Paxomovun düzgün deyimincə, bu kitabənin "tikinti ilə bir vaxtda olmamasını ehtimal etmək üçün əsas yoxdur". Bizim fikrimizcə, Şirvanşah III Məniçöhr (1120-1160) və oğlu I Axsitan (1160-1197) XII əsrdə Bakını möhkəm qalaya

çevirdikləri zaman o qalanın baş qülləsi olan indiki Qız qalasını da ucaltmışlar.

Kitabə Qız qalasının azman tutumu ilə müqayisədə kiçik və miqyassız görünür. O qədər iri olmayan daş lövhənin (76x50 sm) üzü incə qabarıq yelənlərlə iki düzbucaqlı səthə bölünmüşdür. Kitabənin yığcam mətni bu iki səthi doldurur. Yuxarı sətrdə "qüllə Məsu", aşağı sətrdə "d bin Davud" sözləri yazılmışdır. Şərqşünas N.Xanıkov, ondan sonra Ə.Ələkbərzadə kitabənin ilk sözünü "qübbə" kimi oxumuşdur. Bu sözün "qüllə" olduğunu dəqiqləşdirən M.Nemət kitabənin mətnini "Məsud Davud oğlunun qülləsi" şəklində tərcümə etmişdir. Göründüyü kimi, Davud adının sonuncu "d" hərfi kitabənin aşağı sətrinə salınmışdır. Kufi şriftləri ilə yazılmış kitabənin xətti və kompozisiyası, XI-XII əsrlərin Bakı inşaat kitabələri ilə müqayisədə yaxşı səviyyəlidir.

Kitabədə adı keçən Məsud Davud oğlunu başda N.Xanıkov olmaqla bir sıra araşdırıcılar qüllənin sifarişçisi olduğu güman edilən bir səlcuq hakimi saymışlar. Ancaq bu adda səlcuq hakiminin Quzey Azərbaycanda, özəlliklə Bakını idarə etməsi haqqında əldə hələlik təsdiqləyici bir fakt yoxdur. Kitabənin ilk sözünün "qübbə" şəklində oxunuşundan doğan yanlışlığı S.Kərimzadə daha da dərinləşdirmişdir. Onun fikrincə qüllənin üst hissəsi təmir ediləndə Məsud adlı mərhumun türbəsi dağıdılmış və həmin türbənin daş kitabəsini qorumaq amacı ilə inşaatçılar onu qülləyə quraşdırmışlar. Ciddilikdən uzaq olan bu versiyaya görə kitabə yanlış olaraq "Məsud Davud oğlunun məqbərəsi" şəklində tərcümə edilmişdir.

Qız qalası kitabəsinin daha düzgün oxunuşunu vermiş M.Nemət bildirmişdir ki, "kitabədə hakim yaxud hərbi rəisin yüksək titullarının olmamasına baxmayaraq biz Məsud Davudu inşaatçı deyil, qüllənin sahibi hesab edirik". O, bu fikrini əsaslandırmaq üçün tarixi Şirvan ərazisində – Dağıstanın Axtı kəndində olan iki abidənin kitabələrini örnək gətirmişdir.

Həmin kitabədən "qəsrin sahibi" və "qalanın sahibi" sözləri ilə başlayır və Axtı kəndindəki qalanın inşaat kitabəsində bildirilir ki, "qəsrin sahibi şirvanşah (Fərrux Yasar) b. Xəlilullahdır". Ancaq Bakıda adı tarixdən bəlli olmayan birisinin Qız qalası kimi çox möhtəşəm bir qüllənin sahibi olması inandırıcı deyil. Axtı qalasındakı kitabənin özəlliyi də nəzərə alınsa, Bakı qalasının müdafiə sistemində son dərəcə önəmli rol oynayan, qala şəhərin baş qülləsi olmuş Qız qalasının sahibi XII əsrdə Bakı şəhər qalasını bütünlüklə yenidən qurmuş hökmdar – şirvanşah I Axsitan ola bilərdi.

Akademik Ə.Salamzadə və epiqrafçı Ə.Ələskərzadə kitabənin yığcamlığına və sadəliyinə əsaslanaraq Məsud Davud oğlunu memar, eləcə də 1204-cü ildə Kiçik Mərdəkan qəsrini ucaltmış memar Əbdülməcid Məsud oğlunun atası olması ehtimalını irəli sürmüşlər. Onlardan öncə V.Zummer keçən əsrin 20-ci illərində yazmışdı ki, "yanda utancaqlıqla daldalanan "Məsud Davud oğlu" daha çox usta – inşaatçı yazısını xatırladır".

Bəllidir ki, Şirvanşah I Axsitan 1175-ci ildə rus quldur gəmilərinin dəniz basqınından öncə və sonra Bakı qalasının müdafiə sistemini olduqca gücləndirmişdi. Bu hadisənin şahidi olmuş böyük şair Ə.Xaqani Axsitana həsr etdiyi bir qəsidədə Bakını o çağın ən möhkəm qala şəhərlərindən olan Bestama bənzətmişdi:

Sənin xeyir-duanın səbəbindən Bakı bu gün
Xavərandakı (Xorasandakı) Bestama tay oldu.

Bakı qalasının XII əsrin ikinci yarısında getmiş gücləndirmə prosesində onun ən dayanıqlı və möhtəşəm qülləsi olan Qız qalasının da ucaldılmasına zərurət yaranmışdır. Bunlar nəzərə alınanda Qız qalası kitabəsində adı olan Məsudun Kiçik Mərdəkan qəsrinin memarı Əbdülməcidin atası olması tarixi baxımdan da qəbul ediləndir. Bizim fikrimizcə memar Məsud Davud oğlu Qız qalasının tikintisinə III

Məniçöhrün hakimiyyətinin son illərində başlamış və onu I Axsitan zamanı tamamlamışdır.

Abşeron qalalarında sifarişçinin adı göstərilən kitabə ənənəvi olaraq iri ölçülü, uzun mətnli, dəbdəbəli titullarla müşayiət edilən olub qüllənin gözəçarpan bir yerinə – çox vaxt qüllənin giriş qapısının üstünə bərkidilirdi (Mərdəkan, Nardaran, Buzovna və s.). Bu abidələrdə memarın adı isə kiçik daş lövhələrdə həkk olunur, adın qarşısına "əməl", "memar", ya da "ustad" sözləri əlavə edilirdi. Kiçik Mərdəkan qalasının qülləsində "memar Əbdülməcid Məsud oğlu", "Nardaran qülləsində isə "Mahmud Səəd oğlunun əməli" şəklində kitabələr – müəllif imzaları qalmışdır. Qız qalasındakı kitabə kimi, bu qala qüllələrindəki memar kitabələri də giriş qapısının üstündə deyil, qapının simmetriya oxundan yanda yerləşdirilmişdir.

Qız qalasına bərkidilmiş kitabə ölçü və quruluşca memar – inşaatçı kitabələrinə daha çox bənzəyir. Həm də Qız qalasının kitabəsi kompozisiya quruluşuna görə Kiçik Mərdəkan qalasının müəllif kitabəsini təkrar edir. Bu səbəbdən Ə.Ələskərzadə və Ə.Salamzadənin "ata-oğul" versiyaları gerçəyə daha yaxındır. Şirvanda memar sülalərinin olmasını tarixi faktlar təsdiqləyir. Bunu bölgənin zəngin memarlıq irsində qabarıq görünən ənənə dayanıqlığı, yüksək bədii-texniki ustalıq, eləcə də Bayıl qəsri kitabələrində qalan usta adları sübut edir. Kitabələrdən bəlli olmuşdur ki, Bayıldakı qəsrin tikintisi və bəzəyində ata-oğul Ustad Zeynəddin Əburəşid oğlu Şirvani və nəqqaş Əburəşid Zeynəddin oğlu birlikdə çalışmışlar.

Mərdəkan qülləsindəki kitabədə şəxs adının önünə "memar" sözü yazıldığı halda Qız qalasında "qüllə" sözü yazılmışdır. Kitabə haqqında fikir dolaşıqlığı yaradan da bu faktdır. Çünki, kitabənin "Məsud Davud oğlunun qülləsi" şəklində tərcümə edilməsi araşdırıcıları Azərbaycanın orta əsr memarlıq təcrübəsində tuş gəlinməyən və xeyli anlaşılmaz görünən bir mətnlə üz-üzə qoyur. Görünür, belə tərcümə yanlışdır. Qız

qalasının "Qüllə Məsud bir Davud" yazılı kitabəsi çox güman ki, yarımçıqdır. Daha doğrusu azman qüllə üçün nəzərdə tutulmuş inşaat kitabəsinin sonudur. 1962-1964-cü illərdə Qız qalasının içərisində və çevrəsində arxeoloji araşdırmalar aparmış O.İsmizadə hələ o zaman kitabənin yarımçıq olduğunu duyaraq yazının başlanğıcının onun üstündəki bir daşda yerləşdiyini güman etmişdir. Görünür, Qız qalasının indiki kitabəsinin üstündə hörgüyə daxil edilmiş kvadrat biçimli daş lövhənin (45x45 sm) üzərində Məsud Davud oğlunun bu qüllədə gördüyü konkret işi özündə əks etdirən sözlər yazılmalı imiş. Yəqin ki, iki daşdan ibarət olan kitabə bütünlükdə "Əl-memar həza əl-qüllə Məsud bin Davud" – "Bu qüllənin memarı Məsud Davud oğlu" şəklində olmuşdur. Kitabənin başlanğıc sözünün qalmamasının səbəbini indi izah etmək çətindir. Yarımçıq kitabə və yazılar, kitabə üçün ayrılmış səthlərin yazısız qalması halları orta əsr memarlıq abidələrində (məsələn, Şirvanşahlar Sarayı Kompleksində Divanxanada) müşahidə edilir. İndiki Qız qalası kitabəsinin üstündəki kvadrat biçimli daş lövhənin də kitabə (yazı) daşı kimi hörgüyə salındığı şübhə doğurmur. Kitabənin başlanğıcı – "Əl-memar həza əl" bölümü bu lövhədə yazılmalı imiş. Qız qalasında I Axsitanın – qurucunun adı yazılmış baş kitabə isə, Böyük Mərdəkan qəsrində olduğu kimi, bu müdafiə kompleksinin həyatinə giriş baştağı üzərində qurula bilərdi.

**Abşeron qalaları.** Qız qalasının funksional təyinatı ilə bağlı da çox dəyişik fərziyyələr irəli sürülmüşdür. Bu nadir abidə üçün "yeni təyinat" kəşf edən hər kəs öncə iki məsələni həll etmək zorunda qalır: üstündəki kitabənin Qız qalasına aid olmadığını və bu möhtəşəm qüllənin sığınma-qorunma üçün "tam yararsızlığını" sübut etməyə cəhd edir. Ancaq bu cəhdlərin hər ikisi uğursuzluğa məhkumdur.

Bakı Qız qalası, eləcə də Abşeron kəndlərində qalmış qəsr qüllələrinin müdafiə-sığınacaq tikilisi olduğunu şərtlən-

dirən ilk amil onların el yaddaşında bu günəcən “qala” adı ilə tanınmasıdır. “Qala” adı ayrıca memarlıq və yurdsalma termini olaraq Azərbaycanda çox qədimlərdən işlənməkdədir. Dar anlamda ensiz maneə divarına, kiçik bürcə yaxud da azman qülləyə “qala” demişlər. Geniş anlamda isə “qala” sözü çağdaş memarlıq terminologiyasında qəbul olunmuş “müdafiə tikilisi” anlayışını verir.

“Qala” terminінə “od qalamaq” anlamı verib Abşeron qalalarının atəşpərəstlik-oda tapınma məbədi olması hipotezini irəli sürmək (S.Vəliyev) dəqiqlikdən çox uzaqdır. Çünki “qala” sözü ayrılıqda rus dilindəki “razvodit oqon” anlamını vermir. Yalnız “qala” felinin önünə “od” sözünü artıranda “razvodit oqon” (od qalamaq) mənası alınır. Beləcə “Qala” memarlıq terminінə “od qalamaq” anlamı vermək son dərəcə qaba və uğursuz yozumdur.

Memarlıq tipi olaraq Abşeron qüllələrinin atəşgahlara azacıq da olsa yaxınlığı yoxdur. Təhlükə zamanı onların damlarında tonqal qalanmasının da atəşpərəstliklə heç bir bağlılığı olmamışdır. Aşur hökmdarı II Sarqonun e.ö.VIII əsrdə verdiyi məlumata görə Midiyadakı dağ zirvələrinə qərar tutan qüllələr gecə və gündüz tonqalların yandırılmasını təmin edir və çoxsaylı uzaq düşmənlərin yaxınlaşması haqqında “xəbər verirdilər”. Bu bilgi onu göstərir ki, Azərbaycan ərazisində çox qədimdən düşmənin yaxınlaşmasını xəbər verən özəl göz qüllələri olmuşdur. Abşeronun orta əsr qüllələri bu əski gələnəyin konkret təbii və tarixi şəraitdə davam etdirilməsi örnəyidir.

Abşeron qəsrlərinin yalnız dar lokal əhəmiyyətli, kiçik bir kəndin təhlükəsizlik tələbi amacı ilə tikildiyini düşünmək yanlış olardı. Miqyas və memarlıq həllinə görə çox vaxt ərazisində yerləşdiyi kəndin strateji və iqtisadi önəmini əks etdirən hər bir qala qonşu kənd qalaları ilə sıx əlaqədə fəaliyyət göstərirmiş. XVIII-XIX yüzillərdə Azərbaycanın Xəzər sahili

bölgələrini müşahidə edənlərin yazdıqlarına görə neft yandırılanda qalxan qatı tüstü ilə dənizdə keşik çəkən gəmidən sahilə siqnal verilir və əhali dağ başındakı mayakları yandırmaqla qonşularını yaxınlaşan təhlükədən xəbərdar edirdilər. Uca dağları olmayan Abşeronda belə siqnal mayakı rolunu kənd qəsrlərinin baş qüllələri – donjonlar oynamışdır. Bunu Böyük Mərkədan qəsrinin (1187-ci il) inşaat kitabəsi də sübut edir. Həmin kitabədə qəsr tikilisi "mənar" (mayak – göz qülləsi) adlandırılmışdır. Abşeronun ən iri göz qülləsi Bakı Qız qalası olmuşdur.

Strateji baxımdan ən əlverişli yerlərdə ucaldılan qüllələr sistemi yarımadanın hər hansı bir bucağından düşmən təhlükəsi sorağını qısa bir zamanda bütün Abşerona yaya bilirdi. Beləcə ölkənin quzey sınırlarının qorunmasında dağ qalaları sisteminin oynadığı rolu Abşeronda kənd qalaları sistemi əvəz etmişdir. İ.L.Şeblıkinin fikrincə sıx qüllə sisteminə görə bütün Abşeron iri bir qala kimi idi və Bakı elə bil Abşeronun içqalası xidmətini görürdü. Təhlükə zamanı sahildəki qalaların birindən verilən siqnal tez və sərbəst şəkildə Bakıya – "qorunmanın bütün idarəsi, bütün müdafiə ştabı yerləşən" qala şəhərə çatdırıla bilirdi. Bu ştabın başında isə Qız qalasının möhtəşəm qülləsi dururdu.

Abşeron qalalarının həm yerləşməsinə, həm də planməkan quruluşunun formalaşmasına yarımadanın yurdsalma özəlliyi, relyef quruluşu, təbii iqlim şəraiti və əlbəttə, sosial-iqtisadi amillər öz təsirini göstərmişdir. Əslində Abşeron qalası tərkibcə qəsrə və içqalaya yaxın olan iri memarlıq kompleksinin bir tikilisidir. Bu kompleksə mərkəzi dövlətə tabe olan yerli hakimin (xanın) yaxud qoşun başçısının sarayı, məscid və qala daxil olmuşdur. Şəhər içqalalarında, şəhərkənarı qəsrlərdə bu tikililərin hamısı adətən qala divarları içərisində toplanırdı. Abşeron qəsrinin özümlüyü onun müdafiə funksiyalı tikilisinin qalan binalardan divarla ayrılmasındadır.

İndiyəcən mütəxəssislərin çoxu Abşeron qalalarını qəsr kimi təqdim etmişlər. Əslində isə bu qalalar daimi yaşayış üçün əlverişli olmayıb ağır dönəmlərdə əhalinin qısa müddətli sığınması üçün nəzərdə tutulan sırf müdafiə tikilisidir və siqnal qülləsidir. Belə dar funksiya daşımaları onların olduqca yığcam və möhkəm quruluşunda, eləcə də sərt memarlıq görünüşündə əks olunmuşdur.

Abşeron qüllələrinin bayırdan bütöv görünən tutumları içəridə qatlara bölünür. Belə iç bölgünü ancaq mazğal şəkilli dar pəncərə yarıqları ilə çox çətinliklə sezmək olur. Kiçik Mərdəkan (1204-cü il) və Nardaran (1301-ci il) qalalarının silindrik gövdəli qüllələri sivri profilli daş günbəzlərlə üç qata ayrılmışdır. Həm də Mərdəkan qəsrində iç qatlar eyni hündürlükdə olduğu halda Nardaran qülləsində birinci qat üst qatlara görə çox yüksəkdir.

İri ölçülü və düzbucaq planlı Böyük Mərdəkan (5 qatlı) və Ramana (4 qatlı) qüllələrinin iç konstruksiyası bir olub yuxarıdakılardan seçilir. Onlarda yalnız alt qatın və damın örtüyü daş tağbəndlərdir. Ara qatları isə bir-birindən ağac tirli taxta döşəmələr ayırırmış. Bu fənd müəyyən mühəndis önəmi daşımaqla qatların sayını çoxaltmağa da imkan vermişdir. Yelçəkmə və işıqlanma üçün qatlardakı günbəzlərin ortasında kiçik bacalar, yan divarlarda isə pəncərə yarıqları açılmışdır. Böyük Mərdəkan və Ramana qüllələrinin düzbucaq planlı uca həcmlərinin künclərinə qoyulmuş silindrik yarımbürclər - kontrforslar onların dayanıqlığını və müdafiəsini xeyli gücləndirmişdir. Bütövlükdə Abşeron qüllələrinin qatlarında təhlükə zamanı oraya sığınan əhali üçün minimal həyat şəraiti yaradılmışdı.

Qalaların bayır divarları və bürcləri, eləcə də qüllələri tacabənzər maşikullarla tamamlanırdı. Qalanın müdafiəsi başlıca olaraq həyət divarları üstündən və qüllənin damından aparılırdı. Onları dövrələyən dişli daş məhəccərlər arxasından

qala qoruqçuları müəyyən müddət basqınlara qarşı dura bilirdi. Görkəmli tarixçi Y.A.Paxomov bu qalaları ilk araşdıranlardan olub və onların müdafiə tikilisi özəlliyini kifayət qədər sanballı və məntiqli açıqlaya bilmişdir.

Abşeron qalalarının həyətlərində qaya içində qazılmış çoxlu quyular var. Böyük Mərdəkan qalasının həyətində otuzacan küpvarı quyu (dərinliyi 2,5-3 m, diametri 1,5-2 m) aşkar edilmişdir. Araşdırıcılara görə bunlar ərzaq, taxıl saxlanclarıdır. Həyətlərindəki belə quyular sistemi müdafiə tikililəri üçün zəruri olan ərzaq ehtiyatı probleminin Abşeron şəraitində yaxşı düşünülmüş həllidir. Belə quyuların bəziləri xalq rəvayətlərinə görə qalanı gizli yeraltı yolla dış aləmə bağlayırmış. Nardaran qülləsinin birinci qatının ortasında olan quru quyu, ehtimala görə, qaladan yaxınlıqdakı piri, xan sarayını və başqa qəsr tikililərini birləşdirən yeraltı yola (başqa ehtimala görə su qaynaqlarına, kəhrizlərə) açılırmış. Bu yeraltı yolun qalıqları indiyəcən Nardaran bağlarının qumları altında gizlənmişdir. Abşeronun başqa yerlərində də belə gizli yol izləri bəllidir.

Memarlar və ustalar tikintidə hər şeyi baş vəzifəyə – bütün vasitələrlə müdafiəni gücləndirməyə yönəltmiş və Abşeron mühiti üçün hərtərəfli düşünülmüş möhtəşəm sığınacaq qala tipi formalaşdırmışdır. Dişli divarlar, başı taclı dairəvi bürclər və uca qüllələrdən – beləcə bir neçə ağır tutum və ayrıntıdan memarlar güclü bədii surət yaratmışlar. Dekorativ ayrıntıların azlığı, tutumların heykəlvarı bütövlüyü, daşın bir qədər qaba işlənmə tərzi bu qalaların görkəminə sərtlik, yenilməzlik ruhu vermişdir. Nisbətlərin uğurlu seçilişi, tamamlayıcı biçimlərin, özəlliklə maşikulların bir az mürəkkəb həlli onlara özümlü yaraşıq, təntənə gətirmişdir. Abşeronun qayalı asketik landşaftına sıx bağlılıq da qalaların bədii-estetik və vizual dəyərini artırmışdır.

Bakı Qız qalası plan-məkan quruluşuna görə Abşeron kəndlərində qalmış qala qüllələri ilə bir köklüdür. Onun da

çoxqatlı iç məkanı təhlükə zamanı çoxsaylı insanların sığınması amacına hesablanmışdır. Başqa Abşeron qüllələri ilə müqayisədə Qız qalasında daha çox insan sığına bilərdi (C.Aleksandroviçin hesablamalarına görə 200 adam).

Abşeron qəsrlərinin indiyə gəlib çatan kitabələrində onların gözətçi və müdafiə tikililəri olması açıq göstərilmişdir: Böyük Mərdəkan qalasında “mənar” (mayak – göz qülləsi), Bayıl qəsrində “bəndər qələ” (liman qalası), Kiçik Mərdəkan qalasında “qala”, Nardaran qalasında “təliə” (ön qüllə). Qız qalası kitabəsində isə tikilinin “qüllə” olduğu qeyd edilmişdir. Qız qalası başda olmaqla, Abşeronun indiyəcən qalmış bütün qalaları islam dövründə – XII-XIV əsrlərdə ucaldılmışdır və o dövrdə yarımadada atəşpərəstliyin nəinki yüksək mövqe tutması, hətta mövcudluğu haqqında hər hansı bir bilgi indiyəcən əldə edilməmişdir.

İnformasiya dəqiqliyi ilə seçilən XIV əsr alimi Əbdürrəşid Bakuvi Bakı haqqında yazarkən vurğulamışdır ki, “Şəhərin yaxınlığında çoxlu kənd var və hər kənd möhkəm divarları olan dayanıqlı içqalaya malikdir”. Bu dəyərli məlumat təsdiq edir ki, indiyə gəlib çatan Abşeron qəsrlərinin hər biri gerçəklikdə yerləşdiyi kəndin içqalası idi. Onların hamısının möhkəm divarlarla dövrlənmiş yığcam həyətin ortasında yüksələn qüllədən ibarət vahid quruluşu olmuşdur.

**Qız qalası – “Məbəd”.** Azərbaycan incəsənətini 1923-cü ildən araşdırmağa başlayan V.Zummer respublikanın memarlıq abidələrinə həsr etdiyi tipoloji oçerkdə (1925-ci il) “Qız qalası” adlanan monumental Bakı qülləsini “gerçək müsəlman incəsənəti hüdudundan kənara çıxan “şan-şöhrətli dini abidə” kimi təqdim etmişdir. Alimin ehtimalına görə ümumi saxsı boruya birləşən və hər qatda biri olmaqla yeddi ocaq qüllənin dairəvi qaranlıq salonlarında tək işıq mənbəyi olmuşdur. O iddia edirdi ki, pilləkənindəki pəncərələrdən ancaq dəniz və göy görünən Qız qalası, gözətçi və müdafiə qüllələrinin əksinə

olaraq, döyüş qurğularından (dişlər, mazğallar, maşikullar) məhrumdur.

Qatlardakı tağçaları müqəddəs ocaq sayan V.Zummer Qız qalasını yeddi qatlı, ancaq açıq bayır pilləkənli atəşpərəstlik məbədləri ilə tutuşdurmuş, Xaldey zikkuratlarında olan qatların yeddi planet dairəsini simvolizə etdiyini yada salmışdır. Yaxşılığın yeddi pilləsi ilə mənəvi yüksəlişi əks etdirən bu simvolda V.Zummerin deyimincə "ziyarətçini ara pillələrlə - qatlarla aparmaq zəruriliyi öz əksini tapa bilərdi". Bu fikirlərini Bakı Qız qalasına yönəldən alim belə bir sonuca gəlmişdir ki, atəşpərəstliyin bayırdan pilləli piramida görünüşü olan məbədi burada, içəridə biri o birinin üstündə yerləşən içiboş salon şəklindədir və işıqdan diqqətlə qapanan bu salonlar bütün qatlardan bayıra boru ilə çıxarılmış müqəddəs odla işıqlanırmış.

V.Zummer Qız qalasının atəşpərəstlik tikilisi olması ehtimalını əsaslandırmaq üçün onu yeddiqatlı Xaldey zikkuratı ilə eyniləşdirməyə çalışır. Halbuki Qız qalası yeddi deyil, səkkiz qatlıdır. Hətta bu abidələrdə qatların sayı bir olsaydı belə yenə də onlarda quruluş bənzərliyi tapmaq çətindir. Çünki əsas tutumu qapalı bütöv silindrik qüllə şəklində olan Qız qalasının, həcm-məkan və memarlıq həlli baxımından, pilləvarı piramidal biçimi olan zikkuratlarla heç bir yaxınlığı yoxdur. Eləcə də qatlararası əlaqələri açıq enli pilləkənlar və panduslarla yaradılan zikkuratlardan fərqli olaraq Qız qalasında bu funksiyanı divariçi dar dolama pilləkənlər yerinə yetirir. Özəlliklə onu da vurğulamaq gərəkir ki, zikkuratın hər bir qatı içərisində heç bir yerləşgəsi və salonu olmayan bütöv tikinti kütləsidir və onun zirvəsində şəhərin baş allahının olduğu məbədcik (atəşpərəstlikdə od məbədi) ucaldılırdı. Qız qalasında isə hər bir qat qapalı, V.Zummerin də qeyd etdiyi kimi "içi boş salon" şəklindədir.

Qız qalasının indiki görkəminə əsaslandığından V.Zummerin qüllədə döyüş qurğularının (dişlər, mazğallar, maşikul-

lar) olmadığın iddia etməsi də yanlışdır. Bəllidir ki, Qız qalasının uçuq şəkildə olmuş üst hissəsi rus işğalından sonra təmir edilərək indiki görkəmə salınmışdır. Belə uca və möhtəşəm qüllənin ilkin halında maşikullarla tamamlandığı şübhəsizdir. Qüllənin pəncərələri isə bütün başqa Abşeron qüllələrində olduğu kimi döyüş çağı qorunma amacı üçün deyil, pilləkənləri və salonları təbii işıqlandırmaq, eləcə də içəridə yelçəkməni təmin etmək üçün qoyulmuşdur.

V.Zummer və Qız qalasını atəşpərəstlik məbədi sayan başqa müəlliflərin ehtimalını şübhə altına alan önəmli bir amil belə iri ölçülü "od məbədinin" heç bir tarixi qaynaqda anılmaması faktıdır. Azərbaycan müdafiə tikililərinin ilk görkəmli araşdırıcılarından olmuş tarixçi Y.Paxomov bu faktı açıqlayarkən bildirmişdir ki, ərəb coğrafiyaçıları Bakıdan bəhs edərkən onun neftini, odunu, vulkanlarını yaxud atəşpərəstlərin məbədlərini qayğı ilə qeyd etdikləri halda "Qız qalası" haqqında susmuş, onu onlar qədər diqqətə dəyər saymamışlar. Tarixçinin "bu susqunluq prof.Zummerin söylədiyi qüllə zərdüştlüyün od məbədi ola bilərdi ehtimalına qarşıdır" sonucu düzgün və məntiqlidir. Doğrudan da, iri ölçüləri və bənzərsiz görünüşü olan bu monumental abidə Zummerin iddia etdiyi kimi "şan-şöhrətli" od məbədi olsaydı tarixi qaynaqlar onu qeydə almamış olmazdı.

Bakı Qız qalasının müdafiəyə yararlığını, qala olmasını tamamilə inkar edən başqa bir araşdırıcı – D.Axundov da onu içərisində "əbədi" odlar yanan qülləvarı məbəd saymış, bu abidənin funksiyası, tikilmə tarixi və mənşəyi haqqında öz ehtimallarını irəli sürmüşdür. O, çoxsaylı yazılarında Qız qalasının atəşpərəstlik məbədi – "yeddi planet allahlarının qüllləvarı məbədi" olduğunu əsaslandırmağa çalışmışdır. Memar araşdırıcının ehtimalına görə, birinci və ikinci qatları arasında birbaşa pilləkən əlaqəsi olmayan 8 qatlı qüllənin yuxarı yeddi qatının

hər birində quraşdırılmış tağçada “əbədi” odlar yanırmış. Birinci qat isə bu tapınaq qatların astanası rolunu oynayırmış.

D.Axundov Azərbaycanın qədim dövr və erkən orta əsrlər memarlığına həsr etdiyi kitabında çox düzgün olaraq vurğulamışdır ki, “İnsanlığın bütün tarixi boyu din birliyi, həm də məbədlərin obraz birliyini doğurur. Xristian dini kiçik yerli özəllikləri olan öz məbəd tiplərini yaratmışdır… Eləcə də İslam dini öz məbədlərinin növlərini və tiplərini yaratmışdır… Biz düşünürük ki, zərdüşt dininin məbədləri də özlərində bir-birindən təmiz regional özəllikləri ilə seçilən məzmun və forma vahidliyi daşımışdır”. Gerçəkdən də, memarlıq tarixinin ən nadir əsərləri belə müəyyən memarlıq tipinin təkamülü prosesinin sonucu olaraq ortaya çıxmışdır.

Gözləmək olardı ki, memarlıq tipinin formalaşma yolunu göstərən bu məntiqli bəyanatdan sonra müəllif “qülləvarı məbəd” saydığı Bakı Qız qalasının da məbəd kimi tipoloji təkamülünü və arealını sanballı örnəklərlə açıqlayacaq. Ancaq onun kitabında memarlıq – məkan quruluşuna görə Qız qalası ilə tutuşdurula biləcək tək bir “qülləvarı məbəd” örnəyi göstərilməmişdir. Çünki dünyanın, eləcə də atəşpərəstliyin vaxtilə geniş yayıldığı Azərbaycan, İran və Orta Asiyanın memarlıq təcrübəsində belə çoxmərtəbəli qülləvarı atəşpərəstlik məbədi olmamışdır.

Bakı Qız qalasının “qülləvarı məbəd” olduğunu sübut etmək məqsədi ilə D.Axundovun istinad etdiyi başlıca fakt – “əyani sənəd” Assuriya hökmdarı II Sarqonun (e.ö. 722-701) öz iqamətgahı olmuş Dur Şarrukin (Xorsabad) şəhərindəki sarayın interyerlərində qalmış divar relyefləridir. Həmin relyeflərdə II Sarqonun e.ö.714-cü ildə Mannaya hərbi yürüşü zamanı fəth etdiyi Midiya dağ qalaları – Kişessu və Xarxar qalaları da təsvir edilmişdir. Çox sxematik çəkilmiş bu təsvirlərdə əsasən müdafiə tikililəri – qala divarları, bürclər və qüllələr əks olunmuşdur. Relyefdən görünür ki, çox möhtəşəm

görünüşü olan Kişessu qalası dağ belində tikilib və iç-içə yerləşən üç sıra uca divarlarla dövrlənmişdir. Bu divarları möhkəmlədən bürclər sanballı maşikullarla tamamlanır. Dağın ətəyində, üçqat divarlı qaladan aralı beş ayrıca dayanan qüllə təsvir edilmişdir. Pilləli siluetinə görə bu qüllələrdən ikisi (uca qüllə və ona bitişik alçaq "kontrfors") Bakı Qız qalasına bənzəyir. Rəsmdəki "kontrforslu qüllələrin" uca qülləsinə görə "kontrfors" bölümü çox alçaqdır və kontrforsdan daha çox adi qala divarı çıxıntısına bənzəyir. Qız qalasında isə enli kontrfors uca qüllənin təpəsinəcən yüksəlik. Bu iki uydurma qülləyə istinad edən D.Axundov Kişessu qalası önündəki dörd qüllənin, eləcə də qalanın bayır divarlarının sol küncündəki iki bürcün kontrforslu qülləvarı məbəd olduğunu iddia etmiş və onların eskiz "bərpa rəsmini" işləmişdir. Araşdırıcının mülahizələrinə görə bu səkkiz qatlı Midiya qüllələri çiy kərpicdən tikilərkən divarın qalınlığı 5-6 metr olmalı idi. Bu isə binada çox böyük ağırlıq yaratdığından həmin uca qüllələr kontrforsla möhkəmləndirilmiş və kontrforslu qülləvarı məbəd tipi formalaşmışdır. Öncə bildirilməlidir ki, düz yerdə tikilmiş çox böyük ağırlığı olan silindrik binanın dağılma prosesinin qarşısı bir kontrforsla alına bilməz. Burada D.Axundov rəsmdəki qüllələrin qatlarının sayını və divarlarının qalınlığını da özündən uydurаraq onlarla Bakı Qız qalası arasında bir "bənzərlik" yaratmağa, "zərdüştlük dininin məbədi" tipini "formalaşdırmağa" cəhd etmişdir. Gercəkdə Midiyada və Qədim Şərq regionunda plan-məkan quruluşuna görə Qız qalasına azacıq da olsa bənzəyən "qülləvarı məbəd tipi" olmamışdır.

D.Axundovun ehtimalına görə "Midiya dövlətində, ola bilsin ki, həm də Kaspianda qülləvarı məbədlərin dayanıqlaşmış bu kompozisiya tipləri ("etalonları") Abşerona gətirilmiş və burada yerli mineral olan daşla tikilərkən, heç bir ehtiyac olmadığı halda, ilkin quruluşunu (kontrforslu qüllə) və inşaat

özəlliyini (çox qalın divar) artıq mövcud kanona uyğun şəkildə saxlamışdır. Göründüyü kimi, D.Axundovun bu mülahizələrinin hamısı ancaq ehtimallara söykənir. O, heç bir maddi özül və sanballı arqumentə əsaslanmadan Kişessu qalasının pilləli silueti olan qüllələrini nəzərdə tutaraq qətiyyətlə bildirmişdir: "bu qülləvarı tipli möhkəm kontrforslu binalar yalnız məbədlər ola bilərdi". Halbuki divar relyefində təsvirləri verilən qüllə tipli tikililərin məbəd olmasına dəlalət edən kiçicik bir əlamət belə yoxdur. Əksinə, onların müdafiə tikilisi olduğu daha qabarıq duyulur. Bu "kontrforslu" qüllələrin hamısı müdafiə funksiyalı güclü maşikullarla tamamlanır. Kişessu qalasının qala divarları və bürclərində təsvir edilən pəncərə tipli mazğallar bu qüllələrdə yoxdur. Görünür, onlar daha qapalı və bütöv tutumlu olmuşdur. D.Axundov iddia edir ki, "Assuriya relyeflərindəki qülləvarı məbədlər həm xarici görünüş, həm də konstruktiv həllinə görə Bakı məbədinə qohumdur". Son dərəcə sxematik bir rəsmə əsaslanıb xarici görünüşdən, özəlliklə konstruksiyadan danışmaq elmdə ciddi qəbul edilə bilməz.

Kişessu dağ qala şəhərinin relyefində silueti Qız qalasına az bənzəyən iki qüllə olduğu halda, D.Axundov çəkdiyi Kişessunun eskiz bərpa rəsmində (müəllif bunu "layihə" adlandırır) nədənsə Bakı Qız qalasının indiki görkəmində təkrar edən yeddi "qülləvarı məbəd" təsvir etmişdir. O, orijinal relyefində "kontrforslu" bir qüllə belə olmayan Xarxar qala şəhərinin eskiz bərpa rəsmində isə bu yığcam dağ qalasının içərisinə beş möhtəşəm "Qız qalası" əlavə etmişdir. Araşdırıcı beləcə bu qala şəhərləri əsl məbədxanaya çevirmişdir. İstər Kişessu, istərsə də Xarxar qala şəhərlərinin o qədər də iri olmayan ərazisində yeddi, yaxud beş azman qülləvarı məbədin tikilməsinin hansı məqsəd daşıdığını əsaslandırmaq mümkün deyil. Midiya ərazisində çox zəngin sərvətli və güclü mobidlərin olması elmə bəlli deyil və bu səbəbdən çox iri

ölçülü qülləvarı məbədlərin "çox imkanlı mobidlər tərəfindən ucaldılmasını" ehtimal etmək yersiz görünür.

Midiya tarixini araşdıranların fikrincə, Midiyanın dağ qalalarının çoxu sadəcə müdafiə tikilisi olub strateji mövqe tuturdu və daha mühüm yaşayış məskənlərini qoruyurdu. Bu baxımdan da onlarda çoxsaylı iri məbədlərin olması ehtimalı tarixi reallıqdan çox uzaqdır. Tarixi qaynaqlar və arxeoloji araşdırmalar da bunu təsdiq edir.

Midiya qalalarında təsvirləri verilmiş qüllələri V.Kraçkovskaya qülləyəbənzər yaşayış binaları hesab etmiş, onların yaranmasını oturaq əhalinin köçərilərdən qorunması zəruriliyi ilə bağlamışdır. Əslində bu qüllllələrin çoxu müdafiə tikililəri olub qala şəhərin çevrəsini qoruyurdu və basqın edən düşməni ilkin qarşılayırdı. Tarixçi S.Qaşqayın yazdığına görə "belə müdafiə tikililərində düşmən basqınının qarşısını almaq üçün ordu hissəsi yerləşdirilirdi və müdafiə zamanı burada yaxın kəndlərin əhalisi gizlənirdi". Belə forpost qalalara örnək olaraq Güney Azərbaycanındakı məşhur Həsənli qala şəhərinin yaxınlığındakı Əqrəb təpə adlı abidə göstərilə bilər. Bu qüllələrin bəziləri isə Assuriya mənbəələrində yazılı şərhi verilən göz qüllələri olmuşdur. Orta əsrlərdə də Dərbənd və Bakı kimi qala şəhərlərin çevrəsindəki təpələrdə gözətçi qüllələrin olduğu yazılı və təsviri qaynaqlardan bəllidir.

D.Axundov Midiyada, Kaspianda, Xarəzmdə və Hindistanda "kontrforslu qülləvarı məbədlərin" yayıldığını bildirsə də, bu tezisi təsdiqləyən heç bir konkret örnək göstərmir və belə canqurtaran nəticə çıxarır ki, "kaspio – midiya qülləvarı məbədlərinin salamat qalan tək tipi, bütün yəqinliklə, Bakı məbədidir (Qız qalasıdır)". Əldə olan faktlar göstərir ki, həmin bölgələrin heç birində, eləcə də Azərbaycanda bu tip məbədlər olmamışdır. Bu səbəbdən Bakı Qız qalasının nə zamansa "Midiyadan, … Kaspiandan… Abşerona gətirilmiş" qülləvarı məbəd tipi olması fikri absurd səslənir.

Kişessu və Xarxar qalalarının bərpa esikizəlrini özünə-sərfəli şəkildə qurduqdan sonra, D.Axundov onlara "sənəd" kimi istinad edərək qədim Bakıda Qız qalası kimi beş, yaxud yeddi (?!) "Midiya – Abşeron tipli məbədin" olduğunu iddia etmişdir. Bakı şəhərinin eradan öncə mövcudluğu, dini nüfuzu və iqtisadi imkanları haqqında tarixi qaynaqlarda heç bir bilgi qalmamışdır. Bakı qalası (əgər o zaman mövcud idisə) və onun çevrəsində Qız qalası əzəmətində yeddi atəşpərəstlik məbədi olsaydı bu məlumat, sözsüz ki, tarixi qaynaqlarda öz əksini tapardı. Halbuki Bakıda tək bir qədim od məbədinin varlığı haqqında əlimizdə bircə dəqiq, qaneedici fakt da yoxdur. Bu məsələdə ancaq nağılvarı ehtimallar yürüdülür.

Bütövlükdə hər bir yaşayış məntəqəsində bir neçə məbədin olması təbiidir. Onların sayı və ölçüsü isə şəhərin sosial-iqtisadi gücü və dini mövqeyi ilə bağlıdır. Bunu həm qədim dövr, həm də orta əsr şəhərlərində aydın duymaq olur. Ancaq şəhərlərdəki məbədlərin biri – baş məbəd ölçü iriliyi və təntənəli kompozisiyası ilə o birilərindən seçilirdi. Parfiya və Sasani kimi çox iri imperiyaların dini mərkəzi (!) olmuş Gəncək-Şiz şəhər yerində (indiki Təxti Süleymanda) arxeoloqlar cəmi üç atəşgah aşkar etmişlər. Onlar da qülləvarı biçimdə deyil, ənənəvi çahartağ tipli, günbəzlə örtülü dini binalar olmuşdur. Bu dini mərkəzin baş atəşgahı – Azərgəşəsb daha iri ölçüləri və şəhər planında mərkəzi mövqe tutması ilə o birilərdən kəskin seçilir. Tərəfi 30 metrə yaxın kvadrat planlı bu od tapınağı enli və dərin eyvanla ortasında vulkan mənşəli göl olan şəhər mərkəzinə yönəlirdi.

Təsviri materiallar kimi yazılı bilgilərə də D.Axundov elmi, məntiqli deyil, işinə yarayan yozumlar vermişdir. Nizami Gəncəvi "İskəndərnamə" poemasında İskəndərin atəşgədələri dağıtması olayını təsvir edərkən bunları da bildirmişdir:

Sonra xadimlərin tədbiri ilə Azərbaycana gəldi.

O yerdən daş hasar içində bir atəş yanırdı.

Atəşpərəst onu "özündən yanan" adlandırırdı.
Ona qızıl boyunbağılı yüz hirbüd
Pərəstiş edərək, qulluq göstərirdi.
Əmr etdi, o qədim atəşi
Söndürürdülər və külə döndərdilər.

Bu misralarda oda tapınanların Azərbaycandakı dini mərkəzi olan Gəncəkdəki möhtəşəm daş hasarlı qala içərisində, təbii halda yerdən çıxan "özündən yanan" odun üstündə ucaldılmış atəşgədənin – Azərgeşnəsb məbədinin dağıdılmasından bəhs edilmişdir. D.Axundova görə isə "Bizə elə gəlir ki, Bakı buxtasının daşlı təpələrindəki özü yanan əbədi odlar nəzərdə tutulur" və yüz hirbüd (oda tapınma ruhaniləri) – maq "hamısı bir yerdə ancaq böyük məbəddə", yəni Bakı Qız qalasının çoxqatlı yerləşgələrindəki "müqəddəs odlar önündə baş əyə bilərdilər". Tarixi faktların belə təhrif edilməsi onunla bağlıdır ki, D.Axundov Qız qalasını nadir memarlıq əsəri olaraq obyektiv araşdırmamış, özünün elə başlanğıcdaca vurğuladığı kimi "uzaq keçmişdə Abşeronda Ahura Mazda və altı Ameş Spentanın belə böyük, möhtəşəm qülləvarı məbədinin əmələ gəlməsini aşağıda sübut etməyə çalışmışdır". Elmi araşdırmalarda öncədən nəzərdə tutulan sonucu əldə etmək üçün bəlgələrin və bilgilərin beləcə zorlanması yolverilməzdir. Dəqiq sonuc yalnız geniş və hərtərəfli elmi təhlillər yolu ilə alına bilər.

Azərgeşnəsblə bağlı ərəb səyyahı Əbu Duləf (X əsr) belə bilgi vermişdir: "Bu məbədin möcüzələrinə o da aiddir ki, onun ocağı yeddi yüz il sürəsində alovlanır və onda, yanma heç bir zaman kəsilməsə də, kül tamamilə yoxdur", Sasanilər Azərgeşəsbin bu "özündən yanan" odunu bütün odların əsası bilib oradan başqa atəşgələrə od göndərmişlər. Bunu bilən başqa bir ərəb alimi – Nizaminin əsrdaşı Yaqut Həməvinin yazdığına görə, "Orada olduqca sayğı göstərilən od məbədi vardır ki, doğuda və batıdakı atəşpərəstlər odlarını ondan yandırırlar". Bakı

haqqında bilgi verəndə isə Həməvi “orada hər zaman yanan torpağın” olduğunu bildirsə də, hər hansısa od məbədinin olmasından söz açmamışdır.

Bakı Qız qalasının plan-məkan quruluşu onun məbəd funksiyası daşıması ehtimalını əsaslandırmağa imkan vermir. Əgər D.Axundovun iddia etdiyi kimi bu qüllənin 2-8-ci qatları içərisində “əbədi” od yanan və yüzdən çox kahin-maqın ibadət qıldığı tapınaqlar idisə nədən birinci qatın ikinci qatla birbaşa pilləkən əlaqəsi yoxdur? Bu qatlar arasında əlaqə üçün qoyulub-götürülən nərdivanlardan istifadə edilməsi bütövlükdə qüllənin müdafiə tikilisi olmasını göstərən ən sanballı amillərdən biridir. Abşeron kəndlərində qalan bütün qala qüllələrində də sığınacaq üçün zəruri olan bu özəllik gözlənilmişdir.

Ən əski çağlardan həmişə məbədlərin girişləri istər ölçü, istərsə də bədii tərtibat baxımından təsirli həll olunur, məbədin quruluşu tələb etdikdə (məsələn, zikkuratlarda) tapınağa qalxan pilləkənlər də kifayət qədər dayanıqlı, enli və təntənəli işlənirdi. Bunu dini mərasimlərə böyük insan kütləsinin qatılması, eləcə də prosesin böyük mənəvi-psixoloji önəmi tələb edirdi. Qız qalasının alt qatları arasında əlaqə çətinliyindən başqa, üst qatlarının da divariçi darısqal pilləkənləri və yarıqaranlıq iç məkanları bu çoxqatlı qüllədə dini mərasimlərin ziyarətlərin keçirilməsini çox çətinləşdirərdi.

Qız qalasının inşaat tarixi D.Axundova görə “təqribən e.ö. XI-X əsrlərə düşür. Ancaq bu tikintinin ən yaxın tarixi e.ö. VIII-VII əsrlər ola bilərdi”. O təkid edirdi ki, “zərdüştlükdən öncə yaradılmış Bakı məbədi (Qız qalası) Sasanilər dövründə təmiz zərdüştlük dini tikilisinə çevrilmişdir”. Amma zərdüştlük öncəsindən (Manna, Midiya) fərqli olaraq Parfiya və Sasani dövrlərinin oda tapınma məbədləri – atəşgələri elmə kifayət qədər bəllidir. Amerika şərqşünası R.Fray bu barədə belə yazmışdır: “Atəşgədələr, od tapınaqları müsəlman müəllifləri də heyrətləndirmiş və onlar bütün İran ərazisində çoxlu sayda

bu məbədləri qeydə almışlar. Onların bəziləri çox sadə tikililər idi – dörd dayağabənzər divar üstündəki günbəz (çahartağ); o qədər də az olmayan başqaları çox iri ölçüləri ilə seçilirdi”. Alimin müşahidələrinə görə, Əhəmənilər dövründən başlayaraq oda tapınma adətən açıq havada təpə başında, yaxud platformada (səki), ya da məbədin qapalı otağında aparılmış və bu prosesdə Sasani dövrünün çahartağı, görünür, özümlü kompromis olmuşdur.

R.Fray Sasani dövrünün dini memarlığı ilə bağlı fikirlərini bildirərkən onu da vurğulamışdır ki, zərdüştlük dövlət dininin ayin və mərasimləri ciddi reqlamentasiyası ilə seçilirdi və bu məbəd memarlığında şablona da səbəb olurdu. Qalmış memarlıq irsi və arxeoloji araşdırmalar əsaslanan bu fikrin gerçəkliyi şübhə doğurmur. Sasani atəşgahlarının – od tapınaqlarının mərkəzi tikilisi əsasən çahartağ tipli, kvadrat planlı kubvarı tutumu günbəzlə örtülən, çox vaxt çevrəsində ziyarətçilərin ayin dövrəsi vurması üçün dövrləmə dəhlizi olan bir qatlı binalar olmuşdur. Sasani dövrünün dini memarlığında da çoxqatlı qülləvarı məbəd tipi bəlli deyil və qaynaqlarda qeydə alınmamışdır.

Erkən orta əsrlərdə sosial iyerarxiyaya uyğun üç böyük od və od tapınağı olmuşdur – kahinlər üçün, döyüşçülər üçün, kəndlilər və sadə xalq üçün. Həmin dövrün ən böyük atəşgahı indiki Təxti Süleymanda uçuqları qalmış Azərgeşəsb məbədi idi. İbn Xordadbeh, Məssudi və başqa ərəb müəllifləri bildirmişlər ki, atəşpərəstlər arasında Azərgeşəsb atəşgahının böyük nüfuzu var və şahların hamısı Mədaindən buraya piyada gəlirlər. Sasanilər dövrünün ən iri və nüfuzlu atəşgahı olmuş bu məbəd kvadrata yaxın planı olan çahartağ tipli monumental tikinti olmuşdur.

Qız qalasının ikincidən başlayaraq yeddi üst qatının hər birində iç məkanın güney-batı tərəfində kiçik və dayaz divariçi tağçalar qurulmuşdur. Üst-üstə yerləşən bu tağçaların

döşəməsindəki maili qanovlar divar içərisi ilə qalxan yoğun saxsı boru kəmərinə birləşir. Qalanın ilk araşdırıcıları və arxeoloqlar bu tağçaları ayaqyolu, boruları isə kanalizasiya xətti hesab etmişlər. Ancaq 1920-ci illərdə V.Zummer onların ayin tağçaları olduğunu güman etmişdir. Sonralar D.Axundov bu fikri dəstəkləyərək yazmışdır: "ehtimal ki, od kultuna bəsit tapınıldığı qədim ev ocaqlarında olduğu kimi Bakı məbədində də bu prinsip üst-üstə yerləşən yeddi divariçi ocağı olan eyni dairəvi yerləşgə şəklində inkişaf etmişdir". Onun fikrincə divariçi saxsı boru xətti məbədin mərkəzi "qaz kəməri" (qazoprovod) olmuş və ondan hər qatdakı tağçaya mərasim odu üçün qol ayrılmış, sonra isə "qaz kəməri" qüllənin üst meydançasına (damına) qaldırılaraq orada incə saxsı borularla yeddi qola ayrılmışdır.

D.Axundov ehtimal edir ki, diametri 45 santimetr olan divariçi "daş quyuda" hündürlüyü 42 sm olan eyni ölçülü saxsı boru seksiyalarından tünglərdən yığılmış "qaz kəməri" birinci qatdan qüllənin zirvəsində quraşdırılmış yeddi daş boruyacan qalxır, qülləvarı məbədi "atəşli tacla" tamamlayırmış. Onun fikrincə "qaz kəməri" ilkin halda "daş quyu" şəklində olmuş, məbədin tikilişindən min ildən artıq vaxt keçdikdən sonra, yəni Sasanilər dövründə (III-VII əsrlər) Qız qalası yenidənqurmaya məruz qalanda həmin quyuda saxsı kəmər quraşdırılmışdır. Yəni "daş kəmər" o zaman "saxsı kəmərlə" əvəz edilmişdir. Bu fərziyəyə görə dikinə yüksələn ümumi kəmərdən qaz xüsusi daş çıxıntılarla tağça – altarlara verilir və bununla da hər qatın tağçasında "əbədi od" yanırmış.

D.Axundovun bu çoxsaylı ehtimallarının gerçəkliyə yaxınlığı böyük şübhə doğurur. Birincisi, Qız qalası yanında nə vaxtsa yerdən təbii yanar qazın çıxması ehtimalı təsdiq olunmamışdır. İkincisi, üç min il öncə qazın daş quyu, sasanilər çağı yoğun boru ilə belə mükəmməl nəqli sisteminin – "qazoprovodun" olması fikrinin doğruluğu da sıfra bərabərdir.

Bəllidir ki, yalnız XIX əsrdə rus rəssamlarının çəkdiyi rəsmlərdə kiçik həcmli Suraxanı atəşgahının damındakı tumbalarda və bəsit dik borularda təbii qazın yandığı qeydə alınmışdır. Hündürlüyü 30 metri keçən azman bir qüllənin qatlarına və zirvəsinə üç min il öncə o qədər də sadə olmayan qaz kəməri sisteminin çəkilməsi yalnız çağdaş təxəyyülün məhsulu ola bilər. Mövcud “daş quyuya” sonralar saxsı boruların quraşdırılması da texniki baxımdan mümkün deyil. Bu borular qüllənin tikintisi və funksiyası ilə birbaşa bağlıdır.

İstər-istəməz bu ehtimallarla bağlı ibr sıra suallar yaranır. Qüllənin qatlarındakı tağçalarda diametri 45 sm olan daş quyu ilə “gətirilən” qazın yanması necə tənzim olunurdu? Kiçik tağça içində sönmədən yanan odun tağça divarlarındakı daşları yandırıb əhəngə çevirməsinin qarşısı necə alınırdı? Alçaq tavanlı, kiçik dar pəncərələri qapalı mərtəbə yerləşgəsində daim yanan odun dəm qazı və tüstüsü necə zərərsizləşdirilirdi? D.Axundovun nağılvarı ehtimalına görə “üst meydançaya qalxan qaz kəməri orada incə saxsı boruların yardımı ilə yeddi qola ayrılır, qüllənin üzərində yeddibaşlı odların atəşli tacını yaradırdı”. Bu məsələ ilə bağlı ayrıca vurğulamaq gərəkir ki, Qız qalasının mükəmməl ölçü cizgilərini çəkmiş, onu daş-daş araşdırmış professor N.Rzayevin müşahidəsinə görə divariçi saxsı tünglər qüllənin səkkizinci qatındakı tağçanın dibində tamamlanmış və yuxarı qaldırılmamışdır. Gələnəksəl çahartağ tipli Suraxanı atəşgahına XIX yüzildə qaz kəməri çəkilmiş və onun kvadrat damının künclərinə odlu tumbalar artırılmışdrı. Bu tumbaların mexaniki olaraq Qız qalasının silindrik gövdəsinə köçürülməsi həm texniki, həm də bədii-memarlıq baxımından əsaslandırılmamışdır. Bayırda qalanın giriş qapısının alt hissəsində olan daşdan hörülmüş dəlik isə öz biçiminə görə onun yuxarıdan tökülən mayenin aşağıda qazılmış quyuya tökülməsi üçün quraşdırıldığını aydın göstərir.

D.Axundova görə Qız qalasını midiyalı maqlar ucaltmış, ikinci Bakı qalası Xarəzm memarlığının təsiri altında tikilmiş, Səbayıl qalası Babil zikkuratları şəklində həll edilmişdi; yəni çox keçmişlərdə, Bakıda qədim Ön Asiya memarlığının tam bir buketi varmış və dünyanın bundan xəbər yoxmuş. Gerçəkdə, eradan öncə Bakı şəhərinin varlığı öz təsdiqini tapmadığı kimi, ikinci Bakı qalası və "üçpilləli zikkurat şəklində" Səbayıl qalası da olmamışdır. Qız qalası kimi nadir əsərləri olan Şiran məktəbi isə orta əsrlərin olduqca güclü yerli gələnəklərə dayanan və yüzillərcə yabançı təsirlərə qarşı davamlı duruş gətirən memarlıq fenomeni olmuşdur.

**Qız qalası – "Daldalanacaq".** Gözləmək olardı ki, Bakı Qız qalasında ciddi ölçü işlərinə rəhbərlik etmiş memar N.Rzayev onun təyinatı və inşaat tarixinə daha inandırıcı arqumentlərlə aydınlıq gətirə biləcək. Ancaq bu gözlənti də özünü doğrultmadı. Qız qalasını "Bak-i qülləsi" adlandıran N.Rzayev onun tikilmə səbəbini bir məqaləsində belə izah etmişdir: "…gündüzlər gəmilərin sahinə yan almasını istiqamətləndirmək üçün qoyulmuş ağ-qara zolaqları, gecələr isə bu məqsədlə yandırılan tonqalları Şimal küləyindən qoruyacaq hansısa maneəyə ehtiyac var imiş. Bizə belə gəlir ki, möhtəşəm Bak-i qülləsi də elə bu məqsədlə yaradılmışdır". Beləcə, memarın fikrincə baş funksiyası gündüz və gecə gəmilərin sahilə yan almasına yön vermək olan bu möhtəşəm qüllə qanadı (kontrforsu) ilə birlikdə həm də öz dövrünün ən böyük gəmilərinin daldalanması üçün eni və hündürlüyü otuz metrə yaxın mühafizə səddi olan liman əmələ gətirirmiş.

Qız qalasının bayır səthlərinin yuxarı hissələri qabarıq və batıq olmaqla ardıcıl üfqi zolaqlarla plastik işlənmişdir. Batıq zolaqlar ilkin halda ağ əhəng kütləsi ilə doldurulubmuş. Ancaq bu zolaqlar N.Rzayevin yazdığı kimi çox təzadlı (ağ-qara) rənglərlə deyil, yüngül rəng çalarları (açıq sarımtıl rəngli daş hörgüsü və ağımtıl əhəng suvağı) və faktura (cod fakturalı daş

hörgüsü və sığallı əhəng suvağı) ilə bir-birindən seçilirdi. Rəng və faktura baxımından heç də kəskin fərqlənməyən belə zolaqlar yalnız yaxın məsafədən aydın görünərdi və Qız qalası həcminin incə üfqi zolaqları uzaqdan, özəllikdə də açıq dənizdən müşahidə oluna bilməzdi. Onu da bildirmək gərəkir ki, Qız qalası qülləsinin yalnız quzey tərəfi və batı tərəfinin bir bölümündə batıq kəmərlərin içərisi ağ əhəng suvağı ilə doldurulmuş, dənizə yönələn tərəflərdə isə əhəng kütləsi işlədilməmişdir. Ona görə bu qüllənin ancaq azman tutumu gündüzlər dəniz gəmiləri üçün, o da çox uzaq olmayan məsafədən mayak rolu oynaya bilərdi. Daha uzaq məsafələrə isə işarələr bu tip qüllələrdən gündüzlər tüstü, gecələr tonqal alovu vasitəsilə verilirdi.

Qız qalasının həcminin o dövrün təkcə ən böyük gəmiləri üçün deyil, kiçik qayıqları üçün belə güclü quzey küləklərindən daldalanacaq ola bilməsi fikri də inandırıcı deyil. Qalanın mövqei haqqında N.Rzayevin irəli sürdüyü fikirlər ziddiyyətlidir. O, Qız qalasını nəzərdə tutaraq bir yandan bildirir ki, "bu nəhəng qurma sahildən 25-30 m aralıqda yerləşən səlt qayanın üstündə inşa edilmişdir", o biri yandan iddia edir ki, "qurma su əhatəsinə olmuşdur". Qız qalasının indiki durumuna görə bu fikirlər bir-birini inkar edir.

Bakı Qız qalası tikildiyi vaxt dənizdə ada vəziyyətində olmamışdır. Xəzər dənizi səviyyəsinin yüksəliş çağında su Qız qalasından bir qədər aşağıdan keçən səhər qala divarlarına çatıbmış. Həm də gəmilərin bu qalanın yanına yaxınlaşması və onun qanadı arxasında "daldalanması" üçün dəniz suyunun səviyyəsi onun qülləsinin heç olmasa üçdə biri hündürlüyündə olmalı idi. Əks halda gəmilər saya oturardı. Halbuki qülləyə giriş qapısı yer (sal qaya) səthindən cəmi 1,5 metr yüksəkdədir.

Qız qalası dənizdə yetəri qədər dərinliyi olan su əhatəsində olsaydı belə onun 28 metrlik cəbhəsi (qüllənin diametri 16,50 m, qanadın çıxıntısı 11,50 m) kiçik bir gəminin

belə güclü Bakı küləyindən daldalanması üçün yetərli deyildi. Dəniz limanına küləkli havada gəmilərin daxil olması və rahat lövbər atması üçün Azərbaycan şəhərsalanları Dərbənd və Bakıda daha məntiqli və etibarlı inşaat fəndi tətbiq etmişdilər. Yazılı məlumatlardan, ən başlıcası isə XVIII əsrdə çəkilmiş planlardan bəllidir ki, gəmilərin sahildə küləkdən qorunması üçün Bakı qalasının quzey və güney uclarından bürclü qala divarları dənizin içərisinə doğru uzadılmış və körfəzdə reyd yaradılmışdı. Dənizə girən bürclərin sayı beş olduğundan Bakı qalasının həmin bölümü rus xəritələrində «Beş qüllə» adı ilə qeydə alınmışdır.

**Qız Qalası – "Daxma".** Memar M.Nəbiyev 1974-cü ildə çap etdirdiyi kiçik bir məqalədə Qız qalasının zərdüştlük dini tikilisi, ancaq tapınaq deyil, «daxma» olduğunu sübut etməyə çalışmışdır. Bəllidir ki, zərdüştlükdə mərhumun sümüklərinin dəfn olunması ənənəsi qəbul edilmişdi. Bu ənənəni gerçəkləşdirmək amacı ilə dağ başlarında "daxma", ya da "sükut qülləsi" adlandırılan özəl qüllələr tikilirdi və vəhşi quşlar bu qüllələrin üstünə qoyulan meyidin "ətini yeyib sümüklərini saxlayırdı".

Qız qalasının "daxma" olmasını əsaslandırmaq üçün M.Nəbiyev tam bir nağılvari mərasim ssenarisi düşünmüşdür. Bu ssenariyə görə "Baqavan (qədim Bakı) məskənindən və Abşeronun başqa məskənlərindən ölmüş zərdüştləri xərəkdə… Qız qalası istiqamətində aparırlar. Daxmaya (yəni Qız qalasına) çatanda kişilər mərhumu qüllənin ən aşağı mərtəbəsinə (1-ci qata) gətirirlər. Burada olan maqlar – mobidlər həsirə bükülmüş mərhumu 8-ci qatdan sallanan kəndirə sarıyır və qışqırıqla yuxarıya siqnal verirlər. Mərhumlara 8-ci qatda qulluq edən mobidlər divarlara bərkidilmiş tirdən atılan kəndirin o biri ucunu dartır və mərhumu yuxarı qaldırır; bu meyidi açıb çıxıntının damına aparır, onu daşlara bərkidir və vəhşi quşların, çalağanların öhdəsinə qoyurlar. Onlar meyidin ətini dimdikləyir və çılpaq skeleti saxlayırlar… Qız qalasının çıxıntısının

damında skelet ətdən təmizləndikdən sonra mobidlər sadə adamların sümüklərini şaxta quyusu ilə endirir, 1-ci qatda gözləyən qohumları onları qəbul edir".

Atəşpərəstlərin o qədər də bəsit olmayan dəfn mərasimini daha da qəlizləşdirən M.Nəbiyev Qız qalasının çıxıntısını astadan – sümük saxlancı hesab etmiş, ona qüllənin 4-cü qatındakı iri  pəncərə gözündən taxta balkon da "atmışdır". Onun ehtimalına görə guya bu çıxıntının içərisində qapısı və pəncərələri olan yerləşgə olmuşdur və həmin yerləşgəyə kahinlərin, zənginlərin sümükləri yığılırmış. Ancaq müəllif nədənsə bu "astadanaya" qapını içəridən – güman etdiyi dairəvi balklondan deyil, bayırdan qoymuşdur. M.Nəbiyevin Qız qalası haqqında, özünün iddia etdiyi "möhkəm inamı" bu sayaq çoxlu cavabsız suallar doğurur.

Avestada oda tapınanların qədim dəfn mərasimi belə təsvir olunmuşdur: ölənin meyidi başlanğıcda üç gün xüsusi yerləşkədə ("ked") saxlanılır, sonra onu yaşayış məskənindən uzağa aparır və vəhşi quşların didib parçalaması üçün orada tikilmiş daxmanın üstünə qoyurdular və nəhayət, təmizlənmiş sümüklər üçün bir ildən sonra gəlirdilər. Həmin sümüklər gil tabutlara – ossuriy və astdanalara yığılıb xüsusi tikililərdə yerləşdirilirdi. Belə tikililər İranda, Orta Asiyada aşkat edildiyi halda, Abşeronda hələlik tapılmamışdır. Bu mərasim zərdüştlüyün yayıldığı Yaxın Şərq regionunda, müəyyən isisna və dəyişmələrlə, yəqin ki, gözlənilirmiş. Sadə müqayisədən də aydın görünür ki, Bakı Qız qalası onun tələblərinə heç cürə uyğunlaşmır.

Bakı qülləsi, ilk öncə yaşayış yerindən uzaqda deyil, Abşeron yarımadasının baş yaşayış məskəni içərisində ucaldılmışdır. Daxma tikililəri üçün insan təmasından xeyli uzaq, xəlvəti bir yer – "sükunət yeri" seçilməklə yanaşı, onlar seçilmiş yerin relyef baxımından ən aktiv hissəsində – təpə və dağ bellərində ucaldılırdı. Qız qalası isə çoxlu təpələri və yüksək-

likləri olan ərazinin relyefinin ən aşağı hissəsində – dəniz sahilində tikilmişdir. Vaxtilə əhalisi o qədər də sıx olmayan yarımadanın kəndlərindən meyidlərin bir məkrəzə – uca qülləyə daşınması da real görünmür.

Bakı Qız qalasının vertikal ölçüləri daxma tikintisi təcrübəsi üçün səciyyəvi deyil. Mütəxəssislərin müşahidəsinə görə daxmalar o qədər də böyük olmayan, planda kvadrat yaxud oval biçimli tikililər olub yonulmamış, ya da kobud işlənmiş iri daşlardan hörülürdü. Quba rayonunun Buduq kəndindəki daxmanın hündürlüyü 8 metr. Hindistandakı "sükut qülləsinin" hündürlüyü 8, diametri isə 16 metrdir. Elmi ədəbiyyatda rəsmi verilən İrandakı bir daxma sərt dağ relyefində oturdulmuş və ən hündür yeri 4 metrə yaxın olan oval planlı tikilidir. Həm də bu daxmalar yalnız damlarından istifadə olunan birqatlı bütöv tikililərdir. Buduq dağlarının başında tikilmiş daxma bir-birinə yapışdırılıb planda səkkiz biçimi olmuş iki silindrik həcmdən əmələ gəlmişdir. Qaba işlənmiş daşlardan ucaldılan tikilinin hər iki silindrinin yastı damı yüksəkliyi bir metrə yaxın olan divarça ilə hasarlanmışdır. Bir çox hallarda isə zərdüştlər ayrıca daxma tikilisi belə ucaltmır, meyidlərin "təmizlənməsi" üçün yaşayış yerindən uzaqda olan qayalardan yaralanırdılar. Bu səbəbdən bakı Qız qalası kimi möhtəşəm çoxşattı bir qüllənin "daxma" kimi təqdim edilməsi zərdüştlük dövrünün memarlıq irsini və inşaat texnikasını dərin bilməməkdən irəli gəlir.

M.Nəbiyev öz ehtimalını əsaslandırmaq üçün iddia edir ki, Qız qalasının qatlararası günbəz örtükləri heç vaxt olmamışdır. Onun fərziyyəsinə görə Qız qalasının silindrik qülləsinin iç məkanını səkkiz dairəvi dar balkon (eni 80 sm) kəmər kimi səkkiz qata bölürmüş və bu da içəridə yaxşı ventilyasiya yaratmaqla yuxarı və aşağı qatlar arasında səs siqnallarının ötürülməsinə imkan verirmiş. Daşdan ucaldılan tikililərdə konsol şəklində dairəvi balkon quraşdırılması mühəndislik baxımından

mümkün deyil. Elə bu səbəbdən Azərbaycan memarlığının çoxəsrlik təcrübəsində belə konstruktiv fəndə tuş gəlinmir.

Qüllənin slindrik iç məkanında qatlararası örtük (yəni döşəməli mərtəbələr) yox idisə, onda ikinci qatdan başlayaraq hər qatda bir tağça niyə quraşdırılmışdı? M.Nəbiyev bu sorğuya da əcaib açıqlama vermişdir. Diametri 35 santimetrə yaxı olan saxsı boru kəməri (müəllifin deyimincə «şaxta quyusu») ilə sümüklərin damdan birinci qata endirilməsinin mümkünsüzlüyünü özü də hiss etdiyindən o, tağçaların boru kəmərində yaranacaq "tıxacların itələnməsi xidməti üçün" qoyulduğunu iddia etmişdir. Bakı Qız qalasının funksional təyinatı haqqında M.Nəbiyevin irəli sürdüyü versiyanın reallıqdan və elmilikdən uzaqlığı təkcə meyidin otuz metr yüksəkliyə kəndirlə qaldırılması və skeletlərin boru kəməri ilə takka-turuk aşağı buraxılması fikrinin absurdluğunda deyil. Yaxşı bilmədiyi qədim dini mərasimi bu qədər eybəcər şəklə salmaq yolverilməzdir. Bu ehtimalın müəllifi uydurduğu fərziyyəni "təsdiqləmək" amacı ilə həm də mövcud abidənin memarlığını və konstruktiv həllini təhrif etmiş və ona öz düşüncəsinə uyğun elementlər də artırmışdır. Yerinə və həcm-məkan həllinə görə Bakı Qız qalasının "daxma" memarlığı ilə heç bir bağlılığı yoxdur.

**Qız qalası – "Rəsədxana".** Təcrübəli pedaqoq olmuş memar A.Aslanov Bakı Qız qalasının təyinatı haqqında daha mücərrəd fərziyyə irəli sürmüşdür. O, 1986-cı ildə çap etdirdiyi bir səhifəli tezisdə, özünün də vurğuladığı kimi sübut etmək istəyir ki, "Qız qalası bina deyil, əgər tikilidirsə onda alət, cihaz, astronomik hesablamalar üçün instrument, Bəsit Rəsədxanadır, kahinlərin onlara tabe olan məbəd torpaqlarında təsərrüfat – mədəni həyatın idarəsi və nüfuzu üçün dahi kəşfidir…" Abidənin ciddi memarlıq-inşaat təhlilini aparmayan müəllif öz ehtimalını əsaslandırmaq üçün sadəcə bildirmişdir ki, "heç nəyə oxşamayan Qız qalası" memarlıq-planlaşma, kompozisiya, bədii qanunlar, üslublar və s. kəşf edildiyi və

formalaşdığı dövrdən öncə ucaldılmış, funksional, utilitar təyinat, praktiki gərəklilik, möhkəmlik və dayanıqlıq tək zəruri kriteriya olduğu zaman tikilmişdir». A.Aslanov Qız qalasının tarixini Erkən Tunc dövrünə – eradan öncə III minilliyin ortasına, II minilliyin başlanğıcına aid etmişdir.

Görünüşündə müəyyən arxaiklik duyulsa da, Qız qalası bəsitlikdən və ibtidailikdən çox uzaq bitkin memarlıq əsəridir. Bu möhtəşəm qüllənin olduqca dərin düşünülmüş plan-məkan quruluşu, bütöv kompozisiyası, dayanıqlı mühəndis-konstruktiv sistemi, bitkin daş hörgüsü və çox aydın təyinatı vardır. Qız qalasının həcm-məkan həlində A.Aslanovun fərz etdiyi “funksional, utilitar, təyinat, praktiki gərəklilik, möhkəmlik və dayanıqlıq yeganə qaçılmaz meyarlar olan» dövrlərdə ucaldılmış tikililərin bəsitliyi və qabalığı yoxdur. Bakı Qız qalası yetkin üslubu memarlıq əsəridir.

A.Aslanov kimi “Qız qalası”, şübhəsiz, Şumer şəhərlərindən, Misir piramidalarından daha gec, ola bilsin ki, Babil zikkuratlarından sonra, ancaq Toenoçitlana və İskəndəriyyə mayakından, Parfenon və Böyük Çin səddindən öncə tikilmişdir” bəyanatını vermək asandır, ancaq onu təsdiqləmək çox zordur, daha doğrusu mümkün deyil. Çünki bunun üçün əldə heç bir tutarqa yoxdur. Ona görə ustad müəllimin Qız qalası ilə bağlı “sübut etmək” istədiyi bütün iddiaları havada – boşluqda qalır.

Qız qalası haqqında yazarkən A.Aslanovun və bir sıra başqa müəlliflərin sıx-sıx vurğuladıqlar “heç nəyə bənzəmir”, “analoqu yoxdur” tipli fikirlər də düzgün deyil. Bakı Qız qalası Dərbənddən tutmuş Şamaxıyacan bütün Şirvan bölgəsinin çoxəsrlik memarlıq gələnəyinin, özəlliklə hərbi memarlığın yüksək epoxal sonuclarından biridir və bir sıra memarlıq-məkan özəlliklərinə görə Abşeron kəndlərində qalan orta əsr qala qüllələrinin bənzəridir. Daha doğrusu bu qala qüllələrinin tipoloji təkamülünün zirvəsi Qız qalasıdır.

Tarixçi-arxeoloq Q.Əhmədov 1986-cı ildə çap etdirdiyi bir məqaləsində “dayaq divarının” (kontrforsun) güney hörgü səthindən azacıq irəli çıxan bir daş sırasına əsaslanaraq belə nəticəyə gəlmişdir ki, “Qız qalası vaxtilə müəyyən binanın şimal-qərb tərəfində, qübbə şəklində ucaldılmış tikilidir. Bəlkə də bu tikinti kompleksi rəsədxana, indi gördüyümüz Qız qalası isə onun qübbəsi olmuşdur”. O, bu ehtimalını bir qədər də əsaslandırmaq üçün qala üstündəki kitabəni nəzərdə tutaraq “Yazıda – “qübbə” sözünün varlığı Qız qalasının rəsədxana qübbəsi olması mülahizələrimizi həqiqətə yaxınlaşdırır” fikrini irəli sürmüşdür.

Yuxarıdakı mülahizə ilə bağlı ilk öncə nəzərə çatdırılmalıdır ki, Qız qalasına bitişik olub onun hansısa kompleksə daxil olması fikrinə əsas verən sanballı bina qalıqları aşkar edilməmişdir. Sal qaya üzərində ucaldılmış bu azman abidə ayrıca dayanan qüllə tipli tikilidir və onun “hansı binanınsa bir hissəsi” olması (Q.Əhmədov) mümkün deyil.

Tarixçi alimin istinad etdiyi “qübbə” sözünə gəldikdə, onun yanlışlığını (“qüllə” əvəzinə “qübbə” oxunuşunu) bir kənara qoyaraq qeyd edilməlidir ki, bu çoxmənalı ərəb sözü daha çox konstruktiv element olan “günbəz” anlamında işlədilir. Qız qalasının silindrik qülləsi isə heç vaxt günbəzlə – “qübbə şəklində örtük ilə” örtülməmişdir.

Orta əsrlərin ən mükəmməl rəsədxana kompleksləri sayılan Marağa (1259-cu il) və Səmərqənd (XIV əsr) rəsədxanaları haqqında ilkin yazılı qaynaqlar, eləcə də arxeoloji araşdırmalar çox aydın şəkildə göstərir ki, bu tip komplekslərdə “rəsədxana binasının qübbə hissəsi” anlayışı olmamışdır. Bu komplekslərin baş tikilisini, yəni rəsədxana binasını o dövr müəllifləri “uca qübbə” yaxud da “uca günbəd” kimi dəbdəbəli epitetlə təqdim etmişlər. Marağa rəsədxanası kimi elxanilər dövründə tikilmiş bir çox xeyriyyə komplekslərinin baş tikililəri – monumental türbələr də (Qazan xan, Rəşidəddin və Olcaytu

xan türbələri) əlyazmalarda eyni epitetlə təsvir olunmuşdur. Mənaları bir olan bu yüksək adlarda tikilinin funksional təyinatı deyil, onların abidəvi həcm-məkan quruluşu, ən başlıcası isə memarlıq kompleksində tutduğu mərkəzi (yüksək) mövqe əks olunmuşdur. Bunu o çağın belə bir faktı da təsdiq edir ki, Təbrizin Şənb Qazan xeyriyyə kompleksinin baş tikilisi – Qazan xan türbəsi "uca günbəd" adı ilə verilmiş, rəsədxana isə "günbəd (günbəz) şəkilli" bina kimi təqdim olunmuşdur.

Konkret rəsədxana binalarına gəldikdə, onların funksiyalarına uyğun özəl və kifayət qədər mürəkkəb plan-məkan quruluşu olmuşdur. Dairəvi planlı rəsədxana binasının simmetriya oxunda günəş və ayın müşahidəsinə xidmət edən azman "fəxri sekstant" qurulurdu. Bu çox gərəkli alətin uca tutumunun yarısı yeraltı qrunta gedir, o biri ucu isə üçmərtəbəli binanın damınacan yüksəlirdi. Sekstantın yanlarında müxtəlif növlü işçi otaqlar yerləşirdi. Bunlardan başqa rəsədxana binasında göy cisimlərinin müşahidə edilməsi üçün başqa qurğular və yerləşgələr də vardı. Rəsədxana binalarının dış diametri Qız qalası ilə müqayisədə iri idi; Marağa rəsədxanasında 22,80 metr, Uluqbəy rəsədxanasında isə 48,00 metr civarında olmuşdur. Ancaq hər iki binanın yüksəliyi Qız qalasından xeyli alçaqdı. Qız qalasının çox uca, ancaq sadə və bütöv qülləsi, eləcə də iç quruluşu onda ciddi astronomik müşahidələr aparılması üçün yararsızdır. Onun örtük günbəzlərinin ortasında olan dar bacalardan isə yalnız bəsit, ulduz seyrçiliyi aparmaq olardı. Bakı Qız qalasının rəsədxana sayılması da memarlıq bilgisizliyindən qaynaqlanır.

İlk araşdırmalarında Bakı Qız qalasının dini səciyyəli tikili olduğunu ehtimal edən görkəmli Bakı tarixçisi S.Aşurbəyli sonradan arxeoloqların araşdırmalarını və yazılı qaynaqları daha geniş öyrənməklə, özünün də qeyd etdiyi kimi, "bu baxışını dəyişmək zorunda qalmışdır". Dini tikili versiyasını rədd edən tarixçi Qız qalasını şəhəri "həm dəniz,

dəm də quru tərəfdən qoruyan müdafiə qülləsi" olaraq qəbul etmiş, "hərbi yürüşlər zamanı Şirvanşah ailəsi və feodallarla birlikdə bu qüllədə gizlənir və Qız qalasının zirvəsindən müdafiə aparılırdı" nəticəsinə gəlmişdir.

S.Aşurbəylinin fikrincə yaşına görə daha erkən olan bu əzəmətli qüllə ölçülərinə görə də Abşeronun bütün qüllələrini ötürdü və o, Bakı qalası içərisində ən dayanıqlı müdafiə tikilisi və baş içqala olmuşdur. Araşdırıcı Qız qalasının tikilmə dövrü ilə bağıl dəqiq tarix göstərməmiş, yalnız onun Sınıq qala məscidindən (XI əsr) öncə tikildiyini güman etmişdir. Tarixçinin başqa müşahidəsinə görə, dəniz tərəfdən düşmən hücumu təhlükəsi Şirvanşah I Axsitanı dəniz sahilində müdafiə qülləsi tikməyə məcbur etmiş və o, XII əsrdə Qız qalasını ya tikdirmiş, yaxud da bərpa etdirmişdir. Bizcə görkəmli tarixçi bu versiyalardan birində – I Axsitanın Qız qalasını XII əsrdə tikdirdiyi fikrində gerçəyə daha yaxın olmuşdur.

Qız qalasının tikilmə tarixi və funksional təyinatı ilə bağlı başqa ehtimallar da irəli sürülmüşdür və bu proses bugün də davam edir. Həmin problemləri "həll etməyə" həvəs göstərənlərin çoxu memarlıqdan uzaq, memarlıq tarixindən bilgisiz olduqlarından, onlar "kəşf" etdikləri "yeni ideyalarda" çox ifrata varır və absurdluğa yol verirlər. Bu səbəbdən onların uydurma ehtimallarını müzakirəyə çıxarmağa dəyməz.

Çox ciddi və daha diqqətli yanaşıldıqda bu məsələdə yaranmış aşıotaj son dərəcə yersiz və qondarma görünür. Çünki üstündəki tikinti kitabəsi, inşaat texnikası, planlaşma-məkan quruluşu və memarlıq-bədii həlli baxımından Qız qalası bütövlüklə Şirvanın Səlcuqlar çağı memarlığının özəlliklərini daşıyır. Qüllənin birinci qatında, su quyusunda və yaxın çevrəsində aparılmış arxeoloji araşdırmalar da bunu dəstəkləyir. Bütün göstəricilərinə görə Qız qalası Bakının möhkəm qala şəhərə çevrildiyi dönəmin – XII yüzilin ən anıtsal müdafiə qülləsi, Azərbaycan hərbi memarlığının bir şah

əsəridir. Bakılı memar Məsud Davud oğlu funksiyasına görə daha çox mühəndislik dayanıqlığının tələb olunduğu bir qala ktikintisində sənət özəlliklərinə də böyük yer vermək örnəyini ustadcasına ortaya qoymuşdur. Qız qalası dahi sənətkar bacarığının güclü bədiilik dərəcəsinə yüksəltdiyi, yenilməzlik, alınmazlıq və möhtəşəm gözəllik simvoluna çevirdiyi sadəlikdir.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Əhmədov Q. Qız qalası haqqında yeni mülahizələr. Elm və həyat, 1986.
2. İsmizadə Ö.Ş. Bakı Qız qalasının özülünün quruluşu haqqında. Azərbaycanın maddi mədəniyyəti. VI cild, Bakı, 1965.
3. İsmizadə Ö.Ş., Ciddi H.Ə. Bakı Qız qalas. Bakı, 1968.
4. Nizami Gəncəvi. İskəndərnamə. Filoloji tərcümə Q.Əliyev. Bakı, 1983.
5. Rzayev N. Bak`ı qülləsi. "Elm və həyat" jurnalı, №2, 1995.
6. Абд ар-Рашид ал-Бакуви. Китаб талхис ал-асар ва` аджа`иб ал-Малик ал-Каххар. Москва, 1981.
7. Александрович-Насифи Дж. Девичья башня в Баку. Известия Азкомстарис, третий выпуск, Баку, 1927.
8. Алескерзаде А.А. Надписи архитектурных памятников Азербайджана эпохи Низами. Архитектура Азербайджана. Эпохи Низами. Баку, 1947.
9. Асланов А.С. «Девичья башня» в Баку и проблемы его назначения. Тезисы докладов II Республиканской конференции. «Проблемы архитектуры и градостроительства». Баку, 1986.

10. Ахундов Д.А, Архитектура древнего и раннесредневекового Азербайджана. Баку, 1986.
11. Ашурбейли С.Б. История города Баку. Период средневековья. Баку, 1992.
12. Бретаницкий Л.С. Зодчество Азербайджана XII-XV вв. и его место в архитектуре Переднего Востока. Москва, 1966.
13. Горчакова Н.Г., Щеблыкин И.П. «Девичья башня». Архитектура Азербайджана. Эпоха Низами. Баку, 1947.
14. Дьяконов М.М. История Мидии. Москва-Ленинград. 1956.
15. Зуммер В.М. Искусство Азербайджана (Типологический очерк). Известия Кавказского – историко-археологического института. №7, 1986.
16. Кашкай С.М. Из истории Маннийского царства. Баку, 1977.
17. Керимзаде С.Д. Надписи памятников архитектуры Азербайджана XI-XIV вв. Автореферат диссертации кандидата исторических наук. Баку, 1970.
18. Крачковская В.А. Историческое значение памятников южноарабской архитектуры СВ. том IV, Москва, 1948.
19. Набиев М.А. Тайны Бакинской Гыз галасы. Доклады АН Азерб.ССР, том XXX, №6, 1974.
20. Неймат М.С. Корпус эпиграфических памятников Азербайджана. Том I, Баку, 1991.
21. Пахомов Е.А. Девичья башня и ее легенды. Известия Азерб.археолог.комитета, вып.1, Баку, Азкомстарис, 1925.
22. Пугаченкова Г.А. Искусство Туркменистана. Москва, 1967.

23. Саламзаде А.В. Архитектура Азербайджана XVI-XIX вв. Баку, 1964.
24. Ханыков Н.Б. О некоторых арабских надписях в Дербенте и Баку. Труды Восточного Отделения Имперского Русского Археологического Общества. СПб., 1856, вып.I.
25. Усейнов М., Бретанийкий Л., Саламзаде А. История архитектуры Азербайджана. Москва, 1963.
26. Фрай Р. Наследие Ирана. Москва, 1972.
27. Щеблыкин И.П. Памятники Азербайджанского зодчества эпохи Низами. Баку, 1943.



Kitabə (Bərpadan öncə)



Kitabə (Rəsm C. Qiyasi)



Kitabə (Bərpa zamanı)



Kitabənin bərpa cizgisi




**Qız Qalası (XX əsrin əvvəlləri)**



Bakı Qız qalasının kitabəsi
(bərpa C.Qiyasi)



Bakı Qız qalasının kitabəsi



**Mərdəkan qəsrləri**

**Mərdəkan kiçik qəsrin müəllif kitabəsi**







*Bakı Qız qalası (İ.Şeblıkin, 1937*



**Midiya qalası Kişessu. e.ə. VIII əsr**



**XII əsr Bakı Qız qalası (memar Məsud Davud oğlu)**



**Tehran  yaxınlığında atəşpərəst daxması  (M.Dyelafua)**

**Məşədixanım Nemət**
*AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru,*
**Vəfa Quliyeva**
*tarix elmləri doktoru*

# Azərbaycan tarixinin təbliğində İçəri şəhər abidələrinin əhəmiyyəti

Yaxın Şərqin qapısı sayılan Odlar yurdu - Azərbaycan Avropa ilə Asiyanın qovşağında yerləşir. Azərbaycan bəşər sivilizasiyasının yarandığı ilk mərkəzlərdən biridir. Bunu arxeoloji qazıntılar zamanı aşkarlanmış çoxsaylı maddi-mədəniyyət nümunələri təsdiqləyir. Tarixən Asiyanı Avropa ilə birləşdirən karvan-ticarət yolları, o cümlədən "İpək" yolu Azərbaycandan keçmişdir. Tutduğu geo-strateji mövqeyə görə Azərbaycan hər zaman dünya maraqlarının toqquşduğu məkan olmuşdur. Tarix boyu bir çox qüdrətli imperiyaların tərkibinə daxil olmaqla yanaşı Azərbaycan xalqı müəyyən dövrlərdə müstəqillik əldə etmiş və özünəməxsus mədəniyyətin yaradıcısı kimi millətlər arasında layiqli yerini tutmuşdur.

Bakı əsrlər boyu mədəniyyətlərin qovuşduğu məkan olub. Burada atəşpərəstlik, xristianlıq, islam mədəniyyətləri öz izini buraxıb, xalqın adət, ənənələrində əks olunub. Bəlkə ona görə Azərbaycan xalqı bütün dinlərə və mədəniyyətlərə açıqdır. Bu gün Azərbaycanda yəhudi də, xristian da, katolik də özünü sərbəst və azad hiss edir. Bu Azərbaycan xalqının, Azərbaycan dövlətinin böyük, danılmaz nailiyyətidir. Bu gün ictimai-siyasi sabitlik ilk növbədə Azərbaycan xalqının milli və dini mənsubiyyətə olan qarşılıqlı hörmət nəticəsində əldə olunmuşdur. Bakıda unikal tolerantlıq mövcuddur və bu yaranmış multi mədəni mühit daha da inkişaf etdirilir, mədəniyyətlərarası dialoqa zəmin yaradır.

Müasir dünyada gedən qloballaşma prosesində qabaqcıl yer tutmaq istəyən ölkə özünün iqtisadi, siyasi gücü ilə yanaşı, tarixi irsi, mədəniyyəti, incəsənəti ilə də tanınmalıdır. Azərbaycan xalqı qədim tarixə və zəngin mədəniyyətə malik olan bir xalqdır. Bu tarixi yaddaş əsrlərdən bəri qorunub saxlanmış memarlıq abidələrində yaşayır, xalqın, millətin mənəviyyatını özündə əks etdirir. Maddi-mədəniyyət, memarlıq abidələri, toponimlər bir millətin müəyyən coğrafi məkanda formalaşmasını təsdiqləyən ən tutarlı sənədlərdir. Ona görə də zaman keçdikcə bu mədəni miras zəngin xəzinəyə çevrilir.

Azərbaycan xalqının mədəni irsinin nadir incisi, hər bir azərbaycanlının qürur duyduğu məkan İçəri şəhər min illik tarixə malik olmuş və Azərbaycan dövlətçiliyinin rəmzi sayılan Şirvanşahlar dövlətinin paytaxtı qədim Bakının tarixi mərkəzidir.

Bakının qoynunda, möhtəşəm qala divarları əhatəsində yerləşən, açıq səma altında bir muzey kimi fəaliyyət göstərən İçəri şəhər qədim və orta əsrlər dövrünə aid zəngin maddi-mədəniyyət abidələrini əsrlərdən bəri qoruyub saxlayır.

Onlarla tarixi abidənin cəmləşdiyi müqəddəs məkanın nadir abidələrindən olan burada yerləşən məscidlərdir.

İslam tarixən orta əsr Azərbaycan dövlətlərinin ideologiyası olmuşdur. Bu ideologiyanın daşıyıcıları müsəlman ruhaniləri idi. Hökmdardan və baş sərkərdədən sonra dövlətdə üçüncü-sədr vəzifəsini tutaraq, müsəlman ruhaniləri güclü sosial bazaya malik olmuşlar. Onların əlində böyük gəlir gətirən vəqf əmlakı, təhsil və xeyriyyə təşkilatları cəmləşirdi. Baş sədr böyük səlahiyyətlərə malik idi. O, seyyidləri, müdərrisləri, şeyx-ül-islamları, pişnamazları, hafizləri, qazıları, mühtasibləri, mütəvəllilləri (vəqf əmlakına nəzarət edənləri) vəzifəyə təyin və azad edə bilərdi. Bu vəzifə sahibləri baş sədrin razılığı olmadan qərar verə bilməzdilər. Baş sədr vəzifəsi nəsli idi. Zəmanəmizə gəlib çatmış Şirvanşah Fərrux

Yasarın bir yazılı hökmündə (h.879 il=1474 il) ruhanilər dövlətin sütunları adlandırılır və onların köməyi olmadan rəiyyəti itaətdə saxlamağın mümkünsüzlüyü xüsusi vurğulanır. (1)

Şeyxlər, axundlar, şeyx-ül-islamlar, imamlar şahın yaxın məsləhətçiləri olmuş və Məclislərdə vacib dövlət məsələlərinin müzakirələrində fəal iştirak etmişlər.

Azərbaycanda, o cümlədən, İçəri şəhərdə, məscid binaları hökmdarlar, bir sıra ruhani alim, qazı, sədr, baş sədrlər tərəfindən tikdirilmişdir. Qəsr küçəsindəki məscidin kitabəsindən məlum olur ki, məscid qazı tərəfindən tikdirilib. Məscidlər ibadət yerləri olmaqla yanaşı eyni zamanda ictimai-siyasi mərkəzlər kimi də fəaliyyət göstərirdilər. Məscidlərdə mədəni-maarif və məhkəmə işlərinin aparılmasını məscid kitabələrinin məzmunundan da görmək olur. (2)

Bir çox məhəllə məscidlərində məktəblər fəaliyyət göstərib. Bunlardan biri Asəf Zeynallı küçəsində yerləşən məktəb-məsciddir.

Bir sıra hökm, vəqfnamə, inşaat kitabələri və s. bu kimi sənədlər İçəri şəhərdə yerləşən Camenin, məktəb-məscidin, məhəllə məscidlərinin üzərində həkk olunmuşdur. İçəri şəhərdəki Came məscidinin kompleksinə daxil olmuş minarənin kürsülüyündə bir sıra mühüm ictimai sənədlərin daş nüsxələri yerləşir. Bu nadir nüsxələrin divara hörülməsi orta əsrlərdə Came məscidlərinin sosial və siyasi-mədəni mərkəzlər olduğunu sübut edir. V.V.Bartold yazırdı ki: "Camelər tək ibadət yeri deyil, həm də dövlət və ictimai həyatın cəmləşdiyi bir məkandır. Burada xəzinə saxlanılır, məhkəmə işləri aparılır, ictimai məsələlər həll olunurdu, mühazirələr oxunurdu". Came məscidləri kompleksində Mədrəsələr də fəaliyyət göstərirdi. İçəri şəhərdəki A.Zeynallı küçəsində Came ilə üzbəüz yerləşən "Kiçik karvansara" adlanan abidə əslində Mədrəsə binasıdır.(3)

Məktəb-məscid binasının üzərindəki yazıdan və yaxınlığında aparılan arxeoloji qazıntı zamanı tapılan maddi-

mədəniyyət nümunələrindən məlum olur ki, orta əsrlərdə burada dini-ictimai, mədəni mərkəzlərdən biri yerləşirdi. Çox güman ki, kompleks məktəb-məscid binası üzərindəki kitabədə adı çəkilən  Şeyx Tahir xanəgahı olmuşdur. Onun fəaliyyətinin başlanğıcını XI-XII əsrlərə aid etmək olar. Bütün orta əsr boyu xanəgahların əsasən karvan-ticarət yolları üzərində yerləşib, ticarəti ələ almalarını, onların sənətkar təşkilatları ilə sıx əlaqələrini və ölkənin sosial-iqtisadi, mədəni həyatına böyük təsirini nəzərə alsaq, belə bir qənaətə gəlmək olar ki, Şeyx Tahirin xanəgahı Bakı limanı vasitəsilə aparılan ölkələrarası ticarətdə və eləcə də ölkələrarası iqtisadi-siyasi, mədəni problemlərin həllində mühüm rol oynamışdı.(4)

İçəri şəhər məscidlərinin üzərində dörd sədr əl-möhtərəmin adı çəkilir: Nəsirəddin Gəştasib bin Hacib Hüseyn, Əmin əd-Din Cumad Gəray b. Bəkr, Haca Əmir şah b.Haca hacı Yaqub, Keyxosrov b.Haca. Əl-möhtərəm titulu baş sədrlərə verilirdi.

İçəri şəhərin dövrümüzə salamat gəlib çıxan ən qədim islam dövrü abidələrindən biri Məhəmməd məscididir. Bu məscidin şimal fasadında giriş qapısından bir qədər aralı ərəbcə yazılmış kitabə var: “Bu məscid əl ustad-əl-rəis Məhəmməd ibn Əbubəkr tərəfindən inşa olunub. h.471-ci ildə (1078-79)”.(5) Bu tarix Şirvanşah I Fəribürzün hakimiyyət dövrünə təsadüf edir. Həmin dövrdə şəhər hakimi rəis adlandırılırdı. Rəislər şəhər əhalisinin varlı təbəqəsi arasından seçilirdi. Rəislər hökmdarın tələblərini şəhər əhalisinə, onların narazılıqlarını isə hökmdara çatdırırdılar. Onlar çox vaxt Şirvanşaha müxalifətdə durur və şəhər sənətkarlarının hərəkatına başçılıq edirdilər. “Əl-ustad” tituluna görə demək olar ki, Məhəmməd tacirlər qildiyasına başçılıq edirdi. Yazıda Şirvanşahın adı qeyd olunmayıb. Bu bir daha mənbələrin yazdığını təsdiqləyir ki, rəislər cəmiyyətdə böyük nüfuza malik idilər və şəhər idarəetməsində mühüm inzibati rol oynayırdılar. Bu məscid

Məhəmməd məscidi adlandırılsa da XVIII əsrdən Sınıqqala adı ilə tanınıb. Bunun da bir tarixçəsi var. Bu 1723-cü ildə I Pyotr qoşunlarının Bakıya hücumu ilə əlaqədardır. Beləki, Xəzər dənizində əlverişli liman olan Bakını ələ keçirmədən Rusiya İrana oradan isə Hindistana irəliləyə bilməzdi. Buna görə də 1723-cü ildə general Matyuşkinin başçılığı ilə 15 rus hərbi gəmisi Bakı sahillərinə yan alır. Onlar şəhər hakiminə ultimatum göndərərək Şəhəri təslim etməyi tələb edirlər. Rədd cavabı alan ruslar şəhəri mərmi atəşinə tuturlar. Şəhər müdafiəçiləri mərmilərdən birinin Məhəmməd məscidinin minarəsinə necə dəydiyinin və onu necə silkələdiyinin şahidi olurlar. Minarə öz əzəmətini qoruyub saxlasa da onun yuxarı hissəsi dağılır. Mərmi atəşi qala divarında dəlmə-deşiklər əmələ gətirir. Bu zaman güclü külək qalxır və rusların yelkənli hərbi gəmilərini sahildən dənizə aparır. Bakının müsəlman əhalisi bunu Allahın düşmənlərə, zalımlara verdiyi cəza kimi qiymətləndirir. Bu çox vaxtında olan bir fasilə idi. Bakılılar bu fasilədən səmərəli istifadə edib qala divarını bərpa edirlər. Bir neçə gündən sonra külək yatır və rus hərbi gəmiləri yenidən sahilə yan alırlar. Onlar qala divarının dağıdılmış yerlərinin tamamilə bərpa olunduğunu görüb çox təəccüblənirlər. Lakin, suvaq örtüyü çox təzə olduğundan qala rusların bu dəfəki həmləsinə davam gətirə bilmir. Bakı qalası ruslar tərəfindən alınır. Bu hadisədən sonra  XIX əsrin 80-90-cı illərinə kimi Bakı sakinləri Məhəmməd məscidinin minarəsini bərpa etmədilər. Onlar bunu bakılıların əyilməzliyinin, igidliyinin bir nişanəsi kimi saxlamışdılar. O vaxtdan məscid xalq arasında Sınıqqala adını almışdır.

Məscidə bitişik şəkildə qaldırılmış minarənin yuxarısını stalaktit kəmər üzərində oturdulmuş daş şəbəkəli eyvan-şərəfə tamamlayır. Eyvanın daş şəbəkəsinin üzəri Azərbaycan ornamental sənətində geniş yayılmış çoxbucaqlı və altı guşəli ulduzlarla zəngin bəzədilmişdir. Stalaktit kəmərin altında kufi

xətti ilə Quranın bir ayəsi yazılıb. Ərəb alimi Əbd əl-Həyy Həbibi məscidin yazısını kufi xəttinin paleoqrafik xüsusiyyətlərinə görə təkrarsız, dünyada analoqu olmayan bir yazı adlandırır. (6) Minarənin hündürlüyü 22 m-dir. Bu minarə massivliyinə və stalaktitlərin mürəkkəbliyinə görə seçilir. XX əsrin 80-ci illərində aparılmış bərpa işləri zamanı məscidin ibadət zalının altından oxvari tağ-tavanlı analoji otaq aşkarlanmışdır. Bu otağın alt təbəqəsinin altından arxeoloji qazıntılar zamanı buradan əldə edilən maddi-mədəniyyət nümunələri sübut edir ki, Məhəmməd məscidi islama qədər fəaliyyət göstərən atəşpərəstlik məbədi üzərində tikilmişdir.

Son illər ərzində İçəri şəhərdə turizm infrastrukturu fərq ediləcək dərəcədə təkmilləşmişdir. İçəri şəhər adlandırdığımız tarixi məkan hal-hazırda müasir turizm mərkəzinə çevrilmişdir. Memarlıq abidələri və tarixi yerlər konservasiya edilib, yeni görkəm alaraq, turist marşrutlarına salınır, məhz turizm məqsədləri üçün istifadə edilir. Bir neçə turist marşrutları müəyyənləşdirilib, marşrutlar üzrə canlı bələdçilərlə yanaşı beş dildə audiobələdçi xidmətindən də istifadə olunur, bir neçə muzey ekspozisiyaları yaradılıb, fəaliyyət göstərir. Bunlardan Sıratağlı Dini-Memarlıq Kompleksində yerləşən açıq səma altında "Bədii daş yonma sənəti nümunələri", Çin Məscidində yerləşən Numizmatika muzey ekspozisiyalarını, Qədim Bağ Kompleksində açılan arxeoparkı qeyd etmək olar.

Bu gün Azərbaycan xalqının zəngin mədəni irsini təşkil edən İçəri şəhər tarixi-memarlıq abidələr kompleksi daimi dövlətin diqqət mərkəzindədir və qorunur.

# İstifadə edilmiş ədəbiyyat siyahısı


1. М.С.Неймат. Корпус эпиграфических памятников Азербайджана. Т.1, стр.11.
2. Там же, стр.53
3. М.С.Неймат. указ.соч., стр.37.
4. Там же.
5. Бартольд В.В. История культурной жизни Туркестана. Сочинения, т.2, часть 1, 1963, стр. 205.
6. Вафа Кулиева. Ханака в бакинской крепости. Ж.Ирс, №5(53), 2011, стр. 42-46.
7. Вафа Кулиева. Роль и позиция мусульманского духовенства в социально-политической и культурной жизни Азербайджана в конце XIX начале XX вв. в ракурсе армяно-азербайджанских политических отношений. Баку, 2003 г., стр.15-20

**İdris Əliyev**
*tarix üzrə fəlsəfə doktoru*
**Kamil İbrahimov**
*tarix elmləri doktoru, professor*
**Elbrus Axundov**
*Elmi-bərpa emalatxanasının baş mütəxəssisi*

# 2016-cı ildə İçəri şəhər ərazisində "Böyük Qala, 50" ünvanında aparılmış arxeoloji qazıntılar haqqında

Artıq iki ilə yaxındır ki, Bakı xanlarının evinin yerindəki hamam ərazisində arxeoloji qazıntı işləri davam edir. Burada vaxtilə rus hərbi komendantlığı yerləşdiyindən ərazi uzun müddət əlçatmaz olmuşdur. Hamamın günbəzləri söküldükdən sonra, təxminən XIX əsrin ortalarından başlayaraq əmələ gəlmiş boşluqları təsərrüfat zibili ilə doldurmuşlar. Nəticədə tökmə torpaq qatı əmələ gələrək hamamın içi və boşluqları dolmuş, yer səviyyəsi ilə bərabər olmuşdur.

Artıq hamamda arxeoloji tədqiqatlar bitmişdir. Hamamın tam tədqiqi nəticəsində bu abidə haqda artıq son rəyi söyləmək olar. Abidə Bakı-Abşeron memarlıq məktəbinin bariz nümunəsi kimi bu günə qədər torpaq altında qorunan yeganə abidə olduğundan funksionallıq baxımından unikal memarlıq kompleksi qismində qeyd olunmalıdır. Hamam memarlıq üslubü, tikilmə texnikası, memarlıq elementlərinə görə Hacı Bani (XV əsr) hamamının təqribən oxşar bir variantıdır. Abidə XVII əsrin əvvəllərinə aid edilə bilər.

Lakin bəzi divar və hörgü qalıqlarında çatlar əmələ gəlmiş və uçmaq qorxusu yaranmışdır. Belə ki, abidəni bu vaxta kimi torpaq qoruduğu üçün qazıntı işlərinin aparılması və sona çatdırılması risk altına düşə bilər.

2015-ci ildə hamamda qazıntı işləri nəticəsində hamam kompleksinin əsas hissəsi torpaqdan təmizlənmiş, memarlıq quruluşu təyin olunmuşdur. Qazıntı işləri avqust ayının 1-dən noyabr ayının 1-nə kimi aparılmışdır. Lakin hamamın ayrı-ayrı hissələrində tam olaraq (xüsusən, abidənin qərb və şərq hissələri nəzərdə tutulur) təhlükəsizlik baxımından bəzi sahələr tədqiq olunmamışdır.

2016-cı ildə arxeoloji qazıntı işləri xüsusən hamamın şərq hissəsində təhlükəli olan otaqların bərkildilməsindən sonra aparıldı. №13 ilə qeyd olunan otağın daxili divarları və tağ örtüyü dağılmış vəziyyətdə olduğundan onun qapı və divarları taxta materialdan istifadə etməklə bərkidildi. Digər bərkidilmə işləri 4-cü, 12-ci, 14-cü, 15-ci, 20-ci otaqlarda aparılmışdır. Keçən ilki qazıntılar kimi otaqlar daxilində olan torpaq tərkibi əsasən məişət tullantıları, saxsı nümunələrindən ibarət olmuşdur. Belə məlum olur ki, hamam uzun müddət boş qalmış, sonralar mərkəzi zalların örtükləri dağıldığından sonra daxili torpaqla doldurulmuş, ərazisində isə hərbi tələblərə uyğun meydança təşkil olunmuşdur. Digər otaqların nisbətən salamat, yaxşı vəziyyətdə olmasını qeyd etmək lazımdır.

Hamamın giriş hissəsinin aşkar edilməsi məqsədilə qazıntı birinci böyük zalın qərb tərəfində aparıldı. Müəyyən olundu ki, giriş qapısı 3 №li keçid ilə bağlıdır. Dördkünc formalı tamburun ölçüləri: 164x184 sm.-dir. Bunun qarşısında üst hissəsi tağ formasında olan giriş qapısı aşkar olunmuşdur. Onun üst hissəsi dağılmışdır, giriş qapısının eni 140 sm.-dir. Qeyd etmək lazımdır ki, istifadə olunmuş daşlar səliqə ilə düzülmüş və işlənmişdir. Adı çəkilən tamburun cənub tərəfində üç səliqə ilə düzülmüş və yaxşı işlənmiş daş pilləkənlər tapılmışdır. Bu da ona işarə edir ki, hamamın giriş qapısı cənub tərəfdə - Bakı xanlarının iqamətgahı tərəfində olmuşdur.

2015-ci ildə 15-ci otaqda təhlükəsizlik baxımından təmizlənmə işləri aparılmamış, lakin bərkidilmə işləri görüldükdən

sonra bu il onun tam torpaqdan açılması mümkün olmuşdur. Qeyd etmək lazımdır ki, 15-ci otağın dam örtüyü zədələnmiş və dağılma təhlükəsi daha çoxdur.

Qərb hissədəki sahədə qazıntıların genişlənməsi nəticəsində 3 metr dərinliyində tikinti və divar aşkar olundu. Buradakı divar tikilişi möhtəşəmliyi ilə fərqlənir. Əlavə etməliyik ki, bu divarlar hamam kompleksinə aid olmadığından daha qədim dövrə aid oluna bilər. Həmçinin qərb divarının tuşunda yerləşən qalın divar arasında trapesiya formasında sahədə qazıntılar aparılmış, nəticədə şimal hissədə qapı aşkar olundu. Qapının eni 110 sm., üst hissəsi qalın sal daşdan idi. Bu sahədə qazıntı nəticəsində hamamın qərb divarı torpaqdan təmizləndi. 3 metrə yaxın dərinlikdə şimaldan cənuba uzanan yeraltı tikili aşkar edildi. Yeraltı tikili daşdan tağ formasında idi. Eni 110 sm., dərinliyi 90-100 sm.-ə çatırdı. Onun tam açılması təhlükəsizlik baxımından mümkün olmadı.

Qeyd etməliyik ki, bu hissədə qazılan torpaq qatı qara rəngli, tərkibində yanmış neft qalıqları müşahidə olunurdu. Ara-sıra saxsı nümunəli, dəmir əşyaları, şüşə və digər materiallar əsasən XIX-XX əsrə aid edilir. Qapının girişi açıldıqdan sonra otaqlara yol olduğu təyin olundu. Şərti olaraq, onlar 3 və 4 nömrəli otaq kimi planda qeyd olundu.

3 №li otağın şimal küncündə 40-45 sm. enində, dərinliyi 2 metrdən çox olan daşdan tikilmiş boşluq qeyd olundu. Bu boşluğun təyinatını öyrənmək mümkün olmadı. Güman etmək olar ki, bu boşluğun hamamın alt hissəsində olan kommunikasiya sistemi ilə bağlılığı var.

3 №li otaqdan biləvasitə şərqdən qərbə istiqamətlənmiş otağa çıxış açıldı. Yeni aşkar olunmuş otaq planda №4-5 ilə qeydə alındı. Bu otağın ölçüləri 223x537 sm.-dir. Daxili hissəsi tərkibində neft qatı effekti verən torpaq qatından təmizləndi. Döşəməyə yaxın hissə 150-160 sm qalınlığında bərk qır qatlı torpaqdan ibarət olunduğundan qazıntı işlərinin aparılmasını

çətinləşdirdi. Buna baxmayaraq otağın daxili təmizləndi və hündürlüyü müəyyən olundu.

Bu otağın dam örtüyü tağlı, yuxarısı dördkünc baca, səliqəli düzüləmə daşdan tikilmişdir. Otağın hündürlüyü 420 sm-dir.

5 №li otağın cənub tərəfindəki divarda, aşağı hissəsində söküntü qeyd olundu. Belə güman etmək olar ki, bu söküntü, hamamın təmiri ilə bağlıdır. Faktiki olaraq, sökülmüş hissə 5 və 7 №li otaqlar arasındakı olan divarda aparılmışdır. Qeyd olunmalıdır ki, iki otaq arasında olan divarın içərisində tüstü bacası olmuş, təmirə ehtiyac olduğuna görə sökülmüşdür. Bu otaqlardan mütəmadi olaraq yuxarıdan bacalardan torpaq tökülərək doldurulmuşdur.

Tapıntılar əsasən XVIII-XX əsrə aid şüşə, saxsı qırıqları, hərbi geyim düymələrindən ibarətdir. Bu otaqların (5 və 7 №li otaqlar) funksional təyinatını hamamın qazanxanası kimi müəyyən etmək olar. Yuxarıda qeyd etdiyimiz kimi, bu otaqlarda mazut-qır qalıqları əsas yer tutur.

Qeyd etdiyimiz kimi, qazıntı sahəsinin qərb hissəsində möhtəşəm divar aşkar edildi. Divar cənubdan şimala istiqamətlənmişdir, eni 143x150 sm., uzunluğu 15 metrdən çoxdur. Güman etmək olar ki, bu tikili qədim şəhərin divarlarının qalıqlarıdır. Tikilməsində istifadə olunan daşlar xırda-orta ölçüləriylə fərqlənir. Maraqlıdır ki, həmin ölçülü daşlardan hamam tikintisində də istifadə olunmuşdur. Belə bir nəticəyə gəlmək olar ki, Bakının şərq divarı dağılandan sonra onun daşları XVII əsrdə həm hamam, həm də dördkünc Bakı xanlarının sarayı tikintisində istifadə edilmişdir. Bu hissədə, yəni qərb sahədə digər tikililər də aşkar olundu. Dağılma təhlükəsini nəzərə alaraq, onların tam tədqiqi mümkün olmadı. Bu tikililər 180-220 sm. qədər öyrənildiyi zaman, alt hissədə tağlı binanın qalıqları üzə çıxdı.

Ümumiyyətlə, ərazinin qərb sahəsində maraqlı tapıntılar aşkar etmək mümkün olmuşdur. 11 №li otağın tağının dağılmasına görə burada işlərin aparılması bərkidilmədən sonra mümkün oldu. 15 №li keçid torpaqdan təmizləndikdən sonra yeni bir otağa çıxış açıldı. Bu otağın dam hissəsi tağlıdır, yan divarlarının tağı əsasən taxta ilə bərkidilmişdir. Damın ortasında baca qurulmuşdur. Divarların səthi əhəng tərkibli gil ilə suvanmışdır.

Ən çox dağıntıya məruz qalmış otaqlar hamamın cənub-şərq hissəsində müşahidə olunub. Bərkidilmə nəticəsində 12 və 13 №li otaqlar tam torpaqdan təmizləndi. 13 №li otağın divarlarından bacalar, o cümlədən, çıraq bacası aşkar olundu. Bu otağın da divarları qalın əhəng qatı ilə suvanmışdır.

12, 14 №li otaqlar – tağaltı divarlar, dağıntıya daha çox məruz qaldığından burada arxeoloji işlərin aparılması çətin oldu. 14-cü otaqdan 50-dən artıq qara çıraq tapıldı. 2015-ci ildəki qazıntılar zamanı məhz bu hissədə çox saylı çıraq aşkar edilmişdi. Güman etmək olar ki, bu hissə hamamın xidmətçilərinə aid olmuşdur. Bu otağın hamamın işıqlandırılmasını təmin edən çıraqçılara, qəlyançılara, cumadarlara aid olmasını güman etmək olar.

14 №li otağın tikintisində istifadə olunmuş qəbir daşının hissələri müşahidə olundu. Digər, üzərində ərəb yazısı olan daş lövhə də tapıldı. Bu yazı da tikintidə istifadə olunan qəbir daşına aiddir.

Tapıntıların əksəriyyətini çıraqlar təşkil edir. Bunlar anqob xətlərlə bəzənmiş, üzəri sarı, çəhrayı rəngli şirlə örtülmüşdür.

Çıraqlar bir-birindən fərqlənməyən formaya malikdir. Boğaz hissəsi dar olub qulpu gövdənin ortasına bərkidilib. Lülə hissəsi boru formasında, fitil yeri geniş olmuşdur. Bəzi nümunələrdə onların yaxşı saxlandığını da müşahidə etmək olar.

14 №li otaqda  müşahidələrə görə çıraqlar saxlanılırdı. Ehtimal etmək olar ki, hətta sınmış çıraqlar atılmayıb, çıraqçıya təhvil verilirdi. Bunu təsdiq edən topa şəklində tapılan sınıq çıraqlar təsdiq edir. 12, 14 №li otaqdan döşəmə səviyyəsində mis pullar da aşkar edildi.

Qazıntı sahəsindən aşkar olunan sikkələrin bir hissəsi xanlıq dövrünə, digər hissəsi Rus imperiyasının dövrünə aiddir. Pulların arasında bir gümüş sikkə Şamaxı xanlıq dövrünə aiddir.

Məlumdur ki, hamam ərazisi Rus imperiyasının Bakının işğalı dövründə hərbi baza kimi uzun illər onların ixtiyarında olmuşdur. Burada XIX əsrin əvvəllərindən rus hərbiçilər yaşamış, fəallıq göstərmişlər. Məhz bu səbəbdən tapıntıların bir hissəsi hərbi əşyalardır.

Qazıntı sahəsindən hərbi sursat kimi iki top mərmisi, "Neysler" adlı qurğusundan güllələr,  patron, papaq və mundir düyməsi, həmçinin kokardalar aşkar edilirdi.

Digər tapıntı 5 №li hücrənin bacasının üzərində tapıldı. Bu tapıntı hərbi donanma topun iki çarxı idi.

20 №li otağın qazıntısı zamanı rus-xristian (provoslav xaçı, ikona, skladen) tunc ikonalar aşkar edildi. Üç hissədən olan tunc ikonalar, skladenlər əsasən hərbiçilərin sinəsində saxlanılırdı.

Hərbi donanmada və ümumiyyətlə, orduda hərbçilərin himayədarı müqəddəs Nikolay Uqodnik (Mirlikiyskiy) sayılırdı. Tapdığımız ikonanın mərkəzi lövhəsində müqəddəs Nikolay, digər lövhəsində Mariya, Qriqoriy, Vasiliy, Sergey və digər müqəddəslərin  təsviri və adı yazılıb.

Qazıntı zamanı aşkarlanan saxsı və digər materiallar qarışıq olub müxtəlif dövrlərə aiddir. Qeyd etməliyik ki, bu materiallar təbəqədən deyil, buraya ətrafdan daşınan torpaq qatı ilə gətirilmiş, hamamın boşluqlarını doldurmaq məqsədilə istifadə edilmişdir.

Yalnız hamamın döşəməsindən tapılan çıraqlar, saxsı qab qırıqları, mis pullar abidənin dövrünün təyin olunmasına cəlb oluna bilər.

Belə ki, yuxarıda qeyd olunan çıraqlar, mis, gümüş pulların dövrünü nəzərə alsaq, hamam kompleksinin tikilmə və istifadə dövrünü XVII əsrin əvvəllərinə aid etmək olar.

*Hamamın memarlıq xarakteristikası*: İnşasında guşə daşlarından istifadə edilən hamam kompleksi İçəri şəhər ərazisinin cənub-şərqində yerləşir. Dam səthində gil-əhəng qarışıqlı məhluldan izolyasiya material kimi istifadə edilmiş, daxili divarlarda isə əhəng materialından suvaq növü kimi işlədilmişdir. Daxili divar və döşəmə materialları kimi "gülbax" növlü ağlay daşlardan istifadə edilmişdir. Təxminən 340 $m^2$ sahəni əhatə edən hamam kompleksinin giriş hissəsi çənub-şərq tərəfdən olmaqla (sahəsi 2.33 $m^2$) giriş pilləkənləri şərq divarlarına tərəf istiqamətlənmişdir. Bu tambur (33) tağlı otaq olmuşdur və 4.15 m. hündürlüklüdür. Hal-hazırda yalnız şimal divarının tağlı bir hissəsi yarımdağılmış formada qalmaqdadır.Tamburun şimal qapısından eni 1.03 m., uzunluğu 2.76 m., hündürlüyü 1.96 m. olan (sahəsi 2.69 $m^2$) dəhliz (20) 132° şərqə doğru dönməklə eni 0.95 sm. olan kiçik qapıdan keçməklə soyunub-geyinmə (sahəsi 16.08 $m^2$) zalına (1) çıxışı var.

Hamam əsasən iki böyük zaldan ibarətdir. Zalların hər ikisi səkkiz guşəlidir və girişə yaxın zal (1) soyunub-geyinmə zalı, digəri isə çimmə zalı (2) adlanır. Soyunub-geyinmə zalının şimal divarında (h6) 3.59 $m^2$ sahəsi olan tağlı hüçrə yerləşir. Zalın cənub divarında (h8) 3.79 $m^2$ sahəsi olan tağlı hüçrə yerləşir. Lakin sonradan cənub hücrəsinin cənub divarı dağıdılaraq Bakı xanlarının həyətinə doğru istiqamətində kecid (16) açılmışdır. Hücrələr (H5, h6, h7 və h8) yerləşən tağlı birləşməsi olan divarların hər birində bir ədəd taxça yerləşir ki, bu taxçalardan əşya qoyulması üçün istifadə edilirmiş. Bu

hücrələrin orta hündürlüyü 3.62 m. dən 3.84 m. arasında dəyişir. Soyunub-geyinmə salonundan dörd istiqamətə eni 82.5-90 sm., hündürlüyü 1.67-1.70 sm. olan (k1,k2,k3 və k4) keçidlər var ki, bu keçidlər hamamın xidməti otaqlarına açılır.

Keçid qapıları üzərində olan divarlarda tağlı panolar memarlıq baxımından gözəl biçimdə həll edilmişdir. K1 keçidinin açıldığı 11 saylı xidmət otağı (sahəsi 8.80 $m^2$ ) tağlı imiş. Lakin bu otağın hal -hazırda cənub divarı 3.15 m., şimal divarı isə 2.12 m. hündürlüyündə olan hissəsi günümüzə gəlib çatmışdır. Tağın bir hissəsi şimal divarında qalmaqdadır. 11saylı otaqdan k16 keçidi ilə (eni 90 sm., hündürlüyü 161sm.) 12 saylı otağa keçid var. 12 saylı otaq 8.02 $m^2$ olub 2.09 m. hündürlüyə malikdir. Tavanı tağlı olmaqla, bu tağlar eni 27-35 sm. olan düz tavana birləşir. Belə ki, bu otaq xidmət otağı olmaqla müxtəlif funksiyaları yerinə yetirirmiş (məs. əşyaxana, ləvazimat otağı və.s). 12 saylı otağın k 17 və k 18 keçidləri iki müxtəlif otağa açılır (k17 keçidi 172 sm. hündürlüklü, eni 98 sm., k 18 keçidi isə eni 118 sm. olmaqla hündürlüyü 180 sm. dir). k17 keçidi olan qapı 1.87 $m^2$ sahəsi olan neft çıraqları və digər əşyalar saxlanılan otağa açılır. Bu otağın tavanı (hündürlüyü 1.9 m.) ortadan düz (30 sm. enində) kənarlara doğru isə tağbəndlidir. Həmçinin 12 saylı otağın tavanının davamıdır. Otağın cənub divarında dağılmış divar dəliyi mövcuddur. k18 keçidi digər 13 saylı xidmət və saxlama otağına (sahəsi 7.26 $m^2$) açılır. Tavanı tağlıdır və hündürlüyü 2.78 m.- dir. 13 saylı otağın divarlarında (hündürlüyü 88 sm., eni 42.5 sm. olan) çıraq, qablar və digər əşyaları qoymaq üçün beş ədəd taxça vardır. Həmçinin 12 saylı otağın (sahəsi 8.20$m^2$) da eni 67.4 sm. olan, tavanı dağıldığı üçün tam təyin olunmayan taxçası mövcuddur ( h5, h6, h7 və h8). Hücrələrin döşəmələrinin altında kiçik eni 36 sm., hündürlüyü 38.5 sm. olan başmaq yerləri yerləşir. Bu başmaq yerlərinin kənarları

milli üslubda nəfis formada işlənmişdir. h5 hücrəsinin qərbində k12 keçidi vasitəsilə 2-ci çimmə salonuna keçid vardır.

Soyunub - geyinmə zalının (1) sahəsi 15.39 m² olub, hündürlüyü tağ kəmərinə qədər orta hesabla 4.43 m-dir. Gümbəz altındakı baraban dairəvi olub, altında olan tağbəndlərin səkkiz güşəsinin hər bir tərəfi üç bərabər parus birləşməsindən ibarətdir. Bu paruslar milli üslubda nəfis formada işlənməklə dairəvi formaya keçid alır. Bu barabanda beş yerdə müxtəlif dərəcəli çatlar mövcuddur. Soyunub-geyinmə zalının gümbəzi dairəvi oturacağa malikdir və dam səthindən 54-56 sm. yuxarıda yerləşmişdir. Bu barabanda da üç yerdə müxtəlif dərəcəli çatlar mövcuddur. Tağbəndlərin hündürlüyü hər dörd hücrədə 2.56 metrdən 2.94 metrə qədər dəyişir. Bu tağların altında h1, h2, h3 və h4 hücrələri yerləşmirdir. Digər cimərlik zalı (2) sahəsi 16.09 m² olub, hündürlüyü tağ kəmərinə qədər orta hesabla 4.62 m.-dir. Gümbəz altındakı baraban birinci salondakı kimi səkkiz güşəli olub, altında olan tağbəndlərin səkkiz güşəsinin hər bir tərəfi üç bərabər parus birləşməsindən ibarətdir. Bu paruslar da əvvəlki paruslar kimi milli üslubda nəfis formada işlənmişdir. Çimərlik zalının gümbəzi səkkizguşəli oturacağa malikdir və dam səthindən 64 sm. yuxarıda yerləşmişdir. Tağbəndlərin hündürlüyü hər dörd hücrədə 2.55 metrdən 2.95 metrə qədər dəyişir. Bu tağların altında h1, h2, h3 və h4 hücrələri yerləşmirdir.

1 saylı hücrə ( h 1) 5.14 m² olub keçid rolunu oynayır. 2 saylı hücrə (h 2) 3.21 m² olub istirahət yeridir. 3 saylı hücrə (h3) 3.50 m² olub keçid yeridir. Bu hücrənin tavanı səkkiz guşəli parusların birləşməsi ilə yaranan dairəvi gümbəzlə tamamlanmışdır. Həmçinin 4 saylı hücrə (h4) 6.86 m² olub, kənarında 90x121sm. ölşülü səkkiz guşəli kiçik daş hovuz vardır. Bu hovuz 50 sm. dərinlikdədir.

Zalın şimal-qərb küncündə k5 keçidi (eni 114 m., hündürlüyü 168 m.) vasitəsi ilə 10 saylı sahəsi 4.63 m² olan

(şimaldan kiçik pəncərəsi olan) hücrəyə açılır. Hücrə dairəvi paruslarla birləşən kiçik günbəzlə tamamlanır. Həmin otaqdan kiçik iki pillədən ibarət olan pilləkən vasitəsi ilə digər 6 saylı hücrəyə k14 (eni 74 sm., hündürlüyü 163 sm.) keçidi vasitəsi ilə daxil olmaq mümkündür. Bu hücrə tağlıdır, üz-üzə olan otaqların ölçüləri biri-birindən fərqlənir (hündürlüyü 245 sm.-dir). İkinci zalın k7 (eni 97 m., hündürlüyü 166 m.) keçidindən 9 saylı hücrəyə keçmək mümkündür. Bu hücrənin sahəsi 4.39 $m^2$, hündürlüyü 364 sm.-dir və dairəvi günbəzlə tamamlanmışdır. k8 (eni 94 m., hündürlüyü 162 m.) keçidi vasitəsi ilə sahəsi 5.87 $m^2$ olan digər xəlvətxana adlanan (hündürlüyü 293 sm.-dir) tağlı otağa keçmək mümkündür. Bu hücrənin dairəvi və düzbucaqlı iki kiçik havalanma dəlikləri vardır. Bu dəliklər üzərinə hamamın damında gümbəzvari daş nəfəsliklər qoyulmuşdur. Hamamın cənub-qərb hissəsində ayrıca keçidi olan iki otaq yerləşir. Bu otaqlar (3) keçid, (4) xidmət otağı və (5) qazanxanadan ibarətdir və hamamın istilik təchizatını təmin edən yerləşkələrdir.

Hamamın divarlarında müxtəlif dərəcəli çatlar mövcuddur. Şərq və qərb tərəflərində ən təhlükəli üç otaq (12-13-4) vardır ki, bu otaqları yağış və axma sel sularından qorumaq lazımdır. Hamamın su təchizatının izlərini 12, 6, 5, 7, h3, h4 saylı otaqlarda divarların müxtəlif yerlərində olan müxəlif ölçülü su axını üçün nəzərdə tutulmuş dəliklərdə görmək olar. Həmçinin döşəmənin istilik təchizatı sisteminin izlərini çimərlik zalının döşəməsində olan yeraltı kanalların çökmüş hissəsində (2 və 14 saylı otaqlarda) görmək mümkündür. 12 saylı otağın sol divarında tağlı yerləşgə altında iki ədəd daşdan su hovuzu aşkarlanmışdır ki, hu hissənin də hamamın su sistemlərinin tədqiqatı ilə birlikdə öyrənilməsinə ehtiyacı vardır. Hamamın dam səviyyəsi bərabərliyində yerləşən 7,8,2,9 yerləşgələri arası divarların ust hissəsində, lakin hörgü sisteminin içi ilə gedən su sistemi xətləri aşkarlanmışdır ki, bu tapın-

tının da öyrənilməsinə ehtiyacı duyulur. Damda olan kəsik yumurtavari formada bütün kiçik daş gümbəzciklərdə diametri 10 sm. olan hava dəlikləri mövcuddur. Bu nəfəsliklərin bəziləri tamamilə dağılmış və bəzilərinin daşlararası məhlulu isə eroziyaya məruz qalmışdır. Damın sudan mühafizə qatı tamamilə dağılmış və bu səbəbdən bütün divarlar rütubətə və erroziyaya uğramışdır. Qeyd etmək lazımdır ki, soyunub-geyinmə zalının mərkəzində (27) çərhovuz (tərəfləri 64 sm. olan) nəzərə çarpır ki, bu hovuzun su sistemi demək olar ki, işlək vəziyyətdədir.

Qazıntılar zamanı hamamın daxilindən (10 saylı hücrənin pəncərəsinin divarına hörülmüş) əski ərəb əlifbası ilə yazılmış daş aşkarlanmışdır. Eyni zamanda qazıntılar zamanı hamamın daxilindən əski ərəb əlifbası ilə yazılmış və nəfis ornamentlərlə işlənmiş 6.5 sm. qalınlıqlı 35-55 sm. ölçülü daş aşkarlanmışdır ki, bu daşın da araşdırılmasına ehtiyac var. Hamamın daxilindən Rus imperiyası dövrünə (XIX əsr) aid dəniz top qurğusunun təkərləri də aşkarlanmışdır.

Qazıntılar zamanı hamamdan kənarda müxtəlif məqsədlər üçün istifadə edilmiş, lakin araşdırılmasına ehtiyac duyulan tikililərin qalıqları aşkarlanmışdır. Bünövrəsi olmayan bu divarların eni 140-160-170 sm arasında dəyişir. Həmçinin həmin divarların ətrafında araşdırılmasına ehtiyac duyulan iki müxtəlif ölçülü tağ qalıqları (24-25) aşkarlanmışdır. Bu 24 saylı tağlı divarın sol küncündə pəncərə boşluğu nəzərə çarpır. Hamam kompleksinin 3,4.5,12,13,15 saylı yerləşgələrində divarların uçmaq təhlükəsini nəzərə alsaq ciddi qəzalı vəziyyət mövcuddur.

Bu tip memarlıq tapıntılarını, onların ölkə əhəmiyyətli olduğunu nəzərə alaraq, digər tərəfdən yeraltı, yağış və həmçini atmosfer sularının təsirini nəzərə alsaq ciddi drenaj sisteminin qurulmasına ehtiyac vardır.

Arxeoloji-qazıntı işlərinin bu mərhələsi başa çatmadığından ərazinin tam təsvirini aparmaq mümkün olmamışdır. Arxeoloji qazıntı ərazisində təbii-yerli materiallardan (gil və əhəng və s.) istifadə etməklə hamamın alt hissəsinin bərkidilməsi məqsədəuyğundur. Bu həm arxeoloji qazıntının yekununu səmərəli edər, həm də hamamın üst qatında aparılacaq gələcək konservasiya-bərpa işlərinin effektiv olması üçün zəmin yaradar.




***Bakı xanlarının hamam kompleksinin İçəri şəhərin kadastr xəritəsində yerləşmə sxemi***




***Bakı xanlarının hamam kompleksinin 1917-ci ilə aid edilən hərbi təyyarəçi olmuş İ.Korbin tərəfindən çəkilmiş şəkildəki yeri***




Göstəricilər

1. Soyunub -geyinmə zalı.
2. Çimərlik zalı.
3. Qazanxanaya giriş.
4-5. Qazanxana.
6. Xidmət otağı.
7-15. Xidmət otaqları.
16. Sonradan açılmış hamama giriş hissəsi.
17. Qazıntılar zamanl açkarlanmış tikilinin divarları.
18. Qazıntılar zamanl açkarlanmlş tikilinin divarları.
19. Qala divarları.
20. Xidmət otağı.
21. Bir mərtəbəli bina
22. Hamam daxilində aşkarlanmış. araşdırılmasına ehtiyac duyulan yerlər.
23. Sonradan tikilmiş hasar.
24. **Qazıntı zamanı aşkarlanmış tağ.**
25. **Qazıntı zamanı aşkarlanmış tağ.**
26. **Yazı aşkarlanmış pəncərə yeri.**
27. **Hovuz.**
28. **Qazanxanada aşkarlanmış daş vanna.**
29. **Su üçün daş vanna.**
30. **Bakı xanlarının ərazisi.**
31. **Akademik Ə.Əliyev küçəsi.**
32. **Hamamın giriş pilləkənləri**
33. **Hamamın tamburu**

k 1. **Keçidlər**
hd. **Hamam divarları**
h. **Hamam hücrələri.**

Hamam

Qala divarı

Hamam ətrafında arxeoloji qazıntılar zamanı tapılmış divarlar

Bakı xanlarının hamam kompleksinin əks planı.




Mündəricat

1. Soyunub -geyinmə zalı.
2. Çimərlik zalı.
3. Qazanxanaya giriş.
4-5. Qazanxana.
6. Xidmət otağı.
7-15. Xidmət otaqları.
16. Sonradan açılmış hamama giriş hissəsi.
17. Qazıntılar zamanl açkarlanmış tikilinin divarları.
18. Qazıntılar zamanl açkarlanmış tikilinin divarları.
19. Qala divarları.
20. Xidmət otağı.
21. Bir mərtəbəli bina
22. Hamam daxilində aşkarlanmış, araşdırılmasına ehtiyac duyulan yerlər.
23. Sonradan tikilmiş hasar.
24. **Qazıntı zamanı aşkarlanmış tağ.**
25. **Qazıntı zamanı aşkarlanmış tağ.**
26. **Yazı aşkarlanmış pəncərə yeri.**
27. **Hovuz.**
28. **Qazanxanada aşkarlanmış daş vanna.**
29. **Su üçün daş vanna.**
30. **Bakı xanlarının ərazisi.**
31. **Akademik Ə.Əliyev küçəsi.**
32. **Hamamın giriş pilləkənləri**
33. **Hamamın tamburu**

k 1. **Keçidlər**
hd. **Hamam divarları**
h. **Hamam hücrələri.**

Hamam | Qala divarı | Hamam ətrafında arxeoloji qazıntılar zamanı tapılmış divarlar

Bakı xanlarının hamam kompleksinin ölçü cizgiləri.



**Arxeoloji qazıntının ümumi görünüşü**



**Hamamın təmizlənmiş ən böyük hücrəsi olan soyunub-geyinmə otağı**



**Hamamın təmizlənmiş digər hücrəsi**

**Nərgiz Quliyeva**
*tarix elmləri doktoru, professor*

## İçərişəhərlilərin ailə və ailə məişətinə dair

Azərbaycanlıların ailə məişətində ənənəvi xüsusiyyətlərin yaşaması, bu gün də davam etdirilməsi xalqımızın qədim və zəngin irsinə dəlalət edir.

Tarixçi İ.V.Striqunovun yazdığına görə, 1859-1864-cü illərdən 1897-ci ilə qədər Bakı əhalisinin ümumi sayı və şəhərin sənaye-zavod rayonlarının əhalisi 9 dəfədən çox artmışdı (25, 49).

XIX əsrin axırlarında "Kəşkül" qəzeti yazırdı ki, Bakı şəhərinin 100 minə qədər əhalisi vardır. Həmin əsrin sonunda – 1897-ci ildə şəhər əhalisinin sayı xeyli artıb 113 004 nəfərə çatmışdı. Kapitalist münasibətlərinin inkişafı ilə neft sənayesinin geniş vüsət alması sayəsində əhalinin sayı sürətlə artırdı (13, 20).

Artıq 1903-cü il oktyabrın 22-nə olan məlumata görə, Bakı şəhərində və onun məhəllələrində 207 985 nəfər əhali yaşayırdı. Bunlardan 128 576 nəfəri kişi, 79 336 nəfəri isə qadın idi. "Şərqi-Rus" qəzeti yazırdı ki, Bakı şəhəri Qafqazda abad bir şəhərdir (34).

XIX əsrin sonu – XX əsrin əvvəllərində Bakıda qadınlar əhalinin ümumi təbii artımında daha üstün mövqe tutmalarına baxmayaraq, sayca yenə də kişilərdən az idilər. Bakı şəhərində əhali artımı da əsasən gəlmələrin hesabına baş verirdi və gəlmələrin tərkibində kişilər üstünlük təşkil edirdilər. 1913-cü ildə Bakı əhalisinin yalnız 32,7%-i şəhərdə və mədən-zavod rayonlarında doğulanlar idi. Şəhərdə fəhlələrin sayı ilbəil artırdı. 1913-cü ildə onların ümumi sayı 109 minə çatmışdı və çoxmillətli tərkibə malik idilər (1, 95).

I Dünya müharibəsi ərəfəsində Bakı əhalisinin sosial strukturu təxminən aşağıdakı kimi idi. İşləyən əhalinin 72%-ni muzdlu fəhlələr, 10,5%-ni qulluqçular, 10,1%-ni xırda burjua-

ziya nümayəndələri, sənətkarlar, kiçik tacirlər, nəqliyyat işçiləri və s., 6,5%-ni isə iri burjuaziya təşkil edirdi (1, 95).

1921-ci ilin əvvəllərində neft sənayesində işləmək üçün neft komitəsinin Mosvkadan göndərdiyi rəhbərliyinin təşəbbüsü ilə general Vrangelin 7,5 min keçmiş əsgəri İstanbuldan, 114 nəfər Kazandan, 140 nəfər Qroznıdan, 269 nəfər Volqaboyu şəhərlərdən Bakıya gətirilmişdi (14, 25). Ancaq bu ehtiyacı yerli əhalinin hesabına da ödəmək olardı.

Müasir Bakını İçəri şəhər, XIX əsrin sonu XX əsrin əvvəllərində neft sənayesinin inkişafı nəticəsində yaranan şəhər, sovet dövründə tikilmiş sənaye Bakısı və müstəqillik illərində əzəmətli tikililərin, villaların inşası nəticəsində gözəlləşən şəhər kimi xarakterizə etmək olar.

Bakıda və ətrafında 1820-ci ildə 5000 (33, 362), 1859-cu ildə 12191, 1897-ci ildə 111904, 1920-1921-ci illərdə 255556 nəfər əhali yaşayırdı (29, 65).

Artıq 1929-cu ildə Bakıda 527,2 min nəfər, 1939-cu ildə 808,7 min nəfər, 1959-cu ildə 967,6 min nəfər, 1979-cu ildə 1550,0 min nəfər əhali məskunlaşmışdır (1, 369; 27, 22).

Müstəqil Bakı şəhər əhalisinin sayı 1991-ci ildə 1762,2 min nəfər, 2000-ci ildə 1807,3 min nəfər, 2004-cü ildə 1855,3 min nəfər idi (3).

Müasir dövrdə Azərbaycanın paytaxtı Bakı şəhərinin qədim hissəsi kimi qorunan İçəri şəhərin əsrlər boyu formalaşan adətləri olmuşdur. Müasir ailə məişət münasibətlərində də həmin adətlərin izləri qalmışdır.

Əsrlər boyu Azərbaycanın mədəniyyət mərkəzi olmuş Bakının İçəri şəhər əhalisindən toplanmış etnoqrafik materiallar ailə üzvlərinin toy, yas mərasimlərində, bayramlarda və uşaqla bağlı müəyyən adətlərdə yaşayan ənənəvi xüsusiyyətlərindən bəhs olunur.

İçəri şəhərdə müxtəlif tip: sadə-nuklear, mürəkkəb, tam olmayan, bir, iki, üç nəsilli ailələr yaşayır. Mürəkkəb ailələrdə

ənənəvi olaraq ailəyə məxsus büdcə pulunu evin qadını böyük ana, yaxud qayınana saxlayır. Əksər ailələrdə indi də bu qayda mövcuddur.

XIX əsrdə İçəri şəhərdə yaşayan ailələr içərisində fərqlənən ailələrdən biri də Məşədi Məmməd Cavad və Məleknisənin ailəsi idi. Onların Tubu xanım (Xanbacı, Böyükbacı), Xırda xanım (Püstə bacı xala), Balaxanım, Hökümə, Ədilə, Nəcibə, Pikəxanım, Abbasqulu, Sonqulu, Rzaqulu adlı doqquz övladları var idi. İçərişəhərdə uşaqları digər adlarla da çağırırdılar. Məsələn, Tubu xanım - Xanbacı (Böyk bacı), Xırda xanım – Püstə bacı xala, Abbasqulu – Dadaş və s. Tubu xanımın həyat yoldaşı Hacı Şıxəli idi. Onların Məmmədnaib adlı övladları var idi. Məmmədnaib Leyla xanım ilə evlənmişdi. Üç övladları dünyaya gəlmişdi: Fəridə, Mələk, Oktay. Fəridə Həsən ilə evlənmiş, Ləman və Mehdi adlı övladları olmuşdu. Ləman Tərlan ilə evlənmiş, Həsən dünyaya gəlmişdi. Oktay isə öz xalası nəvəsi Nəcibə ilə evlənmiş, onların İradə, Naidə, Xeyransa adlı övladları olmuş, İradə Mail ilə evlənmiş, Minarə adlı qızları, Naidə Cəmil ilə ailə həyatı qurmuş, Riad adlı oğlanları dünyaya gəlmişdi.

Qeyd etmək lazımdır ki, İçəri şəhərdə XIX-XX əsrin əvvəllərində çoxuşaqlı ailələr, XX əsrin sonrakı dövrlərində isə azuşaqlı ailələr üstünlük təşkil edirdi. Qohumla evlənməyə, anadan olan uşaqlara qohumunun adını qoyma hallarına da rast gəlinir.

Ailədə böyüyən ikinci bacı Xırda xanımın (Püstə bacı) həyat yoldaşı Ağabala idi. Onların Ağarəhim, Səlim, Kərim, Nadir, Sara, Məryəm adlı övladları var idi. Kərim Şövkət adlı xanımla evlənmiş, onların Arif və Lalə adlı övladları həyata gəlmişdi. Sara Hümmətlə evlənmiş, Solmaz və Almaz adlı qızları, Məryəmin isə Gülmira və Vaqif adlı övladları var idi.

Üçüncü övlad Pikə isə Muxtar ilə evlənmişdi. Onların Xeyransa, Gülxanım, Hörmət, Rəhilə, Zərifə, Rəsul, Adil

övladları anadan olmuşdu. Xeyransa Kazım ilə evlənmiş, Xalidə adlı qızları olmuşdu. Xalidə isə İlyuşa ilə ailə qurmuş, Radəli və Kazım adlı övladları anadan olmuşdu. Gülxanım isə Fərrux ilə evlənmiş, Akif və Səidə adlı övladları anadan olmuş, Rəhilə Dadaş ilə evlənmiş, Tükəzban və Xəlil adlı övladları dünyaya gəlmiş, Tükəzban Rafik ilə evlənmiş, onların övladları olmamışdı. Zərifə isə Zahid ilə evlənmiş, Elşən adlı övladları olmuşdur. Rəsul isə Tubu xanımla evlənmiş, Muxtar və Gülnarə adlı övladları dünyaya gəlmişdi. Adil rus qadınla evlənmiş, Hörmət isə ümumiyyətlə ailə qurmadan yaşamışdı. Əlbəttə, İçəri şəhərdə zaman ötdükcə qurulan ailələrdə uşaqların sayı azalır, digər millətlərlə evlənmə hallarına, tək yaşayanlara da rast gəlinir.

Ailənin digər övladı Balaxanım isə Əliqulu (Ağa) ilə evlənmiş, onların Kamal, Camal, Nərgiz, Mənzər adlı övladları olmuşdu. Kamal Aliyə ilə evlənmiş, Eldar, Yusif, Sevinc adlı övladları, Nərgiz xanım Zərbəli ilə evlənmiş, Cəmilə və Füruzə adlı övladları olmuş, Cəmilə isə Tofiq ilə evlənmiş, Mənzər Məmmədrəhim ilə evlənmiş, Səyyarə, Nazim, Əli, Oktay, Elxan adlı övladları dünyaya gəlmişdi. Hökümə xanımın həyat yoldaşı Mütəllim idi. Onların Səidə, Rəna adlı qız övladları var idi.

Ədilə xanım öz bibisi oğlu Məmmədlə ailə qurmuşdu. Onların Aliyə və Tofiq adlı övladları dünyaya gəlmişdi. Tofiq xalası Balaxanımın nəvəsi Cəmilə ilə evlənmiş, onların Gülnar və Rəna adlı övladları dünyaya gəlmişdi.

Göründüyü kimi, qohumla evlənmə içərişəhərlilər arasında da yayılmışdı. Abbasqulu İzzətxanım ilə evlənmişdi. Leyla, Şəfiqə, İsgəndər adlı övladları dünyaya gəlmişdi. Leyla yəhudiyə ərə getmiş, Oleq və Bela adlı uşaqları olmuşdu.

İsgəndərin həyat yoldaşı Zinət idi. Onların Sədaqət, Lalə, Abbas adlı övladları var idi. Sonqulu isə rus xanım Nina ilə

evlənmiş, Mulik və Dilarə adlı övladları dünyaya gəlmişdi. Rza isə rus qadınla evlənmişdi. Övladları yox idi.

Əlbəttə, içərişəhərlilər arasında qarışıq nigahlar da geniş yayılmışdı (35). İçərişəhərlilərin xarakterik cəhətlərindən biri də özlərinə və ailələrinə diqqətli olmalarıdır. Geyimlərinə diqqət yetirirlər. Əsasən açıq rəngli və sadə geyimləri, sakit həyat tərzini çox sevirlər.

Şəhər əhalisi həm şəhərdə, həm də yay aylarında istirahət üçün Bakı kəndlərinin bağlarında yaşayırdılar. Bu ənənə indi də davam etməkdədir. Kənd əhalisinə nisbətən şəhər əhalisi daha çox qənaətcil olurlar. Buna görə də Bakı kəndlərində məcazi mənada içərişəhərlilərə "pişiyin gözünü bağlayıb, çörək yeyənlər" deyirdilər.

Əslində şəhər sakinləri hər şeyi pulla alırlar. Kənd yerlərində isə əhali həyətyanı sahələrində əkib-becərir, mal-qara saxlayırlar. Bakılıların əksəriyyəti şəndirlər, bir-birlərinə məzəli atmacalar ataraq sözlərini deyir, mimik işarələrlə də sözlərini çatdırırlar.

Bəzən belə bir ifadə işlədirlər: "Filankəs sözü deyəndə tutur" - yəni tez başa düşür. Əhali arasında şəbədəçi, rişxəndçi, yəni başqalarının pis hərəkətlərinə o saat münasibətlərini bildirənlər də çoxdur.

Azərbaycanın digər bölgələrinə nisbətən bəzi fərqli sözlər, ifadələr də vardır. Məsələn, "sinə gedirdi və əldən gedir də" (mənası: nəyisə və ya kimisə çox istəmək), "binə biçmək", "atırsan tutur" (mənası: uzaqgörənlik, tez başa düşən), "əntər ol, bəxtin olsun", yəni "çirkinlərin daha çox bəxti var" ifadələri çox yayılıb. Qayınana ilə gəlinlər arasında ciddi münaqişə baş verdikdə gəlinlər qayınanasının dalınca deyinib-deyirlər ki: "yedi atam-anam, qaldı dik qayınanam".

Göründüyü kimi, qədim tarixə malik olan Azərbaycan xalqının toy adətinin özünəməxsus ənənəvi xüsusiyyətləri bəzi elementlər əlavə olunmaqla bu gün də saxlanmaqdadır.

İçəri şəhər qapalı kompleks olmuş, hər sahədə öz-özünü idarə etmişdir. Məscidləri, dükanları, hamamları, həkimləri, sınıqçıları, kababçıları, kömürçüləri, nabat bişirənləri, zərgərləri və digərləri İçəri şəhərdə ünvanları küçələrin adları ilə axtarmırdılar. Məsələn, tut ağacının altı, köhnə çayxananın yanı, Dadaşın dükanının yanı, Ələsgərin dükanının yanı, Məmmədəlinin kababxanasının yanı, kababçı Məmmədin evinin yanı, quşbaz Adilin evinin yanı, Hacı qeyib üstə və s. Evləri tikərkən elə tikmişlər ki, küçələrdə xəzri ilə giləvar oynaya bilsin. Divar şkaflarına (taxtapuş) yorğan-döşək, qab-qacaq yığırlar.

İçəri şəhərin səhər səsi də ənənəvi idi. Belə ki, hər bir evdə səhər-səhər ana (məmə) durur namazı qılır, sonra kişi, (həsir) üstündən də ağ süfrəni sərib, tut ağacından hazırlanmış kötüyü onun üzərinə qoyur, burnu üç dəfə burulmuş qiyməkeşlə axşam yeməyi üçün tədarük görürdü. Xörək plitənin (neftlə yanırdı) üstündə bişirilirdi. İçərişəhərli Fikrət Qafarov söhbət əsnasında dedi ki, uşaq vaxtı hoppataranlıların məhəlləsindən üzü aşağı ağşalvarlılar məhəlləsinə tərəf düşərkən qonşu uzunbaş Leyla xala, o başda digər evin gəlini, ümumiyyətlə, küçə boyu hamı ət döyürdü. Kimi tunc latundan, qədim zəng materialından olub, lak-lak səsi verən həvəngdəstədə cirə döyür, hər evdən səs gəlirdi. Xörək süfrədə yeyilər, həmçinin yeməkdən əvvəl, yaxud sonra çörəyi cirəyə batırıb yeyərdilər. Söyləyici Əlabbas İsmayılov bildirdi ki, "İçəri şəhərdə küftəni böyük-böyük tutardılar. Bizim evdə 8 nəfər ailə üzvü var idi. Evdə məmə 11 ədəd küftə tutardı, deyərdi ki, küftənin üçü qonaq payıdır". Ədəb-ərkan qonşuluqda da gözlənilirdi. Bəzən küçədə qadınlar söhbət edərkən kişilər onların yanından keçib, getməyi eyib sayırdılar. Evə qayıdıb qadınına deyirdi ki, ay Şəfiqə küçədəki qadınlara de keçsinlər həyətə, mən də yolumdan qalmayım. Qadın pəncərədən küçəyə baxır, görür ki, Fizzəxanımın əlindəki qabda yumurtalar var. Deyir ki,

ay Fizzəxanım sən, deyəsən, yumurtalardan cücə çıxardıb sonra gedəcəksən? Fizzəxanım da başa düşər, tez həyətinə keçərdi.

İçəri şəhərdə anaların övladlarına ən böyük qarğışı belə idi: "Səni görüm igid öləsən". Hər evdə rəhmətə gedənlər üçün Quran tapşırırdılar. İçəri şəhərdə "süd qardaşı", "süd bacısı" da yayılmışdır. Məsələn, Ağşalvarlılarda Məmmədşəfi Suqraxanımın süd qardaşı idi. Belə hallara çox təsadüf olunurdu.

Kiçiklərin böyüklərə hörməti həmişə yüksək səviyyədə olmuş, indi də bu ənənə davam edir. Uşaqlar görsələr ki, küçənin o başından əlində zənbil yaşlı şəxs gəlir, gedib əlindən zənbili alıb lazımi yerlərə aparardılar. Məhəllələrdə ehtiyacı olsa da, olmasa da, xəstə, yaşlı olan şəxslərə yemək aparardılar. Ağşalvarlılar məhəlləsində "kaf-kaf" Arifgilin evində Süleymanın anası qoca məmə (ana) yaşayırdı. Qonşular xörək hazırlayarkən hörmət əlaməti olaraq uşağa bir maskura xörək verər, deyərdilər ki, apar ver məməyə, duası sənə düşsün. Məmə də xörək gətirən uşağa deyərdi: "Görüm sənin sinəndə ağ tüklər bitsin".

İçəri şəhərdə qəssablarla bağlı da atalar sözləri yaranıb. "Kəsərəm öz ətimi yeyərəm, qəssaba işim düşməsin", yaxud "Yeznəmiz qəssabbaşıdı şırdanımız bol olar". Yəni qəssablar əvvəl kənar adamları razı edər, ətin yaxşı yerlərini onlara verər, sonra qor-qohumu yola salardılar.

İçəri şəhərdə hər məhlənin məşğuliyyətlərinə, xasiyyətlərinə uyğun ləqəbi olardı. Məsələn, Seyidlər böyük nəsil idi. Xan sarayından bir az aşağıda yaşayırdılar. Xeyir işlərə nabat (konfet) bişirərdilər. Mirbabayev Mirqasım Mirbaba oğlunun əvvəllər babası, sonra atası, özü nabat bişirərdi. Bu ənənə nəsildən-nəslə davam etmişdi. Dudikilər nəslində yaşayan kişilərin papaqları samovarın dudkeşinə oxşayırdı. Odur ki, onları dudikilər çağırardılar. Hoppataranlara – "bir göz qırpımında gördü, götürdü, getdi" deyərdilər. Onlar "hop-hop" atardılar. Küftəni "hop aparan" da adlandırırdılar. Küftə yeməzlər, küftə-

ni xoşlamırdılar. “Yağar-yağar”lar yağış yağarkən çıxırlar bayıra, baxıb deyirlər ki, gah yağır, gah da dayanır. Təsadüfən yağış dayanıb. Onları yağar-yağarlar adandırıblar.

Ağşalvarlıların isə çox hissəsi dədə-babadan talelərini dənizə bağlayıblar. Gəmiçi olublar. Gəmi kapitanı kimi ağ şalvar, qara kitel geyinib, ağ papaqda gediblər. İçərişəhərlilər də onları ağ şalvarlılar adlandırıblar. Bu peşəyə sədaqət indi də qalmaqdadır. Gəmidə rəis işləyən Əlabbas İsmayılov da ata-babalarının yolunu davam etdirir.

İçərişəhərlilər gəmidə işləyənlərin rütbəcə kapitan olanlarını “püşkə” adlandırırdılar. Məsələn, püşkə Tağı, püşkə Ağanəzər və b.

Cühud-zeynallar da böyük nəsildir. - Varlı idilər, amma onlardan heç kəs öz dövrünün tələbinə uyğun olaraq ziyarətə getmədiklərindən və qənaətcil (xalq arasında simic) olduqlarına görə onlara cuhud – zeynallar deyərdilər.

Qala qapısından içəri girən şəxslə maraqlanardılar ki, görəsən bu gələn nə karədir? Yaşlı qadınlar deyərdilər ki, gərək padşahdan kağız alasan, sonra İçəri şəhərə girəsən.

İçəri şəhərdə oğurluq olmadığından, hamı pəncərə-qapını açıq qoyar, damda yatar, heç kəsdən ehtiyat etməzdilər. Qapının arxasında qullabı olardı. Hərdən ondan istifadə edərdilər. Evlərdə indi də qullabılar qalmaqdadır. İçəri şəhərdə böyüyə hörmət həmişə yüksək səviyyədə olmuşdur. Yaşca böyüklər küçədə oturanda yaşca kiçiklər yollarını dəyişərdilər, hətta salam verib keçməyə də ehtiyat edərdilər ki, yaşlıların gözü tərəzidir, bizim yerişimizdə, duruşumuzda bir eyib görərlər.

İçərişəhərlilər deyirlər ki, böyük yanında uşağı qucağımıza götürməzdik, papiros çəkməzdik. Növbəyə duranda qadınlar bir, kişilər də digər sırada durardılar.

İçərişəhərli ailələrdə uşaqlara öyrədərdilər ki, ancaq “bəli”, “xeyir” sözü işlədin, “yox” kəlməsini işlətmək olmaz. Ailədə ata-ana arasındakı münasibəti görən uşaqlar valideynlərin

zabitəsindən ehtiyat edərdilər. Necə deyərlər: “Siçan deşiyini satın alardılar”. Kiçiklər böyüklərin yanında “sluşi” dayanardılar. Valideynlər uşaqları öyrədərdilər ki, ailə üzvləri bir-birlərinin adlarını çağıranda, “ay can”, “bəli” deyə cavab verin, evdə, küçədə abırlı geyinin. Böyük yanında çılpaq, can köynəyi ilə gəzmək olmaz. Evdən bir yerə gedib-qayıdarkən salam verin, süfrədə çörəyi əllə kəsin, plovu əl ilə yeyin. Süfrədə çörək yeyərkən ağzını marçıldadan uşaqların alnının ortasından qaşıqla vurardılar ki, bu hərəkəti uşaq bir də təkrar etməsin. Çörək yeyilib, süfrə yığılandan sonra uşaq evə gələrdisə, içərişəhərli Məşədi Ələkbər deyərdi: “Ruzi olanda köpəyi yuxu tutar”. Ailədə valideynlərin yaşlı, yəni sinli vaxtlarında dünyaya gələn uşağı “matəmə zınqırov” adlandırardılar.

İçərişəhərlilər hörmət əlaməti olaraq böyüklərin adlarının əvvəlinə ağa, əmioğlu sözlərini əlavə edirdilər. Məsələn, Əmioğlu Məmməd, Ağa Mehdi və başqaları.

İçərişəhərlilər arasında belə bir məsəl də var: “Deyirlər eyibi kimdən öyrəndin, biyədəbdən”, “Qılıqlı min ev yeyər, qılıqsız bir ev də yeməz”, “Güvəc (su qabı) yumbalanar, qapağını tapar”, “Araya düşər, şənbeyi-Novruz” və s.

İçərişəhərlilərdə belə bir məsəli tez-tez xatırlayırlar. Deyirlər ki, bir evə qonaq gəlir. Yaz olur, yay olur qonaq getmək istəmir. Ev yiyəsinin qadını pişiyi qucağına alır, onu sığallayaraq deyir: “Pişik-pişik movuna, siçan düşsün ovuna, qonaq bu gün burdadır, sabah gedər evinə”. Qonaq məsəlini başa düşür, pişiyi götürüb, başını sığallayır və deyir: “Pişik-pişik mavi-sər (başı), qapını açma yel əsər, qonaq bu gün burdadır, gələn il də sərasər”. Uşaq çox ağlayanda yaşlılar deyirdilər ki, səni əski üstünə qoyana nəhlət.

İçəri şəhərdə köhnə kişilərin vəsiyyəti olub ki, bürcdən qırağa qız verməyin, qız almayın. Əgər kim isə Bakının kəndlərində yaşayan qız ilə evlənsəydi, digər nəslin yaşlıları deyinərək deyərdilər: “Adə, eşşəyə nəhlət, adam kənddən at

alar, eşşək alar". Bununla da hamı başa düşərdi ki, bu səhvi təkrar etmək olmaz.

İçəri şəhərdə adlardan əlavə ləqəblər, hər kəsin peşələrinə, boyuna, xüsusiyyətlərinə uyğun seçilirdi. Məsələn, sınıqçı Aslan, zərgər İslam, zərgər Əşrəf, qəssab Tofiq, mama Fizzə, kababçı Məmmədəli, qara Baçı, papaqçı Novruz, kar Paşa, palto Abbasqulu, yengə Qızana, xarrat Ələkbər, qabırğa Qasım, quşbaz Adil, çəpəki Zübeydə və b. Ailədə yaşca böyük-kiçiyindən asılı olaraq simvolik adlar da geniş yayılıb. Məsələn, ailədə Tubu xanım yaşca böyük idi. Ona böyük bacı, yəni Xan bacı, həlim xasiyyətli Balaxanıma - Şirin bacı və s. deyilərdi.

Bəzən məhlədə uşaqlar, gənclər arasında səsini bir az bərkdən çıxaran olanda yaşlı adamlar narahat olar və deyərlər ki, adə atanın itə atmağa başmaq tayı yoxdur, sən nə böyük-böyük danışırsan. Qarşı tərəf də bu sözləri səmimi qəbul edər, səhvini başa düşər, sakit olardı.

İçərişəhərli ailələrdə evdə ailə başçısı həmişə ata olmuşdur. Onun dedikləri həmişə qanun idi. Bir yerə gedərkən icazəni ata verirdi.

Yeni qurulmuş ailələrdə isə adətən evin böyüyü kişi sayılırdı. Kişi nə desə, arvad ona tabe idi. Ailələrdə valideynlər əsasən böyük oğul ilə yaşayırdılar. Evləndirilmiş digər oğul övladları üçün ev tikib onları ayırırdılar. Ata ilə bərabər böyük oğul da onlara kömək edərdi. Atadan sonra böyük oğul ailə başçısı, ailənin böyüyü sayılırdı. Adətən gəlini işləməyə qoymurdular. Ailədə uşaqların sayı kişinin istəyindən asılı idi. Ailənin yaşlı qadınları məscidə gedərdilər.

İçəri şəhərin xanımları çox yaxşı toxuyur, tikir, xörək hazırlayırlar. Ümumiyyətlə, onların yaxşı əl qabiliyyətləri vardır. Toxumağı isə nənələr, analar, böyük bacılar, kiçik qızlara öyrədirdilər.

Qohumla evlənmə İçəri şəhərdə geniş yayılmışdır. Məsələn, Ədilə Məmməd Cavad qızı öz bibisi oğlu ilə ailə qurmuşdu.

Evlənəndə bibisi oğlu Məlikov Məmməd Cəfər oğlunun 25, qızın isə 16 yaşı vardı. Atasının qızıl dükanında ticarətlə məşğul olurdu. Anası isə evdar qadın idi. Ailədə 6 bacı, 3 qardaş olublar. Ədilə nənə deyir ki, İçəri şəhərdə qızları oxumağa qoymurdular, onlar küçəyə çarşabla çıxırdılar.

Bibim oğlu atama ağadayı, anama da dayıdostu deyirdi. Bibimgil bizə üç dəfə elçi gəlmişdilər. Atam dedi, ki, gedin üç gündən sonra gəlin şirinçay için. Həridə üzük, yaylıq gətirmişdilər. Şirinçay verildi. Sonra "nişan", daha sonra "böyük nişan" oldu. "Böyük nişan" isə qız toyu idi. Böyük nişanda Ədilə nənəyə paltarlıq parçalar, ipək köynəklər, qızıl zəncir, 4 sap mirvari, badamı sırğa, paxlava briliyant üzük, qolbaq gətirmişdilər. Adilə nənənin nişanında 100 toyuğun plovu hazırlanmışdı.

İçəri şəhərdə hamama gələn qadınlar ən qəşəng paltarlarını geyər, bəzək əşyalarını taxardılar. Onların çox alış-verişi hamamda hasil olardı. Kiçik yaşlarında oğlan uşaqlarını da analar özləri ilə hamama gətirərdilər. Uşaq bir az böyüyəndə qadınlar uşağın yaşını soruşar və zarafatla deyərdilər ki, nə əcəb atanı da arvad hamamına gətirmirsən, O gündən həmin oğlan anlayırdı ki, daha o böyümüşdür. Hamam boğçası qadınlar üçün ayrı, kişilər üçün ayrı olardı.

Qadınlar üstlərindəki qızılları gətirdikləri sandıqçaya qoyar və çamadara verərdilər. Nəbati ornamentlə üzəri incə işlənmiş və bəzədilmiş bu qablar əsil sənət nümunələri idi. İndi hamamlar bir gün kişilər, bir gün qadınlar üçün işləyir.

Hamama gətirilən kişi boxçasında kəsərdən - qayçı, ülgücdən başqa hər şey olardı. Hamama yaxşı qoxu verən müşk, ətir, ənbər aparardılar. Burun otundan tutmuş hər şeyi: fitəsi, gilabisi, dəyşənəyi, daban daşı yerində olurdu. Hamamda dırnaq tutmaq ədəbsizlik idi. Dəriyə rövnəq verən yağlar da götürülərdi.

İçəri şəhərdə müstəsna hallarda "qoşulub qaçma"ya da təsadüf olunurdu. Ailəsi qaçırılan qızla uşağı olandan sonra barışırdılar.

İçəri şəhərdə "göbəkkəsdi" indi də qalmaqdadır. Dayıoğlu, bibiqızı və yaxın qohumların evlənməsi geniş yayılmışdır.

İçəri şəhərdə boşanma olmayıb. Deyiblər ki, qismətimizdir, oturmalıyıq. Boşanma hadisəsi yalnız müstəsna hallarda baş verirdi.

2008-ci ildə İçəri şəhərdən toplanılan materiallara əsasən demək olar ki, Bakının İçəri şəhər hissəsində təqribən 3260 nəfər əhali yaşayırdı. Onların 55%-i qadınlar, 45%-i kişilərdir. Xüsusi evlər 202, dövlət mənzilləri 1407-dir. Ümumiyyətlə, İçəri şəhərdə 1415 ailə mövcuddur. Burada yaşayan əhalinin 40%-i təqaüdçilərdir.

Bakı şəhərində yaşayan azərbaycanlıların ailə məişətində ənənəvi xüsusiyyətlərin yaşaması, bu gün də davam etdirilməsi xalqımızın qədim və zəngin irsinə dəlalət edir. Əlbəttə, Azərbaycan xalqının ən zəngin ənənələrini əks etdirən toy mərasimi, mərasimin mərhələləri, mərhələlərdəki spesifik özünəməxsusluqlar isə xüsusi maraq doğurur.

2009-cu ilin əvvəllərində Bakı şəhərində yaşayan kişilər 998,2 min nəfər (48,9%), qadınlar1041,5 min nəfər (51,5%) idilər. Hər 1000 kişiyə 1043 qadın düşürdü. Abşeron iqtisadi rayonu üzrə kişilər 254,6 min nəfər (49,6%), qadınlar 258,2 min nəfər (50,4%) idilər. Hər 1000 kişiyə 1014 qadın düşürdü (4,69).

2009-cu ilin əvvəllərinə olan məlumata əsasən Bakı şəhər əhalisinin 18-39 yaşında olanların 355762 nəfəri 48,4 % kişilər, 379974 min nəfəri 51,6 % qadınlar idi. Bakıda hər 1000 nəfər kişiyə 1068 nəfər qadın düşür (4, 72).

Bakıda 15-49 yaşlı nəsilvermə (fertil) yaşında olan qadınların sayı 608817 nəfərdir. Bu bütün qadınların ümumi sayının 59,8 %-dir (4,75).

İnformatorların verdikləri məlumata görə Novruzda bakılılar xüsusi hazırlıq görərdilər. Bəzi ailələrdə evin başçısı qoyun quyruğu alardı. Evin qadını quyruğu qovurar, cızdağ edər, yağı ilə qogal, paxlava, şəkərbura bişirərdi. Səməni isə ancaq baharı qarşılayanda göyərdərdilər.

Göründüyü kimi, içərişəhərlilərin ənənəvi məişət irsləri əsrlər boyu qanunlar qədər hökmü olan adətlər əsasında tənzim olunmuş, nəsillərdən nəsillərə ötürülərək, yaşadılmış, zənginləşərək bu günümüzə gəlib çatmışdır.

Artıq əsrlərdən bəri yaşayan və XXI əsrə gəlib çıxan Novruz bayramı, Azərbaycanın hər yerində olduğu kimi, Bakı şəhərində də həm dövlət səviyyəsində, həm də ailələrdə keçirilir. Novruz tədbirlərində Azərbaycan xalqına məxsus ənənələr saxlanılır.

Göründüyü kimi, Azərbaycan xalqının tarixi və mədəniyyəti üçün əvəzsiz əhəmiyyətə malik olan Bakı şəhəri zəngin tarixə və etnoqrafiyaya malikdir. Müasir dövrdə qloballaşma və mədəni inteqrasiya, kütləvi informasiya vasitələri, siyasi sistemin dəyişməsi ailə-nikah münasibətlərinə və demoqrafik situasiyaya müəyyən qədər də olsa, təsir edir.

Müasir Bakıda ailələrin inkişafında və demoqrafik proseslərin gedişində bəzi meyillər özünü büruzə verir. Belə ki, demoqrafik gərginlik, əhalinin tərkibində azərbaycanlıların xüsusi çəkisinin artması, kənd təsərrüfatı işçilərinin Bakıda toplanması, bəzi sənaye işçilərinin və ziyalıların isə şəhəri tərk etməsi, əhalinin sayının azalması, doğumun azalması, nikahdankənar uşaqların doğulması, boşanmaların nisbətən artması, qadınlarda nikah yaşının aşağı düşməsi, kişilərdə isə yüksəlməsi, ailələrdə nuklearizasiya prosesinin güclənməsi, həmçinin müasir ailələrin bir qismində dindarlığın yüksəlməsi prosesi baş verir.

Bakıda demoqrafik gərginliyin yaranmasına qaçqın və məcburi köçkünlərin, bölgələrdən miqrasiya edən əhalinin mər-

kəzdə kütləvi toplanması səbəb olmuşdur. Şəhərin yaşayış fondu və imkanları çoxsaylı sosial, iqtisadi, mədəni problemlər yaradır.

Əsasən kənd üçün xarakterik olan avtoritar ailələr, Bakı şəhərində yeni məskunlaşmış miqrant ailələr arasında çoxluq təşkil edir. Eqalitar ailələr isə daha çox ziyalılar və müasir dünyagörüşlü şəhərli ailələr arasında mövcuddur. Ailə üzvlərinin bərabərliyin saxlandığı belə ailələrdə ailə üzvləri, xüsusilə də ər və arvad hər ikisi işləyirlər.

Beləliklə, qeyd edə bilərik ki, Bakı nəhəng bir etnomədəni və etnososial varlıq olmaqla özündə bir çox mədəniyyətləri, ənənələri yaşadır.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Azərbaycan tarixi, VII cilddə, V cild (1900-27 aprel 1920) Bakı, Elm, 2001
2. Azərbaycan tarixi, VII cilddə, VI cild (aprel 1920-iyun 1941). Bakı, Elm, 2000
3. Azərbaycanın statistik göstəriciləri. Bakı, 2005
4. Azərbaycanda ailələr (statistik məcmuə). Bakı, 2009
5. Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması. 1999-cu il. VIII hissə. Bakı, 2001
6. Azərbaycan Respublikası Dövlət Qaçqınlar komitəsinin sənədləri
7. Azərbaycanın demoqrafik göstəriciləri. Bakı, Səda, 2005
8. Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri: Deportasiya, soyqırım, qaçqınlıq. Bakı, Qartal, 1998
9. Babayeva R. Keçmişdə Bakıda olan adət və ənənələr. Azərbaycan MEA Tİ EA, inv. 1376, t. 1, Siy. II, №1627

10. Бабаева Р.И. Материалы для изучения свадебных циклов на Апшероне, НАИИ АН Азерб. Республика, ИНВ. №23632, Оп. 9

11. Бабаева Р.И. Материалы для изучения свадебных обрядов на Апшероне в прошлом. Азербайджанский этнографический сборник. Исследования и материалы. Ы выпуск. Изд.-во АНА, Баку, 1964, стр. 177-190

12. Elçin Aslanov Bakı, 2001. Azərbaycan toyu. Bakı, «Tutu» nəşriyyatı, 2003

13. Hüseynqulu Sarabski. Köhnə Bakı, Yazıçı, 1982

14. İsayev İ. Sosialsit Bakısı (1920-1940-cı illlər) Bakı, Azərb. SSR EA nəşriyyatı, 1964

15. İsmayılov M.Ə. XX əsrin əvvəllərində Azərbaycan kənd təsərrüfatı. Bakı, 1960 (s. 20).

16. XXI əsr Dirçəliş, aprel 2003. №62

17. Qılman İlkin. Bakı və bakılılar. Bakı, Nurlar. 2006

18. «Kəşkül», 29 may 1890, №108

19. Mehriban Seyidzadə Xınayaxdı mərasimi barədə. Milli Azərbaycan tarixi muzeyi. Bakı, 2008-ci il

20. Məmmədli V.R. Azərbaycan Respublikasında ailələrin demoqrafik inkişafının qanunauyğunluğunun statistik tədqiqi. İqtisad elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiyanın avtoreferatı. Bakı, 2002

21. Nərgiz Quliyeva. Müstəqillik illəri Azərbaycan ailəsi. Bakı, Elm. 2006

22. Sara xanım Aşurbəyli. Bakı şəhərinin tarixi, Bakı, Əbilov, Zeynalov və oğulları, 2006

23. Səlimov Şağani. Abşeronlular. Bakı, 1993

24. Səidova F.M. Maştağada dəfn mərasimi. Azərb. EA Tİ EA inv. 3632

25. Стригунов И.В. Из истории формирования Бакинского пролетариата (70-90-е годы ХЫХ в.) Баку, 1960

26. Zeynalov İ.X. Azərbaycanın sosial-iqtisadi inkişafı – XX əsrin II yarısında. Bakı, Azərnəşr, 2004

27. Итоги Всесоюзной переписи населения 1979 г. по Азербайджанской ССР. Т. 1, 2, 3, 4. Баку, ЦСУ Азерб. ССР. 1980-1981

28. Итоги Всесоюзной переписи населения 1970 г. по Азербайджанской ССР. Т. 1, ч. 1, 2. Т. 2, Баку, ЦСУ Азерб. ССР., 1972-1973 г.

29. Мурадалыева Э.Б. Города Северного Азербайджана во второй половине XIX века. Баку, 1960

30. Mehriban Seyidzadə. Xınayaxdı mərasimi barədə. Milli Azərbacan Tarixi Muzeyi. Bakı 2008, səh. 427-430

31. Milli Azərbaycan tarixi Muzeyinin Etnoqrafiya şöbəsinin materialları əsasında

32. Фатуллаев Ш.С. Градостроительство Баку XIX - начала XX веков. Ленинград, Стройиздат, Ленинградское отделение, 1978

33. Обозрение Российских владений за Кавказом, в статистическом, этнографическом и финансовом отношениях. Спб. 1836

34. «Şərqi-Rus», 19 noyabr 1903, №98

35. İnformatorlar: Bakı şəhər sakinləri:

Ağayeva Səfurə, Ağayeva Gülüstan, Ağayeva Nazlı, Atakişiyeva Sevil, Ağayev Molla Ağa, Ağayev Hacıbaba, Ağayev Hacı Əzizağa, Babayev Ramiz, Bayramova Süniyə, Dadaşova Fəridə, Dadaşov Ağası, Fətullayeva Tamilla, Hacıyeva Mələk, Hacıyeva Natiqə, Hüseynova Hacıxanım, Hüseynova Elmira, Hüseynov Əliullah, İsmayılov Əliabbas, İsmayılova Reyhan, Kərimov Fazil, İbrahimova Rəna, Kərimova Suğra, Kəbleyi Çərkəz Yusif oğlu, Mirteymur Məmmədli, Mehdiyeva Rübabə, Məmmədov Cəfər, Məmmədova Raya, Məmmədova İradə, Məmmədov Faiq, Məmmədov Fəzail, Məmmədov Vaqif, Məmmədov Ramiz, Məmmədova Umfira, Məmmədova Leyla,

Məmmədova Səadət, Məmmədova Mahidə, Məlikova Aliyə, Məmmədov Məmməd, Məmmədova Zümrüd, Məcidova İlahə, Məlikova Sitarə, Mərdəkani Şeyx Sənan, Məmmədova Səliməxanım, Məmmədov Əhmədağa, Məmmədov Ağamirzə, Mehbalıyeva Fatmaxanım, Mirzəyev Davud, Nəsirova Xalidə, Qafarov Fikrət, Quliyeva İzmira, Quliyeva Xədicə, Rəhimov Mirzəhəsən, Rəhimova Xırdaxanım, Rəhimova Kəbleyimər-yəm, Sadıqlı Nicat, Vahabov Vahab, Vahabova Firuzə, Əliyev Hüseynəli, Əliyeva Sara, Əliyeva Sevil, Əliyev Şirin, Əliyev Əliheydər, Əzizova Nəzakət, Zeynalova Xanım, Əbdülqədi-mova Zeynəb, Əliyeva Dilarə, Zeynalova Xanım.

**Kamil İbrahimov**
*tarix elmləri doktoru, professor*

# Bir qalanın tarixi

*İçəri şəhərin ərazisində mütəmadi olaraq aparılan qazıntı işləri nəticəsində əldə olunmuş arxeoloji materialların zənginliyi nümayiş etdirir ki, İçəri şəhər Azərbaycan xalqının tarixinin, o cümlədən onun milli dövlətçilik tarixinin bir çox açılmamış səhifələri haqqında, zəngin mənəvi və maddi sərvətlər xəzinəsi barədə dəyərli mötəbər məlumatlar verən və tədqiqinə hələ də ehtiyac duyulan tükənməz mənbədir. Mütəxəssislər İçəri şəhərin qədim yaşayış məskəni olması ilə yanaşı, onun ərazisində aparılan arxeoloji qazıntılar zamanı aşkar etdikləri mədəni təbəqələrin Azərbaycan xalqının tarixi və mədəniyyəti üçün xüsusi əhəmiyyətə malik olduğunu müəyyən etmişlər"*

***H. Əliyev***

Azərbaycan qədim və zəngin bir tarixə malikdir. Bu tarix isə hər şeydən öncə sirlər, əfsanələr örtüyünə bürünmüş qədim şəhərlərin qalıqlarında, dəbdəbəli saraylarda, ahəngdar biçimli, incə naxışlı türbələrdə, monumental məscidlərdə, xalqımızın yadelli işğalçılara qarşı "düyünlənmiş yumruqları" olan möhtəşəm qalalarda yaşayır.

Orta əsr şəhərlərinin zamanca ləng dəyişən plan quruluşu qala divarları ilə "qandallanmışdı". Şəhər planının müdafiə sistemindən asılılığı onun strukturuna və kompozisiyasına böyük dəyişiklik gətirə biləcək əsaslı şəhərsalma işlərinin aparılmasını çətinləşdirirdi. Güman ki, bütün Şərqdə, həmçinin Azərbaycanda şəhərlərin plan quruluşunun uzun əsrlər boyu çox az dəyişməsi səbəblərindən biri də bu olmuşdu.

**İçəri şəhərin qala divarları.** Bakı qalasının şimal tərəfində 1950-ci illərin ortalarında aparılan bərpa işləri zamanı tapılmış yazılı daş kitabədən (2,0 x 0,70) məlum olmuşdur ki,

Bakının qala divarı Şirvanşah III Mənuçöhrün (1120-1149) göstərişilə təqribən 1138-1139-cu illərdə inşa olunmuşdur.

1191-ci ildə Şamaxı zəlzələ nəticəsində dağıldıqdan sonra Şirvanşah Axsitan Şirvanın ikinci paytaxtına çevrilən Bakını özünün iqamətgahı etmişdi. Bu dövrdən başlayaraq şəhərin müdafiəsinin qayğısına qalaraq onu düşməndən layiqli müdafiə etmək üçün güclü fortifikasiya sistemi yaratmışdı. Bunu istər XII əsrin sonu – istərsə də XV əsrdə Bakıda və Abşeronda ucaldılmış və bu günümüzədək qalan möhtəşəm müdafiə tikililəri – bürclər, qəsrlər, qalalar və qala divarları sübut edir.

Orta əsrlərdə şəhərlərin müdafiə divarları İçəri şəhərin timsalında gördüyümüz kimi, oval və dairə şəklində tikilirdi. Qeyd etməliyik ki, bu tikinti üçün material və vəsait sərfini azaldır, az hərbi qüvvə ilə şəhərin müdafiəsini təşkil etmək imkanı yaradırdı. Qala divarları çəkilərkən həmişə ehtiyat ərazi nəzərdə tutulurdu. Hamı təhlükəsiz yerdə, müdafiə xətti daxilində yaşamaq istəyirdi. Zaman keçdikcə əhalinin artması qala divarları içərisindəki ehtiyat sahəsinin mənimsənilməsinə, tikintinin sıxlaşmasına, küçə və meydanların darısqallaşmasına, bunlar da öz növbəsində sanitariya-gigiyena şəraitinin və abadlığın pisləşməsinə səbəb olurdu. Urbanizasiya və şəhər əhalisinin artması məhz bayır şəhərin yaranmasına səbəb oldu. Beləliklə, "İçəri şəhər" termini belə yarandı. Bakı şəhərinin qala divarları dünyanın qala tipli şəhərləri arasında özünəməxsus yer tutur.

Orta əsrlərdə Bakı şəhəri şimal, şərq və qərb tərəfdən ikiqat nəhəng qala divarları ilə əhatə olunmuşdu. Mənbələrin məlumatına görə, şəhərin cənubda, Xəzər dənizi tərəfdən də divarıları olmuşdur. Qala divarları tez-tez düşmən hücumları zamanı dağıdıldığı üçün dəfələrlə bərpa edilmişdir. Sonuncu dəfə qala divarları 1950-ci illərdə bərpa olunmuşdur. Son bərpadan sonra 25 yarımdairəvi, bir ədəd isə dördbucaqlı formalı qala tipli bürc (donjon və yaxud cəbbəxana) qalmışdır.

Hündürlüyü 10-12 m. olan divarın hər 12-15 metrindən bir təkrar edilən bürclərinin 13-ü şəhərin şimal və şərq, 12-si isə qərb tərəfində yerləşir. Vaxtilə ümumi uzunluğu 1500 m. olan qala hasarının sadəcə 600 metri salamat qalmışdır. Qalanın şimalında yarımdairəvi bürclərlə yanaşı şəhərin müdafiəsini daha da qüvvətləndirmək üçün həmin bürclərdən daha hündür dördbucaqlı şəkildə qala bürc donjon tikilmişdir. Divar və bürclərdə başdan-başa düzbucaqlı formalı mazğallar yerləşdirilmişdir. Divarın üstü diş-diş şəkildə çıxıntılarla tamamlanır. Onu da qeyd etmək lazımdır ki, bu diş-diş çıxıntılar qədim Bakının yalnız çöl qala divarının üstündə var imiş. Burada məqsəd şəhərin uzaqdan daha möhtəşəm görünüşünü saxlamaq idi. İç qala divarlarının üzərində (I qala divarı), bu cür diş-diş çıxıntılar olmamışdır. 1950-ci illərdə çöl qala divarının (söküldükdən sonra bərpa olunmamışdır) görüntüsünü qaytarmaq üçün iç qala divarı üzərində bu çıxıntıları tikmişlər. Qala divarı yonulmuş əhəng daşından hörülmüşdür. Divarın hürgüsündə yumurta sarısı, inək südü və kəc məhlulundan bərkidici material kimi istifadə etmişlər. Onun hazırda qalınlığı 3-3,5 m., hündürlüyü isə 8-12 m. arasında dəyişir.

"Zülfüqar xanın darvazası" üzərindəki kitabədə qala hasarının I Şah Abbas dövründə hicri tarixi ilə 1017-ci (1608-1609) ildə bərpa edilməsi haqqında məlumat verilir.

Qala hasarı boyu açılmış mazğalların (təqribən 1 metr) altında düşmənin başına qaynar su və ya qətran tökmək üçün xüsusi deşiklər açılmışdır. Qala divarları boyu şəhəri müdafiə edən döyüşçülərin sərbəst və təhlükəsiz hərəkət etməsi üçün şərq-qərb istiqamətində inşa edilən yeraltı yolun ("İçərişəhər" metrosunun arxa hissəsindən qoşa qala qapılarına qədər) qalıqları dövrümüzə qədər qorunub saxlanmışdır.

Bakının orta əsrlərdə müxtəlif istiqamətlərdə açılan beş darvazası (üçü dənizə, ikisi quruya) olması haqqında mənbələrdə məlumat vardır. Şəhərin şimal tərəfindəki Şamaxı

(qoşa qala qapıları), qərbdən isə Salyan darvazası quru ilə əlaqə üçün əsas yol olmuşdur. Orta əsrlərdə şimaldan - Şamaxıdan gələn karvanlar cənuba - İrana məhz Salyan darvazalarından çıxaraq getmişlər. XIX əsrin əvvəllərinədək Şamaxı qapısı tək olmuşdur.

**I darvaza.** Şamaxı (Şimal) qapısı. XII əsrdə Qala divarı inşa edilərkən Qala divarında əsas qapı kimi açılmışdır.

**Qoşa Qala qapıları.** 1868-ci ildə Bakının hərbi qubernatoru şəhərin abadlaşdırılması, onun hərbi müdafiə istehkamı kimi ləğv edilməsi məqsədilə qala divarının sökülməsi barəsində Qafqaz Hərbi Dairəsinə müraciət edir. Qafqaz Hərbi Dairəsindən Bakı şəhər upravasına 1880-ci il göndərilmiş sərəncama görə ikinci qala divarının sökülməsinə icazəsi verilir və 1882-ci ildə başlanılır.

XIX əsrin əvvəllərinədək Şamaxı qapısı tək olmuşdur. Onu da qeyd etmək lazımdır ki, 1868-ci ildə Bakının hərbi qubernatoru şəhərin abadlaşdırılması, onun hərbi müdafiə istehkamı kimi ləğv edilməsi məqsədilə qala divarının sökülməsi barəsində Qafqaz Hərbi Dairəsinə müraciət edir. 1870-ci ildə xaricdən ikinci qala divarının sökülməsinə icazəsi verilir.

1886-cı ildə Dumanın iclasında məsələ qaldırılır və qərara alınır ki, İçəri şəhərə giriş-çıxışı asanlaşdırmaq üçün sökülən ikinci qala divarında olan "Zülfüqar xanın darvazası" ("Şah Abbas darvazası" – ona görə ki, Şah Abbas zamanında inşa olunmuşdur) adlanan qapı birinci qala divarında yerləşən Şamaxı qapısı (Şimal darvazası) yanında qurulsun. Elan olunmuş tenderdə Bakı sakini Hacıbaba Haşımov bu işi 800 rubla görməyi öz öhdəsinə götürür. Daha sonra bizə məlum olmayan səbəblərə görə o bu işdən imtina edir. Şah Abbas darvazasını Şamaxı darvazası yanında tikməyi digər Bakı sakini Kərbəlayı Məmmədhəsən öhdəsinə götürür və 1887-ci ildə Qoşa Qala qapısı istifadəyə verilir. Beləliklə, hal-hazırda

Gənclər meydanına çıxan ikinci darvaza belə açılır. Sonradan İçəri şəhərə daha bir neçə giriş qapısı açmışlar.

**II darvaza.** İçəri şəhərə açılan digər qapını, Sabir bağındakı tək qala qapısını da elə həmin illərdə (1887-88-ci illər) "Qatır Zeynalabdin" ləqəbli I gildiya taciri Zeynalabdin Tağıyev açdırır. Tacir bu qapını Bakı sakinlərini və icarədarları bu ərazidə tikdirdiyi çoxsaylı dükanlara cəlb etmək üçün açdırmışdı. Darvaza tağbənd formada tamamlanırdı.

**III darvaza.** İçəri şəhərə açılan Sabir bağındakı tək qala qapısının yanındakı qapı isə 1907-08-ci illərdə Bakı milyonçusu Musa Nağıyev tərəfindən oğlu İsmayılın şərəfinə tikdirdiyi "İsmailiyyə" saray-binası inşa olunarkən binanın yanında açılmışdır.

**IV darvaza.** İqtisad Universitetinin arxasında İçəri şəhərə açılan digər qapı bir qrup İçəri şəhər sakininin Bayır şəhərə gəliş-gedişini asanlaşdırmaq üçün Bakı şəhər upravasına ünvanladığı məktuba baxıldıqdan sonra açılmışdı. 1903-cü ildə Bakı şəhər upravası bu qapının açılması və pilləkənlərin tikilməsi üçün 732 rubl pul ayırır.

**V darvaza.** Bakı Şəhər İcra Hakimiyyətinin cənubundakı böyük darvaza 1912-ci ildə Bayır Şəhərə gəliş-gedişi asanlaşdırmaq üçün açılmışdır.

**VI darvaza.** Salyan (cənub) qapısı. XII əsrdə Qala divarı inşa edilərkən Qala divarında əsas qapı kimi açılmışdır.

Qoşa qala qapısı tağbəndinin üstündə isə ərəb əlifbası ilə inşaat yazısı və qabarıq şəkildə şəhərin rəmzi olan öküz başı, şir rəsmləri həkk olunmuşdur. 1683-cü ildə Bakıda olmuş alman alimi Engelbert Kempfer bu işarələri şəhərin gerbi kimi interpretasiya etmişdir. Kempferə görə şirlər – yəni qala divarları öküz başını – yəni dövləti (Şirvanşahlar sarayını) gecə-gündüz qoruyurlar. Qoşa qala qapısı tağbəndinin üstündə isə ərəb əlifbası ilə inşaat yazısı və qabarıq şəkildə şəhərin rəmzi olan öküz başı, şir rəsmləri həkk olunmuşdur. 1683-cü ildə Bakıda

olmuş alman alimi Engelbert Kempfer bu işarələri şəhərin gerbi kimi interpretasiya etmişdir. Kempferə görə şirlər – yəni qala divarları öküz başını – yəni dövləti (Şirvanşahlar sarayını) gecə-gündüz qoruyurlar.

Tarixdən bizə məlumdur ki, sökülmüş birinci qala hasarının daşları 40 min qızıl pula əhaliyə satılmışdır. Daşların satılmasında əsas məqsəd daş qıtlığı və urbanizasiya – yəni əhalinin sayının artmasıyla evlərin qala divarları daxilinə sığmaması və bayıra (Bayır şəhərə) daşınması ilə əlaqədar idi. İkinci qala hasarının daşları sökülüb satıldıqdan sonra başqa bir problem qarşıya çıxdı. Çünki vaxtilə ikinci qala divarı dibində xəndək vardı. Şəhərin düşməndən daha yaxşı qorunması üçün bəndləri açıb dəniz suyunu qala divarı boyunca relyefə uyğun təqribən Salyan qapısınadək buraxırdılar. Bunu şəhərin 1876-ci ildə çəkilmiş fotosunda və memar Şeblıkinin "Bakı XII əsrdə" adlı 1941-ci il rekonstruktiv qrafik rəsmində daha aydın görmək olar. Orta qala hasarının inşasında isə əsas məqsəd bundan ibarət idi: birincisi, əsas qala divarının bünövrəsini dəniz suyundan qorumaq. İkincisi, bəndi keçib qayıqlarla birinci qala hasarına yaxınlaşan düşməni hasarın mazğallarından asanlıqla ox atəşinə tutmaq. Ərazinin 1876-cı ildə çəkilmiş fotosuna baxdığımız zaman xəndəyin artıq doldurulmuş variantını görürük. Belə ki, Bakının hərbi komendantı Foven artıq 1870-ci ildə xəndəyin doldurulması haqqında sərəncam da vermişdi. Foven hətta Bakı limanına yaxınlaşan hər gəminin minimum 1 ton torpaq gətirməsi barədə də sərəncam vermişdi. Hər yerdən Lənkərandan, Həştərxandan, Dərbənddən, İrandan gələn bütün gəmilər Bakı limanına torpaq gətirirdi. Gətirilən torpaq xəndəyə tökülürdü. 1870-80-ci illər ərzində tökmə torpaq səviyyəsi xeyli qalxdığından Foven bu ərazidə - yəni yeni aşkar olunmuş qala hasarının yerləşdiyi ərazidə (xəndəyin yerində) park salmaq fikrinə düşmüşdü. Çünki burada tökmə torpaq olduğundan bina tikmək mümkün deyildi. Belə də oldu. İki

qala divarının arasında xəndəyin üstündə yaşıl və çox gözəl (bütün bunları görmüş yaşlı insanların iddiasına görə bu parkda analoqu olmayan ağaclar əkilmişdi) Mixaylovsk adına park salındı. Bu park bir az sonra "Qubernator", sonra "İnqilab", daha sonra "Vahid", indi isə "Filarmoniya" adını almışdır.

**Dördbucaqlı qala-bürcü.** Xalqımız ən qədim zamanlardan yadelli işğalçılara qarşı müdafiə olunmaq üçün müxtəlif tipli istehkamlar yaratmış və bu sahədə öz təcrübə və bacarıqlarını getdikcə təkmilləşdirərək, yüksək nailiyyətlər qazanmışdır. Hələ tunc dövründə yaranmış məşhur siklop tikililəri, sonralar çiy kərpicdən və daşdan hörülmüş qədim müdafiə qalaları buna gözəl misaldır.

Bakı və Abşeron özünün tarixi-memarlıq abidələri və müdafiə istehkamları ilə Azərbaycan şəhərləri arasında mühüm yer tutur. Baş ticarət yollarından və işğalçıların gəldiyi böyük yoldan kənarda yerləşən yarımsəhra çölləri ilə əhatə olunan qədim Bakı bir çox orta əsr tarixi və memarlıq abidələrini qoruyub saxlamışdır. Sadəcə iki əsr bundan öncə Bakı şəhəri adlandırdığımız Qala divarları ilə əhatə olunmuş ərazi indi İçəri şəhər adlanır. Daşdan tikilmiş bir şəhər olaraq İçəri şəhərdə orta əsrlərdə inşa olunmuş unikal fortifikasiya sistemi - möhtəşəm Qala divarları, qala bürcləri və digər müdafiə sistemləri öz əzəmətini indi də qorumaqdadır.

Bakı şəhərində müdafiə istehkamları tikilərkən, qala divarlarının əzəmətini, möhkəmliyini qoruyub saxlamaq və müdafiə sistemini daha da asanlaşdırmaq üçün möhtəşəm bürclər də qala divarının ayrılmaz hissəsi kimi inşa olunmuşdu.

Orta əsrlərdə Bakı şəhəri şimal, şərq və qərb tərəfdən ikiqat nəhəng qala divarları ilə əhatə olunmuşdu. Qala divarları tez-tez düşmən hücumları zamanı dağıldığı üçün dəfələrlə bərpa edilmişdir. Sonuncu dəfə qala divarları 1950-ci illərdə bərpa olunmuşdur. Son bərpadan sonra 25 yarımdairəvi, bir ədəd isə dördbucaqlı formalı qala tipli bürc ("donjon" və yaxud

“cəbəxana”) qalmışdır. Hündürlüyü 10-12 m. olan Qala divarının hər 12-15 metrindən bir təkrar edilən bürclərinin 13-ü şəhərin şimal və şərq, 12-si isə qərb tərəfində yerləşir. Vaxtilə ümumi uzunluğu 1500 m. olan qala hasarının hal-hazırda sadəcə 960 metri salamat qalmışdır.

Bakının orta əsr tarixinin öyrənilməsində Şərqin tanınmış səyyahı, coğrafiyaşünası və tarixçisi Təbrizdə yaşayan lakin əslən bakılı olan Əbdürrəşid ibn Sabir ibn Nuri əl Bakuvinin məlumatları çox qiymətlidir.

XIV əsrin sonu XV əsrin əvvəllərində yaşamış və bir neçə əsərin müəllifi olan Əbdürrəşid Bakuvinin yalnız “Abidələrin xülasəsi və qüdrətli hökmdarın möcüzələri haqqında” adlı kitabı bizim dövrümüzə qədər gəlib çatmışdır. Fransanın Milli kitabxanasında saxlanılan həmin kitabın foto surəti akademik Z.M.Bünyadov tərəfindən Azərbaycana gətirilmiş, rus dilinə tərcümə edilmiş, giriş sözü və ərəb mətni ilə birlikdə nəşr edilmişdir. Məlum olduğu kimi, Bakuvi bu əsərində Azərbaycanın orta əsr şəhərləri haqqında geniş məlumat verir. Xüsusilə, Bakı şəhəri barədə daha dəqiq və ətraflı danışır.

Əbdürrəşid Bakuvi şəhərin qala divarları haqqında maraqlı məlumat verərək yazır: “Şəhərin həddən artıq möhkəmləndirilmiş əsas iki qalası vardır: “Onlardan böyüyü dənizə yaxındır. Dalğalar onun divarını yuyur. O, həmin qaladır ki, tatarlar onu tuta bilmədilər. Onun üst hissəsi girintili-çıxıntılı hörülmüşdür. İkinci qala birincidən hündürdədir.” Burada heç şübhəsiz, Bakuvinin qeyd etdiyi birinci qala Qız qalasıdır. İkinci isə hər halda Dördbucaqlı qala bürcüdür. Dördbucaqlı qala bürcü öz təbii-coğrafi mövqeyinə və şəhərin relyefinə görə Qız qalasından daha hündürdə yerləşir. Ə.Bakuvinin sözlərindən bir daha aydın olur ki, Qız qalası şəhəri cənubdan, Dördbucaqlı qala isə şimaldan qoruyurdu.

Orta əsr müəlliflərinin də yazdıqlarına görə, Bakı şəhərinin 70 yarımdairəvi və şimal qala divarlarının içində yerləşən 1

ədəd dördkünc qala tipli bürcü (donjon və ya cəbbəxana) var. Bakını tərənnüm edən qədim fotoşəkillərdə, reproduksiyalarda, qrafik rəsmlərdə bu dördkünc qala tipli bürc aydın təsvir olunmuşdur. Xalq arasında bu qalaya cəbbəxana (cəbbəxana-yəni silah anbarı) deyirlər. Orta əsrlərdə, istər dinclik dövründə, istərsə də müharibə şəraitində bu qaladan silah anbarı kimi istifadə olunmuşdur. Qala-bürcün tikilməsi əsasən bir neçə məqsəd daşıyırdı. Əvvəla, qala divarlarının görüntüsünün möhtəşəmliyini artıraraq, Bakının şimal tərəfdən müdafiəsini daha da sağlamlaşdırmaq üçün ərazini nəzarətdə saxlamaq. İkincisi, qapalı, geniş əraziyə malik qaladan silah anbarı kimi istifadə etmək.

Bu dördkünc qalanı donjon ("donjon" - fransız sözü olub "müdafiə qalası" kimi tərcümə olunur) da adlandırırlar. Qala-bürc Mərdəkan və Ramana qalalarına bənzəyib klassik Abşeron müdafiə sisteminin bariz nümunələrindən biridir. Qala üçü qapalı və biri açıq olan dörd mərtəbədən ibarətdir. Qalanın hündürlüyü 18 m., divarlarının qalınlığı 2 metrdir. Qalanın silindrik formasına görə möhtəşəm görüntü yaradan künclərinin diametri isə 2,5 metrdir. Künclərin birindən daxili otaqlara vintvari (burulan) pilləkən var. Hörgü materialı kimi kəc və yerli əhəngdaşından istifadə olunmuşdur.

Tipik Abşeron qalaları kimi çox güman ki, bu qala-bürcü ətrafdan əhatə edən hasar da olmuşdur. Bunu memar Şeblıkinin 1941-ci ildə çəkdiyi "Bakı XII əsrdə" adlı qrafik rəsmində aydın görmək olar. Alman səyyahı E.Kempferin 1683-cü ildə çəkdiyi Bakının qrafik rəsmində bu qalanı izləmək olar. 1796-cı ildə hidroqraf mühəndis-polkovnik Kovalerov Xristian Truzson tərəfindən tərtib edilən xəritədə bəhs olunan qala-bürc olduğu kimi təsvir edilir. 1858-66-cı ildə hidroqraf kapitan-leytinant A.F.Ulskiy tərəfindən işlənmiş Bakının xəritəsində Dördbucaqlı qalanın təsviri vardır. Qala-bürc şimal divarlarında qala müdafiəçilərin hərəkəti üçün nəzərdə tutulmuş yolların

arasında yerləşir. Ehtimal edilir ki, İçəri şəhər metro stansiyasının arxasındakı yeraltı tikilidən Qoşa qala qapılarınadək uzanan yeraltı yol da məhz bu Qala-bürcün altından keçir. Təbii ki, belə mövqedə olan qəsrdən əsgərlər rahat silah-sursat daşıya bilərdilər. Qalanı  Şirvanşahlar sarayı və ya Qız qalası ilə birləşdirən yeraltı yollar barədəki ehtimallara əsasən deyə bilərik ki, bu tikili hökmdar ailəsinin və yaxın çevrəsinin təhlükəsizliyinə də xidmət edirmiş.

XIV əsrin sonu - XV əsrin əvvəllərində Şirvanşahlar sarayında yaşayıb yaratmış saray şairi Bədir Şirvani, şahın dayəsi olmuş Lələ Ədiyə həsr etdiyi mədhində Bakı şəhərinin möhkəm qala divarlarının və bürclərinin olduğu haqqında məlumat verir.

1647-ci ildə Bakıda olan Türk səyyahı Evliya Çələbi "Səyahət - namə" adlı əsərində Bakının qala divarlarında 70 yarımdairəvi bürc və 600-dən artıq mazqal olduğunu xəbər verir. Müəllifin məlumatına görə divar qaya üstündə tikilmiş və onun hündürlüyü 40 dirsəkdir (bir dirsək təxminən 0,5 m-dir). Qala divarının qaya üstündə tikildiyini arxeoloji qazıntılar da təsdiq etmişdi. Orta əsrlərdə uzunluğunun 1600 metr olduğu ehtimal edilən Qala divarlarının hal-hazırda 960 metri salamat qalmışdır.

Moskva mərkəzi hərbi-tarixi dövlət arxivindən əldə edilmiş 1738-ci ilə aid "Bakı qalasının situasiya planı" adlı planda həm qala divarları, həm də eyni zamanda şəhər tikililəri də əks olunmuşdur. Xəritədə 1723-cü illə 1738-ci illər arasında Bakı qalasının divarlarının altı bastion ilə möhkəmləndirildiyi göstərilir. Bu planda bastionların adları" ...Rusiya darvazası qarşısında, Azov bastionu, Peterburq bastionu, Moskva bastionu, Cənub-şərq darvazası qarşısındakı bastion, felmans" kimi qeyd olunub. Bastionlardan biri məhz Dördbucaqlı qala-bürcün tam arxasında, hal-hazırda AMEA-nın Rəyasət Heyyəti binasının həyətində yerləşibmiş.

Qala bürcün inşasının tarixi haqqında iki ehtimal var. Bəzi alimlər onun Bakı qala divarları ilə eyni tarixdə - XII əsrdə tikildiyini söyləyirlər. Digər tədqiqatçılar qalanın XIV əsrin sonu XV əsrin əvvəllərində – Şirvan dövlətinin əmin-amanlıq dövründə inşa olunduğunu iddia edirlər. Görkəmli tədqiqatçı S.Aşurbəyli memar A.Q.Rəhimovanın 1971-ci ildə çap etdirdiyi "Bəzi memarlıq abidələrinin inşa tarixi barədə" adlı məqaləsinə əsaslanaraq Qala-bürcün XV əsrdə tikildiyini yazır. Bu ehtimal daha həqiqətə uyğundur. Çünki, Şirvanşahların saray şairi Bədr Şirvaninin mədhlərində göstərilir ki, bir neçə memarlıq tikililərini, həmçinin bu abidəni Şirvanşah I Xəlilullahın qardaşı Bakı hakimi Qəzənfər şah şəhərin şimal tərəfdən müdafiəsini daha da möhkəmləndirmək üçün (1398-1443) 1428-29-cu illərdə inşa etdirmişdir.

Şimal Qala divarları cərgəsində ucalan Dördbucaqlı qala-bürc indi də öz möhtəşəmliyini və əzəmətini qoruyub saxlayır. Hal-hazırda Dördbucaqlı qala-bürcdə konservasiya işləri gedir. Qala içəri tərəfdən bütün artıq tikililərdən azad olaraq təmizlənmişdir. Onun birinci mərtəbəsinin yerində torpaq işləri və xilasedici arxeoloji qazıntı işləri aparılmışdır. Qazıntı zamanı bəzi maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur. Bunlardan mehtərə (matra-flyaqa) və aftafa tipli qabları, həmçinin xeyli sayda gil qab qırıqlarını və 25 ədəd əsrin əvvəllərinə aid olan (istifadə olunmuş və olunmamış) tüfəng güllələrini qeyd etmək olar. Qalanın içində qaya təbəqəsinə qədər bütün torpaq qatı təmizlənmiş və bir su quyusu aşkar olunmuşdur. Qalanın ikinci mərtəbəsində sanitar bölmə və onun çıxıntı sistemi də tapılmışdır. Abidədə konservasiya zamanı divarlar təmizlənərkən uzun zaman divar örtüyü təbəqəsinin altında qalmış hava ventilyasiya deşikləri də açılmışdır.

Bir neçə mərhələni özündə ehtiva edən mürəkkəb texnoloji prosesin gedişində təqribən 500 $m^2$-lik səth örtüyü, xüsusi avadanlıq və materiallarla bərpa edilərək konservasiya olun-

muşdur. Bərpa işləri abidədən bir daş belə düşmədən, abidənin tarixiliyinə və mövcud quruluşuna zərər yetirilmədən aparılır. Bu cür muzey-konservasiya işləri dünya standartlarına cavab verir. Konservasiya olunduqdan sonra bu abidədə "silah muzeyi" ekspozisiyası yaradılması nəzərdə tutulur.

Gələcək nəsillərə olduğu kimi çatdırmaq üçün babalarımızdan bizə miras qalan Şirvan-Abşeron memarlıq sənətinin bariz nümunələrindən sayılan bu daş abidənin – İçəri şəhərin ikinci qalasının peşəkarlıqla konservasiya olunması və burada abidədən məqsədyönlü istifadə edilərək muzey yaradılması şəhər sakinlərinə bir töhfə olacaqdır.

**Qala divarları cərgəsində itmiş yarımqövs bürc.** Şimal-şərq Qala divarı cərgəsində rekonstruksiya və bərpa işləri zamanı vaxtilə sökülmüş və daha sonralar bərpa edilməmiş bir bürcün də restavrasiyası gündəmdə idi.

1950-ci illərdə Qala divarında aparılmış bərpa işləri zamanı Qəsrin yaxınlığındakı digər yarımdairəvi bürclərdən biri bərpa olunmamış və beləliklə, itmişdi. İtmiş bürcün Qala divarları cərgəsindən götürülməsi isə XX əsrin əvvəllərində bu ərazidə aparılan xaotik və plansız inşaat işlərilə əlaqədar olmuşdur.

Keçən əsrin əvvəllərinə aid fotoqraf F.İ.Şreybor tərəfindən müxtəlif rakurslardan çəkilmiş, içəri tərəfdən birinci cərgə şimal qala divarlarının fotolarında itmiş bürc aydın görünür. Bu abidənin tarixini araşdırarkən əsli Moskvanın hərbi-tarixi mühəndislik muzeyində saxlanılan bir xəritə diqqəti cəlb etdi. 1796-cı ildə mühəndis-polkovnik Kovalerov Xristian Truzsonun tərtib etdiyi xəritədə bəhs olunan qala divarı bürcü sökülmədən öncə olduğu kimi qeyd olunmuşdur.

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi tərəfindən həyata keçirilən şimal-şərq Qala divarlarında aparılan son bərpa işləri zamanı məhz rus mühəndislərinin XIX əsrin sonu - XX əsrin əvvəllərinə aid tərtib etdikləri xəritələrə istinad

edilmişdir. Şimal-şərq Qala divarı cərgəsindəki bu möhtəşəm bürc artıq müasir texnoloji metodlardan istifadə edilərək bərpa olunmuş və öz əvvəlki görkəminə qovuşmuşdur.

**Rekonstruksiya edilən ərazinin tarixi-coğrafi mövqeyi.** Şirvanşahlar dövlətinin süqutundan və müvəqqəti Səfəvi hakimiyyətindən sonra XVII əsrdə Azərbaycan ərazisində yaranan xanlıqlar dövründə, Bakı xanları Şamaxı qapısının sol tərəfində yerləşən ərazidə yaşamışlar. Bakı xanları şəhəri 1747-ci ildən 1806-cı ilə qədər sərbəst idarə etmişlər.

Bakının Rusiya imperiyası tərəfindən 1806-cı il III işğalı (I işğal – 1723-cü il general-leytenant M.A Matyuşkin, II işğal 1796-cı il general V.Zubov) zamanı İçəri şəhər ərazisində bir neçə tarixi məhəllə sökülmüş, o cümlədən də Bakı xanlarının evinin yerindəki bir neçə bina qismən dağıdılmışdı. Məhz o zaman Kiçik Qala küçəsi 1-13 saylı ünvanlar ərazisindəki tarixi məhəllə sökülərək, yerində Bakı qarnizonunu yerləşdirmək üçün əsgər kazarmaları tikilmişdi.

Beşcildlik "Qafqaz müharibəsi" əsərinin I kitabındakı "Bulqakov" fəslinin müəllifi rus hərb tarixçisi general leytenant V.A.Potto (1836-1912) yazır ki, 1806-cı ilin oktyabrında Bakı tam alındıqdan sonra Qala divarı içərisindəki hasara yaxın bir neçə məhəllə söküldü. Bəhs olunan ərazidə rus qoşunlarının bir hissəsi və Bakı qarnizonu üçün əsgər kazarmaları tikilməyə başlandı.

Qeyd etmək lazımdır ki, İçəri şəhərin o dövrə qədər qalmış tarixi məhəllələrindən biri olan bəhs etdiyimiz ərazi olan "Cəbəxan" məhəlləsi məhz bu zaman sökülmüşdü.

Potto yazır ki, ordu, həmçinin general Bulqakov Bakıda bir neçə gün qaldı. Əsgərlər müvəqqəti olaraq İçəri şəhərdəki karvansaraylarda yerləşdirildi. Həmin müddətdə general Bulqakov sırf şərq dəbdəbəsi ilə fərqlənən xan sarayında yaşadı. V.A. Potto yazır ki, Bakı xanlarının evinin yerində yerləşən binaların divarlarındakı tarixi rəsmlər yağlı boyalarla çəkilmiş və

qızıl suyu ilə işlənmişdi. Bulqakovun əmri ilə bu unikal sənət əsərləri xüsusi iskənələrlə divarlardan söküldü. Bu iş elə ustalıqla görüldü ki, rəsmlər zədələnmədi. Divardan sökülmüş bu rəsmlər daha sonra Sank-Peterburqa aparıldı.

Bakıda general-mayor Quryevin rəhbərliyi altında Sevastopol alayının yalnız bir batalyonu qarnizon kimi qaldı. General-mayor Quryev Bakı xanlarının evində yerləşdi. Qarnizon isə indiki Kiçik Qala küçəsi 1-13 saylı ünvanlar ərazisindəki tarixi məhəllənin söküldükdən sonra yerində müvəqqəti tikilmiş kazarmalarda yerləşdirildi.

1859-cu ildə Bakı quberniya mərkəzinə çevriləndə şəhər əhalisi təxminən yeddi min nəfərə yaxın idi. Şəhər Qala divarları içərisindəydi. Küçələr darısqal, əyri-üyrü və bir-iki mərtəbəli idi. Diqqəti cəlb edəcək dörd böyük tikili vardı - təpədə yerləşən Şirvanşahlar sarayı, Dördbucaqlı qala-bürc, Şamaxı darvazaları yanında Bakı xanlarının sarayı, bir də əfsanəvi Qız qalası.

Bu möhtəşəm abidələri 1861-cı ildə hidroqraf kapitan-leytenant Ulskiy və 1796-cı ildə hidroqraf Xristian İvanoviç Truzson tərəfindən tərtib edilən Bakı və ətrafının xəritələrində də görmək olar.

General Bulqakovun əmri ilə 1806-cı ilin oktyabrından 1807-ci ilin noyabr ayına kimi Bakı xanlarının evinin yerindəki xeyli zərər görmüş binalarda bəzi rekonstruktiv işlər görülmüşdü. "Cəbəxan" məhəlləsi yerində inşa olunan əsgər kazarmaları demək olar ki, rus memarlığı üslubunda, həmçinin tələsik olduğundan kobud və qeyri-professional tikilmişdi.

**"Cəbəxan" məhəlləsi İçəri şəhərin məhəllələri fonunda.** Orta əsr Bakı şəhərində qoruyucu zona şəhər orqanizminin mühüm komponenti olan, ümumi tikilişi xarakterizə edən məhəllələrə bölünürdü. Ölçülərinə və memarlıq tərtibatına görə bu məhəllələr standart deyildilər və bu səbəbdən də şəhərin planı xaotik tikililər təsiri bağışlayırdı.

İqtisadi-sosial baxımdan şəhər əhalisi eynicinsli olmadığına görə, bu özünü memarlıqda da əks etdirirdi. Əhalinin əsas təbəqəsi müəyyən zümrəyə malik tacir və sənətkarlardan ibarət idi. Onlar şəhərin ən yaxşı hissələrində yerləşən ayrı məhəllələrdə məskunlaşırdı. Dar döngələr kasıbların məskəni idi.

XV əsrdə şəhərdə hökmdar və aristokratiya yaşayan əsas məhəllə şəhərin ən yüksək hissəsində - Şirvanşahlar Sarayı ətrafında yerləşən "qala məhəlləsi" sayılırdı. Yazılı mənbələrdə şəhər əhalisinin yüksək təbəqəsi yaşayan və gözəl binalar tikilmiş məhəllələrin adına rast gəlinir. Şirvanşahlar Sarayına yaxın şimal Qala divarı boyu aşağı cərgədə digər məhəllələr də yerləşirdi.

"Cəbəxan" məhəlləsi məhz Dördbucaqlı qala-bürcün şimal Qala divarları cərgəsində Şirvanşah I Xəlilullahın qardaşı Bakı hakimi Qəzənfər şah tərəfindən 1428-29-cu illərdə inşa edildiyindən sonra meydana gəlmişdi. Biz bu məlumata Şirvanşahlar sarayında saray şairi olmuş Bədr Şirvaninin mədhlərində rast gəlirik. Bu ərazi strateji mövqeyə malik olduğu üçün burada məskunlaşmış əsgər ailələri tərəfindən daha sonralar bu tarixi məhəllə yaranmışdı. Bu məhəllə 400 ilə yaxın bir tarixi dövr keçmişdir. 1806-cı ildən sonra "Cəbəxan" məhəlləsi sökülərək yerində rus əsgər kazarmaları tikilmişdir.

Şimal Qala divarları cərgəsi boyu "Cəbəxan" məhəlləsindən aşağı ticarət-sənətkar məhəllələri yerləşirdi. Bunu alman səyyahı E.Kempferin 1683-cü ildə çəkdiyi Bakının qrafik rəsmində də izləmək olar. Şəhərdə sənət istehsalının çoxsahəli xarakteri isə xüsusiləşmiş yaşayış vahidlərinin daxili həyata malik məhəllələrinin yaranmasını şərtləndirirdi. Sakinlər kiçik mülklərə məhəllə daxilində küçə şəbəkəsini yaradan dalan-küçələrdən daxil olurdu. Ticarət-sənətkar məhəllələri kübar məhəllələrindən sadəliyi ilə seçilirdi.

Şəhər strukturunda sənətkar məhəlləri yeri istehsalın xüsusiyyətlərindən asılı idi. Zərgərlər mərkəzi bazara, dəri emal-

çıları – su hövzəsinə, dəmirçilər şəhər qapılarına yaxın yerləşirdi. Məsələn, iyli, səs-küylü və tüstülü olduqlarına görə dəri emalı, dulusçuluq və dəmirçi emalatxanaları şəhər kənarında - “rabad” da yerləşirdi.

Məhəllələrin formaları küçələrin istiqamətindən və sahənin relyefindən asılı olaraq çox müxtəlif idi. Düzgün olmayan formaya malik məhəllələrdə məskunlaşma çox sıx olduğundan yaşayış evlərinin inşası çətinləşirdi. Məhəllələrin aydın şəkildə yaşayış, ticarət-sənətkar məhəllələrinə bölünməsi izlənilmirdi, çünki sənətkarlar evlərində də işləyirdilər.

İçəri şəhərin məkan kompozisiyasını araşdırarkən aydın olur ki, o mərkəzi prinsipə əsaslanır. Saray kompleksinin olduğu İçqala şəhərin planında əsas şəhərsalma qovşağı kimi çıxış edir.

Bakının köhnə planlarında (əsasən rus mühəndislərinin çəkdikləri planlar) küçələrin kəsişdiyi yerlərdə meydanlar göstərilmişdir. Lakin onların hamısı ölçülərinə görə çox kiçik və qeyri-müəyyən formadadır. Onların az bir hissəsi dövrümüzədək saxlanmışdır. Bəzi hallarda, belə kiçik meydançalar küçələri müəyyən yerlərdə genişləndirmək yolu ilə yaradılırdı. Güman ki, onların məhəllə məscidləri olan yerlərdə, onların qarşısında nəzərdə tutulurdu. Qeyd etmək lazımdır ki, İçəri şəhərdəki məhəllə məscidləri onların ətrafında tikilmiş yaşayış binalarından çox da fərqlənmirdi. Əgər İçəri şəhərin plan quruluşunda o dövrün feodal şəhərləri üçün xarakterik bölgü prinsiplərinin, yəni əhalinin peşə, dini və etnik əlamətlərinə görə ayrı-ayrı məhəllələrə bölünməsinin izlərinə rast gəlinmədiyini desək, onda kiçik məscidlərin sanki təsadüfi olaraq həmin nöqtədə yerləşməsini başa düşmək olar.

Şəhər öz planlaşmasında tarixin müxtəlif əsrlərə aid izlərini daşıyır. İçəri şəhər XV əsrdə tam formalaşmış şəhərsalma strukturu ilə seçilir. Bu dövrdə şəhərdaxili tikintinin sürətlə inkşafı müşahidə edilirdi. İçəri şəhərdən bir şəhərsalma abidəsi

kimi danışdığımız halda, ilk növbədə şəhərin salındığı çox əlverişli relyefin seçilməsini qeyd etməliyik. Şəhərin planlaşması təbiət şərtlərinin təsiri altında böyük ustalıqla yerinə yetirilib. Müdafiə qala divarları şəhəri üç tərəfdən, eləcə də sahil boyu əhatə edirdi. Qala divarları Xəzərin dərinliklərinə doğru uzanaraq çox rahat dəniz limanını yaratmışdı.

Bakının XIII-XIV əsrlərə aid məhəllələri barədə məlumatlar çox azdır. Bu dövrə aid tikili və abidələr şəhərin inkişafdan qalmadığını sübut edir. Bu dövrdə Bakı Şirvanşahların iqamətgahı olmadığından, Şirvanşahlar dövlətinin səyləri və diqqət mərkəzindən kənarda qalmışdı.

Bakının inkşafında XV əsr nəzərə çarpan mərhələ oldu. Şirvanşahların mərkəzi, yenidən Bakıya köçürüləcəyi ərəfədə şəhərdə bir çox tikinti işləri aparıldı. Bunlardan müdafiə qurğularının möhkəmləndirilməsi, eləcə də şəhərin şirin su ilə təmin olunması ilə əlaqədar işlər görülürdü. Təbii olaraq şəhər mərkəzi o zaman Şirvanşahlar sarayı ətrafı sahədə formalaşmağa başladı. Şəhərin ticarət sahəsi isə yəqin ki qala divarlarından kənarda fəaliyyət göstərirdi. XV əsr Bakının çiçəklənmə dövrü idi. Qeyd etmək lazımdir ki, mədəniyyət təyinatlı və ictimai binalar, abidələrlə bərabər şəhərdə yüksək təbəqəyə aid yaşayış evləri də ucalmaqda idi.

Şəhərin bir əsrlik çiçəklənməsi 1501-ci ildə İsmayıl şahın hücumu ilə dayandı. Həmlə zamanı şəhərin qala divarları və Şirvanşahlar sarayı dağıdıldı. Kompleksin bəzi tikililəri dağıntıya məruz qalmadan qorunmuşdur. Mənbələrdən alınan məlumata görə Şirvanşahlar türbəsinin kitabəsinin, eləcə də 1947-ci ildə aparılan arxeoloji qazıntıların nəticələrinə görə isə zəngin bəzəkli üzlüklərin dağıdıldığı aşkarlandı. Bundan sonra şəhər sanki çökdü. Şirvanşahlar sarayı atılmış vəziyyətdə qalırdı. Yalnız XVI əsrdə bərpasına cəhdlər göstərilmiş və cəhdlər yarımçıq qalmışdır. Artıq XVII əsrdə isə, qala divarları bərpa

olunmuş və şəhərdaxili yeni tikinti işləri canlanmağa başladı. Şəhərin əsas özəyi olan ticarət küçəsi əmələ gəldi.

Beləliklə, artrıq XV əsrdə şəhərin şəhərsalma strukturu və müdafiə sistemi formalaşmış şəkildə idi və görüntü XIX əsrin əvvəllərinədək heç bir dəyişikliyə uğramadan çatmışdı. Şəhərin bu strukturu hələ XVIII əsrdə rus hərbi mühəndislərinin tərtib etdiyi planlarda mərhələli şəkildə əks olunmuşdur:

Bakının küçələrinin qarışıq sxemində maqistral küçələrini müəyyən etmək çətin olsa da şəhərin sxeminə baxanda, ticarət magistralına paralel bəzi küçələrin keçdiyini görürük. Bunlardan biri ticarət küçəsindən bir qədər yuxarıdan keçən – Böyük Qala küçəsidir ki, Sınıqqala da məhz bu küçədə yerləşir.

Bir çox səyyahlar Bakının ticarət küçəsini, Şamaxı darvazalarından Dağ darvazalarına kimi uzanan əyri və burada fayton və ya poçt arabaları ilə hərəkət etmək mümkün olan bir küçə kimi təsvir edirdilər. Qalan ensiz küçələrdə isə piyada və ya çətinliklə atla hərəkət etmək olduğunu yazırdılar. Rus səyyahı İ.Berezin yazır: "Bakıda bir ay müddətində qaldığım zaman şəhərin əsas küçəsi xariç, qalan ensiz küçələrində gəzdiyim an, bu dalanlardan çıxa biləcəyəmmi? sualı ilə tez-tez qarşılaşırdım". Həqiqətən də, şəhərin əsas küçələri 3,5 m enində idisə, ikinci dərəcəli küçələrin eni 2–2,5m. arası dəyişirdi.

Bildiyimiz kimi, Bakı dəniz sahilində yerləşir və dəniz vasitəsi ilə digər ölkələrlə ticarət əlaqəsi saxlayırdı. Şəhərin planında isə bütün küçələrin sahil tərəfə, daha doğrusu ticarət küçəsinə istiqamətləndiyi aydın görünür. Bir halda ki, küçələr şəhər mərkəzinə istiqamətlənir, deməli onların dolanbac və əyri planlaşdırılmasına relyefin və iqlimin məcburi təsirindən başqa səbəb yox idi. Küçələrin sınması Bakı üçün xarakterik olan küləklərin şiddətini zəiflədir. Nəzərə çarpacaq bucaq altında yerləşmiş mailli uzun küçələrin bir nöqtəsindən digər nöqtəsinə pilləkənli keçidlər aparır. Bu keçidlər vizual olaraq uzun küçələrə qısa tamamlanmış perspektiv görüntüsünü verir. Bir

çox küçələrin perspektiv sonu möhtəşəm memarlıq abidələri ilə tamaşaçını heyrətə gətirir.

XIX əsrdə İçəri şəhərdə şəhər əhalisinin sayının artması ilə əlaqədar mövcud olmuş bəzi məhəllələrin adları dəyişildi və hətta yeni məhəllələr meydana gəldi. Bu dövrdə İçəri şəhər əsasən doqquz məhəllədən ibarət idi. Hər məhəllə bir məscidin adı ilə adlanardı və hər məhəllənin öz mollası vardı. Cümə məscidi məhəlləsi, Şah məscidi məhəlləsi, Məhəmmədyar məscidi məhəlləsi, Hacı Qeyib məscidi məhəlləsi, Hamamçılar məscidi məhəlləsi, Sınıqqala məscidi məhəlləsi, Qasım bəy məscidi məhəlləsi və s. Gileyli məscidi məhəlləsi və s.

İçəri şəhərin Qala divarlarında kənarda olan bəzi məhəllələrinin adları həmin ərazidə yaşayan xalqların və tayfaların adı ilə adlandırılmışdı. Məsələn, Giləklar məhəlləsi Gilandan gələn tacirlərin yaşadığı məhəllə idi. Ləzgilər məhəlləsində Dağıstandan gələn silah və sursat ustaları yaşayırdı. İçəri şəhərin əhalisinin çoxu ustalar, tacirlər və dənizçilər idi. Bəzi məhəllələr isə orada yaşayan ustaların peşələrinin adı ilə adlandırılmışdı. Məsələn, Hamamçılar, Bəzzazlar, Həkkakçılar və s. İçəri şəhərin yerli sakinləri müxtəlif tayfaları yaxud nəsilləri təmsil edirdilər. Bu tayfaların bəzilərinin çox maraqlı adları var idi. Məsələn, Hoppataranlılar, Ağşalvarlılar, Toyuqyeyənlər, Toyuqyeməyənlər, Bozbaşlılar və s. Hər bir tayfa digər tayfalar haqqında məzəli zarafatlar edirdi. Məsələn, Bozbaşlılar saçları tez ağardığına (boz rəngi aldığına) görə, Ağşalvarlılar isə dənizçiliklə məşğul olduqlarına görə bu adı qazansalar da, onlar barədə müxtəlif zarafatlar mövcud idi.

Şəhər sahəsinin məhdudiyyəti və təbii iqlimin təsiri altında evlər bir-birinə çox yaxın tikilirdi. Nəticədə isə evlər arasında kiçik daxili həyətlər əmələ gəlirdi ki, bu həyətlərdə də yaşıllıq çox az idi, əsas etibarı ilə əncir və tut ağacları bitirdi. Şəhərdə balkonlu iki mərtəbəli, birinci mərtəbəsi təsərrüfat sahələri üçün nəzərdə tutulan yaşayış evləri də vardı.

Təbii terraslar üzərində pilləli şəkildə yerləşmiş yastı damlı evlər maraqlı Bakı siluetini yaradır. Bir-birinin üstündə pilləli şəkildə düzülmüş yastı damlı, balkonlu evlər və təpədə yerləşən Şirvanşahlar kompleksi İçəri şəhərin cənub hissəsindən və dənizdən geniş açılan bədii mənzərəsi idi.

**Xilasedici arxeoloji kəşfiyyat və qazıntı işləri.** İçəri şəhərdə Kiçik Qala küçəsi, şimal-şərq Qala divarları boyu rekreasiya zonasının yaradılması və park salınması ilə paralel olaraq bu ərazidə, həmçinin  arxeoloji xilasetmə işləri də aparılmışdır.

Torpaq-qazıntı və arxeoloji xilasetmə işləri zamanı xeyli miqdarda maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur. Qazıntı işləri zamanı ərazidən tapılan arxeoloji material əsasən IX-XIX əsrləri əharə edir. Bunlar gildən hazırlanan qalın və nazik divarlı polixrom və monoxrom boşqab, kasa, qazan, sərnic və digər qab qırıqlarının fraqmentlərindən, həmçinin daş məmulatı nümunələrindən ibarətdir.

Tapılan arxeoloji artefaktların içində ağ gildən hazırlanmış üçqulplu, lüləyi qırılmış, geniş ağızlı və geniş gövdəli su qabı özəlliklə diqqəti cəlb edir. Qabın hündürlüyü 17 sm., gövdəsinin diametri 18 sm., ağzının diametri 14 sm., oturacağının diametri 11 sm.- dir. Bu qabın inkişaf etmiş orta əsrlərə (XI-XIII əsrlər) aid olduğunu ehtimal etmək olar. (İnv. № 1)

Aşkar olunmuş maddi-mədəniyyət nümunələri içində xırda qum qarışığı olan ağ gildən düzəldilmiş qulpu və lüləyi qırılmış, dar ağızlı su qabı da vardır. Qabın hündürlüyü 19 sm., gövdəsinin diametri 14 sm., ağzının diametri 4 sm., oturacağının diametri 11 sm.- dir. Bu su qabının orta əsrlərə (XIV-XV əsrlər) aid olduğunu ehtimal etmək olar. (İnv. № 2)

Bu ərazidən tapılan digər arxeoloji material qırmızı rəngli gildən hazırlanmış, uzun lüləyi olan, qulpu qırılmış, dar ağızlı su qabıdır. Qabın lüləyı torpaqdan çıxarılarkən qırılmışdır. Qabın hündürlüyü 24 sm., gövdəsinin diametri 15 sm., ağzının

diametri 4 sm., oturacağının diametri 10 sm.- dir. Bu qabın orta əsrlərə (XIV-XV əsrlər) aid olduğunu ehtimal etmək olar. (İnv. № 3)

Ağ rəngli gildən bişirilmiş tək qulpu qırılmış lakin lüləyinin bir hissəsi salamat qalmış digər tapıntının gövdəsinin diametri 14,5 sm., qırılmış ağzının diametri 4 sm., lüləyinin uzunluğu 6,5 sm., - dir. Bu su qabının orta əsrlərə (XIV-XV əsrlər) aid olduğunu ehtimal etmək olar. (İnv. № 4)

Digər fraqment ağ gildən bişirilmiş qazan qapağıdır. Onun sadəcə 3/1 hissəsi salamat qalmışdır. Qapağın diametri 14 sm., tutacağının diametri 5,5 sm., qalınlığı 0,7 sm.-dir. Bu qazan qapağının orta əsrlərə (XIV-XV əsrlər) aid olduğunu ehtimal etmək olar. (İnv. № 5)

Barbetin dibindən tapılan kasa tipli meyvə qabı maraqlı quruluşa malikdir. Ağız hissəsi kənara qatlanmış, tünd boz rəngli gildən bişirilmiş bu qabın kiçik çıxıntılı oturacağı vardır. Meyvə qabı ehtimal olunan bu qabın oturacağının diametri 5,5 sm., hündürlüyü 7,2 sm., ağzının diametri isə 16,5 sm.-dir. Qabın yan hissəsində perimetr boyu ğazıma üsulu ilə 8 xətli bəzək cızılmışdır. Bu meyvə qabının XIV əsrə aid olduğunu ehtimal etmək olar. (İnv. № 6)

Qalın divarlı başqa bir təssərrüfat qabının oturacaq hissəsi açıq boz rəngli gildən bişirilmişdir. Bu qabın oturacağının diametri 9,5 sm., hündürlüyü 13,5 sm.,-dir. Onun son orta əsrlərə (XVI-XVII əsrlər) aid olduğunu ehtimal etmək olar. (İnv. № 7)

Qalın divarlı başqa bir təssərrüfat qabının salamat qalmış oturacaq hissəsi açıq boz rəngli gildən bişirilmişdir. Bu kiçik küpəbənzər qabın oturacağının diametri 13 sm., divarının qalınlığı 1,6 sm., qalan hündürlüyü 17,5 sm.,-dir. Onun inkişaf etmiş orta əsrlərə (XIII) aid olduğunu ehtimal etmək olar. (İnv. № 8)

Açıq-sarı rəngli gildən bişirilmiş digər qabın salamat qalmış oturacaq hissəsi barbetin dibindən, 2,2 metr dərinlikdən tapılmışdır. Onun oturacağının diametri 10,5 sm., qalan hündürlüyü isə 11,5 sm.-dir. Qabın son orta aid olduğunu ehtimal etmək olar. (İnv. № 9)

Sarı rəngli gildən bişirilmiş bardaq ehtimal edilən qabın salamat qalmış oturacaq hissəsi barbetin dibindən, 2,3 metr dərinlikdən tapılmışdır. Onun oturacağının diametri 9 sm., qalan hündürlüyü isə 12 sm.-dir. Qabın son orta aid olduğunu ehtimal etmək olar. (İnv. № 10)

Qalın divarlı polixrom (çoxrəngli) şirli kasanın oturacağının bir hissəsi barbetin dibindən, pilləkənlərin yaxınlığından aşkar olunmuşdur. Sarı rəngli fonda nəbati rəsmlər arasında iri dəvəquşu təsvir olunmuşdur. Cızma üsulu ilə işlənmiş fiqur marqans və göy rənglərlə rənglənmişdir. Onun oturacağının diametri təqribən 10 sm.- dir. Onun inkişaf etmiş orta əsrlərə (XI-XII) aid olduğunu ehtimal etmək olar. (İnv. № 11)

Qalın divarlı digər monoxrom (təkrəngli) böyük həcmli açıq-qırmızı qəngli gildən bişirilmiş şirli boşqabın yan və oturacağının bir hissəsi barbetin dibindən, 2,3 metr dərinlikdən aşkar olunmuşdur. Göy rəngli fonda perimetr boyu həndəsi rəsmlər təsvir olunmuşdur. Cızma üsulu ilə işlənmiş rəsmlər qara rənglə rənglənmişdir. Kiçik oturacağa malik 3 hissədən ibarət bu boşqabın oturacağının diametri 10,5 sm., oturacaqdan ağzının kənarına qədər olan məsafə isə 15.5 sm.-dir. Boşqabın digər hissələri onun ağzının kənarlarının qırıqlarından ibarətdir. Onun inkişaf etmiş orta əsrlərə (XI-XII) aid olduğunu ehtimal etmək olar. (İnv. № 12)

Qalın divarlı digər monoxrom (təkrəngli) böyük həcmli qırmızı qəngli gildən bişirilmiş, həmçinin anqob çəkilmiş şirli boşqabın oturacağının bir hissəsi barbetin dibindən, 2,3 metr dərinlikdən aşkar olunmuşdur. Sarı rəngli fonda perimetr boyu nəbati yarpaq rəsmləri təsvir olunmuşdur. Cızma üsulu ilə

işlənmiş rəsmlər oxra və göy rəng ilə rənglənmişdir. Kiçik oturacağa malik bu boşqabın oturacağının diametri 11 sm., oturacaqdan ağzının kənarına qədər olan məsafə isə 9,5 sm.-dir. Onun inkişaf etmiş orta əsrlərə (XII) aid olduğunu ehtimal etmək olar. (İnv. № 13)

Qalın divarlı digər monoxrom (təkrəngli) böyük həcmli açıq-qırmızı qəngli gildən bişirilmiş şirli boşqabın yan və oturacağının bir hissəsi barbetin dibindən, 2,3 metr dərinlikdən aşkar olunmuşdur. Göy rənglə şirlənmiş boşqabın içinin şir qatı demək olar ki, qopmuşdur. 3 hissədən ibarət bu boşqabın oturacağının diametri 11,5 sm., oturacaqdan ağzının kənarına qədər olan məsafə isə 16.5 sm.-dir. Boşqabın digər hissələri onun ağzının kənarlarının qırıqlarından ibarətdir. Onun inkişaf etmiş orta əsrlərə (XI-XII) aid olduğunu ehtimal etmək olar. (İnv. № 14)

Qulpu və ağız hissəsi qırılmış bu çırağın yan tərəflərində çıxıntılı bəzəkləri var. Boz rəngli iri qum qatışıqlı gildən bişirilmiş qalın divarlı bu çırağın inkişaf etmiş orta əsrlərə (IX-XI əsrlər) aid olduğunu ehtimal etmək olar. (İnv. № 15)

Ağ gildən bişirilmiş digər daha kiçik həcmli çırağın qulpu ağız hissəsi salamat qalmış, lülə hissəsi isə qırılmışdır. Bu çırağın orta əsrlərə (XIV-XV əsrlər) aid olduğunu ehtimal etmək olar. (İnv. № 16)

Digər ağ gildən hazırlanmış çırağın isə ağız hissəsi və qulpu qırılmışdır. Bu çırağın orta əsrlərə (XIV-XV əsrlər) aid olduğunu ehtimal etmək olar. (İnv. № 17)

Qala divarının dibində, qazıntı sahəsinin üst təbəqəsindən 1,3 metr dərinlikdə, hündürlüyü 16 sm. olub küng borunu xatırladan ağ gildən bişirilmiş qab aşkar olundu. Onun oturacağının diametri 6,5 sm., qırılmış ağzının diametri isə 11 sm.-dir. Qabın üzərində qazıma üsulu ilə bir ədəd, içərisində isə xeyli yivlər açılmışdır. Bu qabının orta əsrlərə (XV-XVII əsrlər) aid olduğunu ehtimal etmək olar. (İnv. № 18)

Monoxrom, qalın divarlı kasanın altlığını xüsusu qeyd etmək lazımdır. Onun oturacağının diametri 12 sm.-dir. Kasa altlığının yan divarında kiçik deşik açılmışdır. Ehtimal etmək olar ki, kasa sındıqdan sonra deşiklərdən nazik məftil keçirmək yolu ilə təmir edilmışdir. Bu kasa altlığının inkişaf etmiş orta əsrlərə (XI-XII əsrlər) aid olduğunu ehtimal etmək olar. (İnv. № 19)

Digər boşqab altlığı polixrom olub oturacağının diametri 10,5 sm.-dir. Boşqab altlığının inkişaf etmiş orta əsrlərə (XII əsr) aid olduğunu ehtimal etmək olar. (İnv. № 20)

Buradan aşkar olunan digər fraqment monoxrom göy rəngli şirli boşqabın yan hissəsinin fraqmentidir. Onun iç hissəsində nəbati fraqmentlər cızma üsulu ilə işlənmişdir. Boşqab fraqmentinin yan divarında 3 kiçik deşik açılmışdır. Ehtimal etmək olar ki, boşqab sındıqdan sonra deşiklərdən nazik məftil keçirmək yolu ilə təmir olunmuşdur. Bu kasa altlığının inkişaf etmiş orta əsrlərə (XI-XII əsrlər) aid olduğunu ehtimal etmək olar. (İnv. № 21)

Ərazidən aşkar olunmuş başqa bir artefakt açıq sarı rəngli gildən bişirilmiş gil bardağın yuxarı tərəfinin qulp fraqmentinin və boğazının bir hissəsidir. Bardağın boğaz hissəsində qazıma üsulu ilə bəzəklər açılmışdır. Bu artefaktın inkişaf etmiş orta əsrlərə (XI-XII əsrlər) aid olduğunu ehtimal etmək olar. (İnv. № 22)

Aşkarlanmış digər artefakt su qabının qırılmış yuxarı hissəsinin fraqmentidir. Üzərində basma naxışlı həndəsi bəzəkləri olan bu qab qırığı xırda qum qarışıqlı ağ gildən bişirilmişdır. Bu artefaktın inkişaf etmiş orta əsrlərə (XII-XIII əsrlər) aid olduğunu ehtimal etmək olar. (İnv. № 23)

Aşkar olunmuş arxeoloji materiallardan biri də zər naxışlı, nazik divarlı kasadır. Ağ gildən (kaolin) yüksək texnologiya ilə hazırlanmış bu kasa torpaqdan çıxarılarkən bir neçə parçaya bölünmüş, yalnız oturacaq və yan tərəfinin bir hissəsi salamat

qalmışdır. Zər naxışlı kasanın içi və xarici həndəsi və nəbati naxışlarla zəngin bəzədilmişdir. 6 ədəd fraqmentdən ibarət olan kasanın oturacağının diametri 6 sm.-dir. Onun inkişaf etmiş orta əsrlərə (XI-XIII əsr) aid olduğunu ehtimal etmək olar. (İnv. № 24)

Qala divarının dibindən tapılan başqa bir arxeoloji material boz rəngli gildən bişirilmiş cütqulpu və ağız hissəsi qırılmış su qabıdır. Arxeoloji ədəbiyyatda matra-flyaqa adlanan bu su qabı basma naxışlıdır. Qulplarından biri qırılmış və 2 hissədən ibarət bu qabın ağzının diametri 4 sm.-dir. Bu su qabının orta əsrlərə (XIV-XV əsrlər) aid olduğunu ehtimal etmək olar. (İnv. № 25)

Qalın divarlı polixrom (çoxrəngli) şirli kasanın oturacağı barbetin dibindən, pilləkənlərin yaxınlığından aşkar olunmuşdur. Kasanın içərisində, oturacağının mərkəzində, sarı və göy rənglənmiş 6 ləçəkli gül təsvir olunmuşdur. Cızma üsulu ilə işlənmiş fiqur marqans, sarı və göy rənglərlə rənglənmişdir. Onun oturacağının diametri təqribən 11,5 sm.- dir. Kasa oturacağının arxa hissəsinə basma usta möhürü vurulmuşdur. Onun inkişaf etmiş orta əsrlərə (XI-XII) aid olduğunu ehtimal etmək olar. (İnv. № 26)

Açıq-sarı rəngli gildən bişirilmiş tək qulpu qırılmış lakin lüləyinin bir hissəsi salamat qalmış digər tapıntının gövdəsinin diametri təqribən 15,5 sm., qırılmış ağzının diametri 5,5 sm., lüləyinin uzunluğu 4,5 sm., - dir. Bu su qabının orta əsrlərə (XIV-XV əsrlər) aid olduğunu ehtimal etmək olar. (Foto №) (İnv. № 27)

Digər fraqment ağ gildən bişirilmiş qazan qapağıdır. Onun sadəcə 3/1 hissəsi salamat qalmışdır. Qapağın diametri təqribən 20 sm., divarının qalınlığı 1 sm., tutacağının diametri 5,5 sm., hündürlüyü 3 sm.-dir. Bu qazan qapağının orta əsrlərə (XIV-XV əsrlər) aid olduğunu ehtimal etmək olar. (İnv. № 28)

Buradan tapılmış kasa tipli digər meyvə qabının yan hissəsinin fraqmenti tünd açıq qırmızı rəngli gildən bişirilmişdir. Qabın içərisi göy rənglə şirlənmişdir. Meyvə qabı ehtimal olunan bu qabən ağzının diametri təqribən 22 sm.-dir. Bu meyvə qabının XIV əsrə aid olduğunu ehtimal etmək olar. (İnv. № 29)

Qalın divarlı polixrom (çoxrəngli) şirli kasanın sadəcə oturacaq hissəsi barbetin dibindən, aşkar olunmuşdur. Oturacağın içərisində, kənarları marqansla işlənmiş və içi göy rənglə rənglənmiş, bir-biri ilə kəsişən 4 qalın xətt təsvir olunmuşdur. Onun oturacağının diametri təqribən 10 sm.- dir. Kasa oturacağının arxa hissəsinə basma usta möhürü vurulmuşdur. Onun inkişaf etmiş orta əsrlərə (XI-XII) aid olduğunu ehtimal etmək olar. (İnv. № 30)

Qalın divarlı polixrom (çoxrəngli) şirli kasanın oturacağı barbetin dibindən, pilləkənlərin yaxınlığından aşkar olunmuşdur. Kasanın içərisi sarı rəngdə şirlənmişdir. Cızma üsulu ilə işlənmiş dairəli fiqur marqans, və göy rənglərlə rənglənmişdir. Onun oturacağının diametri 6 sm.- dir. Kasanın mərkəzində 3 ayağın izi var. Onun inkişaf etmiş orta əsrlərə (XIII) aid olduğunu ehtimal etmək olar. (İnv. № 31)

Sarı rəngli gildən bişirilmiş sadəcə boğaz hissəsi və yan hissəsinin bir tərəfi salamat qalmış digər tapıntının qırılmış ağzının diametri 4 sm., boğazının uzunluğu 7 sm., - dir. Qabın gövdəsinin üzərinə çıxıntılı bəzək vurulmuşdur. Bu su qabının orta əsrlərə (XIV-XV əsrlər) aid olduğunu ehtimal etmək olar. (Foto № ) (İnv. № 32)

Qala divarının dibində, qazıntı sahəsinin üst təbəqəsindən 1,2 metr dərinlikdə, hündürlüyü 14 sm. olub küng borunu xatırladan ağ gildən bişirilmiş qab aşkar olundu. Onun oturacağının diametri 8,5 sm., divarının qalınlığı 1 sm., qırılmış ağzının diametri isə 10,5 sm.-dir. Qabın üzərində qazıma üsulu ilə bir ədəd, içərisində isə xeyli yivlər açılmışdır. Bu qabının

orta əsrlərə (XV-XVII əsrlər) aid olduğunu ehtimal etmək olar. (İnv. № 33)

Bu ərazidən tapılan digər arxeoloji material qırmızı rəngli gildən hazırlanmış, uzun lüləyi qırılmış, dar boğazlı su qabıdır. Qabın hündürlüyü 23 sm., gövdəsinin diametri 18 sm., ağzının diametri 4 sm., oturacağının diametri 9 sm.- dir. Bu qabın orta əsrlərə (IX-XI əsrlər) aid olduğunu ehtimal etmək olar. (Foto № ) (İnv. № 34)

Buradan tapılan mis əşyanın kiçik qapağını da qeyd etmək lazımdır. Uzun müddət torpaq altında qaldığından korroziyaya uğramışdır. Mis qapağın son orta əsrlərə (IX-XI əsrlər) aid olduğunu ehtimal etmək olar. (Foto № ) (İnv. № 35)

Dördbucaqlı qala bürcündən 30 metr aralıda boz rəngli gildən bişirilmiş və ağız hissəsi qırılmış, basma naxışı olmayan, cütqulpu mehtərə (matra-flyaqa) aşkar olunmuşdur. Qulplarının ikisi də qırılmış bu su qabının hündürlüyü 13 sm., diametri 17 sm.-dir. Bu mehtərənin orta əsrlərə (XIV-XV əsrlər) aid olduğunu ehtimal etmək olar. (İnv. № 36)

Qala divarının dibindən, qazıntı sahəsinin üst təbəqəsindən 2,7 metr dərinliyində, hündürlüyü 25 sm. olub sarı gildən bişirilmiş uzunboğazlı, təkqulplu qırılmış su qabı aşkar olundu. Qabın boğaz hissəsində özünəməxsus süzgəc yerləşdirilmişdir. Onun oturacağının diametri 8,5 sm., divarının qalınlığı 0,7 sm., qırılmış ağzının diametri isə 5 sm.- dir. Bu qabının orta əsrlərə (XV-XVII əsrlər) aid olduğunu ehtimal etmək olar. (İnv. № 37)

Ərazidəki 3 nömrəli su quyusunun yaxınlığından sarı gildən bişirilmiş geniş gərdanlı, uzunlüləli, təkqulplu və ağzı qırılmış su qabı aşkar olundu. Onun oturacağının diametri 9,5 sm., gərdanının diametri 15 sm., divarının qalınlığı 0,7 sm., lüləsinin uzunluğu isə 8 sm.- dir. Bu qabının orta əsrlərə (XV-XVI əsrlər) aid olduğunu ehtimal etmək olar. (İnv. № 37)

Ərazidəki 3 nömrəli su quyusu təmizlənərkən müxtəlif ölçülərdə və formalarda olan 8 ədəd qara çıraq aşkar olundu. Tünd boz gildən bişirilmiş bu çıraqların ağız hissələri qırılmış vəziyyətdə idi. Bu çıraqların son orta əsrlərə (XVI-XVIII əsrlər) aid olduğunu ehtimal etmək olar. (Foto № ) (İnv. № 38)

Şimal qala divarı əlavə tikililərdən azad olunaraq rekonstruksiya edilərkən daşların arasından küllü miqdarda şüşə qablar aşkar edildi. Bu qabların əksəriyyətini müxtəlif ölçülü, müxtəlif rəngli və formalı butulkalar təşkil edirdi. Onların salamat qalmış xeyli hissəsi götürülərək tədqiq edildi. Ehtimal etmək olar ki, Qala divarlarının bu yerində XX əsrin əvvəllərində ya ətriyyat, ya da əzcaçı (aptek) dükanı olub. Bu qabların son orta əsrlərə (XIX - əsrin sonu - XVI əsrin əvvəlləri) aid olduğunu ehtimal etmək olar. (İnv. № 39)

Qazıntı sahəsindən daşişləməyə aid maraqlı formalı üzəridə bir tərəfdən yiv və digər tərəfdən deşık açılmış məişət və təsərrüfatda istifadə olunduğu ehtimal edilən düzbucaqlı formalı  daş da aşkar olunmuşdur.

Daşişləməyə aid digər maraqlı yazılı daş qazıntı sahəsinin şimal-qərb hissəsindən, simvolik girişi xatırladan sökülmüş tikili qalığının yanından tapılmışdır. Yazını M.Nemət oxumuşdur. Daşın bir üzündə nəsx ərəb xətti ilə “Allah”, digər üzündə “qul” sözləri qazılmışdır. Bundan başqa daşın üzərində günəş və yaxud daimi hərəkət simvolu da var.

Həmçinin, sözügedən ərazidə aşkar olunmuş təssərrüfat quyuları və su quyuları bərpa və konservasiya edilmişdir.

Şimal-şərq Qala divarları boyu içəri tərəfdən uzanan barbetin (əsgərlərin qala divarları boyu rahat hərəkət etmələri üçün tikilmış istinad divarı) dibi təmizlənərkən tağvari giriş qapısı aşkar olunmuşdur. Onun giriş səviyyəsi torpaq səthindən 1,3 metr aşağıda yerləşir. Giriş sol tərəfə vintvari pillələrlə yuxarıya doğru barbetin üstünə çıxır.

Dördbucaqlı qala-bürcün (Cəbəxana) sağ tərəfində də tağvari giriş aşkar olunmuşdur. Şimal-şərq Qala divarları boyu barbetin üstünə qalxmaq üçün bir neçə belə tağvari girişlərin olduğu istisna edilmir.

Dördbucaqlı qala-bürcün içində də qazıntı işləri aparılmışdır. Cənub tərəfdə üç hissəyə çatlamış qaya təbəqəsi aşkar olunmuşdur. Girişə yaxın qaya təbəqəsinin üzərində işləmə izləri var.

**Xilasedici-arxeoloji tədqiqatların təsnifatı.** Çoxillik arxeoloji qazıntıların, həmçinin şimal-şərq Qala divarları yaxınlığında aparılan xilasedici işlərin son nəticələri göstərir ki, İçəri şəhərdə aşkarlanan maddi-mədəniyyət nümunələrinin əsas hissəsi dulusçuluq sənəti məmulatıdır. Tapılan materialların tədqiqi orta əsrlərdə saxsı qab istehsalının xeyli təkmilləşdiyini sübut edir. Bu saxsı məmulatının hazırlanması texnikasının inkişaf etməsi ilə bağlı idi. Bunun nəticəsində yüksək keyfiyyətli məişət və təsərrüfat qabları meydana çıxırdı.

Mənşəyi neolit dövründən başlayan dulusçuluq, minilliklər boyu inkişaf yolu keçmiş və formadan formaya düşərək orta əsrlərdə ən kütləvi istehsal sahəsinə çevrilmişdi. Son tapıntılar ən qədim köklərə malik və ən kütləvi sənət sahələrindən biri olan dulusçuluğun öyrənilməsi baxımından maraqlı nəticələr çıxarmağa imkan verir. Lazımi yanacaqla, su ilə, dulus məmulatlarının bişirilməsi üçün yararlı gillə zəngin olan Bakı şəhəri dulusçuluğun əsas mərkəzlərindən biri olmuşdu.

Orta əsr Bakısının dulus məmulatını formasına və daşıdığı məzmuna görə səciyyələndirmək daha məqsədəuyğundur. Bu cəhətdən onları şirsiz saxsı qablar, boyalı qablar, fayans qablar, şirli qablar kimi ayırmaq olar. Bəhs etdiyimiz dövrə aid dulusçuluq məmulatları içərisində miqdarına və müxtəlifliyinə görə məişət və təsərrüfat qabları üstünlük təşkil edir. Məişət qablarına bardaqlar, sərniclər, çıraqlar, küplər, dolçalar, kuzələr, şamdanlar, bərnilər, dopular, camlar, su qabları, çaynikvari qablar və qapaqlaq daxildir.

İçəri şəhərdə aparılan arxeoloji qazıntılar zamanı zəngin boyalı, şirsiz, şirli, çini, fayans, seladon kolleksiyası nümunələri aşkar edilmişdi. Bunların arasında məişət əşyaları (xörək və mətbəx qabları, ərzaq məhsullarının saxlanılması və daşınması üçün qablar) da əldə olunmuşdu. XI-XIII əsrlərin çoxsaylı sadə şirsiz saxsı məmulatı arasında basma qəlib naxışlı əşyalar xüsusi yer tutur.

Bu bardaqların və mehtərələrin (matra-flyaqa) sarı boyalı qulp hissələri mürəkkəb və müxtəlif həndəsi relyefli və nəbati naxışlı formada düzəldilmiş və sonra qabın qalan gövdəsi ilə birləşdirilmişdir. Bəzi bardaqların, şarkonusvari qabların və cütqulp mehtərələrin qulpu qəlibin özü ilə deyil, kiçik basma naxışlarla üstdən bərk basılmaqla bəzədilmişdir.

Orta əsr Bakısının saxsı məmulatı üzərində basma naxışlara, əsasən xırda, ağzı sarı gil bardaqların, cütqulp mehtərələrin çıxıntılı çevrəsində, qapaqların üzərində, şarkonusvari qablarda və qəlyanlarda rast gəlinir. Naxışların zənginliyinə və müxtəlifliyinə, eləcə də bədii-dekorativ xüsusiyyətlərinə, kompozisiyasına görə bu növ keramika şirli-minalı qablardan geri qalmır.

Tunc dövründə Azərbaycan ərazisində boyalı saxsı istehsalı geniş inkişaf etmişdi. Boyalı keramika, xüsusilə də qırmızı boyalı qablar orta əsr Bakısının alt və üst mədəni təbəqələrindən əldə olunmuşdu. Bu enli ağızlı, nazik divarlı, üzəri qırmızı rəngli, bəzən də qara rənglə uzlaşdırılmış çoxcərgəli şəbəkə və zəncirvari şəkilli ərzaq (təsərrüfat) küpləridir. Zərif xörək qabları ilə yanaşı sadə həndəsi təsərrüfat küplərinə də rast gəlinir .

Bu ərazidə hər iki mədəni təbəqədən tapılmış şirli keramika forma müxtəlifliyi və bəzəyinin zənginliyi ilə seçilir. VIII-XIII əsrlərə aid alt təbəqədən əsasən xörək qabları – nəlbəkilər, kasalar, boşqablar və s. aşkar edilir. Bunlar anqob rəsmli, anqob və işlənmiş şəffaf şirli-minalı, polixrom sarı-

yaşıl-qəhvəyi boyalı qablardır. Boşqab və kasalar həndəsi və nəbati ornamentlərlə, habelə heyvan, quş, balıq, çox nadir hallarda isə insan təsvirləri ilə rəsmlərlə naxışlanmışdır. IX-XIII əsrlərdə həm monoxrom, həm də polixrom qabların dekorativ bəzədilməsində istifadə edilən yeni texniki üsullar – qazma və anqob təbəqəni qaşıma meydana çıxır.

XI-XIII əsrin əvvəllərinə aid şirli-minalı qabların bəzilərinin oturacaqlarının arxa tərəfinə möhür basılmışdır. Qablardakı möhürlərin yerinin ölçüsünə görə müəyyən etmək olar ki, onlar diametri 4-8 sm olan saxsı basma qəliblərlə basılmışdır. Möhürün diametri qabın oturacağının ölçüsü ilə uzlaşdırılmışdı. Bakının möhürlü keramika kolleksiyası həndəsi və, nəbati ornamentli naxışlarla, astral işarələrlə, müxtəlif fiqur və təsvirlərlə təmsil olunmuşdur. Bunlar əsasən mərkəzdən şüa şəklində kənarlara yayılan xətlərdən, müxtəlif ölçülü kiçik kvadrat və ya romblar əmələ gətirən torcuqlardan, toxuma ovallardan, çoxləçəkli gül bəzəklər və palmettalar, qabarıq konsentrik çevrələr spirallar və s. ibarətdir.

Bu ərazidən tapılmış çoxsaylı möhürlü keramika arasında quş (tovuz quşu) təsvirli kasa parçası diqqəti cəlb edir. Quşun qanadları, yelpikvari quyruğu, başı və iti dimdiyi xüsusilə ifadəli təsvir olunmuşdu. Gözü qara fonda ağ dairəvi nöqtə ilə qeyd edilmişdi. Quşun kürəyindəki qab içərisində qıvrımlı bitki budaqları təsvir edilmişdi. Quş fiqurunun önündə və onun beli arxasında qəfəs təsəvvürü yaradan düz dalğalı xətlər çəkilmişdi. Bir sıra Şərq xalqlarının rəvayətlərində müqəddəs obrazlar tovuz quşu və ya  göyərçin şəklində təqdim olunur.

Məlumdur ki, bir çox xalqlarda, o cümlədən azərbaycanlılarda tovuz quşu və göyərçin müqəddəs sayılır. Xarəzmdə isə pərilər göyərçin obrazında təsvir edilir. Azərbaycan folklorunda da pərilər-mələklər göyərçin obrazında verilir. Özü də tarixən müqəddəs sayılan bu süjet çox hallarda müqəddəs su mühiti ilə bağlı sayılır. 1964-cü ildə Qız qalasının şimal tərəfindəki

qazıntılar zamanı aşkar olunmuş tapıntılar arasında böyük ustalıqla hazırlanmış beş göyərçin rəsmi həkk olunmuş orijinal polixrom şirli kasada maraq doğurur. Quşlar saat əqrəbinin hərəkəti istiqamətində bir-birinin ardınca təsvir edilmişdi.

Azərbaycan şəhərinin çiçəklənən həyatını birdən-birə kəsən monqol yürüşü, habelə bir sıra əlverişsiz təbiət amilləri, keramika istehsalının inkişafına mənfi təsir edilmişdi. Monqol axınından sonrakı dövrdə keramikanın bədii və texniki keyfiyyətinin aşağı düşməsini XIII əsrin sonları XIV əsrin ikinci yarısının materialları təsdiq edir. Sonralar, XV-XVII əsrlərdə bədii ənənənin dəyişilməsi müşahidə olunur. Görünür XV əsri sənətkarlıq istehsalının bir çox sahələrində, o cümlədən keramika istehsalında itirilmiş ənənələrin dirçəlişi dövrü hesab etmək olar.

Bakı şəhərinin yeni status almasını – Şirvanşahlar dövlətinin paytaxtına çevrilməsini qəbul etmək lazımdır ki, son orta əsrlər dövründə XIV-XVII əsrlərdə keramikanın bu növünün çeşidi genişlənir. Xörək qabları ilə yanaşı təsərrüfat əşyalarına (küplər, bardaqlar, qapaqlar, məişət əşyaları – çıraqlar) və habelə inşaat keramikasına şir-mina çəkilirdi. Əgər XII-XIII əsrlərdə Azərbaycan ərazisində sənətkarlıq və mədəniyyətin çiçəklənməsi dövrünün bədii keramikası qabların bəzədilməsinin zənginliyi və çeşidinin bolluğu ilə xarakterizə olunursa, XIV-XV əsrlərin keramikasının ən yaxşı nümunələri məmulatın keyfiyyətinin yüksəkliyi ilə seçilir. Xörək qabları nazik saxsıdan olması, yüksək üzükvarı altlığı, əla bişirilmə keyfiyyəti ilə seçilirdi. Son orta əsrlər keramikası arasındakı yeniliklərdən biri də fayanssayağı qabların olmasıdı. IX-X əsrlər nümunələrindən fərqli olaraq anqob rəsmli qablar da keyfiyyətcə yeni səviyyəyə qalxır.

İstər Azərbaycanın, istərsə də orta əsrlər Bakısının kommunikasiya sistemində keramika məmulatı mühüm yer tutur. Arxeoloji qazıntılarla müəyyənləşdirilmişdir ki, Bakı şəhərinin

su təchizatında kəhriz sistemi ilə yanaşı saxsı borulardan – tünglərdən düzəldilmiş su axıdıcılarından da geniş tətdiq olunmuşdu. Saxsı borular bir sıra sənətkarlıq sahələrində və təsərrüfat təyinatlı digər işlərdə geniş istifadə olunurdu. İnşaat keramikasına gəldikdə isə, qeyd etmək lazımdır ki, Şirvan-Abşeron memarlıq məktəbinin əsas inşaat materialı bişmiş kərpic deyil, yerli daş – əhəngdaşı olmuşdur. Burada inşaat keramikası əsasən kaşı ilə – üzlük plitə ilə təmsil olunmuşdur. Müxtəlif formalı mavi, firuzəyi, bəzən də yaşıl rəngli şirli monoxrom kaşı XII-XIII əsrlər təbəqəsindən aşkar edilmişdi. Mavi şirli müxtəlif ölçülü qırmızı gilli böyük kaşılar XIV-XVII əsrlərin üst mədəni təbəqəsində qeydə alınmışdır.

Bu ərazidən aşkarlanan, hər iki təbəqədən olan çini məmulat az saydadır. XIV-XVII əsrlərin üst təbəqəsində kobaltla işlənmiş fayans məmulatı qırıqlarına rast gəlinir. Alt təbəqədə qara fonda ağ anqob rəsmli xonça şəkilli fayans kasa qırıqlarını, eləcə də kobalt fonunda çilçıraq rəsmli qabın qırıqlarını da qeyd etmək olar. Şirvanşahlar sarayından şimal-qərbə olan sahənin alt təbəqəsində 1974-cü ildə tapılmış fayans kasa da böyük maraq doğurur. Kiçik ölçülü həmin qab dairəvi rənglə minalanıb. Bayır tərəfdən kasanın karnizindən – 1 sm aşağıda, perimetr boyu, qabın sahibinə ərəb əlifbası ilə xeyir-dua verən relyef zolaqlı yazısı vardır.

Yuxarıda qeyd olunan kasanın yaxınlığında tapılmış başqa bir fayans kasanın içində göy rəngli nəbati naxış həkk olunmuşdu. Bitki zolaqlarının arasında elə həmin rəngdə çəkilmiş quş rəsmləri vardır. Həmin fayans kasaların tapılması Bakıda fayans saxsı istehsal edən mərkəzlərin olduğunu və onun orta əsrlərdə İran şəhərləri olan Rey, Kaşan, Sultanabad və s. ilə iqtisadi (ticarət) əlaqələri olmasını sübut edir.

**Aşkar olunmuş quyular.** Arxeoloji qazıntıların nəticələri göstərir ki, Bakıda hələ IX-XIII əsrlərdə kəhriz su sistemindən istifadə olunmuş, XIV-XV əsrlərdə isə bu genişləndirilərək təkmilləşdirilmişdir.

XIV-XV əsrlərdə Çəmbərəkənddən İçəri Şəhərə çəkilən su sistemindən öncə şəhərdə kəhriz quyuları (qrunt və lay suları hesabına dolan quyular) var idi. Qala divarları tikilmədən öncə və hətta son orta əsrlərə qədər şəhərin su tələbatı qismən kəhriz quyuları vasitəsilə təmin olunurdu.

Sözügedən ərazidə rekreasiya zonasının yaradılması ilə əlaqədar torpaq işlərinin aparıldığı zaman, təqribən inkişaf etmiş orta əsrlərə aid iki konusvari geniş təssərrüfat quyusu və altı su quyusu aşkar olunmuşdur.

Su quyularından biri Dördbucaqlı qala-bürcün qapısının sol küncündə yerləşir. Su quyusu səliqəli şəkildə qayadan ovulmuşdur. Onun ağzının diametri 1,2 metr, dərinliyi 12 metr olub çox güman ki, içərisi təssərrüfat zibili ilə doldurulmuşdu. Hal-hazırda bu quyu təmizlənmişdir. Quyunun ağız hissəsindəki qayada nəsx xətti ilə "söz demək" kəlməsi (ərəbcədən M.Nemət çevirmişdir) qazılmışdır. Quyu təmizlənmiş və konservasiya olunmuşdur.

Digər su quyusu bir az daha irəlidə, şimal-qərb istiqamətində yerləşir. Bu quyunun ağzının diametri 0,9 m., dərinliyi 8 metr olub qayada ovulmuşdur. Quyuya enib-qalxmaq üçün onun kənarlarında ovuqlar açılmışdır. Quyunun kənarında qayada ovulub işlənmiş qab qoymaq üçün yer vardır. Quyunun kənarında, həmçinin heyvanların su içməsi üçün yer - çala ovulmuşdur. Dibində su görünən quyu təmizlənmiş və konservasiya olunmuşdur.

Dördbucaqlı qala-bürcünün yaxınlığındakı Qala divarı təmizlənərkən, divar dibindən təsadüfən digər bir quyu aşkar olundu. Quyunun ağzının diametri 0,8 m, dərinliyi təqribən 10 m-i keçərək qayada ovulmuşdur. Quyuya enib-qalxmaq üçün onun da kənarlarında ovuqlar açılmışdır.

Başqa bir su quyusu. Dördbucaqlı qala-bürcün 18 metr cənubunda yerləşir. Onun ağzının diametri 0,7 m., dərinliyi 12,5 m olub hamar daşlardan səliqəli hörülmüşdür. Quyunun

içinin ölçüləri 1,23x1,23 m-dir. Quyuya enib-qalxmaq üçün onun sol və sağ kənarlarında ovuqlar açılmışdır. Dibində su görünən quyu təmizlənmiş və konservasiya olunmuşdur.

Bu ərazidə aralarındakı məsafə 10 m olan daha iki quyu vardır. Bu qədim və unikal su kəhriz quyularının Kiçik qala küçəsində, parkın mərkəzində yerləşməsinə baxmayaraq onlar təmizlənmiş, müasir texnoloji üsullara uyğun konservasiya edilmiş, içi işıqlandırılmış, üstü yaxşı bişirilmiş yüksək tonnajlı ağırlığa tab gətirən orqanik şüşə qapaqla örtülmüşdür. Bu tarixi quyulardan bundan sonra turizm məqsədləri üçün istifadə edilməsi nəzərdə tutulmuşdur.

Arxeoloji kəşfiyyat və nəzarət işləri nəticəsində aşkar olunan qədim Bakının tarixini əks etdirən arxeoloji artefaktlar və son 30 il ərzində arxeoloji qazıntılar nəticəsində aşkar olunmuş antik dövr maddi-mədəniyyət nümunələri, habelə İçəri şəhər ərazisində elmi araşdırmalar və İçəri şəhərdən yeni aşkar olunmuş qədim şəhərimizin tarixini əks etdirən maddi-mədəniyyət nümunələrinin təsnifatı Bakının yaşının təyin olunmasında əvəzsiz rol oynayır.
















MAISON DORIN · PARIS
27. R. Grenier St. Lazare





**Dördbucaqlı bürc qarşısından aşkarlanan arxeoloji artefaktlar**



**Hidroqraf Xristian İvanoviç Truzson 1796. İçəri şəhərin xəritəsi.**



**Dördbucaqlı bürc arxeoloji qazıntılarının situasiya planı**



**Donjon. XIX əsrin sonlarına aid foto**



**Donjon. XX əsrin əvvəllərinə aid foto**



**Donjon və ətrafı bərpadan sonra**



**Donjon bərpadan əvvəl**

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Aşurbəyli S.B. Bakı şəhərinin tarixi. Azərnəşr, Bakı, 1998.
2. İbrahimov K.F. Orta əsr əcnəbi alim, coğrafiyaşünas, tacir, diplomat və səyyahların Bakı haqqındakı görüşləri. Azərbaycan arxeologiyası və etnoqrafiyası jurn., Bakı, 2004, №2.
3. Rzayev N.Ş. Bak-i qülləsi. Elm və həyat jurn., № 2, 1995.
4. Sarabski H.M. Köhnə Bakı. Bakı,Yazıçı nəşriyyatı, 1982.
5. Süleymanov M.F. Eşitdiklərim, oxuduqlarım, gördiklərim. Bakı: Dövlət nəşriyyatı, 1987.
6. Ахундов Т.И. К датировке kрепостных стен Ичери шехер. Страницы истории Баkу и Апшерона. Баkу, 1990.
7. Ашурбейли С.Б. Государство Ширваншахов, Баkу, Элм, 1983.
8. Ашурбейли С.Б. История города Баkу. Баkу: Азернешр, 1992.
9. Ашурбейли С.Б. Очерkи истории Средневеkового Баkу. Баkу, Изд-во АН Азерб. ССР, 1964.
10. Исмизаде О.Ш., Ибрагимов Ф.А., Минkевич-Мустафаева Н.В., Фоменkо В.П. О расkопkах у северных стен Баkу. АИА, Материалы доkладов научной kонференции (1973 г.), Баkу, Элм, 1974.
11. Kеримов В.И. Оборонительные сооружения Азербайджана. Баkу, Огуз эли, 1998.
12. Пахомов Е.А. Обследование развалин kрепости в Баkинсkой бухте. Изв.
13. Пахомов Е.А. Старинные оборонные сооружения

Апшерона, ТИИ им. А.Бакиханова, т.I, Баку, 1947.
14. Рзаев Н.И. Северные ворота kрепостных стен города Баку, Памятники архитектуры Азербайджана, Баку, 1950.
15. İçərişəhər. Toplu. İstanbul, 2013
16. Qədim qalanın yuxuları. Dubay, 2013
17. Kamil Fərhadoğlu. Bakı İçərişəhər. Bakı, 2006

**Xeyirbəy Qasımov**
*tarix üzrə elmlər doktoru*
**Dilavər Əzimli**
*tarix üzrə fəlsəfə doktoru*

# Orta əsr Şirvan-Abşeron memarlığının təkamülü İçəri şəhərin timsalında

Təqdim olunan məqalədə orta əsr Bakı-Abşeron memarlığı təkamülü prosesi VII əsrin ilk onilliklərindən, yəni ərəb işğalları, bir çox Yaxın və Orta Şərq xalqlarının (eləcə də Azərbaycan xalqının) islamlaşması dövründən izlənilir. Lakin xalqımızın zəngin islamaqədərki mədəni keçmişi vardır. İslam dinini artıq VII əsrin 40-cı illərindən etibarən qəbul etmiş Azərbaycan əhalisinin (xalqının) mədəni-mənəvi həyatında, düşüncə tərzində islamaqədərki dini baxışların (bütpərəstlik, atəşpərəstlik, xristianlıq), adət-ənənələrin yaşarılığı danılmaz gerçəklikdir. Tariximizin islamaqədərki dövründən (xüsusilə xristianlıq və atəşpərəstlik dəyərlərindən) imtina olunması ağır, arzuolunmaz nəticələrə gətirib çıxarmışdır. Məsələn, xristianlıqla bağlı olmuş keçmişdən imtina olunması, bu irsə yad münasibət Azərbaycan Albaniyası dövrünün mədəni dəyərlərinin (hətta tarixinin) ermənilər tərəfindən mənimsənilməsinə səbəb oldu. Tariximizin atəşpərəstliklə bağlı olmuş mədəni dəyərlərini fars (İran) şovinistləri "özəlləşdirdilər", çünki Azərbaycan ictimai fikrində müəyyən müddət ərzində atəşpərəstlik (zərdüştilik) yad mədəni təsir kimi qavranılırdı. Danılmış, "itirilmiş" mədəni irsə (xüsusilə zəngin olan irsə) sahiblər tez tapılır. Lakin "hər bir xülya kimi öz keçmişindən imtina etmək və xarici ölçülər əsasında yenidən qurulmaq cəhdləri özünü doğrultmur. Öz keçmişindən imtina etmək mütləq mənada qeyri-mümkündür" (13, s.11).

Memarlıq və şəhərsalma VII-XII əsrlərdə Bakı-Abşeron mədəni mühitinin mühüm sahəsi olmuşdur. VII-X əsrlərin memarlıq obyektlərinin əksəriyyəti ictimai və təbii səbəblər nəticəsində tarix səhnəsini tərk etmiş, həmin memarlıq incilərinin yalnız fraqmentləri qalmışdır. Erkən İslam dövründə Azərbaycanda zərdüşti və xristian dini obyektləri məscidlərə çevrilirdi, islamın ehkamları və tələbləri əsasında yenidən qurulurdu. Bu zaman ərzində Azərbaycanda yerli xüsusiyyətlərə malik olan məscid tipi formalaşmışdı. Şamaxıdakı Cümə məscidi, Ağsudakı və Sündü kəndindəki məscidlər ərəb hökmranlığı zamanındakı planlarını saxlamış məscidlərin yerində inşa olunmuşdur. Araşdırıcılar ilk iki məscidin VIII əsrdə tikildiyini bildirirlər. Sündü məscidi isə 920-ci ildə tikilmiş və dəfələrlə bərpa olunmuşdur (1, s.277). Səlcuq yürüşləri Azərbaycanda şəhər həyatının ümumi inkişaf meylinin qarşısını ala bilmədi. Bu dövr Azərbaycanda şəhərlərin və şəhər mədəniyyətinin çiçəklənməsi, memarlığın tərəqqisi ilə səciyyəvi olmuşdur. Yeni "səlcuq üslubu" incəsənətin memarlıq sahəsində xüsusilə nəzərə çarpırdı. Azərbaycan memarlığının 3 üslub istiqaməti (Şirvan-Abşeron, Naxçıvan-Marağa, Arran memarlıq məktəbləri) mövcud idi. "Bu dövrdə Azərbaycan memarlığında iki istiqamət təşəkkül tapdı. Lokal (yerli) memarlıq məktəblərinin Azərbaycan memarlığının sonrakı inkişafında mühüm rol oynamış Naxçıvan və Şirvan-Abşeron məktəblərinin yaranması prosesi başa çatdı" (3, s.229). Abşeronda inşası tarixi dəqiq müəyyən olunmuş ən erkən memarlıq abidəsi olan, xalq arasında "Sınıqqala" adı ilə tanınmış, 1078/79-cu ildə inşa olunmuş məscid Şirvan-Abşeron memarlıq məktəbinin nadir incilərindəndir. Bu məscid ustad-rəis Məhəmməd ibn Əbubəkrin göstərişi ilə tikilmişdir. Abidənin daş kitabəsində "əl-ustad əl-rəis" ifadəsinin olması XI əsrin II yarısında Şirvan və Arran şəhərlərində şəhər rəislərinin ictimai-siyasi həyatdakı rolunun yüksək olduğunu sübut edən örnəkdir. Bu dövrdə

rəislər şəhər tacirlərinin və sənətkarlarının mənafeləri naminə fəaliyyət göstərmiş, siyasi mübarizədə onlara arxalanmış şəxslər olmuşlar. Daş kitabədə Şirvanşahın adının olmaması I Fəribürzün Səlcuqilərə tabe olduğunu və rəislərin siyasi mövqeyinin bu zaman gücləndiyini göstərir. XII əsrin 30-cu illərində Azərbaycan Atabəyləri dövlətinin tərkibində olmuş İraqi-Əcəm vilayətinin Həmədan və Qəzvin şəhərləri ətrafında təşəkkül tapmış Qəzvin-Həmədan memarlıq məktəbi də Azərbaycan memarlığının ümumi inkişaf prosesinə öz təsirini göstərmişdir. Azərbaycan memarlıq məktəblərinin başlıca materialları əhəngdaşı (Şirvan-Abşeron), daş və kərpic (Arran) və bişmiş kərpic (Naxçıvan-Marağa) olmuşdur. Daha dayanıqlı, sadə və çox zaman asimmetrik (qeyri-mütənasib) kompozisiyalar Şirvan-Abşeron məktəbi abidələrinə, yaraşıqlı kompozisiya, daha zərif ayrıntılar və incə görkəm Arran məktəbi memarlıq obyektlərinə, hər yandan fasadlı olması, bəzəkdə həndəsi ornamentin üstünlüyü, şirli kərpiclərin işlədilməsi, epiqrafikanın rolunun artması, gövdənin karkas sxemi, üzləmə bloklarının işlədilməsi, memarlıq obyektinin əsas tikinti kütləsinə və üzlük örtüyünə ayrılması Naxçıvan abidələrinə xas olan cəhətlərdəndir. Memarlıq obyektlərinin bəzəyində həndəsi, nəbati naxışlardan (habelə ərəb qrafikasından) həmin dövrədək görünməmiş miqyasda istifadə olunması zamanın sənətlərində dekorativliyə və rəmziliyə olan güclü tələbatla bağlı idi. Bu isə İslam ehkamlarının tələblərindən törənmiş gerçəklik kimi meydana çıxmışdı. Bu dövr "məscidləri mehrablarının önündə günbəzli salonun-məqsurənin olması Səlcuq dövrünün monumental dini tikililəri üçün səciyyəvidir" (1, s.450). Məhz buna görə də Səlcuq dövrünün məscidləri "səlcuq köşkü", "səlcuq məqsurəsi" adları ilə tanınmışdı. Əsrin əvvəllərində Azərbaycanda olmuş Yaqut əl-Həməvi ölkədə mövcud olan "çoxlu qalalar"dan bəhs etmişdir. Qalaların çoxluğu isə ölkədəki siyasi qeyri-sabitliyin göstəricisi idi və ərəb səyyahı bunu xüsusilə

qeyd edirdi. Bu dövrün müdafiə qurğularını iki qrupa bölmək olar: Qala divarları və qalalar (qəsrlər). "Yaqutun bir çox Azərbaycan qalaları haqqında məlumatı orijinal və əvəzsizdir. Belə ki, vəfatından sonra baş vermiş ikinci monqol yürüşü, eləcə də sonrakı əsrlərdə olmuş başqa hadisələr Yaqutun olduğu və gördüyü qalalardan çoxunu yerlə-yeksan etmiş, onlar haqqında bizə yalnız Yaqut kimi alimlərin məlumatı qalmışdır" (8, s.71). Bir cəhəti qeyd etmək lazımdır ki, Yaqut yalnız ölkənin cənub qismində olmuşdur. Bu ərəb səyyahı qeyd edir: "Bu ölkədə qarışıqlıq və müharibələrin araları kəsilmir. Buna görə də şəhərlərinin çoxu xaraba, kəndlər isə boşdur (əhalisizdir)" (8, s.125). Dövrün Azərbaycan şəhərlərinin əksəriyyəti (Şamaxı, Bakı, Gəncə, Təbriz və b.) qala divarları ilə əhatə olunmuşdu. Qala-qəsrlərin ən mühüm obyektləri bu dövrdə Abşeron yarımadasında inşa edilmişdi. "Abşeron qəsrləri" adlanan həmin kompleksə saray, məscid və müvəqqəti sığınacaq üçün nəzərdə tutulmuş qala daxil idi. Mərdəkan qəsri bunlardan ən qədimidir və 1187-ci ildə tikildiyi abidədəki daş kitabədə qeyd edilmişdir. Buradakı qala isə daş lövhədəki yazıya əsasən 1204-cü ildə tikilmişdir (3, s.230). XII əsrdə Bakı şəhəri qala divarları ilə əhatə olundu. Belə güman da vardır ki, bu işi I Əxsitanın atası III Mənuçöhr gördürmüşdü: ya qala divarları tikdirilmiş, ya da mövcud qala divarları bərpa etdirilmişdi (3, s.230). XII yüzillikdə-XIII yüzilliyin əvvəllərində Şirvan memarlığında çiçəklənmə baş verdi. Mənbələrin çoxunda Şamaxı yaxınlığında XII əsrdən də xeyli əvvəl inşa olunmuş Gülüstan qalası xatırlanır. "Bakı şəhərinin qala hissəsində XI əsrdən əvvələ aid olan yerüstü memarlıq abidələri qalmamışdır. VIII əsrə və daha əvvələ aid olan müxtəlif tikililərin qalıqları şəhərin daha qədim hissəsində-Bakı təpəsinin zirvəsində, torpaq altında qalmışdır" (3, s.146).

Bakıdakı Qız qalasını Şumer dövründən eramızın XII əsrinədək aid olan bir zamana aid edirlər. Bu abidənin tikilməsi

tarixi, təyinatı barəsindəki mübahisələr hələ də davam etməkdədir. Araşdırıcıların əsas qrupu bu obyekti müdafiə məqsədilə tikilmiş qüllə – qala hesab edir. Onun XII əsrdən Bakının müdafiə sisteminə daxil olduğu şübhəsizdir (4, 148-153). 28 metr ucalığı olan bu memarlıq obyekti Bakı və onun ətrafında yerləşən müdafiə qurğuları sistemində mərkəzi mövqeyə malik idi. Araşdırıcıların müəyyən qismi bu abidənin islamaqədərki dövrdə inşa olunduğunu və səcdəgah rolunu oynadığını da qeyd edir (18, s.54-63; 19, s.98-112). Bu Qala Xəzər dənizinin kənarında dənizə doğru maili nəhəng bir qayanın üzərində, silindirik formada tikilmişdir. Dəniz tərəfdən uzunsov bir dayaq (kontrfors) ona əlavə edilmişdir. Qalanın hündürlüyü şimal tərəfdən 31, cənub tərəfdən isə 28 metrdir. Qalanın diametri birinci mərtəbədə 16,5 metrdir. Birinci mərtəbədə divarın qalınlığı (eni) 5 metrə çatır. Qalanın daxili hissəsi 8 mərtəbəyə bölünür. Hər mərtəbə yonma daşlarla tikilmiş, günbəz formalı tavanla örtülmüşdür. Daşla hörülmüş həmin tavanların ortasında dairəvi deşiklər vardır. Deşiklər şaquli xətt istiqamətindədir. Belə ki, VIII mərtəbə tavanının ortasında olan dairəvi deşikdən baxdıqda birinci mərtəbənin döşəməsini görmək mümkündür. Qalaya yeganə giriş yolu onun qərb tərəfində, yerin əvvəlki səthindən 2 metr hündürlükdə və 1,10 metr enində olan tağlı qapı yeridir. Qalanın birinci mərtəbəsinin hündürlüyü 3, digər mərtəbələrin hündürlüyü isə orta hesabla 2,5 metrdir. Mərtəbələr arası əlaqə Qalanın cənub-şərq divarının içərisində düzəldilmiş pilləkənlər vasitəsilə saxlanır. Maraqlı burasıdır ki, birinci mərtəbə ilə ikinci mərtəbə arasında əlaqə yaratmaq yalnız tavanda olan dairəvi deşikdən nərdivan və ya ip vasitəsilə mümkündür. Qeyd olunmalıdır ki, Qalanın qapısı da keçmişdə bir neçə qatdan ibarət olmuşdur. Uzunluğu Qala divarının eni qədər olan (5 metr) qapı yerinin tağlı tavanında qalmış tikinti qalıqları bunu sübut edir. Bundan əlavə qapının ağzında keçmişdə bir neçə quyu da olmuşdur. Beləliklə, Bakı Qız

Qalasına orta əsrlərdə daxil olmaq istəyən hər kəs həmin quyuların yanından ehtiyatla keçərək, nərdivan vasitəsilə qapıya qalxmalı, giriş yolu üzərində olan qapılardan keçməli və nəhayət birinci mərtəbəyə çatmalı idi. Ortadakı deşikdən yuxarı mərtəbələrə qalxmaq üçün ip və ya nərdivandan istifadə olunurdu.

Qalanın cənub və cənub-şərq tərəflərini, xüsusilə dənizi nəzarət altında saxlamaq üçün mazğallar düzəldilmişdir. Bunlar Qalanın içərisinə təmiz hava daxil olmaq işinə də xidmət etmişdir. 1962-63-cü illərdə Qalanın birinci mərtəbəsinin döşəməsində arxeoloji qazıntı işləri aparılmışdır. 5 metr dərinliyə qədər davam etdirilən həmin qazıntı nəticəsində məlum olmuşdur ki, abidənin bünövrəsi dəniz tərəfə enişli olan nəhəng bir qayanın üzərində tikilmişdir. Buradan belə bir nəticəyə gəlmək olur ki, abidəyə dəniz tərəfdən bitişik olan kontrfors həmin enişin qarşısında Qalaya əsas dayaq rolunu oynamışdır. 1964-cü ildə Qalada tədqiqat işləri aparılan zaman bünövrədən 14 metr hündürlükdə içəriyə doğru uzanan böyük ağac tirlərin olduğu müəyyən olmuşdur. Onların nə məqsədlə istifadə edilməsi məlum deyil. Ola bilsin bu tirlər kontrforsun içində gizli bir tikinti ilə əlaqədardır və ya zəlzələyə qarşı amortizasiya rolunu oynamışdır. Bu fikri yalnız hər iki tərəfdən veriləcək elektromaqnit dalğaları vasitəsilə aydınlaşdırmaq olar.

Dəqiq hesablama əsasında müəyyən edilmişdir ki, Qalanın divarının eni bünövrə hissədə 5 metrdirsə, yuxarı hissəsində təqribən 4,5 mertdir. Bu da göstərir ki, abidənin yuxarı hissəsilə aşağı hissəsi bəzi müəlliflərin dedikləri kimi ayrı-ayrı vaxtlarda deyil, eyni vaxtda tikilmişdir. Çünki 5 metr eni olan divar Qalanın 12 metr hündürlükdə olan aşağı hissəsi üçün deyil, hər iki hissənin möhkəm bünövrə əsasında dayanmasına xidmət etmişdir. Qız Qalasının zəmanəmizə qədər salamat qalmasının sirri də məhz onun belə bir möhkəm bünövrə üzərində tikilməsindədir. Bakı Qız Qalasının tikinti quruluşunda maraqlı

cəhətlərdən biri də Qalanın içərisində qayadan ovulub düzəldilmiş su quyusudur. Diametri 0,7 m. olan bu quyu Qalanın cənub-şərq divarının içindədir. Su quyusunda qazıntı işləri aparılmışdır. Quyudan tapılan maddi-mədəniyyət qalıqları buradan XII əsrdən başlayaraq istifadə olunduğunu göstərir. Hesablamalar nəticəsində məlum olmuşdur ki, quyunun dəniz suyu səviyyəsi ilə heç bir əlaqəsi yoxdur. Quyunun suyu kimyəvi analiz olunmuş, onun içmək üçün tam yararlı olması müəyyənləşdirilmişdir. Quyunun ağız hissəsi Qalanın üçüncü mərtəbəsinin döşəməsi səviyyəsindən başlayıb divar boyu aşağıya doğru 13 metr davam edir. Quyunun təhlükəsizliyini təmin etmək üçün onu Qala divarı içərisində gizlətmişlər. Onun şimal və cənub divarında enib qalxmaq üçün 10-12 sm. dərinlikdə ayaq yerləri vardır.

Quyunun 12 metr dərinliyində divar genişlənir. Qız Qalası və Şirvanşahlar Sarayı arasında gizli yeraltı yolun məhz su quyusunun aşağı hissəsindən başlanması ehtimal olunur. 1982-ci ildə İçəri şəhərin şərq tərəfində aparılan geniş miqyaslı arxeoloji qazıntılar nəticəsində aşkar edilən ilk yeraltı yol orta əsrlərdə Bakının mərkəzi ticarət küçəsi sayılan Şamaxı Qala qapısından başlayıb Salyan darvazasına doğru gedən baş küçənin şərq tərəfində şimal-cənub istiqamətində yerləşir. Maraqlıdır ki, yolun xətti XIV əsrdə tikilmiş “Multan”ı karvansarayının altından keçərək Qız Qalasına doğru gedir. Qız Qalasının tikilməsi dövrünü müəyyənləşdirmək üçün etibarlı sənədlərdən biri də onun divarının çöl tərəfində, qala qapısının üstündə, 14 metr hündürlükdə yerləşdirilmiş 0,4x0,6 metr ölçüdə yazılı daşdır. Bu daşın üzərində “Qübbə – Məsud ibn Davud” sözləri yazılmışdır. Bəzi alimlərin fikrincə Məsud ibn Davud Qalanı tikən memarın adıdır. Onlar bu fikri Mərdəkan qalasındakı dairəvi formalı bürcdə olan yazı ilə əsaslandırırlar. Mərdəkan bürcü üzərində “memar Əbd-Əl-Məcid ibn Məsud” sözləri yazılmışdır. Həmin tədqiqatçılar belə hesab edirlər ki,

memar Əbd-Əl-Məcid Qız qalasını inşa edən memar Məsudun oğludur. Qız qalası kitabəsinin çox səliqəsiz surətdə sonradan divara nəsb edilməsi (yerləşdirilməsi) də müəyyən edilmişdir. O, qala divarının daş kəmərlərlə əhatə olunan hissəsinə çox kobud bir şəkildə yapışdırılmışdır. Digər tədqiqatçıların ehtimalına görə, həmin kitabə Qala tikildikdən sonra oraya vurulmuşdur. Davudun oğlu Məsudun kim olduğuna gəldikdə isə, orta əsr mənbələrindən məlum olur ki, o, Səlcuq Sultanı Mahmudun nəvəsidir. Sultan Mahmud isə XII əsrin əvvəllərində Azərbaycanın hökmdarı olmuşdur. Ola bilsin ki, bu dövrdə onun nəvəsi Məsud Azərbaycanın şimalında hökmranlıq etmiş və öz adını əbədiləşdirmək üçün həmin kitabəni qala divarına vurdurmuşdur. Abidənin quruluşuna əsaslanaraq onun tarixini qədim dövrlərə çəkib aparan tədqiqatçılar Qalanın Zərdüşt dövrü – Zərdüşt daxması, atəşpərəstlik məbədi, Mitra və Anahita ilahələri ilə əlaqədar tikili olduğunu söyləyirlər. Bu tədqiqatçıların ehtimalına görə atəşgah məbədi olan Qız Qalası e. ə. VIII-VII əsrlərdə Kaspiana və Midiyanın bürclü məbədlərinin təsirilə Xəzər dənizi (Kaspi) sahilində, təbii yanan atəşlərin arasında məhz qədim od şəhəri “Atəşi Baquan”da tikilə bilərdi. Bir çox alimlərin fikirlərinə görə, Oız Qalasının Çıraq Qala müdafiə Qalasına bənzərliyini əsas götürüb onun Gilgilçay müdafiə sisteminə aid olduğunu da söyləmək olar. Qız Qalasının şimal-şərqi Albaniyanın müdafiə Qalalarındakı memarlıq elementləri ilə oxşarlığını qeyd edərək onu eramızın V-VI əsrlərinə aid etmək olar. Tarixdən məlumdur ki, Azərbaycan Albaniyasının cənub şəhərlərindən sayılan Bakı, Sasani imperiyasının təsiri altında idi. Ehtimal etmək olar ki, Qız Qalası Sasani İmperiyasının, şimaldakı mərzbanlığında (işğal edilmiş əyalətlərində), məhz Albaniya ərazisində tikdirdikləri müdafiə sisteminə daxil idi. Əsrlər boyu müxtəlif döyüşlərdə zərər görmüş Qız Qalası tədricən bərpa edilərək orta əsrlərdə, Bakı

Qala divarı ilə bərabər şəhərin müdafiə işinə xidmət etmişdir. Bunu abidənin tikinti quruluşundakı dəyişikliklər də sübut edir. Qala elə bir formadadır ki, şəhər düşmən tərəfindən fəth edildikdə dövrün hökmdarı və ya ona yaxın olan adamlar Qalanın qapılarını bağlayaraq uzun müddət müqavimət göstərə bilsinlər. Bütün bunlar müdafiə əhəmiyyətli Qalalar üçün xarakterik olduğuna görə hər hansı məbəd, gözətçi qülləsi və ya rəsədxana üçün belə müdafiə tədbirlərinin tətbiqi zərurət təşkil edə bilməz. Əlbəttə abidədən öz dövrünə görə məqsədyönlü istifadə edilməsi təkzib edilmir.

Qız Qalasının Abşerondakı müdafiə tipli möhtəşəm Qalalara (Mərdəkan, Ramana, Şüvəlan, Nardaran Qalaları) bənzərliyini qeyd etmək olar. Qalanın cənub-qərb tərəfdəki divarı daxilində ikinci mərtəbədən başlayaraq yeddinci mərtəbəyə qədər daşdan səliqə ilə hörülmüş, quyu formasında şırım (oyuq) vardır. Hər mərtəbədə həmin şırım olan yerdə yarımdairə şəklində taxça açılmışdır. Şırımın içərisinə uzunluğu 40-45 sm., diametri 25-30 sm., divarının qalınlığı isə 2,2 sm. olan saxsı tünklər yuxarıdan aşağıya doğru bir-birinin içərisinə geydirilməklə yerləşdirilmişdi. Tünklərin bir-birinə geydirilmiş hissələri (çöl tərəfi və divarının xarici) əhəng məhlulu ilə möhkəmləndirilmişdir. Birinci mərtəbədən başlayaraq Qalanın özül hissəsinə qədər gedən tünkləri 22 x 18 sm. ölçüdə dördkünç formalı saxsı novçalar əvəz edir. Həmin novçalar divarın içərisi ilə bayıra yönəlir. Saxsı tünklər və novçalar üzərində dulus çarxının izləri aydın görünür. İçəri şəhərdə arxeoloji qazıntılar davam edir. Çox güman ki, axtarışlar zamanı əldə edilən maddi-mədəniyyət nümunələri Qız Qalasının tarixi keçmişinə dair dəqiq fikirlər söyləməyə imkan verəcəkdir. Hər bir halda Qız qalası bənzərsiz və nadir memarlıq abidəsi kimi Azərbaycan memarlığında müstəsna mövqeyi olan obyektlərdəndir.

XI əsrdən XIII əsrin əvvəllərinədək olan zaman kəsimi Azərbaycan memarlığı tarixində dönüş mərhələsi hesab olunur. Bu zaman ölkənin əsas bədii-mədəni dairələrinin lokallaşması prosesi başa çatmış, əsas memarlıq mərkəzləri müəyyənləşmiş, ölkədə memarlıq fəaliyyətinin vahid sistemi qərarlaşmışdır. Bu dövrdə Şamaxı, Bakı, Təbriz, Beyləqan, Naxçıvan, Marağa, Bərdə, Gəncə, Dərbənd şəhərləri Azərbaycan memarlığının nadir incilərinin yaradıldığı başlıca mərkəzlərdən olmuşdur. Şamaxı şəhəri XII əsrdən etibarən Azərbaycan tarixində müstəsna əhəmiyyətə malik olan, qaynar həyatlı şəhər kimi tanınırdı. Şəhər ölkənin ictimai-siyasi, iqtisadi həyatında mühüm rol oynayırdı. Səlcuq imperiyasının parçalanmasından sonra Şamaxı güclənmiş Şirvanşahlar dövlətinin paytaxtına çevrilmişdi. XII əsrin sonlarında (1191-ci ildə) Azərbaycan atabəyi Qızıl Arslanın Şamaxı şəhərini ələ keçirməsindən sonra Şirvanşah I Əxsitan dövlətinin paytaxtını müvəqqəti olaraq Bakıya köçürməli oldu. 1192-ci ildə baş vermiş (7, s.100-106) güclü zəlzələ isə Şamaxının dövlət paytaxtı olaraq qalmasını qeyri-mümkün etdi. Şəhərdə bu tarixi məqamadək inşa olunmuş memarlıq obyektlərinin əksəriyyəti həmin zəlzələ nəticəsində yerlə-yeksan oldu. Şamaxıda 743-cü ildə tikilmiş Cümə məscidi Cənubi Qafqazda inşa olunmuş ən erkən müsəlman səcdəgahıdır. Şamaxı şəhərinin Azərbaycanın ictimai-siyasi həyatındakı öncül mövqeyini XII əsrin sonlarında əsasən təbii fəlakət nəticəsində itirməsi onun memarlıq baxımından inkişafı istiqamətinə mənfi təsir göstərdi. Monqol hərbi yürüşləri, işğalı və əsarəti Azərbaycan mədəniyyətinin inkişaf potensialının gercəkləşməsini də ləngitmişdi. Monqollar Cənubi Qafqaza (eləcə də Azərbaycana) yalnız hərbi sahədəki uğurları ilə gəlmişdilər. Onlar dövlətçilik, ideologiya, inzibati idarə, maliyyə, mədəniyyət və s. sahələrdə çoxəsrlik təcrübəni yerli xalqlardan (eləcə də azərbaycan xalqından) əxz etməli oldular. Lakin bu mənimsəmə, yerli mədəniyyətə uyğunlaşma

bir çox onilliklər ərzində davam edən proses olmuşdur. Azərbaycan hətta monqol işğalı və əsarəti dövründə İslam şərqinin aparıcı mədəniyyət mərkəzi olaraq qalırdı. Təbiidir ki, bu hal Azərbaycanin Hülakular (Elxanilər) dövlətinin inzibati-siyasi, ictimai-iqtisadi mərkəzi olması ilə daha çox bağlı olmuşdur. Hülakular yerli feodallarla yaxınlaşdıqdan, İslam dinini dövlət dini səviyyəsində qəbul etdikdən və bu əməllə müsəlman aləminə inteqrasiya olunduqdan sonra "artıq yaradıcılıq məqamının yetişdiyini" tam anladılar. Çünki həmin yaradıcılıq fəaliyyəti olmadan onlarin qurduqları dövlətin varlığı təhlükə ilə üzləşə bilərdi. Elxanilər Hülaku xandan başlayaraq saray, mədrəsə, rəsədxana, şəhərətrafi yaşayış məntəqələri saldırmağa başladılar. Göstərilən dövrün aparıcı memarlıq tipi məqbərələr idi. Məqbərələrin əksəriyyəti güllәvari formaya malikdir. Bu dövrdə müdafiə qurğularının da inşası geniş yayılmışdı, bu isə dövrün hərbi-siyasi hadisələrinin, ziddiyyətlərinin zənginliyindən irəli gəlirdi. Mərdəkandakı dördguşəli qüllə (1232), Nardarandakı qəsr (1301), Ramana qəsri, Şağanda olan qəsr həmin tarixi dövrün müdafiə, memarlıq obyektləridir. Bayıl qəsri dövrün ən güclü istehkamlarından biri idi. Abidənin nadir cəhətlərindən biri üzərində insanların, digər canlı varlıqların, fantastik varlıqların, ərəb qrafikası əsasında yazılar olan üzlük daşların çoxluğudur. Belə daş lövhələrin 1200 ədəd olduğu güman olunur və onlardan 700-ə qədəri tapılaraq tədqiq edilmişdir, 1309-1310-cu illərdə Bakıda inşa olunmuş Cümə məscidi, Pirsaat çayı yaxınlığındakı xanəgah (1256) bu dövrün diqqəti cəlb edən dini təyinatlı tikililəridir. Azərbaycan memarlığının yeni yüksəliş mərhələsinə daxil olması XIII əsrin II yarısından etibarən başlanmışdı.

"Səlcuqlar, Eldənizlər dövrünün coşqun yüksəlişindən sonra XIII yüzildə Azərbaycan memarlığı müəyyən durğunluq mərhələsi keçirir" (12, s.8). Elxanilərin sürətli və geniş quruculuq işləri, dünya əlaqələrinin genişlənməsi və intensivləşməsi

nəticəsində Azərbaycan memarlığı monqol istilalarına qədərki dövrün memarlıq səviyyəsini ötərək yüksək inkişaf səviyyəsinə çatdı. 1300-cü ildə Bakıya gəlmiş Qazan xan Bibiheybət türbəsinin yanında məscid tikdirmişdi. "Elxani tikililərini qabaqkı dövr binalarından fərqləndirən ilk xüsusiyyət onların ölçücə böyüklüyüdür" (12, s.9). Azərbaycan memarları Elxanilərin tələblərini layiqincə yerinə yetirdilər: Azərbaycanın memarlıq abidələri meydana gəldiyi tarixi dövrün ictimai-siyasi, ideoloji hadisələrini, tikinti-texniki səviyyəsini əks etdirən, həmin dövrün digər sənət sahələri haqqında xeyli məlumat verən obyektlərdir. Çoxəsrlik tarixi təcrübə göstərir ki, "şəhərsalma sənəti cəmiyyətin siyasi-ictimai quruluşu, iqtisadi gücü, məhsuldar qüvvələri, mədəniyyət və incəsənətin inkişaf səviyyəsi ilə çox bağlıdır" (14, s.7). O, xalqın taleyi ilə, qədim adət-ənənələri, milli xüsusiyyətləri, psixologiyası, habelə təbii-iqlim şəraiti ilə şərtlənən mürəkkəb yaradıcılıq sahəsidir. XIV əsrin sonlarından etibarən Şərq ölkələrində (eləcə də Azərbaycanda) şəhərlərin əhəmiyyəti yenidən artmağa başladı, onların bir çoxu inzibati mərkəzlərə çevrildi. Bu dövrdə hökmdarların iqamətgahları əvvəllər olduğu kimi uzaq və əlçatmaz qalalarda deyil, məhz şəhərlərdə yerləşirdi. Məsələn, XV əsrdə Bakının Şirvanşahlar dövlətinin partaxtına çevrilməsi prosesini, şəhərsalma tədbirlərinin miqyasını xatırlamaq kifayətdir (6). Qədim şəhərdə orta əsr memarlığının şah əsərlərindən biri olan Şirvan hakimlərinin iqamətgahı – "Şirvanşahlar Saray Ansamblı" bu günə qədər öz tarixi-memarlıq üstünlüyünü saxlamaqdadır.

Orta əsrlərdə Şamaxıda baş verən gərgin hadisələr dövründə Bakı şəhəri nisbətən sakit şəraitdə inkişaf edirdi. Hələ XII əsrdə Bakıda möhkəm qala divarlarının (1138-1139) tikildiyi məlum idi. Şamaxıda baş verən zəlzələdən sonra paytaxt Bakıya köçürüldükdə şəhərin ən yüksək nöqtəsində, Şirvanşahlar Sarayı ucaldılır. Sarayın ansamblı 9 tikilidən: Saray bina-

sından, Divanxanadan, Dərviş türbəsindən, Şərq darvazasından (portal), saray məscidindən, Key-Qubad məscidindən, saray türbəsindən, hamam və ovdandan ibarətdir.

Kompleks binalarının biri digərindən 5,6 metr hündürlükdə yerləşən 3 həyətdən ibarətdir. Sarayın yerləşdiyi ərazi mürəkkəb relyefli olduğu üçün, saray vahid memarlıq planına malik deyildir. Lakin buna baxmayaraq binaların biri digəri ilə təzad təşkil etmir. Əksinə biri digərini gözəlləşdirir. Ən müxtəlif nöqtələrdən baxarkən onların saray ansamblının tərkib hissələri olduğu aydın görünür. Kompleksin bütün tikililəri əhəng daşı olan yerli bədamdam daşından inşa olunmuşdur. Kompleksin bütün tikililəri arasında ən çox dağılmaya məruz qalan saray binası olmuşdur. 1500-cü ildə Şirvanşahlarla Səfəvilər arasındakı döyüş zamanı Fərrux Yassar öldürüldükdən sonra saray talan olunmuşdur. Şirvanşahlardan sonra sarayda kimlərin yaşadığı məlum deyil.

Cənubi Qafqazda Səfəvi-Osmanlı arasında gedən sonsuz müharibələr Azərbaycan ərazisində də getmişdir. Karvan yollarının kəsişməsində yerləşən Şirvan tez-tez hücumlara məruz qaldığı üçün, saray da bu hücumlar zamanı əldən - ələ keçmişdir. Bunu Osmanlı türklərinin hakimiyyəti dövründə tikilən Murad darvazası sübut edir. 1723-cü ildə I Pyotr qoşunlarının Bakıya top atəşi açması zamanı saray məscidinin şimal-şərq fasadı ziyan çəkmişdir.

10 fevral 1828-ci ildə Azərbaycan Rusiya tərəfindən işğal olunduqdan və saray tikililəri rus hərbi qərargahına verildikdən sonra burada təmir işləri aparılmış, saray hərbi qərargaha çevrilmişdir. Şirvanşahlar Sarayı ilə bağlı bir çox qiymətli tikililər məhv edilmişdi. Hətta sarayın ərazisində Aleksandr Nevski kilsəsinin inşası da nəzərdə tutulmuşdur. Saray XIX əsrin sonunda dağıdılmış və baxımsız qalmışdır. 5 oktyabr 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin "Cəmiyyətə, müəssisələrə və fərdi şəxslərə aid olan incəsənət və qədim

abidələrin siyahıya alınması və saxlanması haqqında" dekreti nəşr olunur. Bu dövlət tərəfindən abidələrin ilk dəfə siyahıya alınması istiqamətində atılan addım idi. 1932-ci ildə Şirvanşahlar kompleksində Azərbaycan Xalq Komissarı Sovetinin qərarı əsasında təmir işləri başlanır. 1937-38-ci illərdə arxeoloq V.N.Leviatovun rəhbərliyi altında Sarayda arxeoloji qazıntılar aparılır və xeyli miqdarda XII-XV əsrlərə aid maddi-mədəniyyət nümunələri tapılır. Saray binasında bir müddət Azərbaycan Xalq muzeyinin bir hissəsi və Din tarixi muzeyi yerləşdirilir. 1954-cü ildən "Şirvanşahlar Sarayı Kompleksi" Dövlət Tarixi Memarlıq Qoruq-muzeyinə çevrilmişdir. 1960-cı ildə sarayın memarlıq abidəsi kimi qorunması haqqında qərar qəbul edilir.

Orta çağlarda Azərbaycan şəhərləri, o cümlədən Bakı şəhəri müdafiə funksiyası daşıyan qala divarları ilə əhatə olunduğu üçün onların inkişafı məhdudlaşmışdı. Yalnız "Ərdəbil XIV-XVI əsrlər ərzində qala divarları ilə əhatə olunmadığına görə nisbətən azad planlaşma əsasında inkişaf etmişdir" (14, 27). Avropa şəhərlərindən fərqli olaraq Azərbaycanın orta əsr şəhərlərində yeni müdafiə xətti tikilərkən köhnəsi dağıdılmırdı, nəticədə bir çox Azərbaycan şəhərləri iki, bəzən isə üç müdafiə xəttinə malik idi. Şəhər planının müdafiə sistemindən asılılığı onun strukturuna və kompozisiyasına böyük dəyişiklik gətirə biləcək əsaslı şəhərsalma işlərinin aparılmasını çətinləşdirirdi. Orta əsrlər ərzində Azərbaycan şəhərlərinin plan quruluşunun çox az dəyişməsi səbəblərindən biri də məhz bu idi. Bu dövrdə memarlığın inkişafını zəruri edən obyektiv şərtlər aşağıdakılar idi:

1. İslam dininin ideologiyası – məscidlərin, mədrəsələrin, müxtəlif dini təyinatlı obyektlərin inşasını tələb edirdi;

2. Ticarət və sənətkarların artımı – müxtəlif tipli bazarların, dükanların, karvansaraların, ovdanların və s-nin tikintisini zəruri etmişdi;

3. Şəhərlər, ölkələr arasındakı inteqrasiya, əlaqə meyli – ticarət yollarının, körpülərin və s.-nin salınmasını tələb edirdi;

4. Hakim sinfin mənafeləri – sarayların, saray komplekslərinin, müxtəlif təyinatlı emalatxanaların tikilişini zərurətə çevirmişdi;

5. Yaşayış məskənlərinin qorunması zərurəti – müxtəlif müdafiə obyektlərinin (qalaların, qüllələrin, qala divarlarının), istehkamların inşasını zəruri edirdi. Hərbi-siyasi münaqişələrlə zəngin olmuş orta çağlarda bu zəruri şərtlər (xüsusilə sadalanmış son şərt – müdafiə zərurəti) daim yaşarı idi, fasiləsizliyi ilə diqqəti cəlb edirdi.

XV əsr Azərbaycan memarlığının təkamülündə klassik yetkinlik çağıdır. Bu zaman ölkənin tikinti sənətində XIII və XIV əsrlərə xas olmuş axtarış və eksperiment vüsəti duyulmurdu. Bu dövrün Azərbaycan memarlıq obyektləri artıq sabitliyi və bitkinliyi ilə seçilirdi. Bu əsrdə xatirə tikililəri nisbətən (XI-XIV əsrlərlə) az idi. Dini tikililərin inşasında isə XV əsrdə çox böyük irəliləyiş vardı.

Həmin əsrin Şirvan abidələrinin əsas kütləsi Bakıda və Abşeron kəndlərindədir. Bunlar məscidlər, karvansaralar, hamamlar və xatirə tikililəridir. İlk baxışda adama elə gəlir ki, bu tikililər müxtəlif sənətkarlar tərəfindən tikilmişdir. Lakin "planlaşma" prinsipi və memarlıq bədii həllin ümumiliyi, binaların bir-birinə yaxın illərdə tikilməsi və kompleksin qısa bir dövrdə formalaşması (XV yüzilin ikinci rübündə) belə bir fikir oyadır ki, Şirvanşahlar türbəsinin baş tağındakı medalyondakı yazının tərcüməsi belədir: "Allaha və onun nemətlərinə şükr olsun" (14, s.13).

Bu dövrdə şəhərsalma işi memarlıq fəaliyyətinin mühüm sahəsi olaraq qalırdı. Təbriz, Şamaxı, Bakı, Sultaniyyə, Ərdəbil, Naxçıvan və Gəncə bu dövrün başlıca şəhərsalma obyektlərindən olmuşdur. Dərbənd şəhəri də bu prosesə cəlb olunmuşdu. Şirvanşahlar dövləti paytaxtının Şamaxıdan Bakıya

köçürülməsi Bakını bu zamanın ən intensiv şəhərsalma obyektinə çevirmişdi (saray kompleksi və s.). Şirvanşahlar Saray Kompleksi XV əsrin “təxminən 10-cu illərində tikilmişdir” (2, s.158). Saray kompleksi aydın surətdə düşünülmüş plana, sxemə malikdir. Bu sxemə əsasən kompleks iki hissəyə (rəsmi və şəxsi istifadə məqsədli) ayrılır.

Bakıdan danışanda təbii ki, Şirvan-Abşeron məktəbi yada düşür. Azərbaycan milli memarlığının aparıcı istiqamətlərindən biri məhz Şirvan-Abşeron məktəbi idi. Bu memarlıq məktəbi XVI əsrin əvvəllərinədək Azərbaycanda aparıcı rol oynamışdır. Bu məktəbin uğurlarının mənbəyi ictimai-siyasi həyatın sabitliyində və IX əsrdən etibarən uğurla yüksələn Şirvanşahlar dövlətinin mövcudluğunda idi (3, s.229-234). Şirvan-Abşeron memarlıq abidələrinin ən gözəl nümunələri bu məktəbin başlıca mərkəzlərində – Bakıda, Şamaxıda (7, s.100-106) və Dərbənddə (11, s.135-155) cəmləşmişdi. Yaxın və Orta şərq regionunun ən nadir ansambllarından biri olan Şirvanşahlar saray kompleksi /Bakı/ Şirvan-Abşeron memarlıq məktəbinin tipik nümunəsi olmuşdur. Bir daha xatırladaq ki, XV əsrin II rübündə yaradılmış bu kompleks saray, divanxana, Şirvanşahlar türbəsi /1435/, ovdan /1436/, hamam /1438/, Şah məscidi /1441/, Keyqubad məscidi və Seyid Yəhya Bakuvinin türbəsindən ibarətdir (12, s.12).

XVI əsrin ortalarından etibarən ictimai-siyasi fəallıq Azərbaycanın cənub vilayətlərinə keçdi və Şirvanşahlar dövlətinin ərazilərinin Səfəvilər dövləti ərazisinə birləşdirilməsi Şirvan-Abşeron memarlığının aparıcı roluna son qoydu.

XVI əsrdən etibarən müxtəlif təyinatlı tikililərin əsasən ölkənin cənubunda yaradılması aşağıdakı səbəblərlə izah oluna bilər:

1. Ölkənin şimal vilayətlərinin /xüsusilə Şirvanın/ siyasi, inzibati əhəmiyyətinin azalması;

2. Şirvan əsasən hərbi-siyasi çəkişmələr meydanına çevrilmişdi;

3. XV əsr də daxil olmaqla çoxəsrlik tarixi inkişaf ərzində Şirvanda müxtəlif təyinatlı memarlıq kompleksləri, xüsusilə məscidlər vardı və onların tikintisinə kəskin tələbat yox idi.

Sonuncu səbəb daha mühüm hesab oluna bilər. XVI əsrin Azərbaycan memarlığının digər bir cəhəti onun bədii yaradıcılığın digər sahələri ilə güclü və sıx əlaqəsi idi. "Bu dövrdə memar-xəttat, şair-rəssam, şair-musiqiçi və s. kimi hallar təsadüfi deyildi" (17, s.238). Miniatürçü rəssam, nəqqaş, həkkak, xəttat, memar sıx əməkdaşlıq şəraitində çalışırdılar. Bu dövrün memarlığının inkişafı üçün dini təyinatlı binaların türbə, məscid və s. xüsusi intensivliklə tikilməsi də xas idi. Bu cəhət "Səfəvilər dövlətinin teokratikliyi" faktı ilə əlaqələndirilir (12, s.14).

Memarlıq abidələrinin tərtibatında bu dövrdə bəzi dəyişikliklər baş verdi. "XV əsrdən başlayaraq memarlıq abidələrimizin bədii tərtibatında canlıları təsvir edən oymalara təsadüf edilmir. Bundan sonra adətən gül-çiçək ornamentlərindən təşkil edilmiş bəzəklər təsviri oymaları əvəz etməyə başlayır" (9, s.39). Bu hal həm təsviri oyma sənətinin yeni inkişaf mərhələsinə daxil olması, həm İslam dininin təsiri, həm də memarlıq abidələrində XV əsrdən etibarən rəngli kaşılardan geniş istifadə olunmasının nəticəsi idi. XVI əsrdə sənətlərin sintezi prosesinin xüsusi vüsət alması, müxtəlif incəsənət növlərinin vahid kompleks yaradıcılığının tərkib hissələrinə çevrilməsi mədəniyyətin İntibah /Renessans/ mərhələsi üçün səciyyəvidir. Bəzi tədqiqatçılar Azərbaycan memarlığının inkişafında Səfəvilər dövrünü "Azərbaycanın orta əsr memarlığının eniş mərhələsinin başlanğıcı" kimi qiymətləndirirlər (12, s.14). Lakin digər bir cəhəti qeyd etmək zəruridir ki, XVI əsrdən etibarən Azərbaycan memarlıq məktəbi bir sıra ictimai-siyasi amillər üzündən öz imkanlarını bütün Yaxın və Orta Şərq regionunda /bir

sıra hallarda cənub-şərqi Avropa ölkələrində/ xüsusi intensivliklə gerçəkləşdirirdi. Eyni zamanda Azərbaycan ərazisində digər incəsənət sahələrinin funksionallığı artmışdı. Azərbaycan memarlığı milli hüdudları aşmış, Yaxın və Orta Şərq hadisəsinə çevrilmişdi. Orta əsr Azərbaycan memarlığının ən intensiv inkişaf dövrü XI-XVII əsrlərə təsadüf edir. Bu baxımdan C.Qiyasinin bu məsələ ilə bağlı fikrini qəti şəkildə qəbul etmək mümkün deyildir.

XVI əsrin Azərbaycan memarlığının inkişafında başlıca istiqamət dini-xatirə komplekslərinin tikintisi idi. Dini təyinatlı tikililər arasında əsas yer məscidlərə məxsusdur. Şəriət ehkamlarına əsasən çox zaman yeni məscid dağılmış köhnə məscidin bünövrəsi üzərində tikilirdi və XVI əsrdə də Azərbaycanda məscidlə mədrəsənin bir kompleksdə birləşdirilməsi səciyyəvi hal idi.

XVI əsrdən etibarən ictimai-siyasi, iqtisadi amillərin təsiri altında bir çox Azərbaycan şəhərlərinin inkişafında yeniliklər baş verdi. Bu fakt Bakının timsalında daha bariz şəkildə üzə çıxmışdı. "Feodal Bakısının memarlıq inkişafında sonuncu mərhələ onunla əlamətdardır ki, şəhərin inzibati və ictimai həyatının mərkəzi yenidən dənizkənarı sahəyə qayıtdı. Şamaxı istiqamətindən şəhərə əsas giriş hissəsində yeni inzibati mərkəz, Bakı xanlarının mürəkkəb yaşayış kompleksi yerləşirdi. Şəhərin əks tərəfində, Salyan qapılarına gedən yolda XVI əsrdə karvansaralardan və anbar binalarından başqa məscid binasını da özündə ehtiva edən geniş ticarət kompleksi meydana gəldi" (6, s.33). XVI əsrdə Bakı şəhərinin memarlığında baş vermiş əsaslı dəyişikliklər /onun ticarət qapılarının cənuba istiqamətlənməsi, mühüm komplekslərin cənubda cəmləşməsi və s./ o zaman Azərbaycanda baş vermiş güclü inteqrasiya prosesinin təzahürlərindən biri idi. Həmin inteqrasiya prosesi qədim dövrlərdən vardı və əslində bu proses XVI əsrdə yenidən canlanmışdı. "Aydındır ki, şəhərin inkişafının bütün mərhələlərində

onun ticarət-ictimai həyatı həmişə aşağı, dənizkənarı hissədə cəmləşirdi” (6, s.39).

Şirvan şəhərlərinin əksəriyyəti üçün cənub vilayətlərinə bu cür istiqamətlənmə XVI əsrin səciyyəvi əlaməti idi. Müsəlman Şərqində Azərbaycan memarlıq məktəbi yüksək qiymətləndirilirdi. “Azərbaycanın beynəlxalq memarlıq əlaqələrində fəal mövqe tutduğunu belə bir fakt da təsdiq edir. Azərbaycan ərazisindəki memarlıq abidələrinin heç birində gəlmə sənətkarların, yadelli memarın adı aşkar edilməmişdir. Çoxlu azərbaycanlı memarın, xəttatın və nəqqaşın adları isə Şərqin müxtəlif şəhərlərinin monumental abidələrində indiyəcən qalmaqdadır” (12, s.91).

XVI əsrin sonu-XVII əsrin əvvəllərində daxili və xarici əhəmiyyətli obyektiv amillərin təsiri altında Azərbaycan memarlığının inkişaf zəmini dəyişdi. XVII əsrdə şəhərsalma tədbirləri ölkənin cənub vilayətlərində xüsusi intensivliklə həyata keçirilirdi (17, s.239). Eyni zamanda Azərbaycan şəhərlərinin cənub istiqaməti əsasında memarlıq inkişafı XVII əsrin səciyyəvi cəhəti idi. “XVII əsr bir sıra şəhərlərin xeyli inkişafı, bu şəhərlərdə iri mərkəzi komplekslərin yaradılması ilə seçilir. Bu dövrdə şəhərin mərkəzi onun ticarət hissəsinə can atır. Bir sıra hallarda hakimlərin qala və imarətləri öz əhəmiyyətini itirdi. Bir sıra şəhərlərin baş küçələri məhz XVII əsrdə meydana gəldi. Bu baxımdan Bakı səciyyəvi nümunə ola bilər. Əgər XV əsrdə şəhərin mərkəzi bilavasitə Şirvanhaşlar sarayının yanında idisə, XVII əsrdə karvansara və bazarların yerləşdiyi ərazi şəhərin mərkəzinə çevrildi” (16, s.147). Əgər Şimali Azərbaycan şəhərlərinin əksəriyyətinin memarlıq baxımından tərəqqisi ölkənin cənub vilayətlərinə istiqamətli idisə, cənubi Azərbaycan vilayətlərində olan şəhərlərin memarlıq inkişafı Səfəvilər dövləti ərazisinin cənubuna (İran vilayətlərinə) istiqamətlənmişdi. Bu, dünya ticarət yollarının dəyişməsi kimi

bir obyektiv prosesin memarlığın inkişafına güclü təsirinin təzahürü idi.

İslam Şərqinin memarlıq sistemində dini təyinatlı binalar xüsusi yer tutur. XVII əsr Azərbaycanda dini funksiyaları həyata keçirən binaların xüsusi intensivliklə inşası ilə səciyyəvidir. Bu cür tikinti işləri ölkənin cənubunda daha geniş şəkildə aparılmışdır. Lakin Abşeron yarımadasında da XVII əsrdə bir çox məscidlər inşa olunmuşdu (16, s.13).

XVIII əsr ərzində ölkənin başlıca mədəni inkişaf ocaqları olan şəhərlər baş vermiş hərbi əməliyyatlar nəticəsində xeyli zərər çəkmişdilər. Bütün xalqların, ölkələrin tarixi sübut edir ki, qarşıdurmalar zamanı müxtəlif, rəqib sərkərdələrin, hökmdarların başlıca zərbə obyekti ticarətin, sənətkarlığın, mədəni potensialın əsas mərkəzləri olan şəhərlər olmuşdur. XVIII yüzillikdə də Azərbaycan hakimləri şəhərlərin müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə daha çox fikir verməli olurdular. Şəhərlərin memarlıq cəhətdən təkamülü xeyli dərəcədə onların müdafiə sisteminin xarakterindən asılı idi. “Qala divarlarından kənarda ev və bina tikdirməkdən ehtiyatlanan şəhər zadəganları öz imarətlərini yalnız şəhər daxilində inşa etdirməyi daha üstün tuturdular. Belə hallarda özlərinə binamülk tikdirən varlılar nə şəhərin planlaşdırılmasına, nə də xarici görünüşün pozulmasına əhəmiyyət verirdilər. Buna görə də get-gedə şəhərin küçələri daralır, şəhər meydanları tədricən aradan çıxırdı” (16, s.396). Bu cəhətlərinə görə həmin dövrün Azərbaycan şəhərlərinin əksəriyyəti oxşar idi (4, s.202-332; s.33-51; s.11-16; s.38-61).

Bu dövrdə Şamaxı, Dərbənd, Quba, Bakı şəhərlərində hərbi istehkamlar, ictimai-mülki binalar inşa olunmuşdur. Kitabələrdə memarlıq obyektlərinin inşası tarixinə, onların bərpa və təmir olunması zamanına, həmin obyektlərin inşasında rolu olmuş sənətkarlara, bir çox ictimai-iqtisadi və siyasi, inzibati məsələlərə dair materiallar mövcuddur.

Azərbaycanda nisbi siyasi sabitlik (xanlıqların meydana gəlməsi və təşəkkülü) bərqərar olunanadək memarlıqda canlanma müşahidə olunmamışdır. Aramsız müharibələr, xarici qoşunların müdaxilələri, feodal ara çəkişmələri memarlığı inkişaf stimulundan məhrum edirdi. XVIII əsrin II yarısında memarlıq üçün müəyyən əlverişli şərait yarandi. Azərbaycanın şimal-qərb bölgəsində və Şamaxıda bir çox sufi mürşidlərinin, ruhani alimlərin, müqəddəs hesab olunan şəxslərin məzar daşlarının aşkar olunması təsdiq edir ki, XVIII yüzillikdə ölkəmizdə "nəqşbəndiyyə", "ələviyyə" təriqətləri geniş yayılmışdı. Bu dövrdə xalq memarlıq ənənələri memarlıq fəaliyyətinin başlıca ünsürü idi, lakin əski zamanların monumental memarlıq ənənələri yenə də mühüm təsirini qoruyub saxlamışdı. Azərbaycanda xanlıqlar dövrünün əsas cəhətlərindən biri iqamətgah və onun müvafiq istehkamı kimi saray komplekslərinin yaradılması zərurəti olmuşdur. Azərbaycan xanları başlıca şəhərlərin ətrafında və xanlıqların ərazilərində güclü müdafiə qurğuları sisteminin inşasına xüsusi diqqət yetirirdilər, məhəllə məscidləri bu dövrün mühüm ibadət və tədris ocaqları idi. XVIII əsrin Azərbaycan memarlığında aparıcı yeri kiçik həcmli, səkkizguşəli türbələr tuturdu. Əsrin şəhərsalma işində iki başlıca meyl nəzərə çarpırdı. Birinci meyl xanlar tərəfindən paytaxt kimi Azərbaycanın qədim şəhərlərinin seçilməsi idi. Baki, Naxçıvan və Gəncə bunlara misal ola bilər. 1734-cü ildə Nadir şah tərəfindən dağıdılmasına baxmayaraq, Şamaxını bu tip şəhərlərə aid etmək mümkündür. Lakin XVIII yüzillikdə bir sira xanlıqların mərkəzləri də meydana çıxdı, bununla bağlı şəhərsalmada mühüm tədbirlərin aparılması müşahidə edildi. XVIII yüzillikdə Bakıda, İçəri şəhər qala divarları daxilində, Şamaxı darvazası yaxınlığında böyük xan sarayı kompleksi tikilmişdi. Həmin kompleks xan ailəsi üçün nəzərdə tutulmuşdu. Bu kompleksdən "Bakıxanovlar evi" adı ilə məlum olan böyük fraqmentlər qalmışdır. Bu dövr memarlığının diq-

qəti cəlb edən nümunələrindən biri Şuşa şəhər qalasıdır. Qala salınarkən təbii-coğrafi şəraitdən məharətlə istifadə olunmuşdur. Şəhərin yerləşdiyi əraziyə yalnız şimal istiqamətindən yaxınlaşmaq mümkün idi. Ona görə də məhz burada güclü qala divarları ucaldılmışdı.

Maraqlı dini tikililər arasında Bakının Suraxanı kəndindəki "Atəşgah" xüsusilə fərqlənir. Abidənin əsası XVII əsrdə Hindistandan gəlmiş mühacirlər tərəfindən qoyulmuşdur. Ümumiyyətlə, "Atəşgah"ın meydana gələrək təşəkkül tapması, inkişafı prosesi XVII-XIX yüzilliklərdə baş vermişdir. Atəşpərəstlik məbədini və onun ətrafında olan müxtəlif tikililəri Şimali Hindistandan gəlmiş, Bakıda məskunlaşmış hind sikx icması inşa etdirmişdi. Kompleksdə olan hücrələr XVIII əsrin sonlarında ümumi divarla əhatələnmişdir. Qapalı beşgüşə şəklində olan, karvansaranı xatırladan kompleksdə ziyarətçilərin yerləşməsi üçün 24 hücrə və otaq vardır (5, s.38). Hücrələrdən, karvansaralardan və mehrabdan ibarət olan "Atəşgah" kompleksi imkanlı hind tacirlərinin vəsaiti sayəsində XVIII əsr ərzində tikilmiş, həmin əsrdə inkişafının çiçəklənmə mərhələsini keçmişdir (4, s.328). Kompleksdə olan daş kitabələrdən biri əsasında bu kompleksin hindlilərə qədər atəşpərəstlik məbədi olduğu qənaəti mövcuddur. Şübhəsizdir ki, "mərkəzi məbəd tikilisi, daha doğrusu, Atəşgahın mehrabı Azərbaycanda hələ Midiya dövründə geniş yayılmış bu cür mehrabların qədim inşası ənənəsini bir növ özündə əks etdirir" (2, s.485).

Beləliklə, XVIII əsrin hərbi-siyasi hadisələri ölkədə memarlığın inkişafını müəyyən dərəcədə məhdudlaşdırsa da, onun təkamülünün yeni istiqamətlərini, cəhətlərini müəyyənləşdirdi (yeni şəhərlərin yaranması və s.). Lakin Azərbaycan memarlığının inkişaf potensialı tam şəkildə gerçəkləşmədi.

Təqdim olunan bu araşdırmada Şirvan-Abşeron memarlıq məktəbinə, xüsusilə bu məktəbin bizə yadigar qalmış İçəri şəhərin abidələrinin timsalında nəzər yetirdik. Bu abidələr Azər-

baycan mədəniyyətinin nadir incilərindən sayılır. Bu abidələr bizim millətin tarixi sərvətidir və onu qorumaq bu millətin hər bir övladının şərəfli işidir.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1.Azərbaycan tarixi. 7 cilddə. II cild (III-XIII əsrin birinci rübü). Bakı, Elm, 1998, 596 s.

2.Azərbaycan tarixi. 7 cilddə. III cild (XIII-XVIII əsrlər). Bakı, Elm, 1999, 584 s.

3.Ашурбейли С. Государство Ширваншахов (VI-XVI вв.). Баку, Элм, 1983,
344 с.

4.35.Ашурбейли С. История города Баку (Период средневековья). Баку, АГИПО, 1992, 404 с.; Gəncə (Tarixi oçerk), Bakı, 1994; Salamzadə Ə.R., Ismayılov M.Ə., Məmmədzadə K.M. Şəki. Tarixi-memarlıq oçerki, Bakı, Elm, 1988, 240 s; Salamzadə Ə.R., Məmmədzadə K.M. Şəkinin memarlıq abidələri. Bakı, Elm, 1987, 140 s.; Mustafazadə T.T. Naxçıvan vilayəti XVIII yüzillikdə // Naxçıvan Muxtar Respublikası (Məqalələr toplusu), s. 38-61 və b.

5.Ашурбейли С. Экономические и культурные связи Азербайджана с Индией в средние века. Баку, Элм, 1990, 152 с.

6.Бретаницкий Л.С. Особенности застройки феодального Баку как отражение гражданской истории города // Ближний и Средний Восток (Товарно-денежные отношения при феодализме). Бартольдовские чтения, 1978, М., 1980, с. 36-42.

7.Джидди Г.А. Средневековый город Шемаха (IX-XVII века). Историко-археологическое исследование. Баку, 1981, 175 с.

8.Əliyeva N.A. Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində. Bakı, Çaşıoğlu, 1999, 244 s.
9.Əfəndiyev R. Azərbaycan xalq sənəti. Bakı, Işıq, 1984, 203 s.
10.Köprülü M.F., Babinger F. Anadoluda islamiyet. İstanbul: İnsan Yayınları, 1996, 138 s.
11.Кудрявцев А.А. Древний Дербент. М., Наука, 1982, 173с.
12.Qiyasi C. Yaxın-uzaq ellərdə (Orta əsr Azərbaycan memarlığının beynəlxalq əlaqələri haqqında). Bakı, Işıq, 1985, 92 s.
13.Леопольдо Сеа. Философия американской истории. Перевод с испанского. М., Прогресс, 1984, 352 с.
14.Muradov V. Orta əsr Azərbaycan şəhərləri. Bakı, Maarif, 1983, 157 s. 54 şəkil.
15. Mehmet Rıhtım. Seyid Yəhya Bakuvi və xəlvətilik. Bakı: Qismət, 2005, 264 s.
16.Саламзаде А.В. Архитектура Азербайджана XVI-XIX вв. Баку, Изд-во АН Азерб. ССР, 1964, 255 с.
16a.Seyid Yəhya əl-Bakuvi. Risalələr I (Nəsr əsərləri).Bakı:Qafqaz Universiteti nəşriyyatı, 2014, 159 s.
17.Усейнов М., Бретаницкий Л.С., Саламзаде А. История архитектуры Азербайджана. М., Госстройиздат. 1963, 396 с.
18.Велиев Сейран. Древний, древний Азербайджан (Историко-географические очерки). Баку, 1987; Ахундов Д.А. Архитектура древнего и раннесредневекового Азербайджана. Баку, 1986.
19. http://www.icherisheher.gov.az/static,19/lang,az/
20. http://www.icherisheher.gov.az/static,19/lang,az/
21. http://www.icherisheher.gov.az/static,19/lang,az/

**Vəfa Quliyeva**
*tarix elmləri doktoru*
**Qənirə Pirquliyeva**
*tarix üzrə fəlsəfə doktoru*

# Bakı Qalasının - İçəri şəhərin tarixinə dair yeni arxiv materialları

Bakı şəhərinin tarixi, memarlıq, epiqrafik abidələri, onun qədim yaşayış məskəni olan İçəri şəhər haqqında Azərbaycan tarixşünaslığında xeyli sayda fundamental araşdırmalar vardır. Lakin buna baxmayaraq İçəri şəhər bir tədqiqat obyekti kimi hələ də tədqiqatçıların maraq dairəsindədir. Bu da şəhərin son işğal tarixindən sonra onun haqqında olan ən mühüm sənədlərin əsasən Rusiyanın muzey fondlarında, arxivlərində saxlanılması ilə bağlıdır.

Bakı Qalası - İçəri şəhər barəsində olan mövcud sənədlərin dünyanın ayrı-ayrı məkanlarından üzə çıxarmaq, onların ən azından surətini ölkəmizə gətirmək, ciddi elmi araşdırmalar aparmaq məqsədi ilə "İçərişəhər" Dövlət Tarix Memarlıq Qoruğu İdarəsi vaxtaşırı əməkdaşlarını elmi ezamiyyətlərə göndərməkdədir. Bu məqsədlə biz də 2015-ci ilin yayında Rusiyanın ən nüfuzlu və zəngin arxivlərindən olan Hərb tarixi arxivində iki həftə gərgin elmi axtarışlar aparmış, maraqlı məlumatlar əldə etmişik. Əvvəlcədən qeyd etmək istərdik ki, Moskvaya yollanmazdan öncə arxivin internet səhifələrində olan materiallar barəsindəki məlumatlarla tanış olmuşduq. Bundan başqa bizi maraqlandıran bəzi məsələlərlə bağlı elmi əsərlərdəki məlumatları toplayaraq, aparacaq tədqiqat istiqamətini özümüz üçün müəyyənləşdirmişdik. Belə ki alim – memar Ş.Fətullayev-Fiqarovun çoxsaylı elmi əsərlərində, xüsusilə XIX-XX əsrin əvvəllərində Bakının şəhərsalma tarixinə həsr edilən monoqrafiyasında şəhərin müdafiə sisteminin güclən-

dirilməsi baxımından ayrı-ayrı vaxtlarda iki layihə plan variantı olduğu qeyd olunur. Layihənin I variantı 1796-cı ildə, II variantı 1807-ci ildə ruslar tərəfindən tərtib edilmişdir. I layihəyə görə İçəri şəhər - qala iki dəfə böyüdülərək, cənub-qərb istiqamətində inkişafı nəzərdə tutulsa da, II plan - mayor mühəndis Xristian Truzson tərəfindən tərtib edilmiş layihəyə görə şəhərdən kənarda dəniz sahilində, düzənlik yerdə başqa bir qalanın inşa edilməsi nəzərdə tutulması barədə dəqiq məlumatlar vardır (3, 5). Hər iki plan-layihə Rusiya imperiyası tərəfindən məxsusi olaraq hazırladılmışdır, ancaq heç biri yerinə yetirilməmişdir. Buna səbəb Qafqazın və Azərbaycanın tam işğalının başlanıb və sona çatdırılması ilə əlaqədar olmuşdur.

Bakı qalasının ilk sxematik planı rus topoqraf-mühəndisləri, həm də hərbçiləri tərəfindən 1833-cü ildə yaradılmışdır. Sonrakı illərdə bu planlar hər il yeniləndirilmiş, bütün yeni detallar-söküntülər, tikililər, küçələrin quruluşu, və digər vacib şəhər infrastruktur elementləri belə sənədlərdə geniş izah və şərhlər verilərək göstərilmişdir. Beləliklə, 1806-cı ildən sonra yəni Bakının ruslar tərəfindən işğal tarixindən dərhal sonra 1807-1811-ci illərdə şəhərin ikiqat müdafiə divarının möhkəmləndirilməsi işləri həyata keçirilmişdir ( 3, 10) .

Rusiya Hərb tarixi arxivində sənədlərlə tanış olduğumuz zaman bu və ya digər dəyərli məlumatlardan xəbərimiz olaraq, çalışırdıq. Ümumilikdə, elmə az və yaxud tam məlum olmayan 112 iş aşkarlandı. Sənədlərin içərisində İçəri şəhərin əsaslı planlarından başqa qalanın şəhərdən kənar planını, ticarət karvansaralarını, məscidləri, xan sarayının geniş planlarını, su xətlərini, yeraltı quyuları, ovdanları və digər qiymətli materialları misal çəkə bilərik. Hər bir göndərilən materialın saxlanma və çatdırılma vəziyyəti, demək olar ki, qənaətbəxşdir. İdarəmizdə elektron texnologiyaların köməyi ilə hər biri iri ölçülü kağız üzərində çıxarılmış və araşdırma üçün bizə təqdim edilmişdir.

Şəkillərin adlarından göründüyü kimi, Bakı Qalasının - İçəri şəhərin bəzi hissələrinin XVIII əsrin əvvəlləri (konkret olaraq 1723-cü il) və XIX əsrin ilk onilliyində əsas görüntüləri mükəmməl şəkildə, dəqiqliklə, topoqrafiyaya uyğun hazırlanmışdır.

Beləliklə, yuxarıda göstərilən arxiv materiallarının ilkin araşdırılması bizə artıq bəzi istiqamətlərdə elmi tədqiqat işləri aparmağa imkan verir. Bunlar aşağıdakılardır:

1. İçəri şəhərin içməli su təchizatının istiqamətinin dəqiqləşdirilməsi. Bu sənəddə (f.349, siy.3, iş №3343, vər.1) Şah, Hüseyn Quluxan və Məhəmməd Qulu Xan su xətlərinin ümumi quruluşu, onların mənbəyi, qalaya daxil olma marşrutları və xətt üzrə tikililər – quyular, ovdanlar, ümumi axarı və digər məsələlər tam dəqiqliklə göstərilmişdir. Eyni zamanda sənəddə Qaladan xaricdə yerləşən 4 yeraltı zirzəmi haqqında da məlumat verilir. Əlimizdə olan bu sənəd bizim ilkin ehtimalımızın düzgünlüyünü bu gün tam olaraq sübut edir. Sənəddə ən vacib məsələlərdən biri xəttin uzunluğu, quyulararası məsafənin dəqiq göstərilməşidir. Maraqlıdır ki, 1-ci sinif konstruktoru S.Labanovun imzası ilə tərtib olunan sənədin izahat hissəsində 1809-cu ildə çəkildiyi zaman III – Məhəmməd Qulu xan su xəttinin artıq tutulması, yəni istifadəyə yararlı olmaması və bu xəttin yerli əhalidən aldıqları məlumatlara əsasən bərpa olunması haqqında məlumat verilir. Həmçinin su xəttinin vaxtaşırı təmizlənməsi üçün ayrıca bir borunun olması qeyd olunmuşdur.

Beləliklə, sənəd qalanın yaşaması üçün bütün sanitar gigiyena qurğularının hələ orta əsrlərdən mövcud olması, urbanizasiyaya uyğun olaraq yeni su xətlərinin çəkilməsi və 3 tərəfdən qalanın relyefinə uyğun vaxtaşırı genişləndirilməsi haqqında dolğun məlumat verir.

2. Sənəd podpolkovnik, hərbçi topoqraf, mühəndis Xristian Truzson tərəfindən tərtib edilmişdir. Bu Bakı qalasının

1807-1809-cı illərdə tərtib edilmiş baş planıdır. Bu plan mərhum alim S.Fətullayev-Fiqarovun "Bakının XIX əsrin sonu – XX əsrin əvvəllərində şəhərsalma" adlı kitabında çap olunmuşdur. Ş.Fətullayev-Fiqarov əsərdə planın izahını çox qısa vermişdi. Həmin dövrdə tərtibatçının izahı, ümumiyyətlə, analiz edilməmişdir. Əslində bu planda həm qalanı bütövlükdə, həm də qaladan kənarda Səbayıl qalasının ümumi quruluşu, şimal-şərq tərəfdə olan yollar, məzarlıqlar, bəzi tikililərin təsvirini görmək mümkündür. Buna görə, müəllifin Şərqin orta əsr şəhərlərinin, bölgüsünün dəqiqliklə bilməsi də diqqətimizdən kənarda qalmadı. Belə ki, aydın şəkildə Şirvanşahlar sarayının yerləşdiyi iç qala – narın qala və rabad hissəsi qara xətlə ayrılmışdır. Qalada 3 yerdə minarə şəkli verilmişdir. Bu fakt bir daha qala daxilində 3 əsas məscidin – Şah, Məhəmməd və Came məscidlərinin olmasını, digər məscidlərin isə məhəlli xarakter daşıdığına görə minarəsiz olaraq yerləşməsini sübut edir. Bu planda 2 qala divarı arasında xüsusi olaraq taxtadan hazırlanan xüsusi mexanizmlə - zəncirlə yuxarı, aşağı qaldırılıb-salınan körpünün sxemi vardır. Elmi ədəbiyyatda belə bir körpünün mövcudluğu haqqında heç bir məlumat yoxdur. Xalq arasında olan fərziyələr bu günə qədər təsdiqini tapmamışdır. Bu planda I qala divarında müəyyən bir hissəsində sütun quruluşunun üstündə öküz obrazının sxematik təsviri vardır. İzahatda orada daşdan öküz heykəlinin (yəqin ki, oturmuş şəkildə, baş və bədəndən ibarət) olması barədə məlumat vardır. Planda II divarın arasında suyun olması və körpünün asma olması, xüsusi qurğu ilə işləməsi aydın görünür. Bu körpü Salyan qapılarından yuxarı, indiki Filarmoniya bağı tərəfdə olan bastiona çıxışdadır. Quruluşda I divardan II divara asma körpüdür. Planda Salyan qapısının ikinci adı oxunur. İndiyə kimi bu ada heç bir elmi ədəbiyyatda rast gəlinmir. Tərcümədə "dağ qapıları" mənasını verir. Ehtimal etmək olar ki, ruslar Salyan yolunun Bakıya yaxın olan Qobustan qayalıqlarını dağ kimi qəbul

etmişlər. Planın izahında qala divarlarından kənarda üstüörtülü saray – yəni anbarların olması qeyd olunmuşdur. Planda dəniz tərəfdən 5 karvansaranın mövcudluğu aydın görünür. Hal-hazırda zəmanəmizə qədər onlardan ikisi qalmışdır – İkimərtəbəli və Kiçik karvansara. Müasir kiçik karvansaranın 2 mərtəbədən 2 qapıdan - giriş və çıxışdan ibarət olması aydınlaşır. Ruslar bura gələndə buranı "Ticarət karvansarası" adlandırmışlar. Əslində bura Bakı qalasındakı Camenin kompleksində olan mədrəsədir. Karvansaralarda atların, dəvələrin yerləşməsi üçün yerlər ən azından olmalı idi. Burada olan hücrələr 1-2 nəfər tələbənin yaşaması və təhsil alması üçün nəzərdə tutulmuşdur və kiçik ölçüyə malik olaraq perimetr üzrə eyni qaydada tikilmişdir. Mədrəsənin XII əsrdə inşa edilməsi elmə məlumdur. Digər mədrəsə komplekslərindən fərqi onun çox geniş ölçüləri və 2 mərtəbədən ibarət olmasıdır. Görünür tələbələrin və burada müdərrişlik edən üləma əhlinin sayı kifayət qədər çox olmuşdu ki, aşağı mərtəbənin girişi dəniz tərəfdən, yuxarı mərtəbənin girişi isə Came ilə üzbəüz yerləşdirilmişdir. Mədrəsənin alt mərtəbələrinə düşmək üçün pilləkən var. Alt mərtəbəyə keçid uzun koridorla təmin edilmişdir. Planda hətta rusların burada 13 tondan artıq un və dənli bitki mənşəli ərzağın saxlanılmasının mümkünlüyü göstərilir. Planda "E" hərfi ilə içməli su quyuları qeydə alınmışdır. Kiçik karvansaranın planı ona bitişik binalar və məscidlə birlikdə "Увеличенные Планы и Профили в городе Баку" adlı sxemdə geniş və ətraflı verilmişdir. Göründüyü kimi planda kiçik karvansaranın giriş hissəsi zəmanəmizə kimi dəyişikliyə uğramışdır.

3. 3320 saylı sənəd ümumiyyətlə Bakı şəhəri Xəzər dənizi və quru sərhədləri – şimal və şimal-qərb – Şamaxı-Salyan tərəfdən görüntüləridir. Burada Rusiyanın yelkənli və yelkənsiz hərbi gəmilərinin dənizdən limana daxilolma istiqamətləri belə göstərilmişdir. Sudan gəmilərin şəhərə yaxınlaşması məkanı müasir "For season" oteli tərəfdəndir. Plan 1789-cu ildə tərtib

edilmişdir. Qurudan qoşunların hücumu Salyan qapısı tərəfdən göstərilmişdir. Bu hərbi hücum üçün şəhərə daxil olmadan hazırlanan sxemdir. Sxemdə daxili divarda 42 bürc, bayır divarda 45 bürc var. Bayır divarın önündə 6 ədəd hərbi müdafiə istehkamı vardır. Bu planda müasir Bakı-Salyan şossesinin Qaradağ rayonu ərazisində Sanqaçal karvansarası və məscidin sxemləri və planları ayrılıqda göstərilmişdir. Əslində bu plan Bakı qalasının müdafiə sisteminin mükəmməlliyini bir daha sübut edir. Bu faktı dərk edən ruslar hücuma keçməyi 2 istiqamətdə quru və sudan nəzərdə tutmuş, sonra isə qalanın daxilində 4 əsas nöqtədə işğalı davam etdirməyi planlaşdırmışdılar.

Digər bir maraqlı məsələ ondan ibarətdir ki, qalanın ətrafında göstərilən tarixdə çox az yaşayış məskənləri vardır. Müdafiə tikilisi – bastionun ayrıca profildən sxemi vardır. Sxemlərdə "redut" adlanan bu hissə qala divarından kənarda ümumi bastionların quruluşuna uyğun tikili və qalaya yol vardır. Ehtimal etmək olar ki, bu ruslar tərəfindən işğaldan sonra tikilmiş əlavə gücləndirilmiş müdafiə məqsədli yeni qurğudur. Sxemlərin birində bu tikilinin profili çəkilmişdir. Bu tikili 2 ilə 2 noyabr 1807-ci ildən 4 yanvar 1809-cu ilə qədərki vaxtda ucaldılmışdır. Bu işi təhvil alan feldmarşal Qudoviç olmuşdur.

4.F.349, say. 3, iş 3333, vər.1-də 1807-ci ildə ruslar tərəfindən Bakı Qalasında yeni tikiləcək müxtəlif istehkamların ətraflı plan-sxemləri verilmişdir. Tikiləcək istehkamlarda1№ altında 3000 pud tutumu olan barıt zirzəmisi, 2№ - zirzəmini havalandıran qurğu, 3№- ərzaq və sursat saxlamaq üçün yararlı olan otaqlar, 4№ yaşayış üçün nəzərdə tutulmuş otaqlar ki, orada iki rota əsgər yerləşdirmək olar, 5№- mətbəx, 6№-rota və artel əşyalarının saxlanılması üçün nəzərdə tutulmuş otaqlar, 7№ iri toplardan atəş açmaq üçün nəzərdə tutulan otaqlar, ki arxa tərəfdən tüstünün çıxması üçün nəzərdə tutulan xüsusi yerlərlə və bir topun bir neçə istiqamətdə atəş açmaq məqsədi

ilə yerinin dəyişdirilməsi mümkün olsun, 8№ darvaza, 9№ hərbi sursat saxlamaq üçün otaqlar, 10№ divara bərkidilmiş dəmir qırmaq vasitəsi ilə topların və sursatın yuxarı mərtəbələrə qaldırılması nəzərdə tutulmuşdur. Sxemdə Bakı xanlarının evinin də kazarma kimi yəni müdafiə istehkamı kimi istifadə edilməsi də təfərrüatı ilə göstərilir. Rusların qeyd etdikləri kimi xan mülkünün kazarma kimi istifadə edilməsinin müəyyən üstün cəhətləri var. Məsələn, buradan düşmənə mərmi yağdırmaq da çox rahatdır. Bundan əlavə bütün bastionlar eyni qayda ilə yerləşir və buraya 12000 pud barıt və tam təminatlı 4 batalyon əsgər yerləşdirmək olar. Eyni zamanda batalyonlara rəhbərlik edən zabitləri, qərargahları, kazakları və digər atlı heyəti bu kazarmalara yerləşdirmək mümkündür. Beləliklə, bu qala müdafiə üçün tam yararlıdır. A.Lobanovun digər bir sxemində diqqətimizi çəkən sxemin adı oldu: xan sarayının və xanla birgə qaçmış Mehdi Qulu və Əbdürrəhim bəyin evlərinin fasadının və profilinin sxemi. Tarix 30 oktyabr 1809-cu il. Evin biri 3 mərtəbədən, digəri 2 mərtəbədən ibarətdir. Xan evinin əsas hissəsi 2 mərtəbədən, giriş hissədən və əlavə tikililərdən ibarətdir. Bakı xanlarının iqamətgahlarının və iki bəyin mülklərinin dəqiq plan və profilləri orta əsrlərdə xan, bəy mülkləri haqqında müəyyən təsəvvür yaradır və gələcəkdə bu mülklərin bərpa, restavrasiya işində bizə yardımçı ola bilər.

5. F. 349, say.3, iş 3339. vər.1-də yenə də Bakı xanlarının yuxarıda qeyd etdiyimiz bəylərin mülkləri ilə birgə bütün iqamətgahın geniş və ətraflı planı verilmişdir. Plandan göründüyü kimi iqamətgah çox möhtəşəmdir. Gələcəkdə bu iqamətgahın tam bərpası ilə burada "İçərişəhər" Tarixi muzeyinin "Bakı tarixi" geniş muzey-ekspozisiyasını təşkil etmək olar. Ekspozisiyada Bakı tarixinin ardıcıllıqla bütün tarixi mərhələləri öz əksini tapa bilər. 1807-1808-ci illər Baş planında Bakı qalasında 7 karvansaranın mövcudluğu müşayiət olunur. Bu planda Qız Qalasının yanında indiki Sıratağlı Dini-

Memarlıq Kompleksinin yeri bazar kimi qeyd olunur. Çox güman ki, XIX əsrdə burada bazar yerləşib.

Sonuncu planda şəhərin yaxınlığında amma qala divarlarından kənarda, içərisində 1 məscid və açıq tikili göstərilir. Ehtimal edirik ki, bu Bibiheybət məscid kompleksidir. Planda "E" hərfi altında İçəri şəhərdə içməli su quyularının yerləşdiyi məkanlar da xüsusi qeyd olunmuşdur. Sənədlərin ilkin təhlili Bakı Qalası haqqında maraqlı, indiyə kimi Azərbaycan tarixşünaslığına məlum olmayan tarixi məqamlara aydınlıq gətirir. Materiallara əsasən biz XIX əsrdə mövcud olan və zəmanəmizə gəlib çatmayan bir çox tarixi abidələr haqqında məlumat alırıq. Bundan başqa Bakı xanlarının bəzi nümayəndələri haqqında arxivdə olan materialların surəti ilə tanış olmaq imkanımız vardır. Azərbaycan tarix elmində Bakı xanlarının tarixi demək olar ki, çox az tədqiq edilmişdir. Bunun əsas səbəblərindən biri də material, sənəd çatışmazlığı olmuşdur. Sovetlər dönəmində Bakı xanlarının haqqında yalnız Abasqulu ağa Bakıxanovun yaradıcılığı nisbətən öyrənilmişdir. 1991-ci ildən sonrakı tariximizdə mərhum akademik Z.Bünyadov A.Bakıxanovun elmi yaradıcılığını öyrənmək, onun Azərbaycan tarix elminin banisi olduğunu dəqiqləşdirmək üçün müəllifin "Gülüstani-İrəm" əsərini əlavələrlə, redaksiya ilə dilimizə tərcümə etmişdir. Bundan sonra AMEA-nın Tarix İnstitutu böyük hörmət və şərəflə A.Bakıxanovun adını daşımağa başlamışdır. Lakin Bakıxanovlar nəsli yalnız Abasqulu ağa ilə bitmir. Bu sülalənin Azərbaycan memarlıq, mədəniyyət, elm, hərb tarixində oynadıqları rol hələ də tam olaraq araşdırılmamışdır. Bu və digər obyektiv səbəblərdən çalışarkən biz onlara aid olan sənədlərin də ölkəmizə gətirilməsi üçün cəhd göstərdik. Yeri gəlmişkən, qeyd etmək istəyirik ki, İdarəmiz tərəfindən 2011-ci ildə Tiflis Tarix Arxivinə ezam olunarkən eyni mövzu ilə maraqlanmışdıq. Oradan yalnız bir maraqlı sənəd haqqında məlumat gətirmişdik. Arxivin məlumatlarına görə, Bakıxanovlardan Abasqu-

lu ağa Bakıxanovun fondunun Leninqrada, müasir Sankt-Peterburqda yerləşən Hərb Tarixi Arxivinə təhvil verilməsi barədə məlumat verilmişdir. Moskva Hərb Tarixi Arxivində bu nəslin bir neçə nümayəndəsi haqqında da sənədlər əldə etmişik. Bu sənədlərin gələcəkdə tədqiqi Azərbaycan tarixşünaslığına mühüm töhfə olacaqdır.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Саламзаде А.В. Памятники азербайджанского зодчества. Баку, Азернешр, 1958
2. Усейнов М.А., Бретаницкий., Саламзаде Л.С. История архитектуры Азербайджана. М., Госстройиздат, 1963
3. Фатуллаев Ш.С. Градостроительство Баку XIX-начало XX веков. Ленинград, Стройиздат, 1978.

**Gülnar Əliyeva**
*"İçərişəhər" Tarixi muzeyinin direktor müavini,*
*əməkdar mədəniyyət işçisi*

# Росписи стен в Ичери шехер

Наскальные изображения, разбросанные по скалам, дают представление о культуре большого периода времени, где запечатлено множество рисунков связанных с образом жизни первобытного человека. В процессе своей жизни человек воссоздавал все то, что его окружало животный, растительный мир, предметы его скудного быта, ритуальные сцены, охота, изображение танцев, что занимало особое место. Во всем этом проявляются первые художественные способности человека, которые многое донесли до нас из глубины веков. Рисунки похожие на наскальные изображения можно видеть и на керамических изделиях, найденных в Ханларе и Мингечауре. Шли годы, проходили столетия, наступил период расцвета архитектуры, литературы, искусства "золотой век" нашей культуры. В период средневековья приобретает популярность миниатюрная живопись, на арену выдвигаются такие мастера миниатюрной живописи как Султан Мухаммед и Ага Мирек, творчество которых высоко ценили правители. В миниатюрах отражалась дворцовая жизнь, обряды, традиции, которые служили отличным этнографическим материалом. К талантливым художникам, поэтам, каллиграфам в Азебайджане всегда было особое уважение их назначали почетными художниками, приглашали на меджлисы.

В XVIII-XIX вв искусство миниатюрной живописи несколько утрачивает свою былую популярность, чтобы дать дорогу другому направлению художественной культу-

ры нашего народа. Постепенно получает развитие в изобразительном искусстве настенная роспись во дворцах и в интерьерах жилых домов. Примером может служить Дворец Эриванского Сардара, расписанный художником Мирза Кадымом Эривани, которого по праву считают основоположником азербайджанской станковой живописи. Путешественники миссионеры, побывавшие в наших городах, отмечали постройки XVIII в. и описывали настенные росписи, которые наносились не только на стены, но и на двери, различные предметы быта, ниши и бухары. Подобными росписями богат Дворец Шекинских ханов, расписанный уста Гамбаром Гарабаги. Большой интерес вызывают многофигурные сюжетные композиции, сцены охоты, батальные сцены. Хочется упомянуть и росписи дома бакинских ханов, отмеченные в книге В.Потто ”Кавказская война”. Здесь сообщается, что войска во главе с генералом И.Булгаковым оставались в ханском дворце, отличавшимся особой роскошью. Как писалось в книге, “особую ценность составляли исторические картины, писанные весьма искусно на стенах масляными красками и раззолоченные. По приказанию Булгакова некоторые из них были отбиты от стен специальными долотами и так искусно,что остались целыми и были вывезены. “Росписями стен в своих роскошных особняках увлекалась и бакинская аристократия,стараясь приукрасить свои дома и парадный вход лирическими сценами и пейзажами. В Ичери шехер на улице Вели Мамедова стоит особняк, который некогда принадлежал купцу 1-ой гильдии, владельцу пароходов Алескеру Усейнову. Это двухэтажный особняк, где начиная с парадного входа размещены красочные росписи, отражающие живописную природу, лирические сцены свидания и декоративные элементы, обрамляющие дверные проемы. Подобные рисунки украшали дома бакинских миллионеров, проживающих в Ичери шехер, Гани

Мамедова, Ага-Зейнала Рамазанова. Большой интерес представляет двухэтажный дом, построенный в 80-х годах XIX века на улице Мирза Мансура, который принадлежал Агамали Ага Шихалиеву, происходившему из старинного рода Биби-эйбатских шейхов. Ранее шейхи жили при гробнице - мазаре чтимой мусульманами шиитами, построеного на могиле Укеймы ханум дочери 7-го шиитского имама на Биби-Эйбате. Агамали Шихалиев был купцом, владельцем магазинов, знатоком и ценителем живописи. Одержимый желанием обогатить интерьер своего дома он пригласил к себе из Парижа художника по имени Пьер Кординье, который расписал стены его комнат. На сегоднешний день сохранилось 16 росписей в одной комнате, которые врисованы в обрамление стен. Главный сюжет росписей море с лодками, живописная природа это - густые леса, поляны далее корзины с цветами и декоративные вазоны. Здесь же можно видеть и портрет самого хозяина дома, который изображен в длинном архалуге с папахой на голове, где вокруг него толпятся амбалы, несущие груз в бакинском порту. Прекрасные росписи украшают стены и потолки домов бакинской аристократии начала XX в, расположенные и на территории Байыр шехер. В завершении хочется отметить, что социально обеспеченные слои населения строили в городе прекрасные особняки широко используя приемы европейской архитектуры, снутри же придавая им желаемое декоративное оформление. Во все периоды истории человек заботился о благоустройстве своего жилья, хотел сделать его более уютным, удобным и привлекательным, украшая его резьбой по камню и дереву, коврами и наконец красочной настенной росписью, которая так же является ценным памятником Азербайджанской культуры.









## Литература


1. В. Потто Кавказская война. С древнейших времен до Ермолова. Том 1 с. 357.
2. С.Ашурбейли. Очерки истории средневекового Баку 1964 г.
3. Чингиз Каджар. Независимые Азербайджанские ханства, Азербайджанские провинции Российской Империи и Каджаров Ирана с 220-223.

**Elxan Məmmədov**
*"İçərişəhər"DTMQİ-nin*
*Mədəni irsin tədqiqi sektorunda*
*baş məsləhətçi*

# Bakı şəhərinin memarlıq tarixində polşa memarlarının rolu

Azərbaycan ilə Polşa arasında diplomatik əlaqələr 540 il-lik bir tarixə malikdir. Azərbaycan və Polşa mədəniyyətlərarası münasibətlərin tarixi XIX əsrin I yarısına aiddir. XIX əsrin I yarısında Azərbaycan mədəniyyətinin əsas təbliğ mərkəzləri Peterburq və Tbilisi idi. Bu dövrdə mədəni oyanışın öncülləri M.Q.Topçubaşov, M.F.Axundov, A.A.Bakıxanov idi. 1819-cu ildə azərbaycanlı və polyak alim və yazıçılar mədəni əlaqələri inkişaf etdirməyə başladılar. Zəngin bir tarixə malik bu əlaqələrin özünəməxsus kökləri vardır. XIX əsrdə və XX əsrin əvvəllərində polyak memarlarının layihələri ilə Bakı şəhərində inşa olunan binalar bu gün də paytaxt Bakının memarlığına xüsusi yaraşıq verir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra, Azərbayca-nın müstəqilliyini ilk tanıyanlardan biri də Polşa dövləti olmuşdur. XIX əsrin sonlarından başlayaraq polyak memarları nəinki Bakıda, həmçinin Gəncədə, Şəkidə, Şamaxıda, Şuşada da gözəl malikanələr, yaraşıqlı yaşayış binaları tikmişlər.

Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev Azər-baycan-Polşa əlaqələri barədə çıxış edərkən demişdir ki, əsrlər boyu Polşa xalqının nümayəndələri Azərbaycanda işləmişlər, yaratmışlar, onlar Azərbaycanın inkişafına çox önəmli töhfələr vermişlər. Polyak memarları Bakıda çox gözəl memarlıq abidələri yaratmışlar. Bu gün də bu abidələr Bakını gözəlləş-dirir. Onların hamısı bərpa və təmir olunur. Gələcəkdə onların

bərpa və təmirində Polşadan gələn mütəxəssislər də iştirak edəcəklər.

Polyak memarları İ.K.Ploşko, E.Y.Skibinski, KB.Smereviç, A.Koşinskinin qədim Bakıda – İçəri şəhərdə onların layihələri ilə həyata vəsiqə alan memarlıq inciləri olan binalar da vardır. Buna misal olaraq İ.K.Ploşkonun layihəsi əsasında Böyük qala küçəsi 28 ünvanında Məşədibəyovların sifarişi ilə inşa olunan yerli əhəmiyyətli tarixi memarlıq abidəsi olan 1914-cü ildə inşa olunan yaşayış binasını göstərə bilərik. Hal-hazırda həmin binada Azərbaycan Sülh fondu yerləşir. İçəri şəhərdə polyak memar K.B.Skureviçin layihəsi əsasında Sabir küçəsi, 7 ünvanında Useynovların sifarişi ilə ikimərtəbəli yerli əhəmiyyətli tarixi memarlıq abidəsində hazırda Azərbaycan Həmkarlar Konfederasiyasının Turizm Şurası və Bakı Səyahətlər və Ekskursiyalar bürosu yerləşir.

Azərbaycanda fəaliyyət göstərən polyak memarlarından biri də Y.İ.Qoslavski (1865-1904) olmuşdur. O, 1865-ci ildə Varşava quberniyasında anadan olmuşdur. Y.İ.Qoslavski 1891-ci ildə Sankt-Peterburq Mülki Mühəndislər İnstitutunu bitirdikdən sonra onu Bakıya pravoslav məbədi olan Aleksandr Nevski kilsəsinin tikintisinə rəhbərlik etməyə göndərirlər. Bu memarlıq tikilisinin layihəsi Y.İ.Qoslavskinin müəllimi akademik P.Marfeldə məxsus idi. Az ömür yaşayan, cəmi 38 il ömür sürən Y.İ.Qoslavskini "Qafqazın Rastrellisi" adlandırırdılar.

Bakı şəhərinin memarlıq tarixini tədqiq edən, alim-memar Ş.Fətullayev polyak memarı Y.İ.Qoslavskini memarlıqda şair, adlandıraraq onun layihəsi ilə H.Z.Tağıyevin sifarişi ilə inşa olunan, indi AMEA-nın Əlyazmalar İnstitutu yerləşən binanı isə "daş üzərində poema" hesab edirdi. Onun təbirincə bu binanın inşa olunması ilə Y.İ.Qoslavski Bakı memarlıq tarixində yeni milli-romantik istiqamətin əsasını qoydu. Y.İ.Qoslavski Bakı şəhərinin baş memarı vəzifəsinə qədər yüksəlmişdir. Bakı Şəhər İcra Hakimiyyətinin, AMEA Əlyazmalar

İnstitutunun, İstiqlaliyyət küçəsi 5, 7 ünvanlarında üçmərtəbəli yaşayış binalarının, Qoqol 28 ünvanlı T.Aşurbəyovlara məxsus yaşayış binasının layihələri polyak memarı Y.İ.Qoslavskiyə məxsusdur.

Bakıda polyak memarı Y.İ.Qoslavskinin xatirəsi bu gün də əziz tutulur. Polyak memarının özü üçün layihələndirdiyi və inşa etdiyi M.İbrahimov küçəsində yerləşən ev bu gün saxlanılır. Bu evdə bu günədək onun nəsli yaşayır. İki bacı və onun nəvələri. Bacılar İrina və Vera Trofimovalar çox qonaqpərvərdirlər. Binada memar Y.İ.Qoslavskinin otağı olduğu kimi saxlanılır.

Azərbaycanda fəaliyyət göstərən polyak memarlarından biri də 1867-ci ildə Polşada anadan olmuş İosif Ploşko idi. Əvvəllər Rusiya İmperiya Rəssamlıq Akademiyasında təhsil alan İ.Ploşko burada təhsilini yarımçıq qoyaraq Peterburq Mülki Mühəndislər İnstitutuna daxil olur. Polyak memarı Y.Qoslavskinin dəvəti ilə Kiyev şəhərindən Bakıya gələrək, burada Bakı şəhər Memarlıq İdarəsinin tikinti şöbəsində yerli sahə memarı kimi işə başlayır. İ.Ploşko milyonçu Ağa Musa Nağıyevə yaxın memar olmaqla, onun sifarişçiləri arasında Murtuza Muxtarov, Nuru Əmiraslanov, polyak zəngin ailələrində Rilskilər ailəsi və digərləri var idi. İ.Ploşko Azərbaycan milli memarlıq üslubunu və ənənələrini layihələndirdiyi bina və tikililərdə tətbiq edir, Bakı şəhərində islam memarlığını dərindən öyrənirdi. M.Muxtarovun sifarişi ilə Vladiqafqazda Terek çayı sahilində "Muxtarov məscidi" adını almış dini sitayiş abidəsi 1908-ci ildə inşa olunub başa çatdırılır. Bunun ardınca azərbaycanlı memar Zivər bəy Əhmədbəyovla birlikdə Şamaxı şəhərində yerləşən müsəlman dünyasının qədim dini tikililərindən olan Cümə məscidi onların layihəsi əsasında bərpa olunur. Venetsiya memarlıq üslubunda Ağa Musa Nağıyevin sifarişi əsasında "İsmailiyyə" binası, Murtuza Muxtarovun sifarişi əsasında tikilən saray binası özünəməxsus memarlığı ilə xüsusilə

fərqlənir. İ.Ploşkonun son işi keçmiş Qorçakov küçəsində (H.Z.Tağıyev küçəsi) 6 mərtəbəli "Yeni Avropa" mehmanxana binası idi. Bina Ağa Musa Nağıyevin sifarişi ilə konstruktivizm, memarlıq üslubunda inşa olunmuşdu. İndi həmin ünvandakı binada əsaslı bərpa işlərindən sonra "LUKOYL" neft şirkətinin ofisi yerləşir.

Yevgeni Skibinski 1858-ci ildə Şamaxıda polyak əsilli kollec müşavirinin ailəsində anadan olmuşdur. Onun ailəsi 1859-cu ildə Şamaxıda baş vermiş dağıdıcı zəlzələdən sonra Bakı şəhərinə köçmüşdür. 1886-cı ildə E.Skibinski Peterburq Rəssamlıq Akademiyasını bitirmişdir. 1900-cu ilə qədər, o 250 binanı layihələndirmişdir. O dövrün digər memarları kimi E.Skibinski də Şərq memarlıq motivlərindən istifadə etməklə Bakı və Abşeronun yerli memarlıq ənənələrini mənimsəmişdir.

Polyak memarı olan Y.Skibinskinin ən parlaq memarlıq işi 1899-cu ildə milyonçu Ağabala Quliyevin sifarişi ilə keçmiş Persidskaya (indi M.Muxtarov) küçəsi ilə Poluxin (indi Zərgərpalan) küçələrinin kəsişməsində yerləşən şəxsi mülk binası olan memarlıq tikilisidir. Bu bənzərsiz memarlıq binası Şirvanşahlar Saray Kompleksi memarlığının təsiri altında tikilmişdir. Öz memarlıq üslubu ilə digər dini memarlıq tikililərindən fərqlənən Təzə Pir məscidi də E.Skibinskinin layihəsi əsasında inşa olunmuşdur. 1892-ci ildə İçəri şəhərdə iki mərtəbəli yaşayış evi, 1895-ci ildə yenə də İçəri şəhərdə inşa olunan yaşayış binalarının layihələri də polyak memarı E.Skibinskiyə məxsusdur.

K.B.Skureviç (1866-1950) 1894-cü ildə Peterburq Mülki Mühəndislər institutunu bitirərək polyak əsilli memar Y.Qoslavskinin dəvəti ilə Bakı şəhərinə gəlir. 1900-cu ildə texnik, 1902-ci ildə mühəndis, 1904-1906-cı illərdə Bakı şəhərində şəhər memarı kimi fəaliyyət göstərən K.B.Skureviç yaşayış binaları və ictimai tikililər layihələndirmişdir. K.Skureviç və onun memar həmkarları yerli memarlıq ənənələri ilə maraqla-

nır, bu zəngin ənənələri öz layihələrində tətbiq edirdilər. Bu ənənələri mənimsəməklə onlar şəhər tikililərində iqlim və milli xüsusiyyətlərə cavab verən üslub birliyi yaratmağa, nail olmağa səy göstərirdilər. Polyak memar o dövrün mətbuat səhifələrində publisistik çıxışlarında Azərbaycan memarlıq ənənələrinin şəhər tikintisində geniş tətbiq olunmasına çağırırdı. 1905-ci ildə "Memar" dərgisində Şirvanşahlar Saray Kompleksinin memarlığı haqqında bəhs olunan məqaləsində yazırdı ki, bütün Rusiya imperiyasında buna bənzər memarlıq ansamblı yoxdur, hətta Baxçasaray sarayı onunla müqayisədə solğun görünür.

K.Skureviç Bakı şəhərində dövlət bankının binasını, Rotşildlərin şirkət binasını, H.Z.Tağıyev passajını, Nobel qardaşlarının Səhmdar Cəmyyətinin İdarə binasını, Poçt binasını (1914), Şamaxı şəhərində uşaq evini layihələndirmişdir. K.Skureviç qədim Bakıda - İçəri şəhərdə 1895-ci ildə mağaza binası, M.Ə.Sabir küçəsində 1896-cı ildə Useynovların yaşayış evinin yenidən qurulması layihələrini müəllifi olmuş, həmin binalar inşa olunmuşdur.

Dünya şəhərləri içərisində Bakı şəhərinin memarlıq tikililəri özünəməxsusluğu ilə fərqlənir. Bu şəhərdə Asiya memarlıq üslubunda tikilən binalarla yanaşı Avropa memarlığı sintez təşkil edir. Bakı şəhərinin memarlıq tarixinin formalaşmasında polyak əsilli memarlar da öz töhfələrini vermişlər.

## Polşa memarlarının layihələri ilə Bakı şəhərində tikilən binalar

### Memar İ.V.Qoslavskinin layihəsi ilə tikilən binalar

1. M.Əzizbəyov küç., 19. Məlikovların yaşayış evi. 1895-ci il.
2. Fizuli küç. 29. M.Əzizbəyov ad. Xəstəxananın kompleks binaları (Z.Əhmədbəyov, N.A.fon der Nonna ilə birlikdə)
3. R.Rza küç. 21. Yaşayış ei. 1899-cu il.

4. İstiqlaliyyət küç. 4. Bakı Şəhər Sovetinin inzibati binası. 1900-1904-cü illər
5. İstiqlaliyyət küç. 8. H.Z.Tağıyevin qadın məktəbi. 1898-1901-ci illər.
6. İstiqlaliyyət küç. 25. Yaşayış evi. 1892-ci il.
7. İstiqlaliyyət küç. 27. Yaşayış evi. 1893-cü il.
8. Azadlıq prosp. 20. Texniki məktəb binası. 1900-cü il.
9. H.Z.Tağıyev küç. 4. H.Z.Tağıyevin sarayı. 1893-1902-ci illər.
10. H.Z.Tağıyev 7. Yaşayış evi. 1898-ci il.
11. Y.Məmmədəliyev 1. Yaşayış evi. 1893-cü il.
12. Nizami küç., 115. Texniki cəmiyyətin binası. 1895-ci il.
13. Qoqol küç., 28. Balabəy Aşurbəyoun evi. 1904-cü il.

**Memar İ.K.Ploşkonun layihəsi ilə tikilən binalar**

14. Qoqol küç. 16. M.Muxtarovun evi 1896-1910-cu illər (Ploşko mülki mühəndis, memar İ.V.Edel).
15. Qoqol küç., 20. Bəylərovun yaşayış evi. 1908-ci il.
16. C.Cabbarlı 12. K.İ.Hacıyevin evi. 1912-1914-cü illər.
17. 28 may küç., 4-6. M.Nağıyevin yaşayış binaları. 1910-cu il.
18. 28 may küç., 10. N.Nağıyevin yaşayış binaları. 1910-cu il.
19. 28 may küç., 15. Yaşayış evi və kirxa. 1896-cı il.
20. R.Rza küç. 23. M.Nağıyevin yaşayış evi. 1910-cu il.
21. İstiqlaliyyət küç., 10. İsmailiyyə (AMEA) 1908-1913-cü illər.
22. H.Z.Tağıyev 13. “Yeni Avropa” mehmanxanası. 1913-cü il.
23. İçərişəhər, Böyük qala 28. Məşədibəyovların yaşayış evi. 1914-cü il.

**Memar E.Y.Skibinskinin layihəsi ilə tikilən binalar**

24. M.Ə.Rəsulzadə., 6. Lalayev pasajı. 1883-1886-cı illər.
25. H.Z.Tağıyev küç., 6. Yaşayış ei. 1896-cı il.

26. Y.Məmmədəliyev 12. Rılskilərin yaşayış evi. 1896-cı il.
27. Zərgərpalan küç. 24. Ağabala Quliyevin yaşayış evi. 1899 cu il. (Memarlar İttifaqı)
28. İçərişəhərdə ikimərtəbəli yaşayış binası. Ünvan məlum deyil. 1894-95-ci il.
29. İçərişəhərdə ikimərtəbəli yaşayış evi. 1891-92-ci illər.

**30. Memar K.B.Skureviçin layihəsi ilə tikilən binalar**

31. İçərişəhər Sabir küç. 7. Useynovların yaşayış binası. 1896-cı il.
32. M.Ə.Rəsulzadə küç.,4. Tağıyevin pasajı (BUM) 1898.
33. Z.Əliyeva prosp. 27. Bank binası. 1899.
34. Z.Əliyeva prosp. 33. Poçt binası. 1899.
35. İstiqlaliyyət küç. Qubernator bağında pavilyon. 1899.
36. M.Ə.Rəsulzadə küç., H.Z.Tağıyevin pasajı. (BUM). 1898-ci il.

**Memar A.Koşinskinin layihəsi ilə tikilən binalar**

1. İçərişəhərdə ikimətrəbəli bina. 1885-86-cı illər.
2. İstiqlaliyyət küç. Ağacdan pavilyonlar. 1885.
3. Qara şəhər. Nobel qardaşlarının Yoldaşlıq Mərkəzi kontoru. 1885-1886.
4. İkimərtəbəli yaşayış evi. İçərişəhərdə. 1886-1887.

**Memar P.P.Zelesskinin layihəsi ilə tikilən binalar**

1. Şəhər orta texniki məktəbinin binası. Bakı şəhəri. 1878-ci il.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Şamil Fətullayev. Bakı memarları. XIX əsrin sonu – XX əsrin əvvəlləri. Bakı, 2013.
2. Bakının Memarlıq Ensiklopediyası. Bakı, Şərq-Qərb, 2013.
3. Bakı qəzeti, 1969, №124.
4. Azərbaycan qəzeti, 2013-cü il.
5. 525-ci qəzet. 2014-cü il, 5 dekabr.

**Aydan Tahirova**
*Azərbaycan Memarlıq və*
*İnşaat Universitetinin doktorantı*

# Дворцовый комплекс бакинских ханов

Формирование дворца Бакинских ханов и последовательное развитие его как комплекса берет свое начало не только с образованием Бакинского ханства как феодальной монархии в северо-восточной области Азербайджана. Этот архитектурный памятник возникает еще до начала появления ряда независимых и полузависимых ханств, султанств и меликств в истории Азербайджана второй половины XVIII века.

Период этих азербайджанских феодальных государств приходит сразу же после завершения господства великой империи выдающегося полководца из туркменского племени афшаров, основателя династии Афшаридов – Надир-Гули хана. Надир шах Афшар приобрел огромные земли от Азербайджана до Индии; стремился завоевать все побережье Каспийского моря, покорить другие территории по ту сторону от него и сформировать огромное и могущественное государство. Однако этого не случилось. Вследствие осуществления дворцового заговора, в ночь с 19 на 20 июня 1747-го года свершилось убийство Надир шаха Афшара. Самое важное то, что его великая империя распалась, огромная территория Азербайджана административно разделилась на несколько небольших наследственных феодальных монархий, именуемых ханствами, практически постоянно враждующих друг с другом в стремлении захватить прилегающие земли, подвергнуть в зависимость и взять автономную единую власть правления. Следует указать, что до этого этапа второй половины

XVIII века, а именно при правлении Надир шаха, на территории Азербайджана уже существовали Губинское и Шекинское ханства.

Вторая половина XVIII века также является важным этапом в истории Азербайджана. Как выше сказывалось, этот период Азербайджан обретает свою былую независимость, хотя выступает на исторической арене не как единое государство, будучи политически раздробленным на ряд независимых и полузависимых ханств. История почти всех ханств Азербайджана насыщена беспрерывными войнами и кровавыми дворцовыми переворотами. Наиболее могущественными ханствами были Урмийское, Шекинское, Гарабахское, Губинское и Хойское. В частности, Губинское ханство стало играть большую роль во всем Закавказье в период правления знаменитого Фатали хана губинского (1758-1789 гг.), проводившего политику объединения азербайджанских земель. За короткий срок он присоединил к своим землям Сальянское султанство (1757 г.), Дербендское (1759 г.), Бакинское (1767 г.) и Шамахинское (1768 г.) ханства; также подверг в зависимость Талышское и Шекинское ханства. Вследствие, в конце 80-ых годов XVIII века Губинское ханство под предводительством Фатали хана превратилось в одно из самых могущественных ханств Азербайджана. [1, с. 133]

Бакинское ханство являлось одним из значительных и было основано в 1747-ом году. В состав ханства, охватывающего Абшеронский полуостров, входили 39 селений. Граничило оно с Шамахинским и Губинским ханствами. Основателем ханства и династии бакинских ханов считается Даргах-Гули бек, прежде являвшийся правителем города Баку в звании султана. Династия же бакинских ханов, просуществовавшая в период с 1747 по 1806 гг., состояла из следующих правящих ханов:

Мирза-Мухаммад хан I, сын Даргах-Гули хана (1747-1768)

Мелик-Мухаммад хан, сын Мирза-Мухаммад хана I (1768-1784)

Мирза-Мухаммед хан II, сын Мелик-Мухаммад хана (1784-1791)

Мухаммед-Гули хан, сын Мирза-Мухаммад хана I (1791-1792)

Хусейн-Гули хан, сын Хаджи-Али-Гули хана (1792-1806)

Основой хозяйства ханства было земледелие, добыча соли, нефти, транзитная торговля; вероисповеданием являлся ислам. В период правления первого хана Мирзы-Мухаммеда экономика была несколько развита. Здесь уделялось особое внимание развитию судоходства на Каспийском море. В период правления его сына Мелик-Мухаммед хана ханство почти потеряло свою независимость. После смерти Фатали хана губинского, во времена правления Мирзы-Мухаммед хана II, Бакинское ханство стало самостоятельным. В конце XVIII в., опасаясь иранского нашествия, последний правитель ханства Гусейн-Гули-хан просил о принятии его в подданство России. В 1803 году эта просьба была удовлетворена; само ханство было присоединено к России в 1806 году. После вхождения ханства в состав Российской империи, бакинские ханы стали именоваться как Бакихановы. Азербайджанский историк, ученый, писатель и полковник Аббасгули ага Бакиханов (1794-1847 гг.) потомок этой династии, также являюшийся сыном Мирзы-Мухаммед хана II. [6]

Столицей Бакинского ханства являлся город Баку. Население ханства в 1820-ом году не превышало 20 тысяч человек; население же самого Баку в конце XVIII века

составляло примерно 5-6 тысяч человек. Вторым по населению и значимости населенным пунктом был Маштага – 3 тысячи человек, который впоследствие стал второй столицей Бакинского ханства. [3, с. 151,152]

Многогранная история, разнообразный климат, природные богатства, наличие приморских территорий, уникальное зодчество, культурное наследие и мн.др. Азербайджана в разные периоды времени привлекали большой интерес различных историков и путешественников, ученых и специалистов разного рода. Занимательна была вся территория страны, в особенности прикаспийский портовой центр Баку. Каждый из них по-своему представлял и выполнял замечательные зарисовки и чертежи различных этапов всестороннего развития города Баку, являющиеся теперь незаменимыми, значимыми и подлинными сведениями на фронте исторических, в частности архитектурно-градостроительных исследований.

Первым человеком, изобразившим Баку в 1683-ем году, был шведский путешественник Енгелберт Кемпфер. В 1770-ом году побывал в Баку и запечатлел его представитель Российской Академии Наук академик Самуил Готлиб Гмелин. Если рассмотреть объект исследования в хронолическом порядке, то были выявлены эскизы и рисунки определенных моментов истории города Баку следующих авторов: Г.С.Сергеев (1796 г.), Гиппиус (1865 г., 19 в.), Г.Гагарин (1840-1847 гг., 1853 г.), Гримм (1851 г.), А.П.Боголюбов (1861 г.), П.Верещагин (1872 г.), Ф.А.Модоров (1929-1933 гг.), В.К.Богаевский (1930-1932 гг.), А.В.Куприн (1931 г.), И.П.Щеблыкин (1932, 1937 гг.), С.В.Герасимов, Б.Н.Яковлев и др.

После формирования азербайджанских ханств в начале XVIII века, дворцовые сооружения в большей

степени строились для шекинских, гарабахских, гянджинских, губинских и бакинских ханов. [4, с. 78]

Бакинские ханы построили свой дворец на территории многовековой старой крепости города Баку – Ичери-Шехер. Ханы-правители проживали во дворцовом комплексе, находящемся на площади слева от ШамАхинских ворот у крепостных стен.

Построен он был в восточноевропейском стиле с роскошной росписью стен и потолков растительными орнаментами и батальными сценами. [3, с. 153]

До некоторых пор настоящего времени наименование дворцового комплекса Бакинских ханов принадлежало другому наиболее известному памятнику, находящемуся также на территории старой крепости, но принадлежащему совершенно иному периоду возведения, поражающего своей архитектурной роскошью художественно-эстетических приемов – ансамблю дворца Ширваншахов. С этой точки зрения до сих пор многие ошибочно принимали дворец Ширваншахов за подлинный Ханский дворец. Приходится не удивляться, вспоминая различные зарисовки города Баку и его окрестностей зарубежных авторов, в особенности русских представителей, изображавших дворцовый комплекс Ширваншахов и именовавших его Ханским дворцом в Баку. Можно сказать, что так происходило по причине того, что еще приблизительно до 1850-ых годов, дворец Бакинских ханов стоял на своем месте в большей степени подлинной сохранности. Но, к сожалению, как это случилось и с дворцовым комплексом Ширваншахов еще с XVI века, в ряде функциональных деформаций памятника, и в итоге, после его сноса, название ханского дворца перенеслось к дворцу Ширваншахов. В последние пятидесятилетия, благодаря проведенным большими специалистами детальным изучениям и исследо-

ваниям касательно данного памятника, дворец Бакинских ханов приобрел истинные наименование, назначение и статус.

Полученные сведения о дворце Бакинских ханов наиболее полно отражены в сохранившихся обмерах начала XIX в. *(ЦГВИА, ф. 349, оп. 3, д. 3339, л. VI.)* – чертежам, датированным 30 октября 1809 г. Чертежи представляют подробные планы, фасады и разрезы большого жилого комплекса, названного "Ханский дворец и дома бежавших беков." [4, с. 81]

Планы показывают нам обширный жилой комплекс, сгруппированный вокруг 5 дворов. Первый большой двор, очевидно, и являлся двором собственного ханского дворца – посредине его находился небольшой сад с бассейном. В пояснениях к планам этот сад отмечен как «бывшего хана сад». Два других двора названы «дом Абдурагим-бека» и «дом Мегди Кули-бека». Два остальных двора не обозначены. Жилые корпуса, сосредоточенные вокруг дворов, представляли, судя по разрезам и фасадам *(ЦГВИА, ф. 349, оп. 3, д. 3340, л. VII.)*, двухэтажные сооружения. По своей планировке жилые корпуса были двух типов. Одни из них запутаны по своей планировке и вызывают ассоциацию с планировкой дворца ширваншахов. Вторая же группа корпусов представляет сооружения с однорядными помещениями. Как видно из планов и некоторых фасадов, жилые помещения имели довольно большие окна, обращенные во дворы. Характерные деревянные стойки во втором этаже дома Мехти Кули-бека дают основание утверждать, что показанные на фасадах большие оконные проемы заполнялись деревянными шебеке. Во всяком случае, заполнение в виде шебеке имели строенные окна балахана ханского дома. Фасады основных корпусов могут быть кратко охарактеризованы

следующим образом. Дворовый фасад собственно ханского дворца имел асимметричное решение, подчеркнутое соответствующим расположением входа на территорию двора, решенным в виде большого арочного проезда. Над ним помещалась, балахана. По первому этажу глухие ниши, над которыми располагались прямоугольные окна. Фасад дома Мехти Кули-бека характеризуется расположением по нему трех ярусов проемов, хотя дом, как видно по разрезу, был двухэтажным. Архитектурно наиболее разработанным был фасад дома Абдурагим-бека. Здесь характерно двухярусное арочное членение фасада. Этот прием весьма специфичный для культового и общественного строительства XVII в. Не исключено, что этот дом является наиболее старой частью комплекса. [4, с. 82-83]

В отличие от многих дворцов и резиденций периода Ханств, дом Бакихановых не выделяется особой архитектурной роскошью. Он не подобен на приемные покои во дворце Шекинских ханов в Шеки, или лишен художественно-эстетических плюсов построек дворцового комплекса Ширваншахов в Баку. Это просто широкая, объемная, отлично обустроенное имение, строения которого группируются кругом нескольких внутренних дворов. Архитектура их ничем не различается от привычных для Абшерона разного предназначения больших сооружений. Впрочем, современники замечали "чисто восточную роскошь" убранства ключевых залов этого просторного ансамбля. По их словам – "Особую драгоценность составляли исторические картины, писанные весьма искусно на стенах масляными красками и потом раззолоченные". [2, с. 260]

Согласно материалам, полученным нами из архива управления Научно-Исследовательского Проектного Института "AzərBərpa", выявлены некоторые положения

касательно рассматриваемого комплекса. Прежде, следует сказать, что эти архивные работы велись и чертежи, документы составлялись в 70-80-ые годы советского периода Азербайджана. Тем не менее, в настоящее время эти сведения являются материалами первостепенной и необходимой важности относительно истории памятника, хотя действительные данные об архитектуре дворца ныне могут быть видоизмененными и обновленными.

В первом источнике дается следующее: памятник именуемый "Строение комплекса Бакинских ханов" располагается на территории историко-архитектурного заповедника "Ичери-Шехер", на улице Большая Крепостная 48; датируется 1700-ым годом возведения; используется как жилой дом; комплекс был построен по заказу представителей местной знати – Абдурагим беком и Мехти-Гули беком Бакихановыми; нет утрат, изменивших первоначальный облик памятника; с 1985 года ведутся реставрационные работы управлениями "Бярпачи" Бакгорисполкома; указано описание – "Жилой 2-этажный комплекс дома Бакихановых был первоначально построен вдоль улицы Б.Крепостная. Затем в течении более века, то есть к концу XIX века увеличилось количество построек в сторону двора и появились отдельно стоящие строения. Планировка строений отличается друг от друга. В настоящее время сохранились здания, выходящие фасадом на улицу и два отдельно стоящих дома. По всей вероятности окна на улицу были пробиты позднее. Очевидно, были только ворота для въезда во двор и окна над ними, поскольку помещения над въездом были не жилыми, а носили наблюдательно-сторожевой характер. Проем ворот имеет перемычку в виде стрельчатой арки. Стены выложены из камня "гюша", а затем оштукатурены. Перемычки окон – архитравные. Основные габариты рассматриваемой части

дома 29х7 м." – далее сказано – "Возраст сооружения, его архитектура, отражающая определенную эпоху в формировании Ичери-Шехер, ставит его в ряд памятников архитектуры и тем самым делает его общественно значимым." Во втором источнике же дается следующее: памятник именуемый "Дом Бакинских ханов" находится также на территории историко-архитектурного заповедника "Ичери-Шехер", на улице Большая Крепостная 44; датируется 1754-ым годом строительства; находится на балансе Отдела культуры Бакгорисполкома; жильцы дома путем всевозможных реконструкций и пристроек изказили первоначальный облик здания; реставрация памятника не проводилась; указано описание – "Сохранившийся жилой корпус бакинских ханов в плане представляет "П"-образное сооружение с хаотическим размещенными помещениями. Фасад дома Бакихановых решен симметрично, подчеркнутый в центре арочным проездом. Над проездом располагается балахана. Стены дома выложены из местного известняка. Фасад здания оштукатурен. В настоящее время дом заселен. Основные габариты памятника: в плане – 49.6 х 28.0; высота 7 м." – далее сказано – "Дошедший до нас Дом Бакихановых является характерным образцом бакинского жилища XVIII века." [5]

При всем своеобразии планировки и решения архитектуры фасадов дворец бакинских ханов имеет много общего с абшеронским народным жилищем и некоторые аналогичные черты с жилищем Ордубада. Сооружения комплекса были возведены из камня. Перекрытия на чертежах плоские, деревянные. Высокое купольное перекрытие отмечено только над одним небольшим помещением, выполняющим роль прихожей. Отсутствие вокруг территории дворца специальных оборонительных стен – цитадели, компенсировалось тщательным выбором места

его расположения. С одной стороны, комплекс был близок к шемахинским воротам. а с другой – стены ханского дома непосредственно выходили к морскому берегу. Таким образом, хану были обеспечены два пути спасения при возникновении опасности. Наиболее вероятным временем строительства этого комплекса следует признать XVIII в., когда бакинские ханы приобрели относительную самостоятельность. Не исключение, однако, что часть комплекса, а именно дом Абдурагим-бека, была возведена еще в XVII веке. Во всяком случае, в составленном в 1738 г. плане бакинской крепости (*ЦГВИА, ф. 349, оп. 3, д. 3324.)* на этом месте отмечено сооружение, обозначенное как дворец. [4, с. 83-84]

Впоследствие захвата ханства Российской империей в 1806-ом году во дворце размещался русский боевой гарнизон. До недавней поры в этом месте имелась военнослужащая комендатура. В свое время на данной площади лежал расцветающий сад с водоемом. До теперешнего времени от величавого дворца дошел входной портал и отреставрированная малая мечеть. Находящаяся у самых крепостных стен баня на этой территории ныне покоится под землей. В позднее средневековье за крепостными стенами в Баку были ханские дворец и сад.

Комплекс дворца бакинских ханов стоял, хотя бы частично, еще в начале 50-х годов XIX в. Об этом свидетельствует следующее сообщение: «В крепости стоит дом последнего независимого хана Баку, Гусейн Кули-хана. Это четырехугольник с большими воротами посредине – ныне жилище коменданта, устроенное в европейском вкусе». *(А.ФонГакстгаузен. Кавказский край, ч. II. СПб., 1857, стр. 154)* [4, с. 84]

В 1985-1986 гг. на территории комплекса провели археологические раскопки. Помимо большого количества

образцов материальной культуры были выявлены водопровод и подземные архитектурные сооружения. Ныне заканчиваются археологические работы на территории бани дворцового комплекса.

В соответствии разделения на значимость и назначение памятников, располагающихся на территории крепостного малого города Ичери-Шехер, площадью примерно 22 га, историко-архитектурный памятник комплекс дворца Бакинских ханов был внесен в список – "Памятники национального значения".

Следует сказать, что и по сей день в вышеуказанной организации – "AzərBərpa" ETLİ – ведутся научно-исследовательские работы, разрабатываются детальные эскизные и реставрационные проекты, составляются все необходимые археологические и официальные документы, направленные на осуществление всесторонних восстановительных процессов в комплексе дворца Бакинских ханов. Итак, необходимо провести реставрационные работы в архитектурном дворцовом комплексе Бакинских ханов.




*Образование*
*Азербайджанских*
*Ханств*
*(2-ая половина XVIII в.).*
*(сиреневая линия -*
*Бакинское ханство)*
*[8, с. 33]*




*Дворцовый комплекс*
*Бакинских ханов.*
*Расположение в*
*Ичери-Шехер, г. Баку.*
*(желтая линия - границы*
*дворцового комплекса)*



*Городок Баку, 1770 г. (рис. И.Борисова;*
*из "Путешествия Самуила Готлиба Гмелина", ч.3.1.) [9]*



*Дворец Бакинских ханов. Фасад. [3, с. 152-153]*



*Комплекс ханского дворца и домов двух беков, XVIII в. План по обмерам начала XIX в. (ЦГВИА, ф. 349, оп. 3, д. 3339, л. VI.;  30 окт 1809 г.) [11]*




*Комплекс ханского дворца и домов двух беков. Фасады и разрезы по обмерам начала XIX в. (ЦГВИА, ф. 349, оп. 3, д. 3340, л. VII.;  30 окт 1809 г.) [11]*




*Дворцовый комплекс Бакинских ханов. Ситуационный план. [5, источн.1]*



*Дворцовый комплекс Бакинских ханов. Фрагмент фасада здания. [5, источн.1]*




*Дворцовый комплекс Бакинских ханов. Генеральный план. [5, источн.2]*



*Дворцовый комплекс Бакинских ханов. Фрагмент фасада здания с порталом. [5, источн.2]*



*Дворцовый комплекс  Бакинских ханов.*
*Здание комплекса  с сохранившимся*
*порталом  в 2013 году.  [10]*



*Дворец Бакинских ханов. Общий вид (аксонометрия).*
*(рис. реставрации, выполнил Дж.Гедирли)  [5]*

# Литература


1. «Историческая география Азербайджана» - Баку: Издательство «Элм», 1987. – 148 стр.
2. Бретаницкий Л.С., Веймарн Б.В. «Искусство Азербайджана IV – XVIII веков (Очерки истории и теории изобразительных искусств)» - М.: «Искусство», 1976. – 272 стр.: с илл.
3. Каджар Ч. «Старый Баку» - Баку: ОКА, «Офсет», 2007. – 204 стр.: с илл.
4. Саламзаде А.В. «Архитектура Азербайджана XVI - XIX вв.» - Баку: Издательство АН Азерб. ССР, 1964. – 256 стр.: с илл.
5. Архив управления Научно-Исследовательского Проектного Института "AzərBərpa" при Министерстве Культуры и Туризма Азербайджанской Республики. - Баку.
6. «Бакинское ханство» – https://ru.wikipedia.org/wiki/Бакинское_ханство
7. «Памятники Национального значения. Государственный Историко-Архитектурный Заповедник "Ичери-Шехер"» - Баку. – http://www.icherisheher.gov.az/static,20/lang,ru/#monument35
8. «Azərbaycan tarixi Atlası» - Вакı: «Вакı Kartoqrafiya Mərkəzi», 2007. – 56 səh.: ill.

– https://www.ourbaku.com/images/1/11/1770_Baku-Gmelin-Baur.jpg

9. «Дом Бакинских ханов» – https://upload.wikimedia.org/wikipedia /commons/0/05/Baku_Khan%27s_Palace.jpg
10. Архивные материлы ЦГВИА (РГВИА). - М.: 1809.

**Səadət Ələkbərova**
*“Şirvanşahlar Sarayı Kompleкsi” Dövlət Tarix-Memarlıq Qoruq- muzeyinin Elmi-tədqiqatlar və eкspozisiya şöbəsinin müdiri*

# Rusiya, Avropa və Amerika kitabxanalarında İçəri şəhər və Şirvanşahlar Sarayının tarixinin öyrənilməsində əhəmiyyətli olan bəzi mənbələr haqqında

Dünyada elə xalqlar, elə mədəniyyətlər vardır ki, bütün bəşər varılğı ilə onlara borcludur. Biz azərbaycanlılar da belə xalqlardan sayılırıq. Minilliklərin, yüzilliklərin arxasından boylanan keçmişimizdən, sələflərimiz olan qəhrəman ata-babalarımızdan, analarımızdan bizə miras qalmış zəngin maddi-mədəniyyət nümunələrinin qorunaraq, gələcək nəsillərə - xələflərimizə çatdırmaq istəyi xalqımız üçün hər zaman aktual olmuşdur. Ən qədim zamanlardan xalqın dilində əzbərə çevrilmiş dastanlar, əfsanələr, nağıllar, musiqilər, adət və ənənələr dildən-dilə keçərək, hər sətrində tarix yaşadan daş kitabələr qorunaraq, əlyazmalar üzü köçürülərək, hər ilməsində bir not, bir hekayə, bir ismarıc gizlənən xalılarımız, zəngin məişətimizin, mətbəximizin sübutu olan maddi-mədəniyyət, bədii və tətbiqi-sənət nümunələrimiz oxşanaraq, əzizlənərək bizlər üçün mühafizə edilmişdir.

VI əsrdən XVI əsrə qədər mövcud olmuş Şirvanşahlar dövləti Azərbaycanın dövlətçilik tarixində çox böyük rol oynamışdır. Tarixən zəngin təbiətli ərazidə, əlverişli coğrafi mövqedə yerləşmiş Şirvan dövlətinin ərazisi sonralar baş vermiş siyasi hadisələrlə əlaqədar gah genişlənmiş, gah da kiçilmişdi. XI əsrdən başlayaraq Şirvanşahların həyatında, siyasi sahədə bir canlanma baş vermiş, XII yüzildə isə dövlət artıq özünün çiçəklənmə dövrünə qədəm qoymuşdu. Şirvanşahlar dövləti

bəzi tarixi zamanlarda qonşu dövlətlərdən formal asılı olmasına baxmayaraq, Azərbaycan ərazisində mövcud olmuş ən güclü dövlət qurumuna malik olmuşdu. Bu dövlətin başçılarının ağıllı və düzgün siyasəti, yalnız Şirvanın deyil, bütün Azərbaycanın mədəni, ictimai-iqtisadi, siyasi cəhətdən inkişafında əvəzsiz rol oynamışdır.

Çox təəssüflər olsun ki, uzun müddət bu dövlətin paytaxtı olmuş qədim Bakı qalası - İçəri şəhər və qədim tariximizi, ənənələrimizi, mədəniyyətimizi özündə yaşadan Şirvanşahlar Sarayı əldən-ələ keçmiş, zəngin varidatı talan edilərək müxtəlif yollarla başqa ölkələrə daşınmış, daşınmaz varidatı ilə yanaşı saray kitabxanası və dəftərxanası da vəhşicəsinə məhv edilmişdir. Bu səbəbdən Azərbaycanın, xüsusilə Şirvanşahlar dövlətinin tarixini əks etdrən orta əsr salnaməçilərinə aid orjinal əsərlərin sayı olduqca məhduddur və biz onlar haqqında yalnız, türk və farsdilli mənbələrdən, eləcə də Rusiya və Avropa kitabxanalarında mühafizə edilən əcnəbi müəlliflərinin tədqiqat işlərindən məlumat ala bilirik. Bunun səbəbi də Azərbaycanın dövlərçilik tarixinin sübutu və nişanəsi olan zəngin maddi və qeyri-maddi mədəniyyət nümunələrinin öyrənilməsinin əcnəbilər üçün də bütün zamanlarda aktual olması, böyük əhəmiyyət daşımasıdır.

Şirvanşahlar Sarayının orta əsrlərdə hansı şəkildə olduğunu, hansı sahəyə malik olmasını, interyerinin necə olmasını təsvir edən mənbə, çox təəssüflər olsun ki, bu günümüzədək məlum deyildir. Ən qədim dövrlərdən XX əsrin əvvəllərinədək istər karvan yolları, istərsə də dəniz yolu ilə Bakıda olmuş tacir, səyyah və tədqiqatçılar İçəri şəhərə, onun möhtəşəm qala divarlarına, binalarına, xüsusən də Şirvanşahlar Sarayına biganə qala bilmir, bu barədə gündəliklərində qeydlər edir, təsvirlərini verirdilər. Son araşdırmalar göstərir ki, bu gün Amerika, Rusiya, Türkiyə, Hindistan, Ərəb ölkələri, İran və digər Şərq ölkələri ilə yanaşı, Avropanın Paris və Drezden Milli Kitabxanalarında və daha neçə digər kitabxana və arxivlərdə

Azərbaycanın, eləcə də Şirvanın və Şirvanşahlar dövlətinin, Bakı qala tipli şəhərin tarixi haqqında məlumatın verildiyi yüzlərlə orta əsr əlyazmaları, kitablar, jurnallar saxlanılmaqdadır.

Şirvanın regiondakı siyasi hadisələrin fonunda həlledici mövqeyini, mühüm rol oynaması faktını dövrümüzədək gəlib çatmış ərəb və farsdilli salnamələr və Avropa müəlliflərinə aid mənbələr də təsdiq edir. Bu mənbələrin bəzisi Qafqaz ərazisinin coğrafi, tarixi, arxeoloji, etnoqrafik elmi tədqiqinin nəticələrinin hesabatı şəklində tərtib edilmişdir. Rus mənbələrinin tədqiqi zamanı Azərbaycan xalqına aid maddi-mədəniyyət nümunələrinin, daşına bilən hər növ tarixi material və əşyanın o zaman üçün Rusiyanın Qafqazdakı canişinliyinin mərkəzi sayılan Tiflis şəhərinə aparıldığı məlum olur. XVIII əsrin əvvəllərindən başlayaraq, çar I Pyotrun göstərişi ilə bütün Qafqazın elmi cəhətdən öyrənilməsi üçün xüsusi ekspedisiyalar təşkil edilmişdi. Bellə ekspedisiyalar XIX əsrin əvvəllərində Şimali Azərbaycanın ruslar tərəfindən tamamilə işğal edilməsindən sonra da davam etdirilir. Heç də təsadüfi deyil ki, Rus İm-periyası Elmlər Akademiyasının Coğrafiya Cəmiyyətinin, Arxeoloji Cəmiyyətinin və s. elmi tədqiqat mərkəzlərinin ilk iki şöbəsindən biri məhz Tiflis şəhərində açılmışdı. Onların bəziləri haqqında, kitabxanaların rəsmi internet səhifələrindən əldə etdiyimiz mənbələr haqqında məlumat vermək istərdim:

Rus imperatoru I Nikolayın fərmanı ilə tərtib edilmiş, 1834-cü ildən 1908-ci ilədək mütəmadi olaraq, 381 cilddən ibarət “Журнал Министерства Просвещения” elmi külliyyatı nəşr edilmişdir. Jurnalda imperatorun xüsusi göstərişi ilə Rusiyanın, eləcə də hakimiyyət altında olan Qafqaz və Orta Asiyanın, orada yaşayan xalqların öyrənilməsi məqsədilə əyalətlərə göndərilmiş ekspedisiyaların nəticələri haqqında məqalələr, Avropa və Amerikada, digər Şərq ölkələrində nəşr edilmiş, elmin müxtəlif sahələrinə aid yenilikləri əks etdirən ədəbiyyatlar və s. öz əksini tapmışdır. Həmin jurnalın 1848-ci ilə aid VII nömrəsindəki V.Lebedev adlı müəllifin “Xəzər dəni-

zinin qərb sahili Böyük Pyotrun dövründə" adlı məqaləsi 1719-cu ildə I Pyotrun göstərişi ilə Xəzər dənizinin qərb sahillərinin öyrənilməsi üçün göndərilmiş elmi ekspedisiyanın nəticələrindən bəhs edir. Ekspedisiyaçılar Xəzər sahilboyundakı yaşayış yerlərində 13 qala-istehkam tikilisinin olduğunu, Bakı şəhərinin müxtəlif hündürlükdə olan üçqat qala divarları ilə əhatə edildiyini, daşdan tikilmiş və çox marağa səbəb olan, şah tərəfindən tikilmiş möhtəşəm evin – yəni Sarayın olduğunu vurğulayırdılar.[1]

Nadir kitablardan və XIX əsr tariximizin öyrənilməsi üçün dəyərli mənbələrdən biri də "Кавказский календарь" toplusudur. 1845-1917-ci illərdə nəşr edilmiş, "Кавказский календарь" toplusunun orijinal nömrələri Rusiya Milli Kitabxanasında saxlanılır. 1851-ci il sayında rus coğrafiyaşünas alimi K. Spasski-Avtonomovun "Баку" məqaləsi verilmişdir. Alim məqalədə Bakının XVIII əsrin II rübündə olan vəziyyətini təfsilatlı şəkildə təsvir edir, şəhərin regiondakı coğrafi yeri, mədəni və iqtisadi həyatı, iqlimi, tarixi yerlərindən bəhs edir. Bakının IX-XIX əsrlərdəki tarixinin xülasə şəklində verildiyi məqalədə müəllif Şirvanşah I Xəlilullahın hakimiyyəti dövrünü şəhərin ən parlaq inkişafı dövrü kimi qiymətləndirir, - "indi onun tikdirdiyi binaların xarabalıqları belə, hər kəsi öz gözəlliyi ilə təəccübləndirir", - deyə vurğulayırdı. S.Avtonomov Bakı şəhərinin hündür təpədə, 920 sajen (≈1,68 km) uzunluqda, çoxbucaqlı formalı, ikiqat qala divarları ilə əhatələnmiş olduğunu, ən uca hissəsində şah sarayının dağıntılarının qaldığını qeyd edir. [2]

Rus rəssamı, eyni zamanda sənətşünas və diplomat olan Q.İ.Qaqarinin 1847-ci ildə Parisdə fransız dilində nəşr edilmiş

---

[1] В.Лебедев. Западный берег Каспийского моря при Петре Великом. с. 6-10

[2] Кавказский календарь. 1851. К.Спасский-Автономов. Баку.. 1852. s. 302

“Le Caucase pittoresque” (Gözəl mənzərəli Qafqaz) əsəri Rusiya Dövlət Tarixi Kütləvi Kitabxanasındadır. Bu günədək bizə rəssamın Bakı şəhərini və Şirvanşahlar Sarayını təsvir etmiş olduğu, yalnız bir neçə rəsm əsəri məlum idi. Bu kitab-albomda isə diqqətimizi çəkən rəssamın Bakı və Şamaxı şəhərinə dair daha bir neçə əsəri və ən əsası, ilk dəfə olaraq, bu yerlərə səyahətini əks etdirən gündəliyi oldu. Kitabda Şirvanşahlar Sarayına daxil olan abidələrin, Şamaxı şəhərindəki qədim hamamın illüstrasiyaları və onlara aid yazılı məlumatlar vardır. Məlumdur ki, XIX əsrin əvvəllərindən Bakı şəhəri rus qoşunlarının yerləşdirildiyi əsas məntəqələrdən birinə çevrilmişdi. Şirvanşahların ailəvi türbəsini və Şah məscidini əks etdirən illüstrasiyada artıq şərəfəsi olmayan minarə (rus mərmilərinin dağıtmış olduğu vəziyyətdə), türbənin qarşısında isə sıra ilə düzülmüş iri top lülələri görünür.



**Şirvanşahlar Sarayı XIX əsrin sonları**

Bu illüstrasiya və digər mənbələrin vermiş olduğu məlumatlar, Şirvanşahların Ailəvi türbəsindən artilleriya mərmilərinin saxlanılması üçün istifadə edilməsinin əyani sübutudur. İllüstrasiyalar arasında Şamaxıdakı qədim hamamlardan birinin təsviri və ona aid mətn çox maraqlıdır. İllüstrasiyadakı hamam quruluşuna görə Şirvanşahlar Sarayı Kompleksinə daxil olan Saray hamamının qalıqları ilə (naxışların qalmış izləri ilə) və İçəri şəhərdəki XVIII əsrə aid hamamla oxşardır: mərkəzində səkkizguşəli hovuzun olduğu əsas zal, onun ətrafında, yerdən müəyyən hündürlükdə yerləşmiş açıq hücrələr, zal boyu döşəməyə birləşmiş kiçik tağlı tağçalar, divarlardakı nəbati təsvirlər və s. Mətn hissəsində müəllif tarix boyu azərbaycanlıların məişətində mühüm yer tutmuş hamam ziyarəti, orada özünün iştirakı ilə həyata keçirilən yuyunma prosedurları - xına qoyma, qulunc qırma, buxara verilmə, kisələnmə və paklanma, nəhayət sonda qəhvə və qəlyan ziyafəti haqqında təfsilatlı məlumat verir. Bu məlumatlar milli adət-ənənələrimizin öyrənilməsində, gələcəkdə isə, bərpa - konservasiya işlərində, etnoqrafik ekspozisiya konsepsiyalarının hazırlanmasında böyük əhəmiyyət daşıya biləcəyi üçün çox dəyərlidir.[3]

Qafqazda hərbi xidmətdə olmuş general-leytenant, yazıçı Ernest Qustav Ştagelberqin səyahətnamədəki etnoqrafik qeydləri arasından Bakı və Şirvanşahlar Sarayına aid məlumatlar tərcümə edilmişdir. Müəllif Bakı şəhərinin yastı dağ yamacının zirvəsində yerləşdiyini, 920 sajen (1,68 km.) uzunluqda, qədim, arasında yarğanı olan ikiqat, 2 asma körpülü qapısı olan qala divarları ilə əhatə olunduğunu, daha sonralar ruslar tərəfindən bir necə burcün artırıldığını qeyd edir. Müəllif tərəfindən göstərilən qalanın uzunluq ölçüsü rus coğrafiyaçı alimi K.Spasski-Avtonomovun "Баку" məqaləsində göstərdiyi rəqəmlə də tamamilə üst-üstə düşür. Məlumatda "sarayın əsası XV əsrin I

---

[3] G.İ.Gagarin. "Le Caucase pittoresque" 1847. Rusiya Dövlət Tarixi Kütləvi Kitabxanası

yarısında Sultan Xəlil qoymuşdur. Saraydan və bir neçə məsciddən ibarətdir, elə də yaxşı qorunmamışdır. Böyük əhəngdaşı parçaları elə ustalıqla bərkidilmişdir ki, tikiş yerləri sezilmir" - deyə vurğulanır. Divanxana, Saray məscidi, ovdan və Qız Qalası haqqında yazılanlar da qədim Bakının tarixinin, bu günümüzə müəyyən hissəsi dağıdılmış qala divarlarının öyrənilməsi üçün böyük maraq kəsb edir.

1874-cü ildə sarayda olmuş rus zabiti, səyyah və yazıçısı P.Oqorodnikov 1875-ci ildə nəşr edilmiş "Delo" jurnalının 12-ci sayında "На пути в Персию" adlı məqaləsində Saray abidələrinin rus ordusu artilleriya mərmilərinin anbarına çevrildiyini qeyd etməklə yanaşı, portal və tağların, həmçinin şah hamamının gözəl arabeskalarla, şəbəkə naxışlarla bəzədildiyini xüsusi vurğulayırdı.[4] Bu faktı 1734-cü ildə sarayı görmüş alman alimi İ.Lerx də qeyd etmişdi. Kompleks ərazisindəki "Saray hamamı" abidəsinə baxış keçirilərkən, saray hamamı hücrələrinin divarları daxilində bir-birlərinin içərisinə keçirilməklə çəkilmiş saxsı su borularından üst qatda zamanın təsirindən dağılmış hissələrin altından firuzəyi rəngli saya kaşı fraqmentlərinin göründüyü müşahidə etdik. Kaşı fraqmentlərinin yerə nisbətən yuxarı səviyyədə, üfiqi vəziyyətdə yerləşdiyindən ehtimal etmək olar ki, onlar yuyunma otaqlarında oturma üçün nəzərdə tutulmuş səkilərin bəzəyi imiş.

1873-cü ildə nəşr edilmiş "Русский энциклопедический словарь" adlı kitabın III cildində Sankt Peterburq Universitetinin professoru İ.Berezin tərəfindən Bakı və onun ətrafına dair məlumatlar verilmişdir. Burada əhalinin 1865-ci ilə sayı, 3 pravoslav kilsəsinin, 23 məscidin, 289 dükanın, 18 sayda karvansaranın, 39 ticarət hamamının, hərbi xəstəxananın, 18 təhsil ocağının - natamam kişi gimnaziyasının, müqəddəs Nina qızlar məktəbinin, 16 müsəlman məktəbinin, poçt və teleqraf

---

[4] П.Огородников.. журнал "Дело". 1875. No-12. "На пути в Персию"

stansiyasının, ticarət limanının, gəmilərin yan alması üçün 4 körpünün, Bayıl burnunda hərbi limanın olması göstərilir. Ensiklopediyada Bakının qala və forştatdan - bayır şəhərdən ibarət olması, qalanın ikili divarla əhatə edilməsi, cənub divarını su basması və reyddə duran gəmilərdən yüklərin boşaldılması üçün onlarda kiçik qapıların olması qeyd edilir. Berezin çox gözəl binalar sırasında o vaxt artilleriya cəbbəxanasının yerləşdirildiyi qədim Şirvanşahlar Sarayının, Cümə məscidinin, şəhərin qədim tikililərinə aid edilən silindrik "Qız Qalası" qülləsinin adını çəkir. Müəllif Zaqafqaziyadan İran və Həştərxana, eyni zamanda əksinə, Həştərxan və İrandan Zaqafqaziyaya gətirilən bütün malların yükboşaltma məntəqəsi və liman şəhəri kimi Bakının əhəmiyyətini vurğulayır.[5]

1855-ci ildə Tiflisdə nəşr edilmiş "Записки Кавказскаго отдъла Императорскаго Русскаго Географическаго Общества" külliyyatın məlum olmuşdur ki, Şamaxının Hərbi Qubernatoru 03.09.1855-ci ildə Şamaxı quberniyasından tapılmış 1 qızıl, 340 gümüş sikkə nümunəsini İmperator Rus Coğrafi Cəmiyyətinin Qafqaz şöbəsinə təqdim etmişdir. Sikkələrə rəy verilməsi və öyrənilmələri məqsədi ilə onlar qəbzlə şöbənin nəzdindəki muzeyin katibi A.P.Berjeyə verilmiş, müvəqqəti olaraq həmin muzeydə saxlanmışdır.[6] Ayrı-ayrı vaxtlarda aşkar edilmiş belə arxeoloji materiallar və digər maddi-mədəniyyət nümunələri Sankt-Peterburqdakı Asiya muzeyinə, daha sonralar adı dəyişilmiş Şərq Xalqları İncəsənəti Dövlət Muzeyinə göndərilirdi. Qeyd edək ki, İmperator Rus Coğrafiya Cəmiyyəti 1845-ci ildə açılmışdır. XIX əsrin ortalarında cəmiyyət 11 şöbəsini açmışdır ki, onda 1000 nəfər çalışmışdır. Qafqaz şöbəsi onun regional

---

[5] Русский енциклопедический словарь.т. III. И.Березин. s. 112-117

[6] Записки русского Императорского Географического общества. Книга III . 1855. Тифлис. с.289

şöbələrindən birincisi olmuşdur. 16 həqiqi üzvün daxil olduğu Qafqaz şöbəsi o zaman Tiflis şəhərində yerləşmişdir.

Fransa Milli Kitabxanasında saxlanılan, "Asiya jurnalının" 1849-51-ci illərdə fransız dilində çap edilmiş saylarında XV əsr İran tarixçisi Qiyasəddin Xondəmirin əsərlərinin tədqiqinə həsr edilmiş bölmələr yerləşdirilmişdir. Şirvanşah Şeyx İbrahim və Qaraqoyunlu hökmdarı Qara Yusifin münasibətlərinin mənbələrə əsaslanaraq təsviri verilmişdir. Elə həmin kitabxanada 1852-ci ildə Sankt-Peterburqda, fransız dilində nəşr edilmiş "Sankt-Peterburq İmperator Kitabxanasındakı əlyazma və kalliqrafiya nümunələrinin Kataloqu" saxlanılır. Kataloqda ərəb, fars, türk dillərində yazılmış əlyazmalar haqqında qısa məlumatlar verilir.[7] "Asiya jurnalı"nın 1851-ci ilə aid nömrəsində İran tarixçisi Qiyasəddin Xondəmirin əlyazmalarına əsasən 35 il ərzində Şirvanşahlar dövlətinə başçılıq etmiş Şirvanşah Şeyx İbrahimin müdrik xarici siyasətindən bəhs edilir. Jurnalda Şirvan üçün çox gərgin bir zamanda Şeyx İbrahimin Əmir Teymur, Sultan Əhməd Cəlairi, Qara Yusif və digərləri ilə siyasi münasibətləri, 1412-ci ildə Kür qırağında Qara Yusiflə döyüş zamanı oğulları ilə birlikdə (adları çəkilməklə) əsir düşməsi və azad edilməsi, Şamaxı, Dərbənd şəhərləri və s. haqqında təfsilatlı məlumatlar verilir.[8] Mənbələrdən başqa, kitabxananın fondlarında İçəri şəhərin tarixinin öyrənilməsində böyük əhəmiyyət daşıyan, Bakı və Abşeronun XVIII əsrin əvvəllərinə aid xəritələri – rusların Bakıya Xəzərdən hücum planı və s. əks etdirən qrafik təsvirlərin orijinal nüsxələri saxlanılmaqdadır.

---

[7] Journale Asiatique..1852

[8] Journale Asiatique.1851. II-III. p. 139-140




**Rusların Bakıya dənizdən hücum planı. 1723**

Harvard Universiteti kitabxanasında Bakının XIX əsrdə çəkilmiş bizə bəlli olmayan 2 nadir fotosu vardır. Fotolarn müəllifi əslən Qacarlar nəslindən olan Azərbaycanlı Əli Xan Vəlidir. O, 1845-ci ildə Tehranda anadan olmuş, Sankt Peterburqda təhsil almışdır. İranın şimal-qərbində, Azərbaycanın müxtəlif bölgələrində qubernator, Təbrizdə hakim olmuşdur. 1870-ci ildə Rusiya imperator sarayı üçün 1412 fotodan ibarət 439 səhifəli "Türküstan" albomu hazırlamışdır. Fotolarda diqqəti çəkən saray yaşayış binasının səkkizguşəli zalı üzərindəki yastı günbəz və onun üzərindəki çıxıntıdır. Tarixdən məlumdur ki, XIX əsrdə sarayda intendantlıq yerləşməzdən əvvəl abidənin dağılmış günbəzləri sökülmüş, onlar yastı tavanla əvəz edilmişdi. Çox güman ki, şəkildə o vaxt saray binasının olduğu kimi salamat qalmış günbəzlərindən biri görünür. Fotoda İçəri

şəhərdə və Şirvanşahlar Sarayı ərazisində XIX əsrdə olmuş, lakin bu günümüzədək qorunub saxlanılmamış binaların - Key Qubad məscidi, hələ ruslar tərəfindən təmir edilməmiş qala divarları, günbəzlər və indiki Filarmoniya bağı və Niyazi küçəsinin yerində olmuş qədim qəbiristanlıq aydın şəkildə görünür.



**Əli Xan Vəli. "Türküstan" albomu. Bakı**

Qoruq-muzeyin elmi heyəti yuxarıda adları çəkilən mənbələrin bir çoxunu araşdıraraq əldə edilən informasiyaları gələcəkdə Şirvanşahlar Sarayının XIV-XV əsrdəki orijinal quruluşuna yaxın interyeri ilə ziyarətçilərə təqdim etmək məqsədilə sistemləşdirərək, "Şirvanşahlar Sarayının Elmi Ekspozisiya Planı"nı hazırlamaqdadır. Bundan başqa, əldə edilmiş məlumatlar, eləcə də gələcəkdə İçəri şəhərin tarixinin öyrənilməsində, burada aparılacaq bərpa–konservasiya işlərində, etnoqrafik ekspozisiya konsepsiyalarının hazırlanmasında böyük əhəmiyyət daşıya bilər.

1864-86-cı illərdə Qafqaz Arxeoqrafik Komissiyasının sədri olmuş rus şərqşünas alimi, arxeoloq, arxeoqraf A.Berjenin 1874-cü ildə Tiflisdə nəşr edilmiş "Кавказ в археологическом отношении" kitabında, "Кавказский календарь" illik məcmuəsində, 1848-ci ildən bu günədək nəşr edilən "Morskoy sbornik" və 1880-1917-ci ilədək çıxmış "Zodçiy"

jurnalında və s. onlarla kitab və jurnallarda tariximizə işıq sala biləcək, saray interyerinin, hökmdar taxtının, saray müxəlləfatının görüntüsü, yeri haqqında kiçik belə olsa ipucu verə biləcək məlumatların olmasına ümid edərək axtarışlar davam etdirilməlidir. Bu günədək əldə edilmiş müxtəlif dillərdə olan mənbələrdən Şirvan tarixinə aid olan hissələrin surətləri gələcəkdə tərcümə edilməsi üçün götürülmüşdür. Türkiyə Cümhuriyyətinin Milli Dövlət Arxivi, Yazma Əsərlər Fondu, Başbakanlıq Osmanlı Arxivində, İslam Əsərləri Muzeyində, İran İslam Respublikası Milli Kitabxanasında, Rusiyanın Dövlət Hərbi-Tarix Arxivində, Xarici İşlər Nazirliyi Moskva baş Arxivində, Moskva Kremli Kitabxanasında və s.-də təkcə "Şirvani" nisbəsi ilə adı keçən yüzlərlə müəllifin elmin müxtəlif sahələrinə aid əlyazmaları saxlanılır. Yəqindir ki, onlar arasında Şirvan dövlətinin, Bakının, eləcə də Şirvan şahlarının və Sarayının adı keçən əsərlər də az deyildir.

Son 22 il ərzində tarixi abidələrimizə, muzeylərə olan dövlət qayğısı olduqca artmışdır. Bu gün Azərbaycanın tarixi, milli-mədəni dəyərlərinin aşkar edilməsi, onlar haqqında məlumatların toplanılması, ölkəmizdən kənardakı kitabxana, arxiv və muzeylərdə saxlanılan, Azərbaycana aid əlyazmaların Vətənimizə gətirilməsi məsələsi dövlət rəhbərliyi tərəfindən çox yüksək səviyyədə təşkil olunmuşdur. Bəzi Avropa kitabxanalarında mühafizə edilən, Azərbaycana aid əlyazmaların kataloqu da hazırlanmışdır. Bu məsələ ilk olaraq 2011-ci ildə, UNESCO və İSESCO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban xanım Əliyeva tərəfindən qaldırılmışdır. Artıq bu sahədə müəyyən işlər görülmüş, Vatikan Apostol Kitabxanasından orta əsr əlyazmalarından bir neçəsinin surəti götürülərək Azərbaycana gətirilmiş, hətta AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun əməkdaşları tərəfindən tərcümə edilərək çap edilmişdir.



**Şirvanşahlar Sarayı bu gün**

Dünya əhəmiyyətli tarixi abidə olan İçəri şəhərə həsr edilmiş çoxsaylı əsərlər yazılsa da, hələ də tam tədqiq edilməmiş, araşdırılmamışdır. İçəri şəhər və onun ən hündür hissəsində yerləşən Şirvanşahlar Sarayı yüzillərdir ki, xalqımızın tarixini, mədəniyyətini, memarlığını, milli həqiqiət, fikir və ideyalarını özündə əks etdirən ümummilli simvola çevrilmiş, dünyanın dörd bir tərəfindən gəlmiş turistləri hələ də heyran etməkdədir. Bu gün qarşımızda duran ən ümdə məsələ isə, Şirvanşahlar dövlətinin, qədim İçəri şəhərin, Şirvanşahlar Sarayının tarixinin öyrənilməsi məsələsini ən yüksək səviyyədə gündəmə gətirmək, adı çəkilən ölkərərin kitabxana və arxivlərindəki Şirvana aid əlyazmaların aşkar edilərək surətlərinin ölkəmizə gətirilməsi, Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının Tarix, Şərqşünaslıq, Arxeologiya və Etnoqra-

fiya, Memarlıq və s. institutlarında çalışan mütəxəssislərin bu tədqiqatlara cəlb edilməsidir.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. «Журнал Министерства просвещения». Сб. 1848. No-7
2. G.İ.Gagarin. “Le Caucase pittoresque” 1847. Rusiya Dövlət Tarixi Kütləvi Kitabxana
3. П.Огородников. Журнал “Дело”. 1875. No-12. “На пути в Персию”
4. Русский енциклопедический словарь.т. III. И.Березин
5. Journale Asiatique.1851; 1852
6. Записки русского Императорского Географического общества. Книга III 1855. Тифлис
7. Кавказский календарь. 1851. К.Спасский-Автономов. Баку.. 1852
8. В.Лебедев. Западный берег Каспийского моря при Петре Великом

**Nahidə Bəkirova**
***"İçərişəhər" Tarixi muzeyinin***
***Elmi-tədqiqatlar şöbəsinin müdiri***

# Yun kitabələrdə Bakı tarixi

*(ilmələrin izi ilə...)*

"Yun kitabə" ifadəsi bəlkə də oxuculara qəribə görünə bilər. Hətta "kitabə" dedikdə bizdə elə assosiasiya yaranır ki, yazı ancaq bərk materiallar, məsələn, daş üzərində oolmalıdır. Lakin böyük rus tarixçi-alimi, etnoqraf, görkəmli türkoloq Lev Qumilyov qədim xalçaları "yun kitabələr" adlandırmışdır. (www.news.milli.az)

Dünya xalqlarının mədəniyyət tarixində elə sənət sahələri vardır ki, orada onun zəngin mənəvi aləmi, xalq hikmətinin təzahürü, milli xarakterinin elementləri özünü qabarıq şəkildə biruzə verməkdədir. Belə sənət növlərindən biri də xalçaçılıqdır. Əcdadlarımızın dünyagörüşünü və fəlsəfi fikirləri nənələrimizin özünəməxsus estetik zövq, üsul və vasitələrlə naxışlara köçürdüyü gözəl kompozisiyalar yaradaraq bizə miras qoyduqları ənənəni xalçaçılıq nümunələri ilə uzaq keçmişdən bu günümüzə qədər yaşamaqdadır.

Azərbaycanda xalçaçılıq qədim tarixə (neolit dövrü) malik olub, xalqın adət və ənənələrinin spesifik xüsusiyyətlərini özündə ehtiva etməklə, zaman-zaman həyatımızın vacib atributlarından birinə çevrilmişdir. Azərbaycanlıların ilk addımlarını xalça üzərində atması, son mənzilə də xalça üzərində yola salınması, bədii yaradıcılığın bütün sahələrində xalçadan və xalçaçılıq sənətindən məhəbbətlə söz açılması, milli ideallarının, bəşəri istəklərin "uçan xalça"larla əlaqələndirilməsi xalqın həyatında məhz bu sənətin necə ali bir mövqe tutmasından xəbər verir.

Azərbaycan xalçasına məxsus simvol və naxışlar qədim və orta əsrlər, eləcə də çağdaş Azərbaycan memarlığının, rəng-

karlıq və dekorativ-tətbiqi sənətin demək olar ki, bütün növləri ilə sıx vəhdətdədir.

Lakin digər maddi və mənəvi sərvətlərimiz kimi, xalçalarımıza qarşı münasibətdə də özünü göstərən biganəlik üzündən təəssüf ki, bu gün dünya muzeylərində bizim tarix danışan, kitab-kitab məna, məzmun ifadə edən xalçalarımız bəzən başqa millətlərin adından nümayiş etdirir (7, s. 95-96).

Xalça xalqımızın həyat tərzində, məişətində, mənəvi-intellektual düşüncəsində xüsusi mahiyyət və məna daşıyır. Hər bir azərbaycanlının evində ənənəvi olaraq gözəl xalça çeşidləri olmuş və hal-hazırda da bu ənənə davam etdirilir. Qızlarımız hələ erkən yaşlarından ana və nənələrinə qoşularaq özü üçün cehizlik xalçalar toxuyardılar. Onların gələcək sevgiləri, quracaqları ev düzəni və həmin xalçaların üstündə ilk addımlarını atan körpələr haqqındakı xəyalları da həmin ilmələrdə, naxışlarda əks olunurdu. Xalça toxuma prosesinin özü də bir ritual, bir məclis idi...

Var-dövlət daha çox xalçalarla ölçülər, zənginlikdən söz açanda "filankəsin filan qədər xalçası var" – deyərdilər. Bu zənginlik təkcə maddi sərvət kimi deyil, həm də bir mədəniyyət, mənəvi dəyər kökə bağlılıq, xalqına sevgi kimi qəbul olunurdu.

Azərbaycan xalqının həyatına, mədəniyyətinə, estetik duyumuna, mənəviyyatına xalça qədər dərindən nüfuz eden ikinci sənət növünü göstərmək çətindir. Bir qayda olaraq nəsildən-nəslə keçən xalçalar canlı şahid kimi tarix danışar, genetik daşıyıcılıq missiyası yerinə yetirərdi. Nənənin, yaxud ananın toxuduğu ovqatı on illər sonra qızlar və nəvələr əlləri ilə ona toxunduqca hiss edərdi. Hər bir xalçanın xüsusi təyinatı olardı: gündəlik işlənən, qonaq gələndə döşəməyə salınan, divardan asılan, dəyərli bir miras, sərvət kimi qorunub saxlanılan və s.

"Azərbaycanda xalçaçılığın inkişafı haqqında Herodot, Klavdi Elian, Ksenofont və başqa qədim dünya tarixçiləri məlumat vermişlər. (6, s. 232) Sasanilər dövründə (III-VII əsrlər)

Azərbaycanda xalça sənəti daha da inkişaf etmiş, ipəkdən, qızıl-gümüş saplardan nəfis xalçalar toxunmuşdu. Alban tarixçisi Musa Kalankatlı (VII əsr) Azərbaycanda toxunan ipək parçalar və rəngarəng xalçalar haqqında məlumat vermşdir.

Xalçanın ümumi kompozisiyasına, rəng harmoniyası ilə birlikdə onun naxışlarına diqqət yetirsək, görərik ki, bunların vəhdəti bizlərə nə isə işarə edir. Xalça üzərində naxışlar kodlaşdırılaraq hər biri xüsusi məna verməklə öz dövründən hansısa bir informasiyasını ötürür və keçmişi xatırladaraq tarixin sirli səhifələrini açır.

Xalçalarda rast gəlinən simvolik naxışların hər birinin öz mənşəyi, mənası var. Xalça naxışları üzərində rast gəlinən qədim elementlər xüsusilə də bitki aləmi ilə ruhsal vəhdət, insanın nəbatatla bağlılığı türk dilli xalqlar qədər heç bir xalqda mövcud deyildir.(2, s. 146-153)

Müxtəlif qollara və tayfalara bölünən türklər ümumi dini-fəlsəfi ideyaya tabe idilər. Xüsusən də, dünyanın və insanın yaranışı, bu prosesin obrazlı həlli yaşadıqları coğrafi areala uyğun olaraq orada olan bitkilərin elementləri ilə zənginləşdirilmişdir.(7, s. 95-96)

Tədqiqatlar göstərir ki, bu gün də bir çox xalçalar öz sirrini saxlamaqdadır. Elə bu səbəbdən də xalçalar üzərindəki naxışların işarələrinin müəyyənləşdirilməsi və mənalarının açılması böyük əhəmiyyət kəsb edir, onların fəlsəfi tərəfdən tanınması xalçalara yeni məna çaları verir.

Azərbaycan xalçasında çoxəsrlik ənənələrin sabitliyi və həyat gerçəkliklərinin müxtəlifliyi üzvi surətdə birləşir. Xalçanın naxışları və rəngləri toxunduqları bölgənin və iqlimin xüsusiyyətlərinə görə fərqlənirdi. Öz ərazisində formalaşan xalça nümunələrində mövcud ənənə yerli flora və inancdan doğan bədii üslubda özünü yaşadır. Toxucu sanki qan yaddaşlarında minilliklər boyu qorunub saxlanmış sokral düşüncələrini, fəlsəfi anlayışını intuitiv şəkildə naxışlara çevirmiş simvolları vasitəsi ilə ilmələrə köçürmüşdür.

Azərbaycan xalçalarını nəzərdən keçirsək görərik ki, Bakı və Abşeron ərazisində formalaşan xalça nümunələri zənginliyi və fəlsəfi açıqlaması ilə digər qruplardan fərqlənir. Çünki, bu ərazi tarix boyu ticarət mərkəzi olmuş,buraya müxtəlif dövlətlərdən əmtəə mübadiləsi üçün məhsullar gətirilmiş, eləcə də bu məhsulların çeşidi, milli-psixoloji ovqatı, xüsusiyyətləri bir-birləri ilə qarşılıqlı təmasda olmuşdur.

Abşeron ərazisinin özünəməxsus mədəniyyəti onun qədim zamanlardan sitayiş obyekti olması, atəşpərəstlərin təşəkkülü, daha sonra islam mədəniyyətinin Bakı və onun ətraf kəndlərində geniş şəkildə yayılması bütün sənət sahələrində olduğu kimi, xalçalarımızda da özünü biruzə vermişdir. Bu ərazidə toxunan xalçalarda "Od, alov", "Sacayaq", "Buta" elementləri daha cox istifadə olunurdu. Bakı və Abşeron xalçalarında istifadə olunan naxışların arxaik inanclarla bağlı olması ilə yanaşı, islami təsəvvürlərə də sahib olduqları özünü büruzə verir. Bir çox tarixi mənbələrdə Bakı xalçaları haqqında məlumatlar vardır. VII əsrin I yarısında (hicri 2-ci, miladi 642-ci ildə) ərəb tarixçisi, Əbu Cəfər Təbəri qeyd edir ki,"Azərbaycanın şimal-şərqində yüksək çeşidli əla növlü xalçalar istehsal olunur".(1, s. 10-15) Bu fikri görkəmli xalçaçı alim L.Kərimov bir daha təstiqləyir, "Keçmişdə Bakının qədim hissəsi olan "İçəri şəhərdə", qala divarları arxasında yüksək keyfiyyətli, yumşaq xalçalar istehsal edilirdi". Bu məntəqənin,



XVIII əsrdən bəri bizə qalan bir nüsxəsi, İstanbulda “Türk və islam əsərləri” muzeyində hələ də saxlanmaqdadır. (4, s. 19)

Bakı şəhərinin xalçaçılıq ənənəsi ətraf əraziləri də əhatə etməklə çox qədim dövrlərə təsadüf edir. Bakı və Abşeron ərazisinə məxsus xalçaların incə naxışlı və daha yumşaq olmasının səbəbi toxuculuqda yerli xammal olan “qala” və “bozax” cinsli qoyun yunundan istifadə edilməsidir. Bu növ yun digərlərindən parlaqlığı və zərifliyi ilə daha çox fərqlənir. Xalça rənglərinin intensivliyi isə bu əraziyə xarakterik olan zəfəran çiçəyi, biyanotu, indiqo və.s bitkilərindən boyaq maddələri kimi istifadə edilməsidir (1, s.10-15). Bakı xalçalarının hər birinin müstəqil adı və kompozisiyası vardır. Bu xalçaların əksəriyyəti toxunduğu kəndin adını daşıyır. Bakı məktəbinə "Xiləbuta", "Xiləəfşan", "Novxanı", "Suraxanı", "Qala", "Bakı", "Görədil", "Fatmayı", "Fındığan", "Qədi" və s. çeşnilər daxildir.

Beləliklə , qeyd etdiklərimizə nümunə olaraq “İçərişəhər” Tarixi muzeyinin xalça və tikmə bölməsi fondunda qorunan “Bakı” xalçasını göstərmək olar. Xalçanın ara sahəsində bir-birinin ardınca şaquli istiqamətdə düzülmüş, bir neçə “göl” və “quyu” naxışları təsvir edilmişdir. XVIII əsrin sonlarına qədər bu növ xalçaların mərkəzinə 4-5 “quyu” naxışı həkk olunurdu. Ancaq XIX əsrin əvvəllərində, xalça, “Bakı” xalçası adını alandan sonra, kompozisiyasında dəyişiklər baş verdi. Bir neçə həyat rəmzi olan “göl” və “quyu” naxışları bir yerdə və bir arada yerləşdirildi (4, s. 19). Bu naxışların rəmzlərdə hansı inanc kultu ilə bağlı olduğu maraq doğurur. “Quyu” və “göl” kultunun bir məkanda yer alması təsadüfü deyil. Tədqiqatlar göstərir ki, “quyu” kultu türklərin inanc sisteminə aid olub “su” ruhunun daşıyıcısı olaraq, yaradıcı aləmlə bağlı rəmzlərə malikdir (6, s. 232-248)



Onlar yaşadıqları ərazidə dağ, təpə olmadıqda süni dağlar, təpələr yaratmağa çalışırdılar. Bu yrelərdə baş verən hadisələr “Kitabi-Dədə Qorqud”da öz əksini tapmışdır (3).

Bakı şəhəri və ətraf kəndlər tarixən qədim türk-oğuz tayfalarının (azərbaycanlıların) yaşadığı ərazilər olmuşdur. Şəhər yüksək “təpə” və “quyu”lar üzərində salınmışdır. Bakı şəhərinin təsvirini XV əsr coğrafiyaşünası Əbdürrəşid Bakuvi 1403-cü ildə ərəbcə yazmış *“Təlxis əl- asar və əcaib əl- məlik əl- qəhhar” (“Abidələr”in xülasəsi və qüdrətli hökmdarın möcüzələri)* adlı əsərində qeyd edir (6, s.232).


اذربايكان باى
بحتابله ايكي معناسى واربرى ذكر اولنان اذرباذكان معناسنه درثانى بر ولايت آديدركه تبريز آنك قاعدة الملكى يعنى
سنجاق باشيدر شويله نقل ايدرلر كه وقتا كه اوغوز كلوب اول ولايتى نزع وتسخير ايلدكده اوجان نام بر غزارى
زياده سيله بسند ايدوب امر ايلدى هر آدم برانك طپراق كتوروب آنده يغديلر حتى كندوسى دخى كتوردى بو وجهله
بر عالى وعظيم تپه حاصل اولدى واول تپه يه آذربايكان تسميه ايلدى زيرا آذر لغت تركيده يوكسك وبايكان دخى عظما
معنالرينه اولمغله معناى تركيبى يكار تپه سى ديمك اولور آذربايجان بوندن معربدر وحاليا معربيله مشهوردر

“Bakı şəhəri qurumuş quyulardan ibarət daşlı təpələr üzərində dayanır” . Bu görüntü indi də Bakının qədim hissəsi olan İçəri şəhərdə qorunub saxlanılmışdır. İçəri şəhərdə daha qədimdən müxtəlif dərinlikləri olan “quyu”lar vardır ki, onlar barəsində maraqlı və həqiqətə uyğun fikirlər söylənilir. Bu quyulardan su quyuları, zirzəmilər və ən maraqlısı odur ki, müəyyən ayinlər üçün istifadə olunurdu. Məsələn: Şəhərin yüksək təpəsində yerləşən Şirvanşahlar sarayının yerində əvvəllər müxtəlif dərinliklərdə olan quyular vardır ki, onların da arasında pir sayılan “Süd quyusu” digər quyulardan fərqlidir. Tədqiqatçı Ç. Leviatov bu barədə məlumat verir: “Yeri gəlmişkən qeyd edək ki, inqlaba qədər ki, dövrdə müsəlman əhalisi arasında belə inam var idi ki, təsvir olunan günbəzşəkilli otaq və ya divanxananın həyətində yerləşən quru quyulardan biri südünü itirmiş zahı qadınlara süd qaytarmağa qadir olan

möcüzəli qüvvəyə malikdir. Bu quyu "süd quyusu" adlanır" (6, s. 232-248).

Qeyd edilənlərdən belə nəticəyə gəlmək olar ki, xalçanın ara sahəsində qədim Bakı şəhərinin coğrafi quruluşu təsvir edilmişdir. Bundan başqa, xalçanın ara sahəsinin tünd göy rəngdə olması şəhərin dəniz sahilində yerləşməsinə işarədir.

Xalçalarda istifadə olunan rənglərdə xüsusi qanunauyğunluqlar var. Belə ki, rənglərin və naxış elementlərinin kompozisiyalar da ritmik tərzdə bir neçə dəfə təkrarlanması bədii təsir gücünün artırılmasına və insanların sağlamlığına, əhval-ruhiyyəsinə təsir edir. Bu cür xalçalardan gündəlik həyatda və xüsusi günlərdə istifadə edilirdi.



Tarixən insanlar təbii fəlakətlər, epidemiyalar, mənşəyini anlaya bilmədikləri hadisələr qarşısında aciz qalmış və nəticədə xalq arasında onlardan xilas tədbirləri kimi müxtəlif inanclar yaranmışdır. Hər yerdə olduğu kimi Bakı və Abşeron əhalisinin də gündəlik həyatında hələ qədim zamanlardan bele inanclar mövcud olmuşdur.

"Bakı" xalçasının bədii strukturunun əsasını təşkil edən altıbucaqlı, səkkizbucaqlı "göllər" kainat, fəza cisimləri ilə bağlıdır. Xalçanın ara sahəsini tamamlayan doldurucu elementlər və göllərin içərisində dörd küncündə "kərtənkələ" sağ və sol yanlarında isə "ərsinlə" (və ya "kürək") bəzədilən sxematik əyri və sınıq xətli işarələr arxaik inancların bədiiləşmiş dili ilə tərənnüm edilən müsbət enerjinin daşıyıcılarıdır. Bu naxışlar bütövlükdə əbədiyyətlə bağlı hisslər, duyğular dünyasının xalça üzərində bədii inikasıdır (4).

"Bakı" xalçasının haşiyə zolaqlarını bəzəyən naxışlar qoruyucu rolunu oynayır. Haşiyə zolağı ara sahəni əhatə edərək onu hasara alır və qoruyucu sərhəd vəzifəsini icra edir. Bunun-

la da xalçanın müsbət enerjisi evin xoş təəssüratını artırmış olur.

"Bakı" xalçasının qoruyucu zolağı, ana haşiyəsi bir zəncir və 4 mədaxildən ibarət sərhəd xətti ilə əhatə olunur. Ana haşiyyənin əsas elementini isə "Şamdan"lar təşkil edir ki, bu elementə maye yanacaqlı çıraq-"yağdan" da deyilir. Bu görüntülər belə təəssürat yaradır ki, o zaman ki, insanlar "göl", "şamdan", "yağdan" elementləri vasitəsilə, dövrlərinin dini ayinlərini və adət-ənənələrini nümayiş etdirmək istəyirlərmiş. Xalçaçılar bu elementləri hətta "qədim heykəl" adlandırırdılar. Bunlardan əlavə ana haşiyənin ətrafındakı, hər iki mədaxil ilgəhləri xatırladan elementlərlə bəzədilmişdir. Köhnə xalçaçılar bunu şimşəyə bənzədirdilər (4, s. 19).



Beləliklə, təsdiq etmək olar ki, "Bakı" xalçasının ara sahəsinin və əsas haşiyələrinin semantik mənasına gəldikdə onlar daha çox qorunma ilə bağlıdır. Bu motivlər pis gözdən, bəd nəzərdən, bədxah ruhlardan qorunmaq mənası daşıyır.

Yuxarıda qeyd etdiklərimiz nəzərə alınmaqla, deyə bilərik ki, hər bir millətin genetik kodu onun mifologiyasının sirli dünyasında gizlənmişdir və hər bir xalq dünyada özünü bununla tanıtmış olur. Azərbaycanda xalçaçılıq sənətinin bugünkü səviyyəsi, toxuculuğa olan maraq bunu deməyə əsas verir ki, Azərbaycan xalqı yaşadıqca onun əbədi-yaşar xalçaçılıq sənəti də daim yaşayacaq və inkişaf edəcəkdir. Bu müqəddəs sənəti yaşadanlar yüksək hörmət və ehtirama layiqdirlər...

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. 1."Bakı, Şirvan, Quba xalçaları". Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyasından. Kataloq. X.Əsədova. Bakı, 2013
2. V.Muradov "Azərbaycan xalçaları". 1-ci cild. Bakı, 2011.
3. N.Nəcəf. "Hun minilliyi". Bakı, 2015.
4. L.Kərimov. "Azərbaycan xalçaları". 1-ci cild. Bakı, 1983.
5. "İçərişəhər". X.Əsədova. Bakı, 2012.
6. "Şirvanşahlar sarayı: Tarix, Həqiqətlər, Mülahizələr".
7. Elmi-praktik konfrans materialları (məqalələr toplusu) Bakı, 2015.
8. N.Nəcəf. İnanc yaddaşı. Bakı, 2014.

**Ulduz Zeynalova**
***Elmi-Mədəni Mərkəzin***
***Elm şöbəsinin baş laborantı***

## Səlimxanovlar*
*(Azərbaycanın gildiya tacirləri silsiləsindən)*

İçəri şəhərin tanınmış nəsillərindən biri Səlimxanovlar şəcərəsi ilə bağlıdır. Səlimxanovlar Azərbaycanın bir çox əsilzadə ailələri ilə (məsələn; Aşurbəyovlar, Bakıxanovlar, Hacınskilər, Dadaşovlar, Mehmandarovlar, Tağıyevlər, Xanlarovlar və başqaları) qohumluq əlaqələri olan tanınmış, Bakının tarixi qədimlərə gedib çıxan bəy nəsillərindəndir.

Notariat mənbələrinə müvafiq olaraq deyə bilərik ki, Səlimxanovların (Hacı Heybət bəy, Kazım bəy, Zeynal bəy, Rza bəy və İsa bəy Səlimxanovlar) evləri İçəri şəhərin cənub – qərb hissəsində yerləşirdi. Bu evlər onlara məxsus olan Qasım bəy hamamına (XVəsr) yaxın idi. Şəhərin elə bu hissəsində, qəsrin ən gözəl evlərindən biri olan şəhər hökmdarının evi yerləşirdi. Bundan başqa, Varvara (indiki H. Rzayeva) küçəsində yerləşən evlərin çoxu Səlimxanovlar ailəsinə məxsus idi. Bu ərazidə yerləşən Qasım bəy karvansarayı da Səlimxanovların idi. Tarix elmləri doktoru, professor S. Aşurbəylinin dediyinə görə "Səlim xan, Səlimxanovların ulu babası olub". Səlim xan təxminən 1660-cı ildə anadan olub. Onun adı Bakı xanlarının xronoloji siyahısına salınıb. Səlim xan və Dərgah Qulu xan cavan yaşlarından dost olublar. Qeyd edək ki, o vaxtlar (1724) Səlim xan Abşeronun naibi idi, Hacı Səlim, Səlim xanın oğlu idi. (1727 -ci ildə sultanlıq ləğv edilmişdi). Abşeronu idarə edən naib Səlim -xan Bakı şəhərinin komendantına tabe idi. Qeyd etmək lazımdır ki, o illərdə

---

*Məqalə "Azərbaycanın tarixi şəcərə cəmiyyəti" adlı kitabdakı Tələt Mehdiyevin Səlimxanovlar haqqında məqaləsindən tərcümə olunaraq hazırlanıb.

sultanlıq bərpa edildi və həmin vəzifəyə Dərgah Qulu bəy təyin edildi. 1731-ci ildə Səlim- xan Bakı şəhərinin hakimi olur. İkinci nəsil Hacı bəylə başlanır. Səlim xanın oğludur, təqribən 1690-cı ildə anadan olub. Hacı bəy 1733-cü ildə Səlim xanın, Abşeronda sultan Dərgah Qulu bəy üçün təşkil etdiyi ceyran ovunun iştirakçısı olur. Tarixi sənədlərdə və mənbələrdə göstərilir ki, Abdulla bəy və Səlim bəy Hacı bəyin oğulları idi. Üçüncü nəsil Abdulla bəyin adı alı bağlıdır. Hacı bəyin oğludur, təqribən 1708-ci ildə anadan olub. 1731-ci ildə Dərgah bəy, Abdulla bəyin Bakı mahalına məlik təyin olunması üçün fəxri fərmana imza atır. Onun sonrakı taleyi haqqında məlumat yoxdur.

Səlim bəy (Məhəmməd Səlim bəy ) Hacı bəyin oğludur, təxmini 1720-ci ildə anadan olub. 1747- ci ildə Nadir şahın ölümündən sonra Bakı şəhərinə sultan təyin edilib. Dördüncü nəsil Manurxan-bəy isə Səlim bəyin oğludur (Məhəmməd Səlim bəy). Təqribən 1740-cı ildə anadan olmuşdu, 90-cı illərdə (XVIII əsrdə) vəfat edib. Kamerial (ekspedisiya materiallarının laboratoriyalarda elmi cəhətdən işlənilməsi) məlumatlara əsasən demək olar ki, Mansurxan bəyin 5 oğlu vardı; Hacı Qasım bəy, Hacı Əsgər bəy, Ağa bəy, Hacı ağa-Kərim bəy və Məmməd Həşim bəy (Bakı şəhərində 1848-ci il, 1860-cı il və 1874-cü il, habelə, Bakı bəy komissiyası fondunda “bəy” titulu verilməsi və yenilənməsi haqqında məlumat var). Manaf bəy Məhəmməd Səlim bəyin digər oğludur, təqribən 1760-cı ildə anadan olub, 1830-cu illərdə rəhmətə gedib. XVIII əsrin axırı - XIX əsrin əvvəlində ölkənin siyasi - iqtisadi həyatında fəal iştirakı olub. 1792-ci və 1795-ci illərdə, Hüseyn Qulu bəy Bakinskinin hazırda qohumu olan Manaf xan və bütün Bakı sakinləri adından Rusiya tabeliyinə daxil olmaları barədə, general Qudoviçin yanına, etibarnaməni vermək üçün göndərilmişdir.

Bakı şəhərinə iddialı olduğu üçün, Şeyx Əli xanın adamları, Dərbənddə Manaf bəyi saxlayırlar. Təhdidedici söhbətlər-

dən sonra Manaf bəyi yenidən Bakıya, Bakı xanına hədələyici məktubla qaytarırlar. 1795-ci ilin martında Georgiyevskdə Hüseyn Qulu xan Bakinskinin məktubu Manaf bəy tərəfindən general Qudoviçə çatdırılır. Hacı Nəcəf bəy də Məhənmməd Səlim bəyin oğludur. Təqribən 1765-ci ildə anadan olub. Övladları; Hacı Həsən bəy, Hacı Heybət Qulu bəy, Kərim bəy. Beşinci nəsil Hacı Qasım bəy, təqribən 1770-ci ildə anadan olub. XVIII əsrin axırı və XIX əsrin əvvəlində ölkənin siyasi-iqtisadi hadisələrinin iştirakçısı olub.1792-ci ildə Məhəmməd Qulu xan Bakinskinin ölümündən sonra onun qardaşı oğlu Hüseyn Qulu ağa öz kürəkəni olan Hacı Qasım bəyin və başqa bəylərin köməklikləri ilə Bakı xanı seçildi. Hacı Əsgər bəy Mansur bəyin oğludur, 1772-ci ildə anadan olub, 1850- ci ildə vəfat edib. Kameral məlumata görə, 1849-cu ildə Hacı Əsgər bəy Səlimxanovun adı Bakı şəhərinin bəylər siyahısında qeyd edilmişdir. Övladları; Əli bəy, Məmməd Qulu bəy Ağa bəy Mənsurxan-bəyin oğludur, 1775-ci ildə anadan olub. Təhkim edilmiş Fatmayı kəndində yaşayıb. Səlimxanovlar nəslinin Fatmayı kəndində özülünü qoyanlardan biri idi. Övladları; Ağa Rəhim bəy, İskəndər bəy, Mehdi bəy. Hacı Ağa Kərim bəy Mənsurxan - bəyin oğlu təxmini 1780-cı ildə doğulub. Ağa Kərim bəyin övladlarından, qohumlarının dediklərinə görə bircə oğlu Heydər bəy məlumdur. Məmməd Həşim bəy Mənsur bəyin oğludur, təxminən 1785-ci ildə anadan olub. Övladları; Cığa bəy, Səlim bəy, Cavad bəy, Tubu xanım, Nurcahan xanım. Hacı Qasım bəy. Manaf bəyin oğludur, təxminən 1810-cu ildə doğulub. O, Gülsüm xanıma (qızlıq soyadı Xanlarova idi), axund Nəcəf Əli bəyin qızına evli idi. XIX əsrdə siyasi-iqtisadi hadisələrin fəal iştirakçısı olub. Hacı Həsən bəy Hacı Nəcəf bəyin oğludur, təxminən 1800- cü ildə anadan olub, 1866-cı ildə vəfat edib. Övladları; Cəfər Qulu bəy, Abbas Qulu bəy, Ağa bəy, Məmməd Hüseyn bəy, Ana xanım, Nur Şərəf xanım, Məlik Nisə xanım, Əsməd xanım. Hacı Heybət Qulu bəy Hacı Nəcəf bəyin oğludur, 1804-cü ildə anadan olub,

1892-ci ildə vəfat edib. Övladları; Nəcəf bəy (Ağa bəy), Mehdi Qulu bəy, Məsumə xanım Gülsüm xanım, Tutu xanım. Qədir bəy  Hacı Nəcəf bəyin oğludur, 1809-cu ildə anadan olub, 1892-ci ildə vəfat edib. Kameral məlumata görə, 1849-cu ildə tərtib edilmiş bəylər siyahısına qeyd edilib. Övladları; Mahmud Səlim bəy, Məmməd Hüseyn bəy, İsmayıl bəy, Xədicə xanım. Kərim bəy Hacı Nəcəf bəyin oğludur, 1816-cı ildə anadan olub. Altıncı nəsil  Zeynal bəyin adı ilə bağlıdır. Hacı Qasım bəyin oğludur, 1832-ci ildə Zeynal bəy və Hacı Qasım bəy Tur-kənd (indiki Türkan) kəndini və qardaşı ilə Binəqədi kəndini idarə ediblər. Övladları; Sadiq bəy və Nəcəf bəy Hacı Bağır bəy Hacı Qasım bəyin oğludur, 1809 -cu ildə anadan olub və 1876-cı ildə vəfat edib. Övladı;  Məmməd Bağır bəy. Kazım bəy  Hacı Qasım bəyin oğludur,  1814- cü ildə anadan olub, 1874-cü ildə vəfat edib. Kameral yazıya görə, 1849- cu ildə tərtib edilmiş bəylər siyahısına yazılıb. Həyat yoldaşı; Çimnaz xanım (qızlıq soyadı - Bakıxanova). Rza bəy Hacı Qasım bəyin oğludur. 1819-cu ildə anadan olub, 1859-cu ildə vəfat edib. O, Varşavada, Qafqaz süvari-müsəlman alayında xidmət edib. Həyat yoldaşı; Bibi xanım Abdulla bəy qızı. Övladları; İsa bəy, Musa bəy, İlyas bəy. Bibi xanım. Hacı Qasım bəyin qızıdır, 1815-ci ildə anadan olub, 1892-ci ildə vəfat edib. Həyat yoldaşı; Hacı Qulu bəy Səlimxanov Hacı Nəcəf bəy oğlu. Övladları; Nəcəf bəy (Ağa bəy), Mehdi Qulu bəy, Məsumə xanım, Gülsüm xanım, Tutu xanım.

Hacı Əli bəy Hacı Əsgər bəyin oğludur. 1817-ci ildə anadan olub. 1872- ci ilin martında Bakı bəylər komissiyasına, irsi bəylik adı üçün ərizə vermişdi. Məmməd Qulu bəy Hacı Əsgər bəyin oğlu 1827-cı ildə anadan olub və 1910- cu ildə vəfat edib. Kamerial yazıya görə 1849-cu ildə tərtib edilmiş bəylər siyahisina salınıb. Övladları; Əli Əsgər bəy, Çimnaz xanım, Mina xanım. Ağa Rəhim bəy Ağa bəyin oğludur. 1802-ci ildə anadan olub, Fatmeyi kəndindəki Səlimxanovlar nəslinə aid idi. 1872-ci ilin martında Bakı bəylər komissiyasına "bəy"

adının təstiqlənməsi üçün ərizə verir. Övladları; İmam Məmməd bəy, Ağa bəy, Ağa Kazım bəy İsgəndər bəy Ağa bəyin oğludur, 1809-cu ildə anadan olub Fatmeyi, Məştağa sahəsinin Bakı qəzasına qeyd edilmişdir Övladları; Əzim bəy, Kazım bəy, Mehdi bəy Ağa bəyin oğludur. 1809-cu ildə anadan olub. 1849 -cu ildə tərtib edilmiş bəylər siyahısına qeyd edilmişdir. Övladları; Abdul Qəni bəy,Məmməd Səlim bəy, Heydər bəy isə Hacı Ağa Kərim bəyin oğlu olub. Cığa bəy Məhəmməd Həşim bəyin oğludur. 1819-cu ildə anadan olub. Kamerial yazıya görə 1949- cu ildə bəylər siyahısına salınıb. Övladları; Ağa Rəhim bəy, Xan Bala bəy, Pəri xanım, Qıznaz xanım, Zibeydə xanım, Kiçə xanım, Mülayim xanım, Syuzan xanım.

Səlim bəy Məmməd Həşim bəyin oğludur, 1824-cü ildə anadan olub, 1860-cı ildə vəfat edib. Kamerial yazıya görə 1849-cu ildə bəylər siyahısına salınıb. Cabat bəy Məmməd Həşim bəyin oğludur, 1827-ci ildə anadan olub. Kamerial yazıya görə 1849-cu ildə tərtib edilmiş bəylər siyahısına salınıb. Övladları; Məmməd Qulu bəy, Hacı bəy, Ağa bəy, Rza bəy. Tubu və Nur Cahan xanım Məmməd Həşim bəyin qızlarıdır. Cəfər Qulu bəy Zabit Hacı Həsən bəy Səlimxanovun oğlu, 1829-cu ildə anadan olub. O 1849-cu ildə tərtib edilmiş bəylər siyahısına alınıb. Cəfər Qulu bəy Səlimxanov 1873-188-ci illərdə Bakı quberniyası, Qafqaz şiə-din idarəsində kargüzar işləyirdi. Abbas Qulu bəy Zabit Hacı Həsən bəy Səlimxanovun oğludur. 1834-cü ildə anadan olub. Kamerial yazıya əsasən 1849-cu ildə tərtib edilmiş bəylər siyahısına salınıb. Ağa bəy Zabit Hacı Həsən bəy Səlimxanovun oğludur. 1845-ci ildə doğulub. Kamerial yazıya görə 1849-cu ildə tərtib edilən bəylər siyahısına salınıb. Övladları; Əli Bala bəy, Hacı Ağa bəy. Məmməd Hüseyn bəy Zabit Hacı Həsən bəy Səlimxanovun oğludur. Ana-xanım. Zabit Hacı Həsən bəy Səlimxanovun qızıdır, 190-ci ildə doğulub. Həyat yoldaşı; Məmməd Hüseyn bəy Səlimxanov olub. Övladları; Yusif bəy, Süleyman bəy.

Nur Şərəf xanım Zabit Hacı Həsən bəy Səlimxanovun qızıdır. 1913-cü ildə anadan olub. Həyat yoldaşı; İsa bəy Səlimxanov. Övladları; Rza bəy, Kazım bəy, Səlim bəy, Xeyransa xanım, Səkinə xanım, Tükəzban xanım. Məlik Nisə xanım Zabit Hacı Həsən bəy Səlimxanovun qızıdır. Əsməd xanım. Zabit Hacı Həsən bəy Səlimxanovun qızıdır, həyat yoldaşı; Məşədi Məmməd Baba Hacı Mehdi oğlu. Övladları; Məşədi Məmməd Tağı bəy, Abdul Cabbar bəy, Əli Abbas bəy, Nisə xanım. Nəcəf bəy(Ağa bəy) Hacı Heybət Qulu bəyin oğludur. 1833-cü ildə anadan olub, 1895-ci ildə vəfat edib. Kamerial yazıya görə 1849-cu ildə tərtib edilmiş bəylər siyahısına daxildir. 1883-cü ildə əmisi oğlu Məmməd Hüseyn bəy Səlimxanovla birlikdə Bakı şəhərinin böyük neft sənayesi sahibləri kimi adları çəkilib. Həyat yoldaşı; Sofiya Mixaylovna. N. Övladları; Zeynal bəy, Um Səlimə xanım, Um Xanım.

Mehdi Qulu bəy Heybət Qulu bəyin oğludur. 1847 -ci ildə anadan olub. Kamerial yazıya görə 1849-cu ildə tərtib edilmiş bəylər siyahısına salınıb. Heybət Qulu bəyin övladları: Məsmə xanım, Gülsüm xanım, Tutu xanım. Mahmud Səlim bəy Qədir bəyin oğludur.1839-cu ildə anadan olub, 1860 -cı ildə vəfat edib. Kamerial yazıya görə 1849-cu ildə tərtib edilmiş bəylər siyahısına daxil edilib.

Məmməd - Hüseyn bəy Qədir bəyin oğludur. 1917-ci ildə doğulub. Kamerial yazıya görə 1860 -cı ildə tərtib edilmiş bəylər siyahısına salınıb. Həyat yoldaşı; Ana xanım, Hacı Həsən bəyin qızı. Övladları;Yusif bəy, Süleyman bəy. Abutalıb bəy Qədir bəyin oğludur, 1847-ci ildə anadan olub. Kamerial yazıya görə 1849- ildə tərtib edilmiş bəylər siyahısına salınıb. Nur -Məmməd bəy Qədir bəyin oğludur. 1852-ci ildə anadan olub, 1909-cu ildə vəfat edib. Kamerial yazıya görə 1860-cı ildə tərtib edilmiş bəylər siyahısına daxil edilib. Həyat yoldaşı; Səkinə xanım Məmməd Kərim qızı olub. Övladları haqda heç nə məlum deyil. İbrahim bəy Qədir bəyin oğludur. 1860-cı ildə anadan olub, övladları barədə heç bir məlumat yoxdur. İsmayıl

bəy Qədir bəyin oğludur, 1856- cı ildə anadan olub. Kamerial yazıya görə 1860-cı illərdə tərtib edilmiş bəylər siyahısına daxildir. Övladları haqqında məlumat yoxdur. Xədicə xanım Qədir bəyin qızıdır. Mənsur bəy Zabit Kərim bəy Səlimbəyovun oğludur, 1848-ci ildə anadan olub, 1860-cı ildə vəfat edib. Kamerial yazılara görə 1849- cu ildə tərtib edilmiş bəylər siyahısına daxıldir. Mahmud bəy Zabit Kərim bəy Səlimxanovun oğludur. Kamerial yazılara görə 1860-cı ildə tərtib edilmiş bəylər siyahisina salınıb.

Əsəd bəy Zabit Kərim bəy Səlimxanovun oğludur. 1852-ci ildə anadan olub, 1907- ci ildə vəfat edib. Kamerial yazıya görə 1860-cı illərdə tərtib edilmiş bəylər siyahısına salınıb. Həyat yoldaşı; Ana xanım Paşa bəy qızı olub. Övladları haqqında məlumat yoxdur. Firudin bəy Zabit Kərim bəy Səlimxanovun oğludur, 1858- ci ildə anadan olub. Kamerial yazılara görə 1860- cı ildə tərtib edilmiş bəylər siyahısına daxıl edilib. Həyat yoldaşı Səriyə xanım, Bəhram bəy Zabit Kərim bəy Səlimxanovun oğludur, 1865-ci ildə anadan olub. Kamerial yazıya görə 1874-cü ildə tərtib edilmiş bəylər siyahisina daxil edilib. Xosrov bəy 1867- ci ildə anadan olub. “Podporuçik” Kərim bəy Səlimxanovun oğludur. Kamerial yazıya görə 1874-cü ildə tərtib edilmiş bəylər siyahısına salınıb. Səlim bəy “Podporuçik” Kərim bəy Səlimxanovun oğludur. Övladları haqqda məlumat yoxdur. Abdulla bəy “Podporuçik” Kərim bəy Səlimxanovun oğludur. Övladları haqda məlumat yoxdur.

Yeddinci nəsil Sadıq bəyin adı ilə bağlıdır. Zeynal bəyin oğludur, 1843-cü ildə anadan olub, 1914-cü ildə vəfat edib. Kamerial yazıya görə 1863-cü ildə tərtib edilmiş bəylər siyahısına salınıb. Həyat yoldaşı; Məşədi Sənəm Gül Məmməd qızı. Övladları; Kərbəlayi Ağa bəy, Məşədi Rza bəy, Məşədi Həmzə bəy, Zibeydə xanım, Ətir xanım, Xanım-Məsmə. Nəcəf bəy Zeynal bəyin oğludur. Onun haqqında geniş məlumat yoxdur. Məmməd bəy Gizir Hacı Bağır bəyin oğludur, 1843-cü ildə anadan olub, 1912- ci ildə vəfat edib. Kamerial yazıya

görə 1849 -cu ildə tərtib edilmiş bəylər siyahısına salınıb. Həyat yoldaşı; Zeynəb xanım. Övladları; Hüseyn Qulu bəy (1865-?), Nəriman bəy(1867-?), Ələkbər bəy (1870-?), Əhməd bəy(1873-?), Məmməd bəy. İsa bəy Gizir Rza bəy Səlim-xanovun oğludur, 1847-ci ildə anadan olub, 1910- cu ildə vəfat edib. Kamerial yazıya görə 1860-cı ildə tərtib edilmiş bəylər siyahısına daxil edilib. İrsi, böyük neft sərvəti və mülkü, hansı ki onların arasında Qasım bəy karvansarayı( Varvarinski kücəsindəki, sonra Menjinski, indiki H. Rzayeva) var. Kərbəlada dəfn edilib. Həyat yoldaşı; Nur Şərəf xanım Hacı Həsən bəy Səlimxanovun qızı. Övladları; Rza bəy (1875-1962),Kazım bəy, Səlim bəy(1881-1943), Xeyransa xanım (1891-1974), Səkinə xanım(1893-1943), Tükəzban xanım.

Musa bəy Gizir Rza bəy Səlimxanovun oğludur. 1851-ci ildə anadan olub. Kamerial yazıya görə 1860- cı ildə tərtib edilmiş bəylər siyahısına salınıb.

İlyas bəy Gizir Rza bəy Səlimxanovun oğludur.1855 -ci ildə anadan olub. Kamerial yazıya görə 1860- cı ildə tərtib edilmiş bəylər siyahısına daxildir. Övladları haqqda məlumat yoxdur. Əli-Əsgər bəy Məhəmməd Qulu bəyin oğludur. 1860 -cı ildə anadan olub. Kamerial yazıya görə 1874-cü ildə tərtib edilmiş bəylər siyahısına daxil edilib. Məmməd Qulu bəyin övladları: Ziba xanım, Çimnaz xanım, Mina xanım.. İmam Məmməd bəy Ağa Rəhim bəyin oğludur. 1826- cı ildə anadan olub. Kamerial yazıya görə 1863- cü ildə tərtib edilmiş bəylər siyahısına salınıb. Övladları; Əhməd bəy (1857-1937), Ağa Bala bəy, Um Səlimə xanım. Ağa bəy Ağa Rəhim bəyin oğludur. 1840- cı ildə anadan olub. Komerial yazıya görə 1863- cü ildə tərtib edilmiş bəylər siyahısına daxil edilmişdir. Övladları; Məmməd Rəhim bəy, Məmməd Qəni bəy. Ağa -Kərim bəy Ağa Rəhim bəyin oğludur, 1844-cü ildə anadan olub. Kameral yazıya görə 1863- cü ildə bəylər siyahısına daxil edilib. Əzim bəy İskəndər bəyin oğludur. 1846 -cı ildə anadan olub. Kameral yazıya görə 1863- cü ildə tərtib edilmiş bəylər

siyahısına daxil edilmişdir. Kazım bəy İskəndər bəyin oğludur. 1855 -ci ildə anadan olub. Kameral yazıya görə 1863 -cü idə tərtib edilmiş bəylər siyahısına daxil edilib.Övladı; İskəndər bəy. Əbdül-Qəni bəy Mehdi bəyin oğludur. 1866-cı ildə anadan olub. Kamerial yazıya görə 1874-cü ildə tərtib edilmiş bəylər siyahısına salınıb. Məmməd Səlim bəy Mehdi bəyin oğludur. 1874-cü ildə anadan olub. Kamerial yazıya görə 1874-cü ildə tərtib edilmiş bəylər siyahısına daxil edilmişdir. Talıb bəy Heydər bəyin oğludur. Ağa Rəhim bəy Cığa bəyin oğludur. 1846-cı ildə anadan olub. Kamerial yazıya görə 1849-cu ildə tərtib edilmiş bəylər siyahısına daxil edilib. Övladları; Rüstəm bəy (1902-?) Xan Bala bəy Cığa bəyin oğludur. Övladları; Həşim bəy, Qasım bəy, Cəfər bəy, Zöhrə xanım, Zivər xanım. Cığa bəyin övladları: Pəri xanım, Qıznaz xanım, Zibeydə xanım, Kiçə xanım, Mülayim xanım, Syuzan xanım, Məmməd Qulu bəy (1860- cı ildə anadan olub) . Cəbat bəyin övladları: Hacı bəy (1865- ci ildə anadan olub), Ağa bəy ( 1870 -ci ildə anadan olub), Rza bəy (1875-ci illərdə anadan olub), Əli Bala bəy. Hacı Ağa bəy Ağa bəyin oğludur. 1873 -cü ildə anadan olub. Kamerial yazıya görə 1874-cü ildə tərtib edilmiş bəylər siyahısına daxil edilmişdir. Zeynal bəy Nəcəf bəyin oğludur.1886 - cı ildə anadan olub, 1942- ci ildə vəfat edib. Zeynal bəy Səlimxanov, Hacı Zeynalabdin Tağıyevin yaratdığı Bakı Ticarət bankında işləyib. O 1941-ci il, iyunun 28 də NKVD (indiki DTX) tərəfindən antisovet təşviqatı ilə ittiham edilərək 8 il həbs cəzasına məhkum edilmişdi. Həyat yoldaşı; Sara xanım Hacı Zeynalabdin qızı (1899-1991). Övladları; Sadıq bəy, Səfiyə xanım (1917-2005). Um Səlimə xanım Nəcəf bəyin qızıdır, həyat yoldaşı isə İsrafil Hacıyev olub. Um Xanım Nəcəf bəyin qızıdır, 1904-cü ildə anadan olub. Həyat yoldaşı; Xanlar Ağa Xanlarov. Övladı; Adil bəy. Məmməd Hüseyn bəyin övladları: Yusif bəy, Süleyman bəy. Tarixi sənədlər təsdiq edir ki, köhnə Bakı ticarətinin böyük hissəsinə Bakı dəniz limanı vasitəsilə məhz Səlimxanovlar nəzarət

edirdi. Bu gün də bu nəslin davamçıları Azərbaycanın tanınmış şəxsləri siyahısında yer almaqdadır. Onlardan biri Nailə Məmmədəli qızı Vəlixanlıdır. Babası Səlimbəy Səlimxanovun üç övladı olmuşdur - Xosrov bəy (1908-1969), Zərixa xanım (1910-1936), Asiyə xanım (1906-1982).

Nailə Vəlixanlı Asiyə xanımın övladıdır. 1940-cı ildə, dekabr ayının 25-də Bakıda anadan olub. 1963-cü ildə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsini bitirmiş, elə həmin il Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun aspiranturasına daxil olmuş, 1968-ci ildə akademik Ziya Bünyadovun elmi rəhbərliyi ilə namizədlik dissertasiyasını müdafiə etmişdir. Sonrakı illərdə Azərbaycanın orta əsrlər tarixinin mənbəşünaslıq problemlərinin öyrənilməsi, regionun sosial-iqtisadi münasibətləri, siyasi-mədəni tarixi və tarixi coğrafiyası məsələləri elmi yaradıcılığında əsas tədqiqat obyekti olmuşdur. Xeyli sayda elmi məqalələri və monoqrafiyaları var. 2001-ci ildə AMEA-nın müxbir üzvü, 2007-ci ildə isə həqiqi üzvü seçilmişdir. 1998-ci ildən Milli Azərbaycan Tarix Muzeyinə rəhbərlik edir.

Səlimxanovlar nəslinin sonuncu nümayəndələrindən biri Tələt Mehdiyevdir. O, 1944-cü ildə İçəri şəhərdə anadan olub. anadan olmuşdur. Atası Rzaqulu Əliabbas oğlu mühəndis-konstruktor, anası isə Gülşən Səlimxan qızı Səlimxanova jurnalist-tərcüməçi vəzifəsində işləyib.

Tələt Mehdiyev ixtisasca fizikdir. Fizika elmləri doktoru, professordur. Hal-hazırda AMEA-nın Fizika İnstitutunda laboratoriya rəhbəri vəzifəsində çalışır. Xeyli sayda elmi məqaləsi və bir neçə monoqrafiyası var.

Azərbaycanda qədim sülalə ənənələri hələ də davam etməkdədir. Bu gün tanınmış, zadəgan və ziyalı nəsillərin nümayəndələrinə cəmiyyətdə xüsusi hörmətlə yanaşırlar. Təbii ki, bu səbəbsiz deyil. Səlimxanovlar nəsli digər əsilzadə ailələri arasında həmişə böyük nüfuz sahibi olublar. Ölkəmizin, şəhərimizin inkişafına, xüsusən mədəniyyətin çiçəklənməsinə

böyük töhfələr vermiş bu zadəgan nəsli həmişə hakimiyyətin rəhbər strukturlarında təmsil olunublar.



***Səlimxanovlara məxsus olan Qasım bəy karvansarası (İndiki Muğam klubu)***

Karvansaranın yanındakı ev isə 1883-cü ildə tikilmiş, Səlimxanovlara məxsus evlərdən biridir. ( Əli Abbas Mehdiyev sahibkarı olub, sonra isə bu evdə Səlim bəy Səlimxanovun qızı, onun həyat yoldaşı R.A.Mehdiyev və onların uşaqları yaşayıb).



***Səlimxanovlara məxsus olan Qasım bəy hamamı. XV əsr. (Müasir görünüşü)***

Köhnə Bakı. 1861 ci il. Solda ön planda Qız qalasının qabağında Qasım bəy karvansarayının (XVəsr) görünüşü.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Azərbaycan Tarixi Şəcərə Cəmiyyəti. Bakı, 2012.
2. Manaf Süleymanov. Eşitdiklərim, Oxuduqlarım, Gördüklərim. Bakı, Azərnəşr 1989.
3. Azərbaycan Xalq Cümhuriyyəti(1918-1920) Parlament (stenoqrafik hesabat) 2 cilddə. Bakı, Azərnəşr, 1998.
4. Məmmədəmin Rəsulzadə. Əsərləri III cild. Bakı, Elm, 2012.



**Nərmin Alıyeva**
*Elmi-Mədəni Mərkəzin*
*tarix üzrə elmi işçisi*

# Müqəddəs Nikolay kilsəsi

Qədim Bakıda məscidlərlə yanaşı pravoslav məbədləri, sovmələr, kilsələr və müxtəlif ibadət evləri mövcud olmuşdur. Belə dini tikililərdən biri də Bakının qədim ərazisi İçəri şəhərdə tikilmiş Müqəddəs Nikolay kilsəsidir.

XIX əsrin əvvəllərində Rusiya Cənubi Qafqazı, o cümlədən Azərbaycan ərazilərini işğal etmişdi. 1806-cı ildə Azərbaycanın digər əraziləri kimi Bakı xanlığı da Rusiyanın tərkibinə qatıldı. Tezliklə xanlıqlar ləğv edildi və qəzalar yaradıldı. Bakı qəzalar  mərkəzi beynəlxalq əhəmiyyətli su və quru yollarını özündə qovuşduran və bu səbəbdən də əlverişli coğrafi mövqeyə malik olan Bakı şəhəri təyin edildi. Bakı şəhəri tarixən Azərbaycanın Xəzəryanı ölkələrlə ticarət əlaqələrində müstəsna rol oynamışdır.[3]

Möhkəm qala divarları ilə əhatə olunmuş bu şəhərə bir neçə yerdən giriş var idi. Əsas giriş isə Şamaxı və Salyan qapılarından sayılırdı. Buranı rus əsgərləri xarici hücumlardan qorumaq məqsədilə daim nəzarətdə saxlayırdılar. İşğaldan sonra rus hakim dairələrinin qarşıya qoyduğu əsas məsələlərdən biri hərbçi və məmur heyətinin ehtiyacını təmin etmək üçün pravoslav kilsələrinin tikilməsi məsələsi idi. [1]

1818-ci ilə qədər Bakıda daimi fəaliyyət göstərən kilsələr olmamışdı. Elə həmin ildə Qız Qalasının yaxınlığında İçəri şəhərin “qaranlıq cərgələr” kimi tanınan küçələrindəki məscidlərdən birini pravoslav məbədinə çevirmək qərara alındı. Onu da qeyd edək ki, bu məscid ehtimala görə, e.ə. I minilliyin ortalarına aid olan qədim atəşpərəstlik məbədinin fundamenti üzərində tikilmişdi. Həmin məscid neçə illər idi ki, hərbçilərin anbarı kimi fəaliyyət göstərirdi. Məhz  bu məscidi 1815-ci ildə

yenidən quraraq Müqəddəs Nikolay Mira-Likiysk kilsəsini tikdilər. Lakin bu kilsə kiçik və rahatçılıq baxımından əlverişsiz idi. Buna görə də tezliklə yeni bir pravoslav məbədinin tikilməsi məsələsi ortaya çıxdı.



29 iyun 1821-ci ildə Bakıda yeni kilsənin tikilməsi ilə bağlı komitə yaradıldı. Komitənin sədri Bakı komendantı polkovnik Məlikov təyin edilmişdi. İlkin olaraq kilsənin Şirvanşahlar sarayının yerində tikilməsi qərara alındı. Lakin Qafqazın ali baş komandanı general A.P.Yermolov buna qarşı çıxdı. Ona görə yox ki, o dünya əhəmiyyətli bu abidənin qorunub saxlanmasını istəyirdi. Səbəb o idi ki, bu saray dövlət müəssisələrinin yerləşdirilməsi üçün xüsusilə geniş yer idi.



Elə həmin vaxt Bakının yeni komendantı olan polkovnik Afanasyevə əmr olundu ki, yeni pravoslav məbədinin tikilməsi məqsədilə Şirvanşahlar sarayına yaxın olan iki məscidə baxış keçirilsin. Lakin mühəndis Truzson yoxlamalardan sonra belə qərara gəldi ki, bu mümkün deyil.

1831-ci ilin yanvarında Bakının pravoslav əhalisi şəhər komendantı podpolkovnik Kolomiytsevə müraciət edərək Bakıda Müqəddəs Nikolayın adını daşıyan yeni məbədin tikilməsini istədilər. Podpolkovnik İsayev tərəfindən hazırlanmış tikinti layihəsi və smetası Tiflisə gürcü ekzarxı İona baxış üçün göndərildi. 1850-ci ildə məbədin tikintisinə razılıq verildi. Elə həmin ildə tikinti işləri üzrə komitə yaradıldı. Komitənin tərkibinə baş məsləhətçi Yeqor Trofimoviç Palaşkovskiy, Bakı uçilişinin direktoru Stepan İvanoviç Qorodenskiy və keşiş Dmitriy Aleksapolskiy daxil idilər. Əsas məsələ yeni kilsənin tikiləcəyi yerin müəyyən edilməsi idi. Əvvəl təklif olundu ki, yeni məbəd Şamaxı

qapılarının kənarında, forştadta yaxın ərazidə, şəhər upravası binasının yerində tikilsin. Lakin tikinti işləri üzrə komitə Kilsənin qala divarları daxilində, Şamaxı qapılarının yaxınlığında, hərbi qaupvaxtın qarşısında tikilməsini daha əlverişli hesab etdi. O dövrdə həmin ərazidə hamam və bir neçə kiçik yaşayış evi vardı. Kilsənin tikintisinə 1850-ci il 18 mart tarixində başlanıldı. Bünövrənin əsasına məbədin tikildiyi il, ay və gün göstərilmiş gümüşü zərli lövhəcik qoyulmuşdu. Layihənin müəllifi tiflisli memar Belov idi. Kilsəni iki trabzonlu yunan - Semyon Qiter və Xarlampiy Polistov inşa etmişdi. Tikinti işləri 28 oktyabr 1857-ci ildə başa çatdı. Kilsəyə gürcü ekzarxı arxiyepiskop İsidorun təşəbbüsü və təkidi ilə e.ə. Likiya dövlətinin Mira şəhərində yaşamış arxiyepiskop müqəddəs Nikolaus Mirlikiyskinin (e.ə. 260-243) adı verilmişdir. Türkiyənin Antalya şəhəri yaxınlığındakı qədim Mira adlı qəsəbədə hal-hazırda da arxiyepiskop müqəddəs Nikolausun ev muzeyi və kilsəsi var. [2]

Hündürlüyü  45 metr olan, xaç formasında və mehrabı şimala tərəf tikilmiş Nikolay kilsəsinin iki prestolu (hündür stul) vardı. Bunlardan birincisi (əsası) müqəddəs Nikolayın adına, digəri isə müqəddəs Məryəmin şərəfinə tikilmişdi. Dörd yaruslu ikonlarla bəzədilmiş divarlar üzərində işlər 1853-cü ildə M.Q.Panin tərəfindən işlənilmişdi. Kənarlardakı iki yaruslu ikonlar isə qoz ağacından düzəldilmişdi. Taxta-dülgər işləri Bakıda Meyerin emalatxanasında aparılmışdı. Üç yaruslu zəng qülləsində 5 zınqırov var idi. Kilsə gürcü-bizans stilində, dördguşəli xaç şəklində tikilmişdi və 500 nəfərə qədər adam tuturdu. [6]



Yuxarıdakı şəkildən görünür ki, kilsə hasarla əhatə olunub. Kilsənin arxa, yəni şimal tərəfində zəng qülləsi var. Əgər kilsənin zəng qülləsi yoxdursa, o sovmə - yəni məhəllə kilsəsi (rusca “часовня”) sayılırdı. Zəng qülləsi mövcuddursa, o şəhər kilsəsi hesab edilirdi. Buna əsaslanaraq Müqəddəs Nikolay kilsəsinin şəhər kilsəsi olduğunu əminliklə söyləmək olar.

Müqəddəs Nikolay kilsəsi 1920-30-cu illərdə sökülmüş, onun yalnız aşağı hissəsi qalmışdır. Hazırda həmin hissədə "Bakıelektrikşəbəkə"nin Səbayıl İdarəsi fəaliyyət göstərir.

Hazırda "Böyük Qala 53" ünvanında yerləşən və inventar sayı 2157 olan Müqəddəs Nikolay kilsəsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il siyahısı üzrə yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidəsidir. Bina ikimərtəbəlidir, zirzəmisi və ya çardağı yoxdur. Daxili açıq keçidə və həyətə malikdir. Kilsə kimi istifadə edildiyi dövrdə ərazidə nəzərə çarpacaq mövqeyə malik olmuşdur. Hal-hazırda bina məhəllənin bir hissəsidir. Böyük və Kiçik Qala küçələrinin kəsişməsindədir. [5]




1-ci mərtəbə
I mərtəbə Həyət
I mərtəbə Giriş


2-ci mərtəbə

Binanın eksteryerində dekorativ və memarlıq elementlərin təsviri xüsusi yer tutur. Belə ki, binanın fasadı girintili-çıxıntılı formaya malikdir. Rus memarlıq məktəbinə aid elementləri pəncərələrin, karnizin (çıxıntılı bəzək dekoru) həllində müşahidə etmək olar. Hazırda binanın daxili planlaşdırılması elektrik şəbəkənin ehtiyaclarının ödənilməsinə uyğunlaşdırılmışdır.

Binanın daxili və xarici bünövrələri daşdan, örtük konstruksiyaları ağac materialındandır. Binanın tikinti altı sahəsi 303,6 $m^2$, ümumi sahəsi 482,4 $m^2$, əsas sahə 377,6 $m^2$, köməkçi sahə 104,8 $m^2$-dir. [5]

Müqəddəs Nikolay kilsəsi dünya və ya ölkə əhəmiyyətli abidələr sırasına daxil edilməmişdir, lakin kilsənin binası yerli əhəmiyyətli abidə olub qədim Bakının memarlıq panoramına uğurla daxil olmuşdur.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**


1. Энвер Паша-Заде. Мечети и церкви старого Баку. Часть 1-2. Баку – 1997.
2. Энвер Пашазаде. Православные храмы старого Баку.
3. Azərbaycanın beynəlxalq çoxtərəfli qarşılıqlı əlaqələrində Bakının rolu. 3-cü Bakı beynəlxalq simpoziumu. Bakı- 1997.
4. İçərişəhər Azərbaycan tarixində. AMEA-nın nəşri. Bakı- 2007.
5. "İçərişəhər" DTMQİ-nin arxivi
6. www.ourbaku.com

**Fidan Seyidova**
*"İçərişəhər" Tarixi muzeyinin*
*Elmi-tədqiqatlar şöbəsinin*
*baş elmi işçisi*

# Баку – колыбель культуры Востока

Интенсивное развитие Баку и его поистине всемирная известность приходятся на вторую половину XIX столетия. Особенно этот процесс стал усиливаться в 1850-1920 годах. Причиной появления внешнего города является рост населения в крепости, рост производства, связанный с развитием капитализма. Именно с этого периода появилось разделение на внутренний (Ичери шехер – «шахристан») и внешний (Байыр шехер – рабат) город.

Экономический подъем конца XIX века превратил Баку в один из крупнейших деловых центров и самый крупный и значительный город на Кавказе. Бакинская нефть оказала влияние на развитие экономики всего Кавказа. Облик города менялся на глазах. Каждая пядь городской земли продавалась на вес золота. Стремительный рост различных отраслей ремесел, успехи, ДОСтигнутые во внешней и внутренней торговле, послужили причиной важных изменений в социально-экономической структуре города. В начале XX века в Баку насчитывалось уже двести с лишним крупных и мелких заводов, всевозможных мастерских. Город, его промыслы и заводы напоминали собой гигантскую строительную площадку. Повсюду возводились здания, сколачивались вышки, поднимались заводские и фабричные корпуса.

В Баку начинается лихорадочное строительство домов чрезвычайно разнообразных с точки зрения архитектурных стилей. Для их построения из разных стран приглашались талантливые архитекторы, такие как Плошко,

Скибинский, Гославский, Скуревич, Баев, Фон-дер Нонне и многие другие. Здания сооружались богачами на европейский манер в стиле барокко, модерн, в готическом, мавританском стиле. С развитием капитализма бакинские миллионеры, обогатившиеся нефтяными доходами, стали возводить один прекраснее другого дома – особняки как в Ичеришехер, так и за пределами крепостных стен.

Один из первых миллионеров-меценатов Зейналабдин Тагиев в 1895-1897 годах выстроил в центре Баку большой дворец – это теперешний Музей Истории Азербайджана, который воплотил в себе различные архитектурные стили. Помимо зданий, школ и мечетей, возведенных на Родине, он строил дома в Москве, в окрестностях Энзеля и Решта, в Иране, в Греции и в других странах. Самый крупный домовладелец в Азербайджане Муса Нагиев построил 98 зданий, которые по сей день являются шедевром зодчества. Венец архитектуры города - величественное здание мусульманского благотворительного общества «Исмаилийе», и названо в честь его сына. Нефтепромышленник - миллионер Муртуза Мухтаров в 1911-1912 годах построил в Баку копию венецианского дворца (Дворец счастья), который по сей день является одним из самых примечательных архитектурных сооружений Баку. Вызовом городу плоских крыш в то время был дом Исабека Гаджинского. Этот дом сформировал «неповторимый облик Баку», и воспринят как символическое обозначение принадлежности Баку к тронным городам.

Один из прекрасных и уютных домов-имаретов (частных особняков) построенный Мамедзаде, живописно вписывающийся в облик старого города, расположен по адресу Большая Крепостная № 42. Базарный ряд тянувшийся от парных ворот до Джума мечети, был оживленным торговым центром, по ту и по эту стороны улицы тянулись бесчисленные ряды лавок, караван-сараи.

Базар делился на верхний и нижний. На верхнем продавали изделия подороже, нижний же занимали бакалейщики и продавцы всякой безделицы. Лавки шорников, бакалейщиков, торговцев мануфактурой, башмачников, красильщиков, шапочников, свечников, чуречников, продавцов кебаба, джыз-быза, лаваша, хаша бывали открыты до полуночи. Проходя по этим улицам словно слышишь выкрики продавцов воды, угля, халвы и сладостей.

Дом-имарет на большой Крепостной №42, построенный в стиле раннего классицизма («русский ампир»), состоит из двух этажей. Помещения первого этажа были растворными. Особенно помпезно выглядела фасадная часть здания с ложными колоннами (наполовину утопленная в тело здания), покрытые коннелюрами. На первом этаже, так же как и на втором, имелась кухня и по несколько комнат. Большой зал на втором этаже с интересными каменными наличниками считался гостевой комнатой, в свое время устланный неповторимыми персидскими коврами, и был обставлен европейской мебелью. Подвал дома использовался как хранилище всяких сухофруктов, привезенных из субтропических зон. На крыше здания стояли три женские фигуры, центральная, имеющая 2-х метровую высоту (в настоящее время поставлена копия) по всей вероятности была фигура богини «Клио» - покровительницы истории. От этой скульптуры до углов дома отходили длинные и толстые цепи (откуда и название дома) на женские скульптуры меньших размеров, здесь же наряду со скульптурами имелись два вазона округлой формы (ныне утеряны). Боковая сторона имеет железные ворота, ведущие во двор особняка. Во дворе с краю на круговой балкон второго этажа вела каменная винтовая лестница ажурной работы. Этот замок был куплен Гасанали Меликовым для своих сыновей у семейства Мамедзаде за 50-55 тысяч манатов

золотом. Его еще называли «зенджилли ев» («дом с цепями»). Но через шесть месяцев после приобретения этого дома большевистская власть отняла его у Меликовых, конфисковав все имущество.

Мешади Теймур Кербалаи Гасанали оглы Меликов и его брат были владельцами дома, но до его приобретения семья жила в Ичеришехер на улице Тверская №29 в двухэтажном доме, построенном дедом Мелик Мамедом. Мешади Теймур родился в 1893 году в городе Баку в семье известного коммерсанта и в начале XIX века в Азербайджане, в частности в городе Баку, сыграл немаловажную роль в развитии торговли. Его дедушка Мелик Мамед и отец Кербелаи Гасанали были одними из известных коммерсантов. В конце XIX века семья Меликовых получила одну из первых чинов купца II гильдии. Меликовы в основном имели торговые отношения с Ираном и Россией. Мешади Теймур участвовал на ярмарках в Нижнем Новгороде. Они скупали в Иране хурму, кишмиш и другие продукты, отправляли в Россию, а взамен покупали для продажи фарфор, тульские самовары, меховые изделия. В субтропической зоне Ирана у них имелись собственные апельсиновые сады.

Мешади Теймур женился на Кубре ханум - дочери известного бакинского миллионера Гаджи Аслан Ашурова. После прихода к власти большевики стали отбирать имущество у богатых. Эта участь не миновала и семью Меликовых. А в это время в России начинается повальный голод, и когда в Баку приезжает комиссар Иностранных дел Георгий Васильевич Чичерин, то за заслуги в деле ликвидации голода и за внедрение новой экономической политики награждает Мешади Теймура званием «Гырмызы таджир» (Красный купец). Разрешив свои финансовые проблемы, он опять налаживает коммерческие связи с Ираном и Россией. К сожалению, новая экономическая

политика недолго продержалась в Азербайджане (1921-1925 годы). В 1930 году без видимых причин Мешади Теймур объявляется «Непманом» и заключается под стражу. Его отправляют в Среднюю Азию и после тяжелых скитаний в 1932 году он возвращается в Баку. В 1941 году, когда началась война, семью Мешади Теймура вместе с ним как неблагонадежных людей опять отправляют в ссылку. Причем семья попадает в деревню Долматово, а самого Мешади Теймура помещает в Казахстанскую колонию. Не выдержав тягот ссылки, семья пишет Сталину письмо. «Вождь народов», сжалившись над ними, в 1943 году дает добро на возвращение в Баку, но семья оседает в Дербенте. За очень короткий срок Мешади Теймур, благодаря своим организаторским способностям и недюжинным знаниям, становится начальником Дагестанского Рыбного Треста. В 1947 году Мешади Тееймур с семьей переезжает в Баку и до конца своей жизни работает в системе местной промышленности. В 1971 году Мешади Теймур ушел из жизни, а в 1990 году его семья получила извещение о полной реабилитации.

Тесть Мешади Теймура - Гаджи Аслан Ашуров сыграл большую роль в развитии экономики Баку в конце XIX и в начале XX века. Он не был так называемым «сундучным миллионером», а тратил свой капитал на различные дела с пользой для страны. В 1876 году впервые в Азербайджане Гаджи Аслан Ашуров удостоился звания купец I гильдии (даже З.Тагиев получил это звание после него только в 1882 году). У него имелись большие посевные площади в Ставрополе, мельницы на Северном Кавказе и Иране, магазины по всему Азербайджану. В период продажи нефтяных земель в Баку Гаджи Аслан купил огромную территорию земли и поставил там нефтяные вышки, участвовал в благотворительных делах. Он построил бани «Мардане» и «Занане». Посылал пособие на

обучение Н.Нариманову (25 манат в месяц). Гаджи Аслан был членом Бакинской думы, а также членом организации «Союз русского народа». Царское государство наградило его орденом Станислава III степени и «золотой медалью» весом в 4.266 граммов. После его смерти в течении 3-х дней народ  прощался с ним. Одно ясно, что человек, сделавший так много для своего народа, не может быть забыт.

Каждая из эпох культуры одарила Баку замечательными архитектурными памятниками. Некоторые из них представляют собою уникумы в культурном развитии Востока. И каждый из исторических этапов одарил его людьми, прославивших эпоху.  Одними из них было семейство Меликовых, внесшие свой вклад в процветание нации.



**Мешади Теймур**



**Кубра ханум**

 

**Гаджи Аслан Ашуров**

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Ədalət Tahirzadə "Aşurovlar – soyun sənədli tarixi "
2. İnformatorlar: (Aşurovun nəvələri ) Məlikov Azər Məşədi Teymur oğlu,
   Məlikova Səbirə Məşədi Teymur qızı

**Aynur Məmmədova**
*“İçərişəhər” Tarixi muzeyinin*
*Elmi-tədqiqatlar şöbəsinin*
*aparıcı elmi işçisi*

# Dadaşovlar

*(Azərbaycanın gildiya tacirləri silsiləsindən)*

Azərbaycanın neft ölkəsi olması, bu məhsuldan məişətdə, tibbi və hərbi məqsədlər üçün istifadə olunaraq, böyük gəlirlər gətirməsi haqqında məlumatlar hələ erkən orta əsrlərdən məlum idi. Məşhur türk səyyahı Övliya Çələbi Bakıda olarkən buradakı neft mədənlərindən, neftin İrana, Orta Asiyaya, Türkiyəyə və Hindistana aparılmasından və şəhərdə fəaliyyət göstərən neft şirkətlərindən ətraflı bəhs edirdi.

XIX əsrin ortalarından neftin sənaye üsulu ilə hasilatı başlandıqdan sonra isə ölkədə əsil neft bumu baş verir. Rotşild və Nobel qardaşlarının Bakıya gəlişi isə neft hasilatının daha güclü şəkildə inkişafına, Bakı bəylərinin həyatına və yüksəlişinə bilavasitə təsir etdi və sənayenin bəzi sahələrinin də genişlənməsinə səbəb oldu.

Azərbaycan tarixində əvəzsiz rolu olan Şəmsi Əsədullayev, Musa Nağıyev, Hacı Zeynalabdin Tağıyev, Murtuza Muxtarov, Şıxəli və Hacıağa Dadaşovlar və b. milyonçuların gəlirləri Azərbaycanda “gildiya ticarət” qaydasının tətbiqinə, ticarətin təşkili sisteminin təkmilləşdirilməsinə zəmin yaratdı. Və 1876-cı ilin mart ayından etibarən gildiya ticarət qaydası Azərbaycanda da tətbiq edilməyə başladı. Tacirlər malik olduğu kapitalın həcmindən və fəaliyyət dairəsindən asılı olaraq gildiyanın hər hansı bir dərəcəsinə yazılaraq öz müəssisələri üçün müəyyən sənəd şəhadətnamə götürərək gildiyalara bölünürdülər.

Birinci gildiya tacirinə çox böyük hüquqlar verilirdi. O, mallarını başqa dövlətlərdə satmaq üçün lazım olan qədər

kontor və anbar açmaq hüququna malik olurdu. İkinci gildiya tacirləri isə qəza və kəndlərdə istənilən qədər dükan açmaqla bərabər topdan satış üsulu ilə mallarını sata bilərdilər. Xırda alış-veriş şəhadətnaməsi olan tacirlərin isə yalnız şəhadətnamə aldıqları qəzada dükan açmağa ixtiyarı var idi və bu dükanlarda ancaq Qafqaz canişinliyi tərəfindən tərtib olunmuş siyahıda göstərilən mallar satıla bilərdi.

XIX əsrin 70-ci illərindən etibarən gildiya ticarət müəssisələri ilə bərabər, xırda şəhadətnamə ilə idarə olunan müəssisələr də sürətlə artırdı və bu gedişlə XIX əsrin sonlarında Azərbaycanda gildiya ticarət müəssisələrinin sayı xeyli çoxalmış oldu. Yelizavetpol və Bakı quberniyalarında artıq onların sayı 1724 - dən 2638 - ə qədər artmışdı. Bu müəssisələrin çoxu Bakı şəhərində, bəziləri isə Şəkidə Şamaxıda və Şuşada fəaliyyət göstərirdi. Bu ticarət sistemi ilə əlaqəli 1876- cı ildə 8 minə yaxın ticarət sənədi vardısa 1898 - ci ildə isə bu say 25 minə çatmışdı.

XIX əsrin sonunda isə Azərbaycanda bütün ticarət müəssisələrinin illik dövriyyəsi təqribən 190 milyon manata çatırdı. İllik dövriyyənin və ticarətin sürətli inkişafı səbəbilə Azərbaycanda gildiya tacirlərinin də sayı sürətlə artırdı və 1886 - cı ildə Bakıda 20 nəfər birinci 165 nəfər ikinci gildiya tacir var idi. Məşhur milyonçulardan Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Şıxəli və Hacıağa Dadaşovlar birinci gildiya tacirlər qrupuna daxil idi.

Azərbaycanda gildiya ticarət qaydasının tətbiqindən sonra ticarət sənədlərinin, şəhadətnamələrin və ticarətmüəssisələrinin sayının xeyli artması bilavasitə, şəhərin bədii estetik görünüşünə və inkişafına da təsir göstərdi. Və Bakı şəhərinin mərkəzində yeni yaşayış evlərinin tikilməsinə başlandı.

Azərbaycan ilk dəfə I gildiya tacir adını alan, ölkəmizin sənaye tarixinə adını qızıl hərflərlə yazdırmış xeyriyyəçilikdə ad qazanmış, məşhur soylardan biri də Dadaşovlardır.

Bakı neft milyonçuları ilə məşhur olsa da Dadaşovlar gəmiçilik ticarəti ilə məşğul olduqları üçün Azərbaycanda gəmiçilik ticarətinin ilk qurucularından hesab olunurlar. Belə ki, Bakıda texniki tərəqqi baxımından ilk gəmi təmiri tərsanəsinin bünövrəsi məhz Dadaşovlar tərəfindən qoyulmuşdur. İşgüzar fəaliyyətlərini gəmilərin hazırlanmasına mülk və binaların tikdirilməsinə və xeyriyyəçilik işlərinə həsr ediblər.

Ailədə doğulan hər bir uşağın şərəfinə onun adını daşıyan gəminin dənizə buraxılması kimi bir adətin olduğunu nəzərə alsaq, (Məsələn, "Məsmə", "Qara Kapitan", "İosif" sonralar "Paşa Dadaşov", "Həsən Dadaşov" və. s) onda Dadaşovların gəmi ticarətinin həcmini təsəvvür etmək heç də çətin deyildir.

Gəmiçilik işi ilə yanaşı onların şəhərdə çoxlu mehmanxanaları, karvansarası, və onlarla yaşayış binaları var idi. Bunlardan 23 saylı orta məktəbin, Diaspora işi üzrə Dövlət Komitəsinin, Dövlət Sərhəd Xidmətinin, əvvəllər Həkimlər Evi kimi tanınan bina (hal-hazırda bina mövcud deyil), İçəri şəhərdə yerləşən "Təbriz" oteli Vəli Məmmədov 22, Böyük Qala küçəsində bir neçə yaşayəş evi, Əziz Əliyev (Zevin), "Şamaxinka" və s kimi ünvanlarda 40 - a yaxın, ümumilikdə isə 70 -ə yaxın mülkləri olmuşdur.

O dövrdə otel olaraq tikilən "Metropol" adlanan hal - hazırda isə Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyi kimi fəaliyyət göstərən bina da məşhur Dadaşov qardaşlarına məxsus olub. Bu otel binasından gələn gəlir sırf xeyriyyə məqsədilə istifadə edib.

Ümumiyyətlə, Dadaşovlar xeyriyyəçilikdə ad qazanıblar. Onlar birlikdə gəlirlərinin 25 % - ni əhalinin su ilə təmin olunması məqsədi ilə Bakıya şollar suyunun çəkilməsi işinə sərf ediblər. Hacı Hacıağa Dadaşov isə Azərbaycanda ilk dəfə qocalar və yetimlər evi tikdirən milyonçu olmuşdur. O, Bilgəhdəki şəxsi mülkünü qocalar evinə çevirmiş, Lənkəranda isə valideynlərindən məhrum olmuş uşaqlar üçün körpələr evi tikdirmişdir.

Dadaşovlar ailəsinin halal və imanlı olması məscidlərin tikintisində və təmirində də başlıca rol oynamışdır  belə ki, onlar Məkkədəki məscidlərdən birinin qülləsinin tikilməsi üçün qızıl göndərmiş, Sankt-Peterburqda məscidin inşası üçün 20 min manat ianə köçürmüş, Bakıda isə Bibi-Heybət məscidini bərpa etdirmiş və yanında yeni bir məscid tikdirmişdilər.

1876-cı ildə birinci olaraq "I gildiya tacir" rütbəsi alan Şıxəli Dadaşov Bakıda yerləşən Rusiya Dövlət Bankının qeydiyyat komitəsinin  və  Bakı Dumasının üzvü olmuşdur. Onun adı İçərişəhərlə daha çox bağlıdır.

O,1899-cu ildə şəxsi vəsaiti hesabına Cümə məscidini tikdirmişdir. (XIII əsrdə inşa olunmuş məscid qalıqlarının üzərində) Dadaşovun qoyduğu qayda üzrə məscid təmənnasız olaraq, nəzir qutusu olmadan fəaliyyət göstərirdi və  məscid bu gün də İçəri şəhərin çox tanınmış məscidi kimi fəaliyyət göstərir. Dadaşovlar bakılıların və əsasən də içərişəhərlilərin yaddaşlarında xeyriyyəçiliklə yanaşı həm də səxavətli insanlar kimi qalmışdır. Deyilənlərə görə, onlar öz evlərindən bir neçəsini kasıb insanlara  veriblərmiş və  milli bayramlarda əhaliyə sovqatla dolu səbətlər paylayarmışlar. Şıxəlı Dadaşov isə hər dəfə  İçəri şəhərə gələndə faytonla gəzərkən qarşısına çıxan hər adama qızıl pul verərmiş.

Yerli əhali tərəfindən xüsusi ehtiram göstərilən və sevilən bu şəxsiyyətlər hələ də dillərdən düşmürlər. Hətta o dövrlərdə elədiyi xeyriyyəçilik işlərinə hörmət əlaməti olaraq  yerli əhalinin tələbi ilə Hacı Şıxəli Cümə məscidinin yanında dəfn olunmuşdur. Hacı Şıxəli və Hacıağa Dadaşovlar  nəinki Azərbaycanda həmçinin  İranda və bütün Qafqazda hörmətli və nüfuzlu bir şəxslər olmuşdur.O zaman Bakı Dumasına seçilən 23 nəfərdən üçü məhz  Dadaşovlar nəslindən olmuşdur. Bu soyun  davamçıları Ağa Yusif və Əliabbas Dadaşovlar (Hacıağa Dadaşovun oğulları) öz dövrlərinin görkəmli ziyalı nümayəndələrindən olmuşlar. Hətta ağa Yusif Dadaşov atasının sağlığında artıq varis elan edilmişdir. İsveçrədə və

İranda təhsil alan Ağa Yusif Dadaşov Rusiya imperiyasında 4-cü dərəcəli vəzifədə qulluq etmişdir. O,12 il qüsursuz xidmətə görə "Müqəddəs Anna", 15 il qüsursuz xidmətə görə "Müqəddəs Stanislav", III dərəcəli Çar ordeni, İmperator II Nikolayın tac qoyma mərasimi şərəfinə bürünc medallar və ordenlər alan 12 dil bilən Yusif ağa Çar Rusiyasında həqiqi mülki müşavir rütbəsinə qədər yüksəlmiş və Rusiyanın "fəxri vətəndaşı" titulunu almışdır.

O, gəmiçilik ticarətindən əldə etdiyi gəlirinin əksəriyyətini xalqının maariflənməsi üçün Qori Müəllimlər Seminariyası və "Qızlar məktəbi"nə, Bakı-Batum neft kəmərinin çəkilməsinə, Bakı Duması (indiki Bakı İcra Hakimiyyəti) binasının inşasına sərf etmişdir. Hacının kiçik oğlu Əliabbas Dadaşov da Yusif ağa kimi yüksək mənsəb sahibi olmuşdur. O Bayıldakı gəmi tərsanəsinin sahibi idi. Fətəli Şah Qaçarın III dərəcəli "Şir və Xurşid", İsveç Kralı Qustavın təsis etdiyi I dərəcəli "Vassa" ordenləri ilə təltif olunmuşdur. Bu isə onun Isveç Kralının sərkərdəsi olduğundan xəbər verir. Qeyd etmək lazımdır ki, Əliabbas Dadaşov bu ordenə layiq görülən yeganə azərbaycanlı olmuşdur.

Nəslin davamçıları xeyriyyəçi olmaları ilə bərabər həm də güclü vətənpərvər olublar. Belə ki, Azərbaycanda milli hökumətin yaradılmasına və fəaliyyət göstərməsinə maddi yardım edən qardaşlar 1918-ci ildə Bakıda mart soyqırımı zamanı dəstələri ilə birgə ermənilərə qarşı silahlı mübarizə apararaq xüsusi şücaət göstərmişdilər. Deyilənlərə görə mübarizə zamanı erməni əsgərinin Yusif ağaya qılıncının altından keçməyi əmr edərkən, Yusif ağa Dadaşov: "Mən türkəm, türk ölər, ancaq erməni dığasının qılıncının altından keçməz" cavabını vermişdi.

Azərbaycanın - Bakının adını tarixə yazdıran bu xeyriyyəçi, vətənpərvər və səxavətli insanların soyunun müasir davamçıları memar Sadıq Dadaşov (Hacıağa Dadaşovun nəvəsi)

və neft mütəxəssisi Fərid Dadaşov(Şıxəli Dadaşovun nəvəsi) bizim müasirlərimizdir.

Əslən içərişəhərli olan bu messenatların Bakının müxtəlif yerlərindəki mülklərinin bəziləri hələ də (müxtəlif funksiya daşısa da) qalmaqdadır. Dadaşovların İçəri şəhərin əsas küçələri üstə yerləşən yaşayış binaları isə öz tarixiliyini və bədii estetik görünüşünü qoruyub saxlamışdır.

Onların 1890-cı ildə inşa olunan (V. Məmmədov 22) mülkünün memarlığında klassik üslubdan istifadə olunsa da inşası şəhərdə mövcud olan milli memarlıq ənənələrinə istinad edilərək yerinə yetirilmişdir. Binanın memarlığında klassik üslubla yanaşı, milli memarlıq irsinə də müraciət olunmuşdur. Hansı ki, binanın plan həllində daxili həyətin istifadə olunması buna bir nümunədir. Binada mövcud olan yaşayış otaqlarının demək olar ki, hər birində öz gözəlliyi ilə nəzərə çarpan sobalar (kaminlər) vardır. Hər bir mərtəbəsinin hündürlüyü 6 metrə qədər olan bu yaşayış evi XIX əsrin sonu-XX əsrin əvvəllərində Bakının memarlıq irsində və şəhərin formalaşmasında dərin izlərini buraxmışdır. Hal-hazırda da öz füsunkar görkəmini saxlamaqdadır.

1869-cu ildə inşa olunmuş tarixi cəhətdən dəyərli olan bu yaşayış binasının inşasında da o dövr üçün xarakterik olan Avropa və Şərq memarlıq üslublarından istifadə edilmişdir. İçəri şəhərin əsas küçələrindən (Böyük Qala, 17) birində yerləşən bu bina öz əvvəlki görkəmini müəyyən qədər itirsə də, şəhərin ümumi quruluşuna uğurla daxil olmuşdur. Burada son illərə qədər Dadaşovlar nəslindən olan vaxtı ilə Rusiya İmperiyasının Türkiyədəki Səfirliyində çalışmış, Ələkbər Dadaşov və onun ailəsi yaşamışdır.

Ümumiyyətlə, Bakı milyonçularının və tacirlərinin gəlirləri hesabına tikilən dövrünün varlı bəylərinə və tacirlərinə məxsus, əksər hallarda isə hələ də onların öz adları ilə çağırılan, inşa üslubuna və bədii estetik görünüşünə görə seçilən bu

yaşayış  binaları qədim şəhərdə qədimliklə müasirlik arasında körpüyə çevrilərək özündə neçə əsrlik dəyərli tarix yaşadır.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. AMEA nın nəşri "İçərişəhər – Azərbaycan tarixində "  Bakı 2015  (səh 126;127)
2. "Şərq" qəzeti Yaşam və Tarix bölməsi 10 və 11 mart 2006 - cı il nəşri  (səh 10; 15)
3. ttps://az.wikipedia.org/wiki/"Azərbaycanda_gildiya_ticarəti" internet səhifəsi

## İçəri şəhər ərazisində bu günə qədər araşdırılmamış ictimai və mülкi binaların tarixi, memarlıq xüsusiyyətləri haqqında yeni tədqiqatlar

**(Mütəxəssis qrupu:** ***K.İbrahimov, E.Axundov, D.Əzimli, X.Qasımov, G.Əliyeva, N.Bəкirova, S.Ələкbərova, N.Alıyeva, U.Zeynalova, A.Məmmədova)***

### Asəf Zeynallı küçəsi, 7

İçəri şəhər ərazisində Asəf Zeynallı küçəsi, 7 ünvanında yerləşən (İnv: 2101-1) yaşayış evi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il siyahısı üzrə yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidəsi kimi qeyd edilib. İçəri şəhərin əksər yaşayış evləri kimi, bu ev də plan quruluşuna görə düzbucaqlı formaya malikdir.

Arxiv mənbələrindən əldə edilmiş məlumatlara (1968-ci ilin arxiv sənədləri) görə yaşayış evi iki mərtəbədən və zirzəmidən ibarət olmuşdur. Bina 1878-ci ildə tikilmişdir. Ümumi sahəsi 109,0 kv.m, yaşayış sahəsi 79,8 kv.m, həyətinin sahəsi 19,2 kv.m olmuşdur.

İnformatorların-evin indiki sakinlərinin (Şabanzadə Firəngiz, Şabanzadə Xanımana, Şabanzadə Nərminə) verdiyi məlumatı diqqətə çatdırmaq istərdik. Firəngiz Şabanzadə: "Biz 5 bacı, 1 qardaşıq. Əsl içərişəhərliyik. Babamız Şabanov Hacı Əbdülbağı 1918-ci il 1 mart tarixdə bu binanı Bakı taciri Hacı Nemətdən, daha doğrusu, onun dul qadını Bəyimxanım Seyidovadan alıb. Məndə onların alqı-satqı müqaviləsi də var".



ДОГОВОРЪ

*Баку, тысяча девятьсотъ* восемнадцатаго *года* марта перваго *дня.* *мы, нижеподписавшіеся*, вдова Бакинскаго купца Бегумъ Хануме Сейдіева и гражданинъ гор. Баку, Гаджи Абдулъ Беги Шабановъ,

*заключили договоръ сей въ томъ, что изъ насъ* я, Сейдіева, *отдал*а ему, Шабанову, въ наймы принадлежащій мнѣ домъ, состоящій въ крѣпости по Большой Минаретной улицѣ, въ домѣ № 7, въ границахъ: съ востока - домъ, непроданный мною, Сейдіевою, Бекирову, съ запада - переулокъ, съ сѣвера - домъ Гаджинскаго и съ юга - Большая Минаретная улица,

*срокомъ* съ перваго сего марта, впредь на тридцать шесть лѣтъ,

*за плату* въ годъ по сто рублей, а за весь срокъ три тысячи шестьсотъ ру

*Дальнѣйшія условія договора сего слѣдующія: 1) Означенную наемную плату* я, *нанимател*ь *долж*енъ *вносить* Сейдіевой по каждой



[illegible] ул., д. № 20

7/ Всѣ расходы по [illegible] купчей крѣпости и [illegible] пошлинъ [illegible] относятся на счетъ покупщика [illegible].

Я, нижеподписавшійся, удостовѣряю, что предстоящія подписи сдѣланы собственноручно въ присутствіи моемъ, [illegible]

[illegible] Бегумъ [illegible] Гаджи Гусейнъ [illegible] Сейдіевой, и Бакинскимъ гражданиномъ Гаджи Абдулъ [illegible] [illegible], при чемъ Сейдіева и [illegible] живутъ въ гор. Баку, по [illegible] улицѣ, въ д. № 10, [illegible], Нотаріусъ, былъ приглашенъ для учиненія сего засвидѣтельствованія [illegible] конторы моей, лично мнѣ извѣстны. 1918 года марта 1 дня. По реестру № 2812

[illegible]: "вдова".-

Нотаріусъ

Тысяча девятьсотъ

Müqavilədə evin 4 tərəfdən təsviri verilir və göstərilir ki, bina Hacınskilərin evinə bitişikdir. Bu bina, həqiqətən də, unikal memarlıq abidəsidir. Binanın üstündə daş saat və əski rus əlifbası ilə "sığortalanmışdır" sözü yazılmış 8 bucaqlı metal möhür də var.

"Hacı Nemət Vaqif Mustafazadənin ulu babasıdır. Amma anamı və ya atamı tərəfdən olduğunu deyə bilmərəm. Hacı Nemətin 3 qızı, 1 oğlu olub. Mənim babam bu evi alanda onlar mübahisə ediblər ki, guya Hacı Nemətin dul qadını Bəyim-xanım evi özbaşına, uşaqlardan icazəsiz satıb. Mənim babamı o vaxt məhkəməyə veriblər. Babam da sənədlə, notariusla, qanun-qaydayla evi geri almışdı. Babam özü də evlə birlikdə torpağı da alıb. Babam sərraf olub. Manaf Süleymanovun "Eşitdiklərim, oxuduqlarım, gördüklərim" kitabında babam haqqında bir fraqment gedir. Amma onun adı göstərilmir. Orada yazılır ki, bir tacir olur, o vaxt bütün malını-pulunu verib qızıl alır. Mənim babamın da qızıl dükanı olub. Zevin küçəsindəki "Klub şoferyov"un yeri mənim babamın dükanı idi. Deməli, qızılı alandan sonra qızılın qiyməti aşağı düşür. İçəri şəhərin lotuları gəlib babamı ələ salmağa başlayırlar. Dükanın qarşısından o yana-bu yana keçib deyirlər: "Həci, qəm eləmə, qalxar!" Yəni qızılın qiymətі qalxar. Həmin o kitabda bu fraqment gedir".

Binanın üstündəki kitabədə ruzi-bərəkət duası yazılıb.



*Epiqrafik kitabəni Həbibə Əliyeva (AMEA Milli Azərbaycan Tarixi Muzeyinin Ekspozisiya işləri üzrə direktor müavini, "Numizmatika və epiqrafika" şöbəsinin elmi işçisi, tarix üzrə fəlsəfə doktoru) oxuyub.*

Binanın üzərindəki ovalvari medalyonda fars dilində kitabə nəstəliq xətti ilə həkk olunmuşdur. Kitabədən məlum olur ki, evin sahibi - bu evin ruzili olmasını və islamın rəmzi olan "Şahidlik edirəm, Allahdan başqa ilah yoxdur" - sözlərini həkkaka sifariş etmişdir. Orta əsrlərdə tikilən yaşayış evləri üçün bu epiqrafik yazı nümunəsi xarakterik bir kitabə sayılır.

**اشهد ان لا اله الله گشاده باد به دولت همیشه این درگاه** (Goşade bad be dolət həmişe in dərgah be həge əşhədu ən la ilahəiləllah) Tərcüməsi : Bu ev (məkan) həmişə var-dövlətə (pul-ruzi ) açıq olsun. Qısa forması: "Bu ev ruzili ev olsun!"



## Asəf Zeynallı küçəsi, 9

İçəri şəhər ərazisində Asəf Zeynallı, 9 ünvanında yerləşən binanın baş fasadı cənub-şərqə baxır. Bina 1850-ci illərdə tikilmiş və iki dəfə (1987-1988-ci illərdə və 2009-cu ildə) bərpa olunmuşdur. Əvvəllər İçəri şəhər memarlığına və İtaliya memarlıq üslubuna uyğun həyəti, zirzəmisi və iki mərtəbəsi olan binanın fasadı bərpa edilmişdir. XIX əsr qərb memarlığının bir sıra təzahürləri bu binada özünü göstərir. Binanın ilkin tikintisində fasadın yuxarısı tamamlayıcı karnizdən ibarət olduğu aşkarlanıb. Birinci qat pəncərələrinin üstü seqmentvari, ikinci qat pəncərələrinin üstü isə yarımtağlı olan memarlıq elementi ilə bəzədilmişdir. Zirzəmi pəncərələrinin üstü isə seqmentvari tağlarla tamamlanırmış. 1987-1988-ci illərdə bərpa edilərkən fasad ilkin üslubda saxlanılmış, yalnız qəzalı vəziyyətdə olan açıq eyvan yenisi ilə əvəz olunmuşdur.




*Binanın yerləşmə planı*

Lakin 2014-2015-ci illərdə İçəri şəhərin sürətli inkişafı bir çox abidələrdə olduğu kimi bu abidədə də öz təsirini göstərdi. İkinci mərtəbədə taxta konstruksiyalı açıq balkon olsa da, sonradan üzərinə taxta konstruksiyalı günlük yığmışlar. Balkonun gözəl məhəccərləri və dirsəklik yerləri olmuşdur. Zirzəmi pəncərələrinə 1985-1986 cı illərdə milli üslubda daş şəbəkələr işlənilmişdir. Öz dövrünə görə əzəmətli görünən bu abidə 2014-2015-ci illərdə yenidən layihələndirilmiş və bəzi əlavələrlə yenidən inşa edilmişdir.





**Abidənin əvvəlki görünüşü (1999-cu il)**
**Abidənin indiki görünüşü (2009-cu il)**

Abidənin yerində müasirliklə klassikanın sintezi əsasında layihələşdirilmiş memarlığı əks etdirən bina tikilərkən köhnə ərazinin sərhədləri tam qorunub saxlanılmış, görkəmli memarlar K.Skureviç və İ.Qoslavskinin üslublarına müraciət edilmişdir. Belə ki, aşı ilə üzlənmiş fasadın birinci qatında tağlı pəncərələr qoyulmuş, ikinci qatda isə yan-yana düzülmüş

sütunlu yarımtağları olan qapalı balkon və üçüncü qatda isə açıq eyvan və düzbucaqlı pəncərələrlə tamamlanmışdır. Balkonlara gözəl biçimli məhəccərlər vurulmaqla XIX əsr memarlığına xas olan forma verilmişdir. Daxili həyətin forması bərpa zamanı mümkün qədər qorunaraq saxlanılmışdır.

## Asəf Zeynallı küçəsi, 11

İçəri şəhər ərazisində - Asəf Zeynallı, 11 ünvanında yerləşən binanın baş fasadı cənub-şərqə tərəf baxır. Bina cənub-qərbdən 13 saylı binaya bitişik tikilmişdir. Üç mərtəbəli nəfis formada gülbax ağlay daşlarından klassik üslubda olmaqla 1913-cü idə inşa edilmişdir (İnv: 2103).




Kürsü divarı zərif karnizlə tamamlanmışdır. Hündür, haşiyəsiz, yanaşı pəncərələrin altı karniz fasad müstəvisindən içəri girintili olub maili pəncərəaltı pano ilə tamamlandığından fasada xüsusi gözəllik verir.

Giriş qapısının hündür və framuqalı - nəfəslikli olması binaya əzəmət gətirir. Mərtəbəarası karnizlər ikinci və üçüncü

qatların açıq balkonunun kənarları ilə də davam edir. İkinci və üçüncü mərtəbələrdə pəncərə kənarı haşiyələri klassik formalı iç girintilidir və pəncərəaltı daşlar boşluğun kənarlarına 3 sm-dan çox çıxmır. Üçüncü mərtəbənin pəncərələrinin yuxarısı xüsusi formada memarlıqda "sandrik" adlanan memarlıq detalı ilə tamamlanır. Sonuncu mərtəbəarası karniz və pəncərəüstü detal arasında olan fasad hissəsində divarların hava almasından ötrü nəzərdə tutulmuş nəfəslik dəlikləri diqqəti cəlb edir. Bu element XIX-XX əsr Azərbaycan memarlığında, unikal binalarda (Bakı milyonçularından H.Z.Tağıyevin, M.Nağıyevin, Ş.Əsədullayevin, S.Mirbabayevin və başqalarının mülklərində ) işlədilmişdir.

Üçüncü mərtəbənin tamamlayıcı karnizi üzərindən parapet (binanın özülünü qoruyan, çox da hündür olmayan divar) daşları ilə tamamlanan bina xüsusi biçimli klassik memarlıq abidəsi kimi İçəri şəhərə gözəllik bəxş edir. Abidə bu günə qədər bir neçə dəfə bərpa edilmişdir.

İnformator: Rəssamlar İttifaqının üzvü, sənətşünas Eldəniz İbrahimov :

"Bu bina 1913-cü ildə Yusif Hacınski tərəfindən tikilmişdir. Əvvəl bu bina iki mərtəbəli olub. Yəni Yusif bəy birinci və ikinci mərtəbəni tikdirib. Sonra Bakıdakı İran konsulluğu o zaman Azərbaycan hökumətinə müraciət edib ki, icazə versinlər öz xərci ilə, dəqiq memarlığı nəzərə almaqla, quruluşu qorumaqla 3-cü mərtəbə tikilsin. Bundan sonra üçüncü mərtəbə tikilib.

Yusif bəyin nəslindən qalanlardan bir oğlu vardı, bu yaxınlarda rəhmətə getdi. Qızı Fəranə Hacınskaya (atasının adı Fərid, anasının adı Rəna olduğu üçün bu adı qoyublar) ixtisasca geoloqdur, hazırda BP şirkətində işləyir. O, evinin bir hissəsini mənə, bir hissəsini də qohumlarına pulsuz, təmənnasız verib.

Hacınskilərin Azərbaycanda 3 nəsli olub. Biri Qubadan, biri Bakıdan, biri Gəncədəndir. Yusif bəy Qubadan olan Hacınskilərdəndir. Bakıdan olan İsa bəy Hacınski Qız qalasının

yanındakı binanı tikən (tikdirən) şəxsdir. Gəncədən olan Məmmədhəsən Hacınskidir. Bunlar ayrı-ayrı nəsillər olsalar da, uzaqdan-uzağa qohumdurlar. İsa bəy Bakı bulvarının pulunu verəndə məhz Məmmədhəsən Hacınskiyə etibar edib tapşırıb. Əgər o etibar etməsəydi, qohum olmasaydı, ona tapşırmazdı. Məmmədhəsən Hacınski də Azərbaycan hakimiyyətini bolşeviklərə təhvil verdi".

Qeyd etdiyimiz kimi, binanın inşaat tarixi XX əsrin əvvəllərinə aiddir. Abidənin daxili quruluşu təmirdən sonra dəyişmişdir. Hazırda burada Abşeron qalereyası və "AXA Mbask" sığorta agentliyi fəaliyyət göstərir.








**Binanın yerləşmə planı**



**Binanın müasir görünüşü**

## Asəf Zeynallı küçəsi, 13

İçəri şəhər ərazisində yerləşən, baş fasadı cənub-qərbə baxan bu bina 1830-ci ildə inşa edilmişdir. Sadə fasad quruluşuma malikdir. Divarları guşə daşından inşa edilmiş, iki mərtəbəlidir. Düzbucaqlı pəncərələri olan bina əvvəllər tağlı pəncərələrə malik olmuş və bu pəncərələrin tağları üzərində isə qıfılbənd daşları olmuşdur. Sonradan bu pəncərələr indiki görkəmə salınmışdır. Mərtəbəarası və yuxarı hissəsində karnizlərlə tamamlanan bina XIX əsrin ortalarına yaxın İçəri şəhərdə tikilmiş iki mərtəbəli sadə binalardandır. Həmçinin fasad şimal-qərb və cənub-şərq tərəfdən qonşu binalara bitişikdir. Suvaqla üzlənmiş və emulsiya ilə boyanmışdır.

Binanın ikinci mərtəbəsindəki böyük balkon əvvəllər iki kiçik açıq balkon şəklində olmuşdur. Çox güman ki, bu balkonların da taxta sürahisi və metal məhəccərləri varmış. Lakin 1985-2000-ci illər arasında balkonlar birləşdirilərək bağlı konstruksiya ilə əvəz olunmuşdur. Fasadda geniş darvaza vardır ki, sonralar bu darvaza iki yerə bölünərək binanın iki mənzilinə xidmət etməyə başlamışdır. Hal-hazırdakı darvaza üstü yarımdairəvi balkon əvvəllər düzbucaqlı formalı imiş və indi olduğu kimi "markiz" məhəccərləri olmamışdır. Əsas ağırlığı saxlayan daxili və xarici divarların qalın olması və belə divarların daxilində inşaat əzintisindən istifadə edilməsi, daxili və xarici qatların yalnız guşə daşından olması binanın yayda sərin, qışda isə istiliyini təmin edən səbəblərdən biridir. Binanın divarlarında müxtəlif yerlərdə fərqli ölçülərdə taxçalar var imiş.

Lakin sonradan bu memarlıq abidəsi müxtəlif illərdə binada yaşamış sakinlər tərəfindən ciddi dəyişikliklərə məruz qalmışdır. Halbuki binanın fasadı İçəri şəhərin görkəminə xüsusi baxımlılıq verirdi.

İnformator , evin indiki sahibi Solmaz Axundova:

"Deyilənə görə, bu bina zərgərin binası olub. Zərgər buranı 3 mərtəbəli tikmək istəyib, amma günəşin qarşısını

kəsməmək üçün arxa tərəfi 3 mərtəbəli tikib, qarşı tərəf isə iki mərtəbəli qalıb. Mən 30 ildir burada yaşayıram. Tibb elmləri doktoru, professor, respublikanın əməkdar həkimi Kazım Axundovun həyat yoldaşıyam. Kazımgil 5 qardaş olublar. Onlardan Nazim Axundov, Qasım Axundov tanınmış şəxslər olublar. Babaları Fərrux bəy olub. 10 cildlik Sovet Ensiklopediyasında Kazım Axundovun adı çəkilir".

Başqa bir məlumata görə (informator: Şabanzadə Xanımana), bu yaşayış binası Rəzi Sadıqova aid olub, yəni Rəzi Sadıqovun babalarının evidir. Onlar əslən içərişəhərli olublar. Rəzi Sadıqov Vəli Axundovun vaxtında Nazirlər Kabinetinin sədri vəzifəsində işləyib. Onlar evlərini vergiyə görə hökumətə təhvil veriblər.

Bu binanın inşaat tarixi 1830-cu ilə aiddir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il siyahısı üzrə yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidəsidir. (İnv: 2104).

Arxiv mənbələrinin məlumatına görə isə, bu binanı zərgər Əliabbas adlı şəxs tikdirmişdir. Sovetlər dövründə həmin şəxs İçəri şəhərdə yerləşən zərgərlik zavodunda baş məsləhətçi işləmişdir. Həmin zərgərlik zavodu 1970-ci illərdə Kamil Əliyevin təşəbbüsü ilə İçəri şəhərdən köçürülmüşdür.





**Arxiv fotoları**




*Abidənin yerləşmə planı*




*Fasadın görünüşü (2009-cu il)*



**Fasadın görünüşü (2015-ci il)**

## Asəf Zeynallı küçəsi, 14

İçəri şəhər ərazisində yerləşən binanın üç fasadı var və əsas fasadlar Asəf Zeynallı küçəsinə tərəf, şimal-şərqə və şimal-qərbə baxır. 1878-ci ildə inşa edilmiş (inv.nömrəsi 2687) binanın fasadı klassik memarlıq quruluşuma malikdir. Şimal-şərqə baxan fasad üç mərtəbəli, şimal-qərbə baxan fasad isə iki mərtəbəli həll edilmişdir. Divarları guşə daşından inşa edilmiş və düzbucaqlı pəncərələri olan bina əvvəllər yarımdairəvi pəncərələrə malik olmuşdur. Lakin üçüncü mərtəbənin pəncərələri isə düzbucaqlıdır. Sonradan bu pəncərələr indiki görkəmə salınmışdır.

Mərtəbəarası və yuxarı hissəsində karnizlərlə tamamlanan bina XIX əsrin sonlarına yaxın İçəri şəhərdə tikilmiş klassik binalardandır. Həmçinin cənub-qərb fasadı M.Maqomayev küçəsinə baxır və cənub-şərq tərəfdən qonşu binalara bitişik olmaqla suvaqla üzlənmiş və emulsiya ilə boyanmışdır. Fasadın bir neçə qapısı vardır ki, sonradan bu qapıların bəzilərinin yerləri dəyişdirilmişdir. Ağırlıöı saxlayan əsas daxili və xarici divarların qalın, qovşaq xaçvari və adi tağlı olması, həmçinin divarların daxilində inşaat əzintisindən istifadə edilməsi, daxili və xarici qatlarının yalnız guşə daşından olması binanın yayda sərin, qışda isə istiliyini təmin edən səbəblərdən biridir. Divarlarında müxtəlif yerlərdə fərqli ölçülərdə taxçalar var imiş. Zirzəmi divarları bir metrdən qalındır və pəncərə boşluqları seqmentvari formada olmaqla zirzəmi otaqlarının daxilinə doğru mailliyi artan formada həll edilmişdir. 2014-2015-ci illər ərzində bu binanın planında müəyyən dəyişikliklər edilmişdir. Ümumilikdə binanın fasadı İçəri şəhərin görkəminə xüsusi baxımlılıq verir.




**Abidənin yerləşmə sxemi**





**Şimal-şərq fasadı** **Şimal-qərb fasadı (1976-cı il)**





**Şimal-şərq fasadı** **Şimal-qərb fasadı (2016-cı il)**



**Binanın şimal-şərq və şimal-qərb fasadı**

# Asəf Zeynallı küçəsi, 57

Azərbaycan memarlığında 1920-ci illərdən sonra sadə memarlıq tikililərinə üstünlük verilməyə başlandı. Sovet dövrünün memarlığı olan 1935-ci ildə tikilmiş bu binanın (İnv: 2117) sadə quruluşu və fasadı var. Düzbucaqlı pəncərələri və qarşısında fasad boyu eyvanı olan binanın həyətyanı kiçik sahəsi mövcuddur. Eyvanın üstü talvarla örtülüdür və metal sürahiləri vardır.




**Abidənin yerləşmə planı**

Binanın bir neçə qapısı vardı ki, sonradan bu qapıların bəzilərinin yerləri dəyişdirilmişdir. Ağırlığı saxlayan əsas daxili və xarici divarların qalın olması, həmçinin divarların daxilində inşaat əzintisindən istfadəedilməsi, daxili və xarici qatlarının yalnız guşə daşından olması binanın yayda sərin,

qışda isə istiliyini təmin edən səbəblərdən biridir. Vaxtilə divarlarda müxtəlif yerlərdə fərqli ölçülərdə taxçalar var imiş. 2007-2011-ci illərdə bu binanın planında müəyyən dəyişikliklər edilmişdir. Həmçinin həyət divarı sonradan ağlay əhəng daşı ilə hörülmüşdür.



***Fasadın görünüşü (1998)***



*Fasadın daxili həyətdən görünüşü (2009)*



*Fasadın A.Zeynallı küçəsindən görünüşü (2016)*

## Asəf Zeynallı küçəsi, 59

İçəri şəhər ərazisində olmaqla Asəf Zeynallı küçəsi 59a, 59b ünvanda yerləşən bu bina tarixi sənədlərə əsasən müvafiq olaraq 2118 və 2119 saylı inventar nömrələri kimi qeydiyyata alınmışdır. Hər iki bina 1900-cu ildə inşa edilmişdir. Binanın xarici fasadları bir tərəfdən şimal-qərbə və müvafiq olaraq digər tərəfdən cənub-şərqə tərəf baxır. Qalın və içi yüngül inşaat materialları ilə doldurulmuş divarlar binaya yayda sərinlik, qışda isə istilik verirmiş. Divarlarında müxtəlif yerlərdə fərqli ölçülərdə taxçalar var imiş. Lakin sonradan bu memarlıq abidəsinin fasadlarında və planında müxtəlif illərdə binada yaşamış sakinlər tərəfindən dəyişikliklər aparılmışdır.

2014-2115-cü illərdə bina bərpa edilmişdir. Belə ki, fasadın beton bərkidilmə işləri aparılmış, köhnə suvaq qatı dəyişdirilmiş və emulsiya boyası ilə rənglənmişdir. Ümumi baxımına görə sadə olan hər iki fasad İçəri şəhərin soyuq və sakit mühitinə uyğun şəkildə həll edilmişdir. Əvvəllər fasadların qarşısında A.Zeynallı küçəsi 65 ünvanı tərəfdən bir giriş qapısı və üzərində metal günlüyü olmuşdur. Birinci mərtəbədə olan pəncərələr düzbucaqlı formada, ikinci mərtəbənin pəncərələri isə qövsvaridir. Lakin sonradan 2008 - 2010-cu illər ərzində fasadın birinci mərtəbəsində iki pəncərəni qapıya çevirməklə formasını dəyişmişlər. Həmçinin fasadda taxtadan olan ikinci mərtəbənin balkonu düzbucaqlı formada olmuş və taxta sürahiləri olmuşdur. Sonrakı illərdə bu balkon sökülərək betonla əvəz edilmiş, yarımdairəvi formaya salınmışdır. Abidənin daxili həyəti və arxa küçəyə çıxışı olmuşdur ki, bu da İçəri şəhər memarlığına xas olan cəhətlərdən biridir. Eyni zamanda 59a ünvanlı abidənin damından 59b ünvanlı abidənin damına və oradan da indiki Mirzə Şəfi küçəsinə taxta pilləkənlərlə çıxışı olmuşdur.

Arxa küçəyə çıxış da sonradan bağlanmış və hər iki mərtəbədə plan dəyişiklikləri aparılmışdır. Hal-hazırda

abidənin birinci mərtəbəsində olan otaqlar ticarət dükanları kimi fəaliyyət göstərir.




**Abidənin yerləşmə planı**



*Fasadın A.Zeynallı küçəsindən görünüşü (2008)*



*Fasadın  görünüşü (2016)*



*Fasadın görünüşü (2016)*

# Kiçik Qala küçəsi, 18

İçəri şəhər ərazisində olmaqla Kiçik Qala küçəsi, 18 saylı ünvanda yerləşən bu abidə tarixi sənədlərə əsasən 1905-ci ildə inşa edilmiş, 2012-2113-cü illərdə bərpa edilmişdir. Binanın xarici fasadı cənub-qərbə tərəf baxır. Fasad ağlay gülbax tipli daş ilə guşə daşlarının birgə işləndiyi ümumi kompozisiyaya malikdir.

Kürsülüyü olmayan fasadın kənarlarında pilonlar, karnizlər, pəncərə və qapıların kənarları, parapet detalları ağlayla işlənmişdir. Fasadın qalan müstəvi səthi guşə daşları ilə hörülmüşdür. Bərpa zamanı bu guşə daşları cilalanmaqla daşlararası xüsusi qaydada hazırlanmış məhlulla doldurulmuşdur. Fasadda bütün pəncərə və qapıların yuxarı sonluğu seqmentvaridir. Fasadın ümumi görünüşü xarakterik İçəri şəhər memarlığını əks etdirir. Binanın giriş qapısının yeri sonradan bərpa zamanı dəyişdirilib. Qonşulara bitişik divarlar boyu birinci və ikinci mərtəbə otaqlarında divar taxçaları mövcud olubmuş ki, bu da İçəri şəhərin qədim adət və ənənələrini özündə əks etdirirmiş. Abidə İçəri şəhərə, xüsusən də Kiçik Qala küçəsinin memarlıq incilərindən biri kimi öz gözəlliyi ilə Bakıya gələn turistlərə xoş təsir bağışlayan memarlığa malikdir.




*Abidənin yerləşmə planı*



*Binanın görünüşü (2010-cu il)*



**Binanın görünüşü (2015-ci il)**

## Kiçik Qala küçəsi, 24

İçəri şəhər ərazisində Kiçik Qala, 24 ünvanında yerləşən binanın inşaat tarixi 1898-ci ilə aiddir (İnv: 2402) Bina bir mərtəbəlidir, bir girişi var.

Binanın baş fasadı qərbə tərəf, şimal fasadı 4-cü Kiçik Qala küçəsinə tərəf baxır. Tarixi abidə olan bu bina zirzəmi qatına malikdir və zirzəmi Kiçik Qala küçəsi səviyyəsindən 2.5 m aşağıda yerləşir. Aşağı həyətin 2-ci Kiçik Qala küçəsinə çıxışı vardır. Abidənin əsas girişi Böyük Qala küçəsindəndir. Abidə ilk dəfə 1984-85-cı illərdə bərpa olunmuşdur.

Köhnə fasad guşə daşından olmuş, heç bir memarlıq elementi ilə bəzədilməmişdir. Qalın və içi yüngül inşaat materialları ilə doldurulmuş divarlar binaya yayda sərinlik, qışda isə istilik verirmiş. Divarlarında müxtəlif yerlərdə fərqli ölçülərdə taxçalar var imiş. Lakin sonradan bu memarlıq abidəsi binada yaşamış sakinlər tərəfindən müxtəlif illərdə fasadlarında və planlarında dəyişikliklərə məruz qalmışdır. Uzun illər baxımsız qaldığından bərbad vəziyyətə düşmüşdür. Lakin sonrakı dövrlərdə 2008-2015 ci illərdə tikintidə gedən sürətli inkişaf və İçəri şəhərin turizm potensialının artması ilə bir çox abidələrə yenidən baxış formalaşmağa başladı. Həmin dövrdə "İçərişəhər" DTMQİ-nin ərazisində bir çox abidələrin fasadlarında və bütövlükdə planlarında müasir şəraitə uyğun dəyişikliklər edildi. Buna uyğun olaraq binanın qərb və şimal fasadları yenidən layihələndirilərək ağlay gülbax növlü daşla üzlənmiş və binaya yeni görkəm verilmişdir. Fasadların hər ikisində kürsülük quraşdırılmışdı, fasadların kənarlarına milli memarlığa xas olan pilyastrlar yerləşdirilmişdir, pəncərə və qapıların kənarlarında hörüklü sütunlar üzərində tağlı bəzək elementləri qoyulmuşdur, fasadın yuxarı hissəsinə bəzəkli haşiyə vurulmaqla üzərinə karniz daşı əlavə edilmişdir. Hal-

hazırda abidə turizm marşrutu xətti üzərində müasir görkəmi ilə İçəri şəhərə baxımlılıq verən binalardan biridir.






*Abidənin yerləşmə planı*



*Qərb fasadı*



*Şimal fasadı*



**Abidənin  hazırkı görünüşü**

## Kiçik Qala küçəsi, 54

İçəri şəhər ərazisində olmaqla Kiçik qala küçəsi, 54 saylı ünvanda yerləşən abidə tarixi sənədlərə əsasən 1905-ci ildə inşa edilmiş, 2012-2013-cü illərdə yeniləşdirilməklə bərpa edilmişdir. Binanın xarici fasadı şimal-qərbə tərəf baxır. Fasad ağlay gülbax tipli daş ilə guşə daşlarının birgə işləndiyi ümumi kompozisiyaya malikdir.

Kürsülük, fasadın kənarlarında pilonlar karnizlər pəncərə və qapıların kənarları və parapet detalları ağlayla işlənmişdir. Fasadın qalan müstəvi səthi guşə daşları ilə hörülmüşdür. Bərpa zamanı bu guşə daşları cilalanmaqla daşlararası xüsusi qaydada hazırlanmış məhlulla doldurulmuşdur. İkinci mərtəbədə açıq balkon yerləşir ki, bu balkonun üzərində taxta konstruksiyalı günlük mövcuddur. Zirzəmiyə giriş fasadın sol küncündən ağlay daş pilləkənlədir və bu pilləkənin üstündə də metal konstruksiyalı polikarbonat örtüklü günlük bərkidilmişdir.

Fasadda bütün pəncərə və qapıların yuxarı sonluğu seqmentvaridir. İlk öncə qeyd edək ki, eyvan konstruksiyası taxtadan quraşdırılmaqla XIX əsr memarlığına xas olan məhəccərlə bəzədilmişdir. Fasadın ümumi görünüşü xarakterik İçəri şəhər memarlığını əks etdirir. Binanın giriş qapısı digər pəncərələrdən enlidir və bu darvaza əvvəllər nəfis formalı ağac işləmələrlə bəzədilmiş, ikilaylı olmuşdur. Lakin uzun müddət istismarda olduğundan və müxtəlif təsirlərdən qəzalı vəziyyətə düşdüyündən, bərpa zamanı dəyişdirilməklə yenidən başqa fomada (sadə) quraşdırılmışdır. Bina daxili həyətə malikdir. Daxili həyətə küçədən bir neçə pillə ilə daxil olmaq mümkündür. Yaşayış evinin həm də vaxtı ilə aynabəndi olmuşdur. Sonradan bu aynabənd də bərpa olunmuş və forması dəyişdirilərək bir hissəsi mənzillərə qatılmışdır. Qonşulara bitişik divarlar boyu ikinci mərtəbənin otaqlarında divar taxçaları mövcud olubmuş ki, bu da İçəri şəhərin məişətində

zəruri detal idi, qədim adət və ənənələri özündə əks etdirirdi. Abidə İçəri şəhərə, xüsusən də Kiçik Qala küçəsinin memarlıq kompozisiyasına xüsusi çalar verir. Bu bina gözəlliyi ilə Bakıya gələn hər bir turistə maraqlı təsir bağışlayır.




***Binanın yerləşmə planı***



М.КРЕПОСТНАЯ 54

*Binanın tarixi sənədləri*




*Binanın görünüşü (2016)*

## Kiçik Qala küçəsi, 60

İçəri şəhər ərazisində Kiçik Qala, 60 ünvanında yerləşən binanın baş fasadı şimal-şərqə, digər fasadı isə cənub-şərqə baxır. Bina iki dəfə bərpa olunmuşdur. İlk dəfə "Bərpaçı" Elmi Bərpa İstehsalat İdarəsinin mütəxəssisləri tərəfindən 1985-1986-cı illərdə bərpa olunmuşdur. Əsas fasada giriş qapısı şimal-şərq tərəfdəndir və bina yarımzirzəmili olmaqla daxili həyətə malikdir. Bina birmərtəbəli olub, guşə daşlarından inşa edilmişdir. 1985-ci ilə qədər fasad əhəng qarışıqlı suvaqla üzlənibmiş, lakin bu suvaqlar uzun müddət baxımsız qaldığından əksər yerləri tökülübmüş. 2000-ci ildə Bakıda baş vermiş zəlzələ nəticəsində isə bina qəzalı vəziyyətə düşmüşdür.

Tikinti tarixi XIX əsrin sonu-XX əsrin əvvəllərinə aid (inv. nömrə 2409-2) olan bina sadə, həmçinin gözəl fasada malikdir. Binanın kürsü qatı Kiçik Qala küçəsindən təxminən 2.5 metr aşağıda yerləşir. Bu fasadın birinci və ikinci mərtəbələrində bütün pəncərələr seqmentvaridir və kənarlarında guşə daşlarından haşiyə vadır. Şimal-şərqə baxan fasaddan binanın kürsü qatına daxil olmaq üçün üstü ellipsvari formada tamamlanmış darvaza var. Fasadlarda pilyastr çıxıntıları vardır. Bu pilyastrları kəsən incə, lakin düzbucaqlı mərtəbəarası və üst karniz rolunu oynayan friz hissə bütün fasad boyu davam edir.







***Abidənin görünüşü (2016)***

Abidənin iki fasadı təsvir etdiyimiz kimi izah olunsa da, şimal-qərb fasadı ağlay gülbax  daşı ilə üzlənmişdir. Binanın uzun və dar formalı şimal-şərqə  baxan fasadı qarşısında

yerləşən daxili həyətinə Şirvanşahlar Sarayı Kompleksi qarşısında yerləşən bağın şimal tərəfindən pilləkənlə daxil olmaq olar. Bu pilləkənlər ağlayla işlənmişdir və binanın ümumi ansamblına yaraşıq verməklə metal məhəccərlərlə bəzədilmişdir. Abidə 2000-ci il Bakıda baş vermiş zəlzələdə zərər çəkdiyindən 2008-2010-cu illər ərzində yenidən bərpa olunmuşdur. Bu zaman binanın köhnə suvaqları sökülərək daşlararası bərkidilmə işləri aparılmış və binanın tam bərpa işləri həyata keçirilmişdir.




***Abidənin yerləşmə planı***



***Abidənin kürsülü qatının görünüşü (2016)***

Qeyd:

Bu memarlıq üslubunda binalar İçəri şəhərdə 1920-ci illərdən sonralar da tikilməyə başlamışdır. Misal olaraq, Böyük Qala, 6 saylı ünvanda 1926-cı ildə inşa edilmiş binanı göstərmək olar.

## Kiçik Qala küçəsi, 104

Klassik Azərbaycan memarlığının nümunəsi olan bu abidə (İnv: 2419) 1860-cı ildə inşa edilmişdir. Abidə iki mərtəbədən ibarətdir. Suvaqlı divarının üzərində dörd yerdə pilyastrı, mərtəbəarası karnizləri, pəncərə haşiyələri, pəncərəaltı panosu (filenkaları, pəncərə şüşəsi), parapeti və karnizlər altında pilyastrlar qədər çıxıntılı sandrikləri və orta pilyastrlar arasında birinci mərtəbədə yerləşən tağlı bəzək elementləri ağlay gülbax daşlarındandır. Parapetin orta filenkası bəzəkli təkrar olunan detaldan ibarətdir.




***Abidənin yerləşmə sxemi***




***Fasadın görünüşü (1986-cı il)***

Bu fasad 1988-ci ilin sonlarına qədər mövcud olmuşdur. Lakin sonradan 1989-cu ildə bərpa edilmiş və bəzi elementləri dəyişdirilmişdir. Həmçinin giriş qapısı və daxili planlaşmada müəyyən dəyişikliklər edilmişdir. Bina daxili həyətə malikdir və vaxtilə ikinci mərtəbəsində aynabəndi olmuşdur. Sonralar bu aynabənd binada yaşamış sakinlər tərəfindən dəyişdirilərək mənzilə qatılmışdır.



*Binanın planı (1986-cı il)*

2009-cu ildə binada yenidən bərpa işləri aparılmış və birinci mərtəbənin suvaq vurulmuş yerləri ağlayla əvəz edilmişdir. Eyni zamanda binanın bütün pəncərə və qapılarının haşiyələri dəyişdirilmişdir. Parapetin yenidən qurulmuş və orta pilyastrların üzərində fronton (üfüqi və iki maili karnizdən yaranan üçbucaq) tikilmişdir. İçəri şəhərdə gedən abadlıq və bərpa işlərinin geniş vüsət aldığı 2014-2015-ci illərdə bina müasir üsluba və günün tələblərinə uyğun layihələndirilərək klassik memarlıq detallarından istifadə edilməklə yenidən qurulmuşdur.



*Fasadın görünüşü (2009-cu il)*

# Kiçik Qala küçəsi, 114

İçəri şəhər ərazisində Kiçik Qala, 114 ünvanında yerləşən bina XIX əsrin sonu - XX əsrlərin əvvəllərinə aid yaşayış evidir.

Bina iki mərtəbəlidir və zirzəmisi yoxdur. İçəri şəhərin əksər evləri kimi divar səthi “rustovka”lıdır. Yəni divar səthində yastıq kimi dördbucaqlı elementlər var. Belə “rustovka”lı elementlər kapitalizm dövrü memarlığının əsas xüsusiyyətlərindəndir. Arxiv məlumatlarına görə binanın birinci mərtəbəsi 1860-cı ildə tikilmişdir. Bu mərtəbənin ümumi sahəsi 84.20 $m^2$, yaşayış sahəsi 75.40 $m^2$, tikinti altı sahə 53.70 $m^2$, yaşayış otaqlarının sayı 6 olmuşdur. İkinci mərtəbə 1940-cı ildə tikilmişdir. Bu mərtəbədə bir yaşayış otağı olmuşdur. Hazırda yaşayış evi xüsusi mülkiyyətdədir. Burada 2014-cü ildə yenidənqurma işləri aparılaraq hüquqi şəxs qismində “Cızz-Bızz” kafesi fəaliyyətə başlamışdır.

Binanın baş fasadı şimal-şərqə baxır. İki dəfə bərpa olunmuşdur. Əvvəllər İçəri şəhər memarlığına uyğun və italyan tipli həyətə malik üslubu olan bina 80-cı illərin ortalarında bərpa edilmişdir. Belə ki, XIX əsr şərq və qərb memarlığının bir çox təsirləri özünü göstərirdi ki, bu da İçəri şəhərdən yan keçməmişdir. Binanın ilkin tikintisində fasad heç bir memarlıq elementi ilə bəzədilməmişdir. Lakin sonrakı 80-cı illərin bərpası zamanı mərtəbəarası və ikinci qatı tamamlayan karniz düzbucaqlı və sadə olan gülbax ağlay daşından istifadə olunmuşdur.

Bütün fasad boyu pəncərə və qapıların forması düzbucaqlı olub kənarları da eyni tipli gülbax ağlay daşları ilə bəzədilmiş və qıfılbənd daşı qoyulmuşdur. Həyətə giriş üzərində tağlı portal mövcud olmuşdur. Fasadın künclərində sadə olmaqla pilləvari pilyastrlar (memarlıqda rust adlanır) istifadə edilmişdir. Fasadın və daxili həyətin forması yenidən qurularaq üslub etibarı ilə 1890-1900-cü illərdə Bakıda və İçəri

şəhərdə bir çox memarlıq nümunələri yaratmış məşhur memar K.Skureviçin üslubuna uyğun formaya salınmışdır.




***Abidənin yerləşmə planı***



***Binanın 80-cı illərdə görünüşü***

2013-2015-ci illərdə gedən bərpa zamanı fasadda olan bütün pəncərə və qapı boşluqlarının forması dəyişdirilmiş, həyətə giriş portalı dəyişdirilmədən ikinci mərtəbənin pəncərə və qapı boşluqlarının forması genişləndirilməklə tağlı formada həll edilmişdir. Həmçinin birinci mərtəbənin də pəncərə və qapıları genişləndirilmiş, lakin düzbucaqlı forması əvvəlki kimi saxlanılmışdır. Mərtəbə karnizləri dəyişdirilmiş və fasad yenidən guşə daşları ilə üzlənmişdir. Fasadın qarşısında əvvəllər də mövcud olan boş sahədə abidənin ikinci mərtəbəsində açıq eyvan quraşdırılmış və birinci mərtəbədə talvar qurulmuşdur ki, bu da İçəri şəhər memarlığına xüsusi gözəllik verir.



***Binanın müasir görünüşü***

# Vəli Məmmədov küçəsi, 9

İçəri şəhər ərazisində yerləşən binanın baş fasadı cənub-qərbə baxır. 1850-ci ildə inşa edilmiş bina sadə fasad quruluşuna malikdir. Divarları guşə daşından inşa edilmiş, iki mərtəbəli və düzbucaqlı pəncərələrə malikdir. Fasadın yalnız yuxarı hissəsində qalın karnizlə tamamlanan bina XIX əsrin sonlarında İçəri şəhərdə tikilmiş bir çox iki mərtəbəli sadə binalar kimidir. Həmçinin fasad şimal-qərb və cənub-şərq tərəfdən qonşu binalara bitişik olmaqla suvaqla üzlənmiş və emulsiya ilə boyanmışdır. Bina iki mərtəbəli olmasına baxmayaraq mərtəbəarası karnizin olmaması və yuxarı tamamlayıcı karnizin qalın olması abidəyə xüsusi əzəmət verir. Ağırlığı saxlayan əsas daxili və xarici divarların qalın olması və belə divarların daxilində inşaat əzintisindən istifadə edilməsi, eləcə də daxili və xarici qatlarının yalnız guşə daşından olması və binanın yayda sərin, qışda isə istiliyini təmin edən səbəblərdən biridir. Vaxtilə binanın divarlarında müxtəlif yerlərdə fərqli ölçülərdə taxçalar var imiş. 1990-cı illərdən sonra bu binada plan üzrə ciddi dəyişikliklər edilmişdir.




**Abidənin yerləşmə planı**



# 1-ci Qəsr döngəsi 78

İçəri şəhər ərazisində 1-ci Qəsr döngəsi, 78 ünvanında yerləşən bina 1800-cü ildə guşə daşlarından inşa edilmiş və öz dövrünün gözəl memarlıq ənənələrini əks etdirmişdir. (İnv: 2269)




*Abidənin yerləşmə sxemi*

Binanın baş fasadı qərbə, yan fasadı isə şimala baxır. Binanın 1800-cü illərdə olan ilkin tikintisində fasad heç bir memarlıq elementi ilə bəzədilməmişdir. Bütün fasad boyu pəncərə və qapıların forması düzbucaqlı olub kənarları da eyni tipli suvaq ilə haşiyələnmiş və qıfılbənd daşı qoyulubmuş. Fasadın künclərində sadə olmaqla pilləvari pilyastrlardan (memarlıqda "rust" adlanır) istifadə edilibmiş.




***Binanın əvvəlki görünüşü***

Lakin 2000-ci ildə Bakı şəhərində baş vermiş zəlzələ nəticəsində bina dağılmaq təhlükəsi ilə üzləşmişdir. Mütəxəssislərin rəyi və binanın bərpa olunmasının mümkün olmadığı nəzərə alınaraq abidə 2001-ci ilin ortalarında sökülmüşdür.

Tikintidə gedən sürətli inkişaf və İçəri şəhərin turizm potensialının artması ilə əlaqədar bir çox abidələrə yenidən baxış formalaşmağa başlayanda bu binaya da öz təsirini göstərdi. Bina yenidən layihələndirilmiş və tikilmişdir. Bina klassik memarlıq üslubunda inşa edilmişdir.



***Abidənin görünüşü (2016)***

# 1- ci Qəsr döngəsi 80

İçəri şəhər ərazisində 1-ci Qəsr döngəsi, 80 ünvanında yerləşən bina 1880-ci ildə gülbax ağlay daşı ilə inşa edilmişdir . (İnv:2270)





Binanın əsas xarici fasadı qərbə tərəf baxır və 1985-1986-cı illərdə fasadında bərpa aparılmışdır.

Abidə ikimərtəbəli olmaqla kürsü mərtəbəsi üzərində həll edilmişdir. Binaya əsas giriş qərb fasadındandır. Qərb fasadında kürsülük mərtəbəsinin pəncərələrinin kənarları ağlay gülbax daşı ilə haşiyələnmişdir. Kürsü divarının fasad müstəvisi boya ilə rənglənmişdir. Sağ tərəfdəki pəncərənin üzərində qıfılbənd daşı vardır. Bu fasadda dörd yerdə hər iki mərtəbə boyu pilonlar vardır (pilonların cərgəsi döyəclənmiş haşiyəli rust və adi haşiyəli daşların cərgəsindən ibarətdir). Mərtəbə arası karnizlər incə və nəfis işlənilmişdir. Giriş qapısı nəfəslikli (framuqalı), hündür və gözəl biçimli naxışları olan elementlərlə bəzədilmişdir.

İkinci mərtəbənin pəncərələri kürsü qatında olduğu kimi seqmentvaridir və daş haşiyələrlə əhatə olunmaqla hər birinin üzərində qıfılbənd daşları qoyulmuşdur. Həmçinin pilonların ikinci mərtəbədəki tamamlanması friz (ornamentli bəzək) cərgəsinin altında dişli, içəri girintsi olan karnizlə həll edilmişdir. İkinci və üçüncü mərtəbənin pəncərəaltı daşları qıfılbəndlər üzərindədir və altındakı haşiyəli panolar (filenkalar) nəfis ornamentlərlə bəzədilmişdir. Üçüncü mərtəbənin pəncərələri və altının elementləri də ikinci mərtəbə ilə eyni olub yalnız tamamlanması düzbucaqlıdır və kənarları üstündə kiçik karnizləri olan sandriklə tamamlanır. Sonuncu mərtəbənin karnizi digər qatlara nisbətən qalındır və üzərində parapet işlənilmişdir. İkinci mərtəbənin karnizinin altından bəzəkli friz (ornamentli bəzək) elementi bütün fasad boyu gedir.

Cənuba baxan yan fasad da eyni üslub ilə həll edilmişdir. Üçüncü mərtəbənin balkonu taxta karnizlə haşiyələnmiş və üzərinə nəfis işləməli metal barmaqlıq qoyulmuşdur. Bu bina İçəri şəhərin turizm marşurutu üzərində olduğu üçün daha çox diqqət mərkəzində olmaqla klassik memarlıq üslubda işlənən tikililərin sırf İçəri şəhər binalarının bariz nümunəsidir. Tikinti

texnikası, üslubu və elementlərinin formalarına görə İ.Qoslavs-ki memarlıq məktəbini xatırladır.




*Abidənin yerləşmə planı*



*Abidənin müasir görünüşü*

# 1-ci Qəsr döngəsi 82

İçəri şəhərdə XIX əsrin sonlarında (1888-ci il) sadə binaların tikintisi geniş vüsət almağa başladı. Şimal və cənub divarları qonşu binalara söykənən bu bina (İnv:2411) düzbucaqlı pəncərələrə malik kürsü divarı üzərində ikimərtəbəli tikilmişdir. Yalnız küçəyə açılan qərb fasadının ikinci mərtəbəsində açıq taxta sürahili eyvanı olmuşdur. Fasadın özü isə guşə daşlarından inşa edilmişdir. Qalın və içi yüngül inşaat materialları ilə doldurulmuş divarlar binaya yayda sərinlik, qışda isə istilik verirmiş. Divarlarında müxtəlif yerlərdə fərqli ölçülərdə taxçalar var imiş. Lakin sonradan bu memarlıq abidəsi binada yaşamış sakinlər müxtəlif illərdə plan dəyişikliyi aparmışlar. Bina daxili həyətə malikdir. 2009-cu ildə binanın fasadında təmir-bərpa işləri aparılmışdır. Bu zaman pəncərə və qapıların kənarlarına haşiyələr əlavə edilmiş, ikinci mərtəbənin balkonu isə bağlı konstruksiyaya çevrilmişdir.

2014-2015-ci illərdə fasadın pəncərə, qapı və balkon konstruksiyaları yenilənmişdir. Şirvanşahlar Sarayı Kompleksi yaxınlığında yerləşən bu bina öz memarlığı ilə İçəri şəhəri gözəlləşdirən binalardandır. 2013-cü ildə əsaslı təmir işlərindən sonra "Sevimli bala" uşaq klubu fəaliyyət göstərməyə başlayıb.

Bina iki mərtəbəlidir. 5 otaqlıdır. İki girişi var. Ümumi sahəsi 86,4 $m^2$-dir.




***Binanın yerləşmə planı***



*Binanın görünüşü (2009-cu il)*



*Binanın görünüşü (2015-ci il)*

# Böyük Qala küçəsi, 6

İçəri şəhər ərazisində Böyük Qala, 6 ünvanında yerləşən binanın tikinti tarixi 1860-cı ildir. (İnv:2125-1) Bina sadə, həmçinin gözəl fasada malikdir. Baş fasadı şimal-şərqə baxır. Bina iki dəfə bərpa olunmuşdur. İlk dəfə 1926-cı ildə bərpa edilmişdir. 2000-cı ilin ortalarında isə zərurət yarandığından (Bakıda baş vermiş zəlzələ ilə əlaqədar olaraq) yalnız fasadı bərpa edilmişdir. Əsas fasada giriş qapısı cənub-şərq tərəfdəndir və bina yarımzirzəmili olmaqla daxili həyətə malik olan birmərtəbəli inşa edilmişdir. Daxili həyətin şərq divarının ortasından taxta pilləkənləri var imiş. Həmçinin binanın daxili həyətində birinci mərtəbədə şimal, şimal-qərb və cənub-qərbə baxan taxta sürahili açıq eyvanları varmış. Sonradan bu taxta eyvanlar qəzalı vəzəyyətə düşdüyündən yenisi ilə əvəz edilmişdir. Binanın zirzəmi qatı Böyük Qala küçəsindən təxminən 3.5 metr aşağıda yerləşir. 1-ci mərtəbə cənub-qərb tərəfdən sonradan genişləndirilmiş vitraj pəncərələrlə əhatə olunmuşdur. Cənub-qərb fasadının vitrajlarının birindən sonradan giriş qapısı kimi istifadə edilmişdir. Bu fasadın birinci mərtəbəsində vaxtilə iki yanaşı balkon yerləşirmiş və gözəl məhəccərləri olmuşdur. Sonradan bu balkonlar qəzalı vəziyyətə düşərək sökülmüşdür və qapı yerlərinə fransız tipli balkon-məhəccərlər qoyulmuşdur. Şimal-qərb fasadı binanın əsas fasadı olub, burada portal tipli nəfis formada işlənmiş hündür giriş qapısı yerləşir. Giriş qapısının yerləşdiyi hissə digər fasad hissəsindən nisbətən hündürdür ki, bu da küçənin relyefinə uyğun olmasından irəli gəlir. Bütün bunlar daxili planlaşmaya da öz təsirini göstərmişdir. Belə ki , planda da həmin hissə fasada uyğun olaraq iki hündürlükdə (pillələrlə) öz həllini tapmışdır. Vaxtı ilə suvaq əhəng qarışıqlı məhlulla üzlənmiş fasadlar sonradan (2000-cı ilin ortalarında) bu suvaqdan təmizlənmişdir. Fasadlar hal-hazırda tamamilə guşə

daşındandır və bir neçə pilyastr (divarda şaquli çıxıntı) çıxıntılarına malikdir. Kürsü mərtəbəsi üzərindən keçən düzbucaq formalı sadə karniz pilyastrları kəsərək bütün fasad boyu davam edir. Binanın 1-ci mərtəbəsinin geniş pəncərə və qapı boşluqlarının üstü düz, 2-ci mərtəbəsinin qapı və pəncərə boşluqlarının üstü isə seqmentvari həll edilmişdir. Fasadların belə memarlıq üslubunda həll edilməsi İçəri şəhər klassik memarlığının, sadə lakin lakonik həll üslublarından biridir.




*Abidənin yerləşmə sxemi*



*Abidənin bugünkü görünüşü*



**Şimal-qərb fasadı**



*Cənub-qərb fasadı*

## Hacı Qayıb məscidi

Abidə İçəri şəhər ərazisində Mirzə Mənsur, 41 ünvanında, Məhəmməd məscidi yaxınlığında yerləşir və binanın baş fasadı cənub-qərbə baxır. Abidə XIX əsrə aid olub 1898-ci illərin əvvəllərində (inv.2356) kiçik məhəllə məscidlərindən (təkiyə) biri kimi fəaliyyət göstərirmiş. Klassik üslubda olan belə məscidlər adətən bir mərtəbəli olub, minarəsiz və sadə memarlığa malik olurdu. Bu məscid (təkiyənin) kiçik həyəti olmuş, daxili quruluşu düzbucaqlı formada olan, cənub-qərb divarında pəncərəli bina olmuşdur. Abidə guşə daşından və arşın ölçü vahidi ilə inşa edilmişdir.

Məscid M.Mənsur 43 saylı binaya cənub-şərqdən, 39 saylı binaya şimal-qərbdən birləşik inşa edilmişdir. Fasadın əsas girişi cənub-şərqdən olsa da, sonralar bu giriş ötən əsrin əvvəllərində yaşayış evinə çevrilərkən qapının yeri cənub-qərbdən (pəncərənin yeri qapı ilə əvəz olunaraq) açılmışdır. Daxili interyeri dəyişikliyə məruz qalmış və cənub-şərq divarında yerləşən mehrab və üzərindəki karnizin kiçik bir hissəsi günümüzə

qədər gəlib çatmışdır. Fasadın cənub-şərq divarında Mirzə Mənsur küçəsi tərəfdə yerləşən portalının divarı üzərində kitabə yazıları mövcud imiş. Çox təəssüf ki, məscidin mehrabından, günbəzindən və portalı üzərində olan kitabə yazısından günümüzə qədər heç bir şey gəlib çatmamışdır. 1935-1937-ci illərdə bu divar yazısı məhv edilmiş və yerində mövcud olaq qapı yerində pəncərə açılmaqla forması dəyişdirilmişdir. 1976-1978-ci illərdə mənzilə çevrilən məscidin daxili həyətinin forması da dəyişdirilmişdir. 1986-1988-ci illər ərzində aparılmış təmir bərpa zamanı fasad indiki  klassik görkəmə salınmışdır.

Bu məscidi tikdirən Hacı Qayıb eyni zamanda Hacı Bani (Hacı Qayıb) hamamının sifarişçisidir.




***Abidənin yerləşmə planı***



*Abidənin görünüşü (1985)*



*Abidənin görünüşü (2016)*



*Abidənin daxili görünüşü (2016)*

# II Qüllə döngəsi, 4

Tarixi sənədlərə əsasən abidə İçəri şəhər ərazisində olmaqla 2-ci Qüllə küçəsi, 26 saylı ünvanda yerləşir. Azərbaycan klassik memarlığının nümunəsi olan bu bina iki mərtəbəli olub XIX əsrin ortalarında inşa edilmişdir. Binanın cənub divarı Multanı karvansarayına bitişik, şərq divarı isə 2-ci Qüllə küçəsindəki 11 saylı binaya bitişik tikilmişdir. Abidənin iki giriş qapısı vardır ki, bunlardan da qərb fasadına baxan qapı, digəri isə şimal fasadına baxan darvazadır. Bütün fasad nəfis klassik memarlıq detalları ilə bəzədilmişdir. Birinci mərtəbənin pəncərələri qıfılbəndi olan seqmentli haşiyələnmiş pəncərə-vitrajlardan ibarət imiş, lakin sonradan bu vitraj tipli pəncərələr dəyişdirilmiş və düzbucaqlı pəncərələrlə əvəz olunmuşdur. İkinci mərtəbə pəncərələri formasını dəyişmədən günümüzə qədər gəlib çatmışdır. Gözəl rust memarlıq elementləri ilə, pəncərəaltı panoları, karnizləri və parapet hissəsi ilə bina göz oxşayır. Binanın ikinci mərtəbəsində vaxtı ilə açıq eyvanı balkonu olmuşdur. Sonradan qapalı eyvan konstruksiyası ilə əvəz olunmuşdur.




**Abidənin yerləşmə planı**



***Abidənin görünüşü (2004)***



***Abidənin görünüşü (2016)***



Abidənin fraqmenti (Balkon)

Abidə daxili həyətə malikdir. Bu həyətin də italyansayağı taxta konstruksiyalı metal sürahisi olan açıq eyvanları olubmuş. Lakin sonradan bu eyvanlar dəyişdirilərək iki müxtəlif konstruksiyalı (plastik və taxta) materiallarla əvəz olunmuşdur. Həmçinin binanın zirzəmisi vardır ki, hal-hazırda işlək vəziyyətdədir. Fasadlarda 1983-86-cı illərdə təmir-bərpa işləri aparılmışdır. Fasadın eyvanının altında seqmentli haşiyələrlə olan qapı boşluğu sonradan qapadılaraq hörülmüşdür.



***Abidənin fraqmenti (aynabənd və pilləkən)***

# 6-cı Böyük Qala küçəsi, 8

Sadə formalı, milli memarlığın nümunəsi olan bu abidə (inv:2671) XIX əsrin sonu – XX əsrin əvvəllərinə aid memarlıq abidəsidir. Abidənin baş fasadı Qüllə küçəsinə (şiimal-şərqə), yan fasadı isə 6-cı Böyük Qala küçəsinə (şimal-qərbə) baxır. Abidə iki mərtəbədən ibarət olub, milli tağlarla bəzədilmişdir. Pəncərələri və qapıları düzbucaqlı həll edilmişdir. Əsas fasadı şimal-şərqə baxır və fasadın üzlük materialı gülbax ağlay daşlarla üzlənmişdir. Pəncərə ağlay daşla haşiyələnmiş və ikinci mərtəbə pəncərələrinin üzərinə qıfılbəndlər qoyulmuşdur. Giriş qapıları kənarında milli tağların formasını əks etdirən elementlər işlənmişdir. Bütün bu fasadın dekorasiyası 1980-1996-cı illər ərzində İçəri şəhərdə gedən bərpa quruculuq işləri zamanı aparılmışdır.




Abidənin yerləşmə planı

## KİTABIN İÇİNDƏKİLƏR

**Cəfər Qiyasi.** Bakı Şirvanşahlar Sarayı binası ............................3
**Cəfər Qiyasi.** Bakı Qız qalası ....................................................42
**Məşədixanım Nemət, Vəfa Quliyeva.** Azərbaycan tarixinin təbliğində İçəri şəhər abidələrinin əhəmiyyəti ...............85
**İdris Əliyev, Kamil İbrahimov, Elbrus Axundov.** 2016-cı ildə İçəri şəhər ərazisində "Böyük Qala, 50" ünvanında aparılmış arxeoloji qazıntılar haqqında ......................................................92
**Nərgiz Quliyeva.** İçərişəhərlilərin ailə və ailə məişətinə dair..........................................................................110
**Kamil İbrahimov.** Bir qalanın tarixi .........................................127
**Dilavər Əzimli, Xeyirbəy Qasımov.** Orta əsr Şirvan-Abşeron memarlığının təkamülü İçəri şəhərin timsalında .........................................................................173
**Vəfa Quliyeva, Qənirə Pirquliyeva.** Bakı Qalasının – İçəri şəhərin tarixinə dair yeni arxiv materialları .........................197
**Gülnar Əliyeva.** Росписи стен в Ичери шехер.........................206
**Elxan Məmmədov.** Bakı şəhərinin memarlıq tarixində polşa memarlarının rolu...........................................................214
**Aydan Tahirova.** Дворцовый комплекс бакинских Ханов ...............................................................................222
**Səadət Ələkbərova.** Rusiya, Avropa və Amerika kitabxanalarında İçəri şəhər və Şirvanşahlar Sarayının tarixinin öyrənilməsində əhəmiyyətli olan bəzi mənbələr haqqında.......................................................241
**Nahidə Bəkirova.** Yun kitabələrdə Bakı tarixi...........................255
**Ulduz Zeynalova.** Səlimxanovlar...............................................264
**Nərmin Alıyeva.** Müqəddəs Nikolay kilsəsi ..............................277
**Fidan Seyidova.** Баку – колыбель культуры Востока..............285
**Aynur Məmmədova.** Dadaşovlar ...............................................292
İçəri şəhər ərazisində bu günə qədər araşdırılmamış ictimai və mülki binaların tarixi, memarlıq xüsusiyyətləri haqqında yeni tədqiqatlar .............................................................................299

***«Elm və təhsil»*** **nəşriyyatının direktoru:**
***professor*** **Nadir MƏMMƏDLİ**

*Kitab **«Elm və təhsil»** nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.*
***E-mail: nurlan1959@gmail.com***
*Tel: 497-16-32; 050-311-41-89*
*Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*